Azərbaycan Milli Elmlər Akademiyası
Fəlsəfə və Siyasi–Hüquqi Tədqiqatlar İnstitutu

ELMİ ƏSƏRLƏR

elmi-nəzəri jurnal

№ 3-4(6)

BAKI-2006

REDAKSİYA HEYƏTİ:

Baş redaktor:

Yusif RÜSTƏMOV
Fəlsəfə elmləri doktoru, professor

Baş redaktor müavini:

Bəhram ZAHİDOV
Hüquq elmləri doktoru

Məsul katib:

Həbib HÜSEYNOV

Redaksiya heyətinin üzvləri:

Səlahəddin XƏLİLOV
Fəlsəfə elmləri doktoru, professor

Əlikram TAĞIYEV
Fəlsəfə elmləri doktoru, professor

Əbülhəsən ABBASOV
Fəlsəfə elmləri doktoru

Adil ƏSƏDOV
Fəlsəfə elmləri doktoru

Elmira ZAMANOVA
Fəlsəfə elmləri doktoru

Mayis ƏLİYEV
Hüquq elmləri doktoru

Solmaz RZAQULUZADƏ
Fəlsəfə elmləri namizədi

Tahirə ALLAHYAROVA
Fəlsəfə elmləri namizədi

Redaksiya heyətinin ünvanı:
Azərbaycan Respublikası, Bakı şəhəri,
Hüseyn Cavid pr.31, AMEA-nın əsas binası, IX mərtəbə.
Tel.: 403-15-11; Faks: (99412) 439-34-61; e-mail: west-east @ lan.ab.az

ISBN 9952 428-03-0

AMEA Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutunun Elmi Şurasının qərarı ilə çap olunur.

Jurnal Ədliyyə Nazirliyində qeydiyyatdan keçmişdir. Qeydiyyat № 1704. 17.02.06

Azərbaycan Respublikkası AAK-nın 22.IX.2006 il tarixli qərarı ilə elmi nəşrlər siyahısına daxil edilmişdir.

İÇİNDƏKİLƏR

I FƏLSƏFƏ BÖLMƏSİ

Rəşadət BƏŞİROV, Əziz MƏMMƏDOV
Sinergetika və mikroaləmdə özünütəşkiletmə prosesləri (kimya və biologiyanın materialları əsasında) 5

Əhməd QƏŞƏMOĞLU
«Tərəqqi» anlayışının mahiyyəti barədə 13

Arzu HACIYEVA
Pol Rikerin fenomenoloji hermenevtikasının bəzi əsas problemləri 22

Səadət MƏMMƏDOVA
Suisid destruktiv davranış forması kimi 29

Фарида МИР-БАГИРЗАДЕ
Символы в системе культуры 38

Şirinxanım EYVAZOVA
Muğannanın (İsa Hüseynov) «Məhşər» romanında İnam, idrak və ehkam münasibətləri 43

Kamilə QASIMOVA
Qloballaşma və mədəniyyətlərin dialoqu məsələsinə dair 49

Rəşad ASLANOV
İnsan haqları ictimai həyatın və siyasətin əxlaqi ölçüsü kimi 56

Nəriman HƏSƏNOV
Sosial institutlar və onların qrup və təşkilatlarla qarşılıqlı münasibətləri 60

II SOSİAL-SİYASİ BÖLMƏ

Əlikram TAĞIYEV
Nizami Gəncəvi və Tomas Mor: Sosial utopiyadan utopik sosializmə 66

Əyyub KƏRİMOV
Demokratiyaya keçid cəmiyyətinin siyasi sistemində dövlət 77

Rafail ƏHMƏDLİ
Əli Bəy Hüseynzadənin siyasi və ideoloji görüşləri 82

İnşallah QAFAROV
Emil Dürkheym sosiologiyanın predmeti haqqında 90

Habil HƏMİDOV
Azərbaycanın beynəlxalq münasibətlər sisteminə inteqrasiyasında «İpək Yolu»nun əhəmiyyəti 96

Yadigar TÜRKEL
Azərbaycan Respublikası və demokratik seçkilər problemi 102

Эсма ЭМИР-ИЛЬЯСОВА
Современные теории международной торговли и их эволюция 107

Yəhya ABBASOV
Təhsilin dəyərlər sistemində tolerantlığın yeri 118

Рамин РАГИМОВ
Морально-этический анализ рыночных отношений 122

Almaz HƏSƏNOVA
Kipr probleminin tarixi kökləri 131

Tahir MƏMMƏDOV
Heydər Əliyevin dövlətçilik fəaliyyəti və Azərbaycanda siyasi mətbuatın inkişafı..... 138

Zülfiyyə BABAYEVA
Siyasi sabitlik Azərbaycan Respublikasının daxili təhlükəsizliyinin
təmin edilməsində üsul kimi 145

Şahin BAĞIROV
Vətəndaş cəmiyyəti və onun hüquqi dövlətlə bağlılığı 153

Elnur HACALIYEV
Müstəqillik illərində Azərbaycan və Türkmənistan respublikaları arasında siyasi
əlaqələr 158

III HÜQUQ BÖLMƏSİ

Закир КАСУМОВ, Фаррух КАСУМОВ
Взаимосвязь и взимодействие права и морали 165

Октай ЭФЕНДИЕВ
Некоторые проблемы формирования нового уголовного миропорядка 172

Aqşin QULİYEV
Xaqani Şirvaninin ictimai-siyasi görüşlərində feodal özbaşınalıqlarının tənqidi..... 182

Ромелла ГЮЛЬАЛИЕВА
О лишении осуждённых наград и званий..... 187

Miraferim SEYİDOV
Hüquqi dövləti xarakterizə edən əsas əlamətlər 193

Xanlar VƏLİYEV
Apellyasiya instansiyası məhkəməsində icraat zamanı ittiham tərəfinə imtiyazlı
status müəyyən edilməməlidir 201

Şəlalə HƏSƏNOVA
Dələduzluq cinayətlərinin bəzi məsələləri 207

Səidə HƏSƏNZADƏ
Əlillərə sosial xidmətin hüquqi tənzimi..... 214

Şəfaət İMRANOV
Cinayət təqibi üzrə icraatın aparılması zamanı cinayət-prosessual qanunvericiliyin
tələblərinə əməl olunmasının xüsusiyyətləri 223

Rəsul ƏLİYEV
Yol nəqliyyat hadisəsi yerindən qaçma cinayətlərinin subyektiv əlamətləri 233

Mürvət BABAYEV
Cinayət prosesində vurulmuş ziyanın reabilitasiya qaydasında ödənilməsi
hüququnu istisna edən hallar 243

Nicat BEHBUDOV
Dövlət qulluğunun qanunvericilik bazası 252

I FƏLSƏFƏ BÖLMƏSİ

Rəşadət BƏŞİROV,
Əziz MƏMMƏDOV

SİNERGETİKA VƏ MİKROALƏMDƏ ÖZÜNÜTƏŞKİLETMƏ PROSESLƏRİ
(kimya və biologiyanın materialları əsasında)

Sinergetika keçən əsrin ikinci yarısında yaradılmış yeni elmlərarası istiqamət olub, özünütəşkiledən mürəkkəb, açıq, qeyri-xətti, dinamik vəziyyətdən uzaq olan sistemlərin qanunauyğunluqlarını öyrənir. Özünütəşkiletmə prosesləri qlobal səviyyə daşıyır, mikro-, makro- və meqaaləmin bütün sahələrini əhatə etməklə hərəkət və inkişafın daxili səbəblərlə şərtləndiyini əks etdirir. Məqalədə oxucu diqqəti mikroaləmdə baş verən özünütəşkiletmə proseslərinə doğru istiqamətləndirilir və müəlliflər kimya və biologiya elmlərinin materialları əsasında molekul və atomların özünütəşkiletməsi proseslərinin xüsusiyyətlərini açıqlayırlar.

Müasir təbiətşünaslığın inkişaf dialektikasını səciyyələndirən başlıca və mühüm cəhətlərdən biri onun müxtəlif sahələrində sinergetik ideyaların və prinsiplərin geniş tətbiq tapmasıdır.

Sinergetika – ixtiyari təbiətli mürəkkəb açıq, qeyri-xətti, dissipativ sistemlərin özünütəşkiletmə nəzəriyyəsidir [8, 14]. Mürəkkəb təbiətə malik olub, öz varlığında müxtəlif sifətləri nümayiş etdirən sinergetika eyni zamanda müasir təbiətşünaslığın paradiqmalarından biri, yeni dünyagörüş, yeni metodologiyadır. Əsası geçən əsrin 70-ci illərində müasir elmin görkəmli nümayəndələri olan G.Haken (sinergetikanın Ştutqart məktəbi) və İ.Priqojin (Brüssel məktəbi) tərəfindən qoyulmuş və başlıca prinsiplərinin hələ də formalaşmaqda davam etdiyi bu nəzəriyyə təbii, sosial və koqnotiv sistemlərin təkamülünün və özünütəşkiletməsinin ümumi qanunauyğunluqlarının axtarışlarına doğru istiqamətlənməklə yeni dünya anlamının əsaslarını formulə edir. Bununla yanaşı, bu bilik sahəsini müasir təbiətşünaslığın yeni təfəkkür üslubu da adlandırmaq olar. Bu kontekstdə sinergetika özünün məzmun çalarlarının əhatə dairəsinə və idraki tutumuna görə elmi-dialektik fəlsəfəyə daha çox meylli olub, özünütəşkiledən sistemlərin təsvirinə nəzəri və metodoloji yanaşma kimi mövcuddur [5, s.11]. Sinergetika elmlərarası yeni elmi istiqamət, yeni paradiqma və yeni metodologiya olmaq etibarilə keçən əsrin 70-ci illərindən etibarən formalaşmağa başlasa da, təbiətşünaslıqda özünütəşkiletmə proseslərinin öyrənilməsi daha qədim tarixə malik olub, iyirminci yüzilliyin əvvəllərinə gedib çıxır [1, s.5-27]. Belə ki, hələ keçən əsrin əvvəllərindən başlayaraq fizika, kimya, meteorologiya elmləri cansız təbiətdə müxtəlif özünütəşkiletmə prosesləri ilə rastlaşmaqla onları özəl qanunauyğunluqlara malik yeni hadisələr kimi öz tədqiqat sahələrinə daxil etmişlər.

Təbiətdə cərəyan edən özünütəşkiletmə proseslərinin öyrənilməsi sahəsində biologiya və kimyanın özünəməxsus özəllikləri və əvəzsiz rolu vardır. Oxucuların istifadəsinə verilən bü məqalədə, biologiya və kimyanın elmi dövriyyəyə daxil etdiyi və mikroaləmin, xüsusilə atom və molekullar dünyasının bir sıra yeni qanunauyğunluqlarını təcəssüm etdirən bəzi özünütəşkiletmə proseslərini diqqət mərkəzinə çəkəcəyik. Bu effektlərdən birincisi molekulların özünütəşkiletməsi, ikinçisi isə məşhur Belousov-Jabotinski reaksiyalarıdır.

Əvvəlcə mikroaləmdə molekulların özünütəşkiletməsi haqqında P.Qlensdorf və Priqojinin hələ keçən əsrin 70-ci illərində çap olunmuş «Strukturların, dayanıqlığın və fluktuasiyaların termodinamik nəzəriyyəsi» adlı fundamental monoqrafiyasının sonunda oxucuya belə bir fikir təlqin edilir ki, gələcəkdə bioloji strukturları tarazlıqdan uzaq hallar üçün yeni qaydaların meydana çıxdığı açıq kimyəvi sistemlər kimi təsvir etmək mümkün olacaqdır [6].

Adı çəkilən monoqrafiyada universal «təkamül meyarı» ideyasının formulə edilməsinə aşkar çəhd göstərmələrinə baxmayaraq, müəlliflər canlı orqanizmlər ilə açıq kimyəvi sistemlər arasında analogiyanın tam olmadığını da qeyd edirlər. Sinergetikanın timsalında yeni fundamental biliklərin daşıyıcısı kimi P.Qlensdorf və İ.Priqojin aydın başa düşürdülər ki, həyatın özünü yenidən hasil etməsini aydın izah etmək üçün əlavə tədqiqatlara və məlumatlara ehtiyac vardır.

1971-ci ildə alman fiziki, Nobel mükafatı laureatı M.Eygenin hazırda çox məşhur olan «Kimyəvi təkamül proseslərində materiyanın özünütəşkiletməsi» kitabı çapdan çıxdı [19]. Bu kitabda zülalın təkamülü prosesində onun sonrakı qurulması üçün zəruri olan makromolekulların yaranması mexanizmi haqqında ciddi surətdə əsaslandırılmış hipotez irəli sürülürdü. Bu hipotez ilə təkamül nəzəriyyəsinin bu vaxtadək təmiz saxlanılmış səhifəsi – biologiyaya qədərki təkamülün sonuncu səhifəsi də doldurulmuş oldu.

Eygen mürəkkəb növlərin təkamül mexanizmi – təbii seçmə üçün kəşf etdiyi qaydanı kimyəvi təkamülün sonuncu mərhələsinə aid etdi. Eygenə qədər Darvinin təbii seçmə prinsipi hər yerdə yaxşı işləyir, mənsub olduğu nəzəriyyəyə aydınlıq və sadəliklə yanaşı həm də diqqət çəkən ciddilik də gətirirdi. Buna inanmaq üçün Eygenə qədərki təkamül nəzəriyyəsində mövcud olmuş situasiyanı qısaca da olsa xatırlayaq. Aparılmış tədqiqatlardan məlumdur ki, Yerin bərpaedici xarakter daşımış ilkin atmosferi oksigendən məhrum olmaqla yalnız beş elementdən və ultrabənövşəyi şüalanmadan təşkil olunmuşdu. Eksperiment yolla sübut edilmişdir ki, şəraitin bərpa edilməsi şərtilə belə atmosferdə amin turşuları və nukleotidlərə qədər ən mürəkəb üzvi birləşmələrin yaranması tamamilə mümkündür. Yerin atmosferində xeyli sonralar bitkilərin fotosintezinin məhsulu kimi sərbəst oksigen meydana gəlmişdir. Alimlər arasında belə bir fikir də ozünə yer almışdır ki, Yerin ilkin atmosferində oksigen başqa bir üsulla – su molekullarının fotodissosiasiyası yolu ilə yarana bilərdi.

Beləliklə, Yerin təkamülü prosesində monomer molekullar polimerləşərək canlı hüceyrəyə doğru aparan yolda rasional gedişlər etmişlər. Bütun bunları laboratoriya şəraitində asanlıqla müşahidə etmək mümkündür. Lakin bununla belə, monomerlərin polimerlərə çevrilməsi prosesinin mexanizminin aydınlaş-

dırılması hələ də mürəkkəb suallar doğuran problem olaraq qalmaqdadır. Eygenin hipotezinə qədər bu suala hətta müəyyən ehtimalla da cavab vermək mümkün olmamışdır. Buna görə monomerlərin polimerlərə çevrilməsi məsələsində Darvinin təkamül nəzəriyyəsinin cavabı həmişə açıq qalan, sıçrayış yerlərində qırılma yaradan və buna görə də Darvini dərindən düşündürüb və ciddi narahat edən məsələ olmuşdur.

Doğrudan da, görəsən təkamül addımının monomer-polimer müəmmasının mənası nədən ibarətdir? Əgər təkamül yalnız polimer molekulların kor-koranə seçilməsi işinə xidmət etsəydi, indi Yer üzündə heç bir polimer olmazdı, belə ki, ehtimal nəzəriyyəsinə görə bu seçim üçün ayrılan zaman kəsiyi Kainatın mövcudluq müddətindən çox-çox böyük olmalıydı. Yaxşı məlumdur ki, sözlər hərflərdən təşkil olunduğu kimi, polimer molekullar da ciddi qaydalar əsasında monomer molekullardan yaranırlar. Məlumdur ki, sözün tərkibində hərflərin həddən ziyadə təkrarına yol verilə bilməz. (Məsələn, Azərbaycan dilində 7 samitdən və yaxud ancaq saitlərdən təşkil olunan söz mövcud deyil). Görəsən, polimer molekulların qurulmasında tətbiq olunan qadağan qaydası nədən ibarətdir? Görəsən, Yerin tarixində zülal və amin turşularının mürəkkəb zəncirləri sadə molekullardan hansı qanuna əsasən cərgələnmişdir? Daha doğrusu, molekullar aləmində özünütəşkiletmə prosesinin mexanizmi necədir?

Belə bir mexanizmin mövcudluğu şübhəsizdir, belə ki, bu mexanizmin daşıyıcısı olan molekulların özləri mövcuddur. N.Y.Klimantoviç yazır: «Bu mexanizm həm də təşkil olunur, o, faydalı və ağıllıdır. Belə ki, Yerdəki həyatın təkamülü miqyaslarında makromolekulların yaranması kifayət qədər sürətlə baş vermişdir» [11, s.115].

M.Eygen təkamülü sıçrayışların baş verdiyi proseslərin izahı üçün Darvinin təbii seçmə prinsipini tətbiq etmiş və onu «hipertsikllərin rəqabəti» anlayışı ilə zənginləşdirmişdir. O, hipertsiklik rəqabət dedikdə zülalın yaranmasına gətirib çıxaran kimyəvi reaksiyaların tsikllərini başa düşür.

Eygenin mülahizələrini nümayiş etdirmək üçün bir misala nəzər salaq. Fərz edək ki, monomer molekullar toplusu vardır. Onların fasiləsiz istilik hərəkətləri üçün belə bir ehtimal mövcuddur ki, bu molekullardan bəziləri hərəkət zamanı bir-birinə ilişərək bir neçə polimer molekul yarada bilərlər. Belə bir şəraitdə təsadüfi yaranan makromolekullar arasında özlərinə birləşdirmək istədikləri monomer molekullar üstündə «rəqabət» başlayacaqdır. Əgər bu mubarizə mənzərəsində biz «makromolekul» sözünü «reaksiyalar tsikli» sözü ilə əvəz etsək, monomer molekulların polimer molekulları yaratması prosesini daha dəqiq ifadə edəcəyik. Eygenin fikrincə, rəqabət iş effekti az olan hipertsikllərlə məhsuldar işləyən hipertsikllər arasında baş verir.

Eygenin konsepsiyasının nüvəsini də məhz bu hipotez təşkil edir. Bu hipotezə görə aparılan kimyəvi reaksiyalarda iştirak edən katalizatorlar eyni zamanda həmin reaksiyaların aralıq məhsulları kimi çıxış edir. Başqa sözlə, bu halda biz avtokatalik tipli reaksiya ilə, məsələn, Belousov-Jabotinski tipli reaksiyalarla iş görürük. Sinergetika bu hipotezin köməkliyi ilə kimya ilə

biologiya, cansız sistemlərlə canlı sistemlər arasındakı uyğunluğu aradan qaldıraraq bioloji aləmin dərinliklərinə doğru ciddi addımlar atmışdır.

Bütün elmi məziyyətlərinə baxmayaraq Eygenin hipotezi təkamülün yalnız bioloji riyazi modelidir. Bu model fizika, kimya və biologiyadan əxz edilmiş bir sıra dəyərli mülahizələri ehtiva edərək, elmin müvəffəqiyyətli imkanlarından biri olsa da, nəzəri təfəkkürün bütün digər modelləri kimi, hələlik gümandan başqa bir şey deyildir. Bu gün biz biologiya və biofizikanın fundamental problemləri haqqında yalnız müəyyən ehtimallarla düşünürük. Burada sadə bir psixoloji situasiya meydana çıxır: sinergetika sürətli addımilarla inkişaf edib öz çərçivəsində özünütəşkiletməsini müxtəlif fiziki hadisələrin (bekar özəkləri, lazer şüalanması və s.) kimyəvi periodik və avtokatalik reaksiyalarını çox yaxın təsvir etsə də, bu sahədə ən çox təəccüb doğuran və izah oluna bilməyən misallar məhz biologiyaya aiddir. Buna görə də təsadüfi deyil ki, G.Hagenin elmi dairələrdə məşhur olan «Sinergetika» kitabının fəsillərindən biri biologiyaya həsr edilmişdir [17].

Cansız təbiətdə özünütəşkiletməyə digər bir misal rus kimyaçısı B.Belousovun 1951-ci ildə kəşf etdiyi öz-özünə gedən periodik, avtokatalitik reaksiyalar göstərilə bilər. Ənənəvi kimyadan məlumdur ki, bütün kimyəvi reaksiyalar geriyədönməzdir. Halbuki, B.Belousovun çapa hazırladığı «Periodik təsir edən reaksiya və onun mexanizmi» adlı kiçik həcmli məqaləsi bu sonuncu fikrin həqiqiliyinə şübhə yaratmaqla kimyəvi reaksiyaların təbiəti, xarakteri və cərəyanetmə istiqaməti haqqında böyük zaman kəsiyində mövcud olmuş təsəvvürləri kökündən dəyişirdi. O dövrün yüksək təhsilli adamları bir yana qalsın, hətta yüxarı sinif şagirdlərinə də məlum idi ki, daimi mühərrik yaratmaq mümkün olmadığı, atların başının ayaqları üzərində durduğu kimi kimyəvi reaksiyalar da vahid bir istiqamətdə geriyədönməz yolla cərəyan edirlər. Buna görə də B.Belousovun sağlığında onun tədqiqatının nəticələri çap olunmamış qaldı: jurnal redaktorları və resenzentlər kəşf olunmuş yeni hadisənin mexanizminin nəzəri izahını tələb edir və ümumiyyətlə, kimyada periodik rəqs edən reaksiya ideyasını yaxına buraxmaq istəmirdilər.

Belousov təcrübi yolla müəyyən etmişdi ki, kükürd və limon turşusu, serium sulfat və bromlu kalium məhlulu üzərinə indikator funksiyasını yerinə yetirən ferronı maddəsi əlavə etdikdə məhlulda rəngin dəyişməsi ilə müşayiət olunan oksidləşdirici-bərpaedici reaksiya baş verir [9, s.694-697]. Bütün bu maddələri sınaq şüşəsinə töküb yaxşıca qarışdırdıqda məhlulun rəngi içərisində Ce^{3+} ionlarının üstünlük təşkil etdiyi qırmızı rəngdən Ce^{4+} ionlarının artıqlıq nümayiş etdirdiyi göy rəngə çevrilir. Konsentrasiyasından asılı olaraq məhlulun rənginin periodik dəyişməsi və bu periodun böyük bir dəqiqliklə gözlənilməsi (T=30 dəq) belə reaksiyaları «kimyəvi saatlar» və ya avtokatalik reaksiyalar adlandırmağa imkan vermişdir [4, s.244-247]. Belousov təcrübəsində məhlulun rənginin periodtk dəyişməsi məhlulda rəqslərin baş verdiyini göstərir və onda özünütəşkiletmə proseslərinin baş verdiyini əks etdirirdi. Müəllif yuxarıda adı çəkilən mənzərəni belə təsvir etdirdi: «Mən reaksiya qarışığında bir sıra gizli, müəyyən ardıcıllıqla nizamlanan oksidləşdirici-bərpaedici proseslərin yaran-

dığını müşahidə etdim. Onlardan biri bütün reaksiya qarışığının rənginin zaman etibarilə dəyişməsi kimi periodik olaraq aşkara çıxardı…

Reaksiya məhlulunda tərkib hissələri müəyyən miqdarda götürüldükdə və bir-biri ilə müvafiq nisbətdə qarışdırıldıqda məhlulun rənginin rəngsiz haldan sarıya və əksinə, ardıcıl dəyişməsi uzun müddət (3 saatdan artıq) müşahidə olunur».

Klassik kimya çərçivəsində səsləndirilən «Periodik reaksiyalar», «uzun sürən qeyri-müəyyən müddətdə» ifadələri az qala bidətçilik kimi qəbul edilirdi. Elmi dairələrdə rastlaşdığı ciddi müqavimətə baxmayaraq yorulmaz alim, bacarıqlı eksperimentator olan Belousov heyrətamiz tədqiqatlarını inamla davam etdirir və kəşf etdiyi reaksiyalara daha əyani görkəm verməyə çalışırdı. O, ilk növbədə reaktora rəngləyici indikator daxil etməklə məhlulu «rəngləməyin» üsulunu öyrəndi və yalnız bundan sonra məhlulun rəngi periodik olaraq göydən qırmızıya və əksinə dəyişdi. Yeri gəlmişkən qeyd edək ki, həmin hadisənin nəzəri izahını yalnız iyirmi ildən sonra vermək mümkün oldu. Bunu Nobel mükafatı laureatı, zəmanəmizin görkəmli alimi İ.Priqojinin rəhbərlik etdiyi sinergetikanın Brüssel məktəbinin fizik və kimyaçıları etdilər. Demək olar ki, B.Belousov ilə eyni vaxtda ingilis riyaziyyatçısı A.Tyurinq də öz qarşısına xalis bir nəzəri məsələ qoymuşdu: kimyəvi reaksiyaların aparıldığı şəraitdə reaktorda aralıq məhsulların dayanıqlı konfiqurasiyalarını almaq mümkündürmü? A.Tyurinq həmin prosesin riyazi modelini quraşdırmaqla qaldırdığı suala müsbət cavab vermiş oldu [16, s.154-161]. Belousovun işlərindən xəbərsiz olan Tyurinq heç ağlına da gətirməzdi ki, belə reaksiyalar artıq Moskvada eksperimental olaraq alınmışdır. Bu reaksiyalar, ümumiyyətlə, «Kimyəvi reaksiyaları, tərkibində nizamsız hərəkət edən və xaotik toqquşmalara məruz qalan molekulların iştirak etdiyi proses kimi qavrayan əvvəlki təsəvvürlərimizə kökündən ziddir. Biz burada hissə ilə tamın qeyri-xətti, razılaşdırılmış, birgə münasibətlərinin şahidi olduq. Halbuki, keçən əsrin 50-ci illərinin əvvəllərində hələ ki, belə bir elm mövcud deyildi və onun gələcəkdə yaradıla bilməsi haqqında səhih məlumatlar deyil, yalnız güman xarakterli ehtimallar dolaşmaqda idi».

Belousov elektrik sahəsinin məhlula təsirini tədqiq edərkən əmin oldu ki, məhlulun rənginin dəyişdiyi anda onda rəng dəyişməsi ilə yanaşı daha bir neçə sürətli dəyişiklik baş verir. Ossiloqrafın ekranında yaranan sürətli pulsasiyalar kimyəvi reaksiyaların tərkibindəki özünütəşkiletmə proseslərindən xəbər verirdi. «Belousov reaksiyaları» SSRİ-də və xaricdə özünə möhkəm yer alıb intensiv tədqiq olunmağa başlandı. Yeni nəşrlər içərisində gənc sovet biofiziki, SSRİ Elmlər Akademiyasının biofizika institutunun elmi əməkdaşı A.M.JabotinsKinin işləri xüsusilə seçilirdi [10]. Bir sıra oxşar reaksiyaların tədqiqi əsasında o, Belousov reaksiyalarına analoji olan kimyəvi hadisələrin tam bir spektrinin mükəmməl təsvirini verdi. Gənc alimin elmə töhfəsi elə böyük, tədqiqatları isə elə parlaq idi ki, bu reaksiyaları «Belousov-Jabotinski reaksiyaları» adlandırdılar. Rəqsi reaksiyalar üçün səciyyəvi olan belə bir cəhəti də qeyd edək ki, Belousov-Jabotinski reaksiyalarına mütəmadi olaraq

yeni maddələr daxil edilməzsə, periodik reaksiya müəyyən zaman müddətindən sonra sönər. Əksinə, reaksiyanın gedişində ona fasiləsiz olaraq yeni reagentlər daxil edilərsə, periodik reaksiya sönmədən istənilən zaman kəsiyində davam edə bilər [18].

Kimyada keçici strukturların yaranmasına gətirib çıxaran reaksiyaları da rəqsi reaksiyalar spektrinə aid etmək olar. Kimyəvi terminologiyaya görə bu reaksiyaları avtokatalik, fiziki terminologiyaya görə isə avtodalğavi proseslər adlandırırlar. Avtodalğalar-müəyyən enerji ehtiyatına malik olan, ya da bu enerjini xaricdən qəbul edən aktiv mühitdə yayılan dalğalardır. Klassik dalğalardan fərqli olaraq avtodalğaların xarakteristikası zamanca dəyişilməzdir, bu dalğaların amplitudu və mühitdə hərəkət sürəti sabit olub, dissipatsiyaya (səpilməyə) məruz qalmırlar. Avtodalğaların digər bir qəribəliyi də ondadır ki, onlar dalğaların nə superpozisiya prinsipinə, nə də fazalar qanununa (interferensiya prinsipi) tabe olmayıb, qarşılıqlı təsirdə olduqları zaman annihilyasiya edərək bir-birini qarşılıqlı surətdə məhv edirlər. Avtodalğaların özlərini belə aparması səbəbsiz deyil – bu səbəb: adi mühitlə bağlı olan klassik dalğalardan fərqli olaraq onların istənilən zaman istənilən qədər enerji ilə təchiz etmək imkanına malik doymuş enerjili aktiv mühit tərəfindən yaradılmasıdır. Aktiv mühitin təbii modellərinə kimyada daha çox təsadüf edilir.

Beləliklə, elmin inkişafının müasir mərhələsində yeni obyektlər – avtodalğalar və «aktiv mühit» adlanan yeni mühitlər kəşf edilmişdir. Həmin obyektlərin mühüm özəlliklərindən biri bundan ibarətdir ki, onların paradiqması fiziki dalğaların baza obyekti sayılan harmonik osilyatorlar deyil, məxsusi rəqsi xassələrdən məhrum olan kimyəvi obyektlərdir. Hazırda sinergetika dünya miqyasında geniş surətdə inkişaf etdirilir. Artıq güclü sinergetika məktəbləri yaranmış, G.Hakenin başçılıq etdiyi Ştutqart məktəbi (AFR) və İ.Priqojinin rəhbərlik etdiyi Brüssel məktəbinin (Belçika) fəaliyyəti sayəsində sinergetik ideyalar dünyanın təbii-elmi, o cümlədən fiziki, kimyəvi, bioloji mənzərəsinə tədricən, lakin inamla daxil olmaqdadır. Əlamətdar və sevindirici haldır ki, son illər respublikamızda da sinergetik prinsiplər sistemli tədqiq olunmaqdadır. [1, 2, 3, 4, 8, 14, 15].

İstifadə olunmuş ədəbiyyat

1. Abbasov Ə.F. Yeni metodoloji paradiqma //İctimai inkişaf: Qnoseologiya və metodoloji problemləri. Bakı: Adiloğlu, 2003, s.5-27.
2. Аббасов А. Философия социально-политического оптимума. Баку: Элм, 2000, 202 с.
3. Аббасов А.Ф. Сложность. Время. Синергетика: Общетеоретический анализ проблем сложности и развития сложных систем. Баку: Элм, 1991, 124 с.
4. Allahyarova T.V. Sinergetika – I. Sinergetik optologiya. Bakı: Elm, 2005, s. 376.
5. Аршинов В.И. Синергетика как феномен постнеоклассической науки. М.: Институт философии. РАН, 1999, с.7-11.
6. Гленсдорф П., Пригожин И. Термодинамическая теория структуры, устойчивости и флуктуаций. М.: Мир, 1973, 280 с.
7. Qurbanov F.M. Sinergetika: xaosun astanasında. Bakı: Bakı universiteti, 2004, s.55-62.
8. Жаботинский А.М. Концентрационные автоколебания. М.: Наука, 1974.
9. Климантович Н.Ю. Без формул о синергетике. Минск: Высшая школа, 1986, 224 с.
10. Князева Е.Н., Курдюмов С.П. Основания синергетики. Санкт-Петербург, Алетея, 2002, с.28-50.
11. Мамедов А.Б., Баширов Р.И. Концептуальный подход к современному естествознанию, М.: Мир, 2005, 220 с.
12. Трубецков Д.И. Введение в синергетику. Хаос и структуры. М.: УРСС, 2004, 204 с.
13. Хакен Г. Синергетика. М.: Мир, 1980, 404 с.
14. Хакен Г. Тайны природы. М.: Мир, 2003.
15. Хан-Маре Лен. Супермолекулярная химия. Концепции и перспективы. Новосибирск: Наука, 1998.

Рашадат БАШИРОВ,
Азиз МАМЕДОВ

СИНЕРГЕТИКА И ПРОЦЕССЫ САМООРГАНИЗАЦИИВ МИКРОКОСМОСЕ (философский анализ)

Резюме

Синергетика как новое межнаучное направление зародилось во второй половине прошлого века, изучает закономерности самоорганизующихся сложных, открытых, нелинейных, далеких от динамического состояния систем.

Синергетика поднимает самоорганизующиеся процессы до глобального уровня, отражая обусловленность движения и развития внутренними причинами, охватывая все области микро-, макро- и мегакосмоса.

Данная статья привлекает внимание изучением самоорганизующихся процессов, происходящих в микрокосмосе; авторы раскрывают специфику самоорганизующихся процессов молекул и атомов на материалах наук химии и биологии.

Rashadat BASHIROV,
Aziz MAMEDOV

SYNERGETICS AND SELF-ORGANIZING PROCESSES IN MACROCOSMOS (phylosophical analysis)

Summary

Synergetics as a new interscience trend appeared in the second half of last century, it studies the regularities of self-organizing complex, open, non-linear systems, far from dynamic condition of the systems.

Synergetics raises self-organizing processes to grobal level, reflecting conditionality of development and movement by internal causes taking in all the fields of micro-, macro- and megacosmos.

This article attracts attention by learning of self-organozid processes, which take place in microcosmos, authors bring to light a specific nature of self-organizing processes of the molecules and atoms on the materials of biology and chemistry.

Əhməd QƏŞƏMOĞLU
iqtisad elmləri namizədi

«TƏRƏQQİ» ANLAYIŞININ MAHİYYƏTİ BARƏDƏ

«Tərəqqi» sözu latın dilindəki «proqressus» sozündən götürülmüşdür və bu dildə «irəliyə hərəkət» mənasını verir. Amma çox təəsüf ki, dünyaya rasional və məhdud nəzəriyyələr çərçivəsindən baxan, əsasən Qərb mədəniyyətinin təsiri altında formalaşan indiki elm hələ yunan fəlsəfəsindən başlayaraq «tərəqqi» anlayışına səhv, qeyri-dəqiq münasibətdə olmuşdur. Təqdim olunan məqalə bu məsələyə müəyyən aydınlıq gətirmək və yeni mülahizələr irəli sürmək məqsədini daşıyır.

«Tərəqqi» anlayışının tez-tez qarışıq salındığı mövhum «inkişaf» anlayışıdır. Bir çoxları inkişafı elə tərəqqi kimi başa düşür. Amma hər bir inkişaf tərəqqi ola bilərmi? Müasir elm hər bir inkişafa tərəqqi kimi baxmır. İnkişaf obyektin vəziyyətini yaxşılaşdıra da bilər, pisləşdirə də. Misal üçün «xəstəlik inkişaf edib!» ifadəsini yada salaq. Zaman keçdikcə hər bir varlıqda müəyyən dəyişmələr baş verir. Əgər bu dəyişmələr həmin varlığı xaraktenrizə edən sistemdə keyfiyyət dəyişikliyinə səbəb olursa o zaman bu dəyişmələr inkişaf adlanır. Amma bu inkişaf hər zaman tərəqqi deyildir. Tərəqqidən söhbət getdikdə isə yalnız vıəziyyətin yaxşılaşmasından, müəyyən bir hədəfə yaxınlaşmadan söhbət gedir. Eyni zamanda qeyd etmək lazımdır ki, hər kiçik yaxşılaşma da hələ tərəqqi adlanmır. Obyektin tərəqqi yoluna istiqamət götürməsi – ***dirçəlişdir***. Tərəqqinin baş verməsi üçün adətən, əvvəl dirçəlmə baş verir. Əgər inkişaf nəticəsində vəziyyət pisləşirsə, missiya daha pis yerinə yetirilirsə, hədəfdən uzaqlaşma baş verirsə o zaman deyilir ki, tənəzzül baş verir.

Müasir qərb elmi hər hansı bir obyektdə, prosesdə tərəqqi prosesini həmin obyektin, prosesin fəaliyyitənin təzahür formalarında, sistemlilik prinsipinə əhəmiyyət vermədən, fraqmental şəkildə, ayrı ayrı faktlar əsasında axtarırlar. Qərb alimlərinin tərəqqinin mahiyyətini dərk etmək sahəsindəki axtarışları duyanın, insanın dərk olunmasına yox, yer üzündə nə baş verdiyini şərh etməyə yönəldi. Elə bütün səhv yanaşmaların da kökü buradan başlayır. Misal üçün, hər hansı bir inzibati rayonun, təşkilatın tərəqqisindən söbət gedəndə əsas diqqət bir neçə göstəricilərə yönəldilir. BMT kimi olduqca məsul bir təşkilat istər regionlar üzrə, istərsə də konkret insan üzrə, inkişaf hesabatları hazırlayanda diqqəti əsasən bir neçə göstəricilərə yönəldirlər. Bu kimi təşkilatlar əsasən «inkişaf» termininə daha çox üstünlük verir və «tərəqqi» terminini ehtiyatla işlədirlər. Lap elə adi bir təşkilatın, qrupun tərəqqisindən danışanda onun əldə etdiyi nəticələr, müxtəlif statistik göstəricilər ön plana çəkilir. Bir qayda olaraq əksər hallarda obyektin, prosesin mahiyyətinə, tabe olduğu movcudluq qanunlarına elə bir əhəmiyyət verilmir.

Uzun zamandır ki, Qərb alimlərinin qarşısında çaşıb qaldığı, mübahisə etdikləri bir məsələ, yer üzünün get – gedə təkmilləşməyə doğrumu, yoxsa dağılmaya, aşınmayamı doğru getdiyi sualına aydınlıq gətirə bilməmələridir. Onların bəziləri hətta qədim Şərq – Çin, Hind abidələrindən misallar çəkərək, yer üzünün

artıq nə vaxtsa öz qızıl dövrünü yaşadığını qeyd etməklə indi zaman keçdikcə onun xaosa doğru getdiyini əsaslandırmağa çalışırlar.

Klassik elmi ədəbiyyatda Qərb alimlərindən A. Tyurqo, G. Lessinq, İ. Gerder, M. Kondorse, J. Russo, Y. Myezer, J. Lamark, E. Jofrua Sent – İler, Ç. Darvinin «tərəqqi nəzəriyyəsi» ilə bağlı mühüm işləri qeyd olunur .

Avropada «tərəqqi» anlayışı elmə pozitivizm movqeyindən daxil edilmişdir. Poztivizmin əsasını qoyanlardan biri sayılan Oqyüst Kont (1798 - 1857) «tərəqqi» dedikdə cəmiyyətin irəli, mükəmməlləşməyə, daha primitiv formalardan daha inkişaf etmiş konkret, pozitiv olaraq duyulan formalara hərəkətini nəzərdə tutmuşdur. O. Kont, İ. Ten, E. Renan kimi fransız və C. Mill, H. Spenser kimi ingilis alimlərin ortay qoyduğu «klassik» pozitivizm pozitiv biliklərdən yuxarıda duran istənilən fəlsəfi dünyagörüşünü qəbul etmirdilər (1, 2). Ona görə də onlar «tərəqqi» anlayışını məhz bu pozitiıv yanaşma ilə izah edir, daha çox maddiləşdirirdilər. Qərbdə XIX əsrdə texniki elmlərdəki böyük irəliləyişlər, sənayenin inkişafı, «tərəqqi» anlayışına daha çox elmi – texniki mövqedən baxmağa üstünlük verilməsinə səbəb oldu. O dövrün bir sıra böyük alimlərinin etdikləri kəşflər, elm aləmində baş verən nəhəng sıçrayışlar insanları böyük dəyişikliklərin tezliklə baş verəcəyinə inandırmağa başladı. Belə bir təssəvvür yaranırdı ki, tezliklə təbiətdəki bir çox sirlərin üstündən pərdə götürüləcək və insanlıq tamamilə yeni bir aləmə düşəcəkdir. XIX əsrdə Avropada «tərəqqi» anlayışı bir doqma halına qədər yüksəlmişdi. İndiki vaxta «demokratiya» anlayışı kimi populyarlaşan «tərəqqi» anlayışını çoxları heç axıra kimi araşdırmadan tərənnüm edirdilər. Qəhrəmanlar tərəqqi yolunda mübarizə aparmağı, bu yolda min əzaba qatlaşmağı, hətta ölümə belə getməyi özlərinə şərəf hesab edirdilər (3). Bəzən isə siyasətçilər tərəqqi dalğasından qorxuya düşürdülər (4). Təbiətin tezliklə ram olunacağı, insanların iradəsinə tabe olunacağını düşünənlər az deyildi. Elə bu düşüncələrin təsiri altında Avropada Maarifçilik hərakatı güclənmiş, öz meyarlarını yaratmışdır.

Sənayenin, texnikanın inkişafı insanların məişətinə də təsir etməyə başladı. Avropalılar hər hansı bir sahədə insana rahatlıq gətirən hər bir şeyi tərəqqi hesab edirdilər. Amma təbii ki, buna qarşı çıxanlar da olurdu. ***Elm və texnikanın, onların təsiri altında yaranan sənət əsərlərinin inkişafının əxlaqi dəyərlərə, insanın mənəvi dünyasına heç də, hər zaman müsbət təsir etmədiyi elə Avropalı mütəffəkirlərin özləri tərəfindən də hiss olunurdu.*** Hələ 1750-ci ildə Jan-Jak Russo ozünün «Elm və incəsənətin intibahı əxlaqi dəyərlərin təmizlənməsinə kömək etdimi?» sualı ətrafında düşüncələr» əsərində bu suala mənfi münasibət bildirirdi.

Tərəqqi anlayışına ən dərin izah verənlərdən biri Hegel idi. Hegel belə hesab edirdi ki, dünyanın tarixi – azadlığın dərk olunması sahəsində bir tərəqqidir. O tərəqqini dünya ruhunun inkişafı kimi qəbul edirdi. Lakin o ictimai inkişafın bir pillədən başqa bir pilləyə keçməsi məsəlisini izah edə bilmirdi. Bunu ilahi bir qüvvənin iradəsi kimi izah edirdi. Bununla da tərəqqinin mahiyyətini konkret olaraq izah edə bilmirdi. Elə bu faktın özü, Qərbin bu qədər nəhəng hesab olunan bir filosofunun da dünyanın, insanın, tarixi prosesin mahiyyəti

barədə aydın təsəvvürə malik olmadığını göstərir. Materialistlərin fikrincə «tərəqqi tarixi inkişafın hansısa müstəqil mahiyyəti, yaxud transentental məqsədi deyil. Tərəqqi yalnız muəyyən tip tarixi prosesə yaxud hadisəyə konkret, ciddi tətbiq olunduğu zaman məna kəsb edir» (5). Materialistlər Hegeldən qabağa getdiklərini düşünərək, istehsaledici qüvvələrin bütün ictimai - siyasi formasiyaların dəyişməsində həlledici rol oynadığını, tərəqqiyə nail olmaqda ən mühüm qüvvə olduqlarını əsaslandırmağa çalışırdılar. V. İ. Lenin yazırdı: «Beləliklə, ictimai tərəqqinin ali, ümumi və obyektiv meyarları insanın özünün də inkişaf etməsi də daxil olmaqla istehsaledici qüvvələrin inkişafıdır»(5, 6, 7). R. Dj. Kollinqvud (8, 9) qeyd edir ki, XIX əsrdə bütün hamının dilində olan «tərəqqi» sozü əsasən iki mənada işlədilmişdir: 1) tarixdə tərəqqi və 2) təbiətdə tərəqqi. Təbiətddə tərəqqi anlayışı eyni zamanda «təkamül» terminini ilə də ifadə olunur.

XIX əsrin əvvəllərində yaşamış Amerikan sosioloqu L.F. Uord tərəqqini belə təsəvvür edirdi: «İnsanlığın son məqsədi xöşbəxtlik olduğu üçün həqiqi tərəqqi də xöşbəxtliyə çatmağa yönəlməlidir. Ona görə də tərəqqi insanların xoşbəxtliyinin artırılması, çətinliklərinin, əzablarının azaldılmasından ibarətdir» (10). XX əsrin tanınmış rus filosofu N. A. Berdyayev tərəqqinin mahiyyətini xeyirin artmasında, şərin azalmasında görmüşdür. Ötən əsrin ən tanınmış sosioloqlarından biri olan P. Sorokin «tərəqqi» ideyasını sosiologiyanın ən mühüm, mürəkkəb problemlərindən biri hesab etmişdir. O hələ gənclik illərində tərəqqi ideyası barədə yazmışdı «o elə bir idealdır ki, həmişə onun ardınca getsək, onu izləsək də ona çatmaq imkanımız yoxdur» (11, 12) Sorokin xoş-bəxtlik mövhumuna əhəmiyyət verməməyin də, onun rolunun həddindən artıq şişirdilməsinin də yolverilməz olduğunu yazmışdır. Onun fikrincə, cəmiyyət qarşısına yalnız xöşbəxtlik məqsədi qoyursa, deməli, özündən razı və xoşbəxt «donuzlar» yetirməyə can atır; bəlkə cəmiyyətdə əzab çəkən müdrik insanların da olması vacibdir? «Tərəqqi» meyarlarını müəyyənləşdirdikdə, hökmən oraya xoşbəxtlik prinsipini də daxil etməyin vacib olduğunu qeyd edərək, ancaq, hökmən bu prinsipə müəyyən düzəlişlər etməyin də zəruri olduğunu qeyd etmişdir(13, 14). Amma, istər Uord, istərsədə Berdyayev, Sorokin və digərləri bu «xoşbəxtliyin», «idealın», «xeyrin» mahiyyətini aydın təsəvvür edə bilməyərək «tərəqqi» anlayışını müəyyən qeyri müəyyənliklə bağlamışlar.

XIX əsrin sonunda, XX əsrin əvvəllərində artıq Avropa elmi, avropa filosofları tərəqqi ideyası qarşısındı duruxmağa başladı. Onlar aydın hiss edirdilər ki, tarix heç də yer üzünü təkamül yaxud inqilab yolu ilə tərəqqiyə aparmır. Müəyyən bir zaman kəsiyində tərəqqi kimi görünən prosesin əslində tənəzzül olduğu, yaxud tənəzzülə şərait yaratdığı aydınlaşmağa başlayırdı. Elmdə edilən bir çox kəşflər təbiətin heç də ram oluna bilməyəcəyindən xəbər verirdi. Belə olan halda aşağıdakı suallar aktuallaşırdı: 1. Tərəqqi nədir?; 2. Tərəqqi bir tarixi reallıqdırmı? Tərəqqi nəzəriyyəsi sahəsində geniş tanınan rus alimi Ustryalov otən əsrin hələ 30-cu illərində yazırdı ki, «bu sualların hər ikisi fövqalədə məzmunlu və olduqca mürəkkəbdir. Demək olar ki, bu sualların arxasında tarixin bütün fəlsəfəsi, bəlkədə bütün fəlsəfə dayanır» (3). Ustryalov

tərəqqiyə «yaxşıya doğru inkişaf, təkmilləşmə» kimi tərif verərək, «təkmil» olmağın nə olduğu sualını qoyur. Əslinə qalsa bu sualı tək o qoymur, tərəqqi problemləri ilə məşğul olanların hamısı qoyur. Tərəqqinin «yaxşıya doğru inkişaf, təkmilləşmə» oduğunu demək olar ki, bütün tətqiqatçılar qəbul edir. Amma bu «yaxşı», «təkmil» olan nədir? Elə Qərb alimlərin bütün səhvləri də bu sualın cavabından başlayır. Onlar dünyanın inkişafının mahiyyəti, məqsədi, qanunauyğunluqları barədə xeyli nəzəriyyələr, saysız hesabsız mülahizələr yaratdılar. Amma onların heç biri bu günə qədər də yuxarıdakı suallara tam cavab verə bilmir və bu günə qədər də hamı tərəfindən qəbul edilən deyil» (15). «Tərəqqi» ideyası artıq XX əsrdə Avropada dəbdə deyildi və bu anlayışın fəlsəfi izahı ətrafında da elə bir qızğın mübarizə getmirdi. Amma çox təəsüf! Avropalıları mütəfəkkirlərin XIX əsrdə qarşıya qoyduqları suallar bu gün daha aktualdır.

Necə deyərlər, bir qədər cürət göstərərək bu suallara daha düzgün cavab verməyə çalışacağam. Əslində bu sualların cavabları bütün dini kitablarda, xüsusi ilə Qurani - Kərimdə çox aydın olaraq verilmişdir. Amma müəyyən kodlarla, işarələrlə verilmişdir. Bu sualların cavabları elə təbiətin özündə, hər bir kamil sənət əsərlərində də verilmişdir. Lakin yenə də rəmzlərlə, kodlarla, işarələrlə. Həmn cavabları müasir elmin dili ilə şərh etməyə çalışaq. Bu işdə bizim köməyimizə dini abidələrin fəlsəfi təhlili, orqanizmik nəzəriyyə, vəhdəti vucud dunyagörüşü, funksionalizm, sistem nəzəriyyəsi, sufizm, təsəvvüf, tətbiqi riyaziyyat kimi sahələr gələ bilər. İlk öncə ona diqqət vermək lazımdır ki, dünyada hər hansı bir sistemin arxasında bu sistemlə xaraktrizə etdiyi bir varlıq mövcuddur. Sistemə təkcə qnesoloji - məntiqi mövqedən yox, həm də ontoloji mövqedən baxmaq lazımdır. Dünya vəhdətdədəir və o böyük bir sistemdən, bu sistemin xarakterizə etdiyi orqanizmdən ibarətdir. Bu sistemin özü, onun alt sistemləri, hər bir elementi yalnız və yalnız o zaman üğürlu fəaliyyətdə olar ki, onların hər biri daxil olduqları sistemin mahiyyətindən irəli gələn qanuna-uyğunluqlarla fəaliyyətdə olsunlar. Misal üçün, insan orqanizminin hər hansı bir orqanı o zaman daha uğurlu fəaliyyətdə olar ki, o aid olduğu bədənin qanuna-uyğunluqları ilə fəaliyyətdə olsun, əks halda ortaya fəsadlar çıxır - ya orqanın özünün kənarlaşdırılıb atılması zəruri olur, yaxud da orqanı əziiyyətə salır, nəticədə onu məhv edir. Nəzərə almaq lazımdır ki, Yer üzünün özü, böyük kosmik sistemin bir kiçik alt sistemidir. Bəşəriiyyət, hər bir cəmiyyət, insan, hər bir varlıq həmin kosmosistemin kiçigik alt sistemləri, zərrələridir. Yer üzündə, tarixdə baş verənlər bu mahiyyətin təzahürləridir. ***Sistemin mahiyyətini nəzərə almadan onun davranışının, təzahhürlərinin üzərində düşünmək məsələyə olduqca bir tərəfli, qeyri elmi yanaşmaqdır.*** Qərb alimlərinin, ümumilikdə mövcud olan dünyəvi elmlərin də səhvləri elə buradan başlayır. Təsəvvürünüzə gətirin ki, hər hansı bir musiqi aləti vardır. İnsanlar yığışıb bu musiqi alətinin mahiyyətini nəzərə almadan çalınan, eşidilən musiqinin özü barədə fikir yürüdürlər. Calınan musiqinin daha ahəngdar, gözəl olması üçün bu aləti kökləməyə diqqət verən yoxdur. Musiqi alətinin özünə diqqət yetirənlər onu olduqca naşı şəkildə qurdlayırlar. Baş sındırırlar ki, necə edək ki, bu musiqi daha gözəl olsun. Bu

aləti əllərində oynatmaqla onun daha da kökdən düşməsinə səbəb olanlar, bir daha bu musiqinin gözəl olmayacağı barədə düşünürlər. Amma, əslinə qalsa, bu alət lazımi qaydada köklənərsə, mahir ifaçı tərəfindən çalınarsa o əvvəlki kimi, bəlkə ondan da gözəl musiqi səsləndirə bilər. Təəsüf ki, indi yer üzü bu musiqi alətinin günündədir.

Aydındır ki, gözəl musiqi eşitmək üçün (tərəqqiyə nail olmaq üçün) ən əvvəl o musiqi alətini onun öz tələblərinə, mahiyyətinə uyğun olaraq kökləmək lazımdır. Bu musiqi aləti kimi, dünyadakı hər bir varlığın da öz missiyası vardır və o varlığın fəaliyyətinin uğuru öz missiyasına görə fəaliyyət göstərdikdə üzə çıxır. Hər bir varlıq öz missiyasına uyğun olaraq fəaliyyət göstərdikdə o hökmən kosmik dünyanın qanunlarına görə dünyada bir ahəng yaradır. Mükkəmməllik yalnız nizam, ahəng yarandıqda mümkün olur. Bu deyilənləri nəzərə alaraq, «tərəqqi» anlayışına aşağıdakı kimi tərif verə bilərik: ***Tərəqqi – hər hənsı bir valığın öz missiyasına görə fəaliyyət göstərdiyi zaman yaranan ahəngdir.***

Bu tərifi qəbul etsək, deməli hər hansı bir işdə tərəqqiyə nail olmaq üçün, hökmən müəyyən bir ahəngə nail olmaq lazımdır. Bu ahəngin mümkün olması üçün isə qeyd - şərtsiz olaraq, hökmən həmin işi təşkil edən sistemin öz mahiyyətinə, missiyasına görə fəaliyyətdə olmasına çalışmaq lazımdır. Bu sistemi təşkil edən komponentlərin hər hansı biri mahiyyətinə, missiyasına görə fəaliyyət göstərmirsə, hökmən yekun fəaliyyətin ahənginin pozulmasına səbəb olacaqdır. Aydındır ki, bütün bu deyilənlərə nail olmaq heç də hər zaman asan deyildir. Müxtəlif hallarda qarşıda duran vəzifələr olduqca çətin ola bilər. Amma bütün dünyanın nicatı bundadır. Bu isə o deməkdirki, indiki vaxtda fəlsəfənin, elmin müxtəlif sahələrinin qarşısında bu istiqamətdə olduqca ciddi vəzifələr dayanır. Amma bu vəzifələrin həllini gözləmək lazım deyil. Deyilənləri prinsip kimi qəbul edərək müxtəlif məsəllərdə həll yolları tapmaq mümkündür.

Bütün bu deyilənləri nəzərə alaraq cəmiyyət, insanlar üçün tərəqqinin əsas meyarlarını dəqiqləşdirməyə çalışaq. Deməli, insanda, sosial qrupda, sosial sahədə, cəmiyyətdə tərəqqiyə nail olmaq üçün onların öz mahiyyətlərinə, missiyalarına görə fəaliyyət göstərməsinə çalışmaq lazımdır. Bunun üçün ən əvvəl insanın yer üzündəki missiyasının nədən ibarət olduğu barədə düşünmək lazımdır. Əgər insan, cəmiyyət də böyük kosmosistemin bir alt sistemidirsə deməli onun bu sistem qarşısında bir missiyası vardır. Sistem nəzəriyyəsindən aydındır ki, heç bir sistemdə başqasını təkrar edən, yaxud sistemin qanunlarından kənarda olub fərqli prinsiplərlə fəaliyyətdə olan alt sistem, element olmur və hər bir obyektin özünün konkret funksiyası - missiyası vardır. Beləliklə, insanın missiyası – böyük sistemin bir alt sistemi kimi özünə xidmət ola bilməz. Onun missiyası kosmo sistemin tələblərinə, qanunlarına, missiyasına xidmət etməkdir. Doğrudur, insan öz duyduğu varlıqlar içərisində ən alidir. Amma o kosmo sistemin bir alt sistemi kimi daha yüksək tərtibli qanunlara tabedir. Deməli insanın Yer üzünü ram etməsi xülyası bir absurddur. İnsan yer üzərindəki bütün varlıqlarla enerji mübadiləsindədir və bu daha yüksək tərtibli sistemin qanunlarına uyğun olaraq müəyyən bir missiya yerinə yetirir. Bu missiya nədən ibarətdir? Bu sualla bağlı cavablara başqa bir yazıda cavab

verməyə çalışacağam. İndi bir qədər insanın mahiyyəti barədə. İndiki mövcud elmi ədəbiyyatda insan bir qayda olaraq «bio - sosial» bir varlıq kimi qəbul edilir. Bu yazıda mən o məsələ üzərində də dayanmayacağam. Çünki, bu məsələ ilə bağlı mənim xeyli sayda məqalələrim çıxıb (16, 17) və o məqalələrdə insanın mahiyyətinin «bio sosial» yox, «kosmo – bio – psixo - sosial» olduğunu əsaslandırmışam. Deməli insanın fəaliyyətində tərəqqiyə nail olmaq üçün onun həyatının, fəaliyyətinin elə qurulmasına çalışmaq lazımdır ki, onun bütün «kosmo», «bio», «psixo», «sosial» əlaqələrində bir ahəng yaransın. İnsan, cəmiyyət üçün tərəqqi meyarlarının müəyyənləşdirilməsində bu əsas şərtlərlərdən biridir. Məhz bu şərt yerinə yetirildikdə insan normal bir sistem kimi fəaliyyət göstərərək Yer üzündə öz potensialına uyğun olaraq missiyasını yerinə yetirməyə, ahəng yaratmağa başlayır. Dediklərimizə bir qədər aydınlıq gətirək. «Kosmo» əlaqələrin, tələbatların ödənməsində ahəng yaranması nə deməkdir?. Hər bir sistemin elementi o zaman daha ciddi, güclü, energetik olur ki, o aid olduğu sistemlə, o sistemin elementləri ilə daha güclü şəkildə qarşılıqlı əlaqədə olur. İnsan eyni zamanda kosmo sistemin bir varlığı olduğu üçün o ozaman daha cüclü, energetik, başqa sozlə desək «daha çox insan» olacaq ki, kosmo sistemin o biri elementləri ilə normaya uyğun çərçivədə, daha sıx şəkildə əlaqədə olsun. Bu əlaqə həm fiziki, həm də mənəvi olaraq baş verir. İnsan mənəviyyatca, fiziki olaraq daha çox sağlam (təmiz, çirklənməmiş fon) olduqca kosmo əlaqələri də daha güclü olur. Və bu əlaqə ona dərk etdiyi yaxud etmədiyi şəkildə kosmo sistem barədə informasiyalar gətirir. İnsan daha çox kosmo sistemin ahənginə köklənir. Qeyd etmək lazımdır ki, sufilər məhz bu məqamı aydın hiss edərək öz təlimlərinin bir çox müddəalarını yaratmışlar. «Bio» əlaqələrin, tələblərin yerinə yetirilməsindəki ahəng insanın Yer üzündə bir canlı olaraq movcud olmasını təmin edir. «Bio» amilə diqqət yetirilməsi, həm insana kosmo əlaqələrinin güclənməsinə kömək edir, həm də onu Yer üzündə fəaliyyət göstərməsinə kömək edir. «Bio» amilin güclü olması üçün insan fiziki cəhətdən sağlam olmalıdır. «Psixo» amilin güclü olması insanı daha faydalı bir şəxsiyyət kimi cəmiyyətə təqdim edir. «Psixo» amil güclü olması şəxsi, sosial qrupu, cəmiyyəti daha dayanıqlı, güclü edir. «Sosial» amilin güclü olması insana cəmiyyətdə öz potensalını daha çox açmasına kömək edir. Bütün bu tələbatlar insanın mahiyyətindən doğan təbii tələbatlardır və onların yerinə yetirilməsi bütün amillərin qarşılıqlı fəaliyyətini gücləndirərək hər bir insanı, cəmiyyəti olduqca gücləndirir. Əslinə qalsa indiki dövrün siyasətçiləri, iqtisadçıları, filosofları bu istiqamətdə düşünməlidirlər. Təəssüf ki, müasir dövrdə onların bu sahədəki fəaliyyəti naşı, savadsız, əfəl bir adamın fəaliyyətini xatırlatmaqdadır.

Deyilənləri nəzərə alaraq konkret olaraq cəmiyyətdə tərəqqinin əlamətləri, ona nail olmaq yolları barədə konkret bir fikrə gəlmək olar. Ən əvvəl yuxarıda tərəqqiyə verilən tərifi nəzərə alaraq onu demək lazımdır ki, əgər şəxsin özündə, ailədə, istənilən bir sosial qrupun, cəmiyyətin fəaliyyətində müəyyən bir ahəng duyulmursa orada tərəqqidən söhbət gedə bilməz. Amma ahəng olmayan hər bir sistemə də pessimist baxmaq olmaz. Bu qarışıqlıq, disharmoniya ola bilsin ki, tərəqqi üçün şərait yaranan bir dövrün ahəngsizliyidir. Bu ahəngə doğru keçid, dir-

çəliş dövrü də ola bilər. Amma tərəqqinin artıq mövcud olmasının əlaməti ahəngin olmasıdır. Bu ahəng nə qədər güclü olarsa tərəqqi o qədər də konkret olar. Bir şeyə də diqqət vermək lazımdır. Bir obyektdə, sahədə yaranmış ahəng başqa sahələrin ahəngini pozmur ki? Əsil tərəqqi başqa sahələrdə ahəngin pozmayan ahəngin yaranmasıdır. Əks halda movcud ahəng ya lokal tərəqqini xarakterizə edir, yaxud da yalançı tərəqqidir. Bunu araşdırmaqla müəyyənləşdirmək olar. ***Daha qiymətli tərəqqi daha geniş miqyasda ahəngin yaranmasına kömək edən tərəqqidir***. Əsil tərəqqi, bütün kosmo sistemin ahənginə yardım edən ahəngin yaranmasıdır. Dini təlimlərin əksəriyyəti ***öz məhdudiyyətləri çərçivəsində*** insanlar arasında bu kosmo ahəgi təmin edə biləcək davranışın yaranmasını təlqin etməyə çalışırlar.

Bütün deyilənlərə yekun olaraq, düşünürəm ki, hər hansı bir cəmiyyətdə tərəqqinin nə dərəcədə olub olmamasını aşağıdakı üç, qarşılıqlı əlaqədə mövcud olan əlamətlərlə, şərtlərlə müəyyənləşdirmək olar:

1. İnsanların fiziki sağlamlığı; Cəmiyyətdə gedən proseslərin insanların fiziki sağlamlığına get – gedə necə təsir etməsi;

2. insanların mənəvi zənginliyi; Cəmiyyətdə gedən proseslərin insanların mənəvi zənginliyinin dəyişməsinə get – gedə necə təsir etməsi;

3. insanlarda yaradıcı əməyə tələbatın artması; Hər bir sosial qrupun, şəxsin oz potensialına, peşəsinə uyğun olaraq öz sahəsində daha effektli fəaliyyət göstərməsinə tələbatının artması, öz missiyasını dərk edərək ona nə dərəcədə əməl etməsi;

Cəmiyyətdə gedən proseslər bu əlamətlərin yaranmasına kömək edirsə cəmiyyət tərəqqi yolundadır. Əgər bu əlamətlərin, şərtlərin hər hansı biri pozulursa cəmiyyətdə tərəqqi üçün təhlükə yaranmışdır, yaxud da heç tətəqqidən söhbət gedə bilməz. Əgər bütün şərtlər pozulursa o zaman həyacan təbili çalınmalıdır.

Diqqətlə fikir verilsə bu şərtlərin hər birinin, bir başa insanın mahiyyətindən doğduğunu, insna öz missiyasını yerinə yetirməyə kömək etdiyini görmək olar. Bu şərtlər həm də olduqca təbii şərtlərdir. Təsəvvür edin, hər hansı bir valideyni, oz körpəsini böyüdərkən həyatda hər şeydən əvvəl ona nə arzulayır? O hər şeydən əvvəl bu üç əlaməti arzulayır. İstəyir ki, övladı böyüyəndə: 1) sağlam olsun; 2) mənəviyyatlı, şəxsiyyətli insan olsun; 3) onun cəmiyyətdə könül verdiyi, problemlərini həll edə biləcək, yaxşı bir işi olsun. (bu yaxşının meyarları cəmiyyətin, insanın xarakterindən asılı olaraq dəyişə bilir.)

Dərhal qeyd etmək lazımdır ki, olkədə, cəmiyyətdə, ailədə baş verən bütün proseslər bu şərtlərlə, əlamətlərlə müqayisədə ikinci, üçüncü və s. dərəcəli işlərdir. O poseslərin hamısı məhz bu üç əlamətin, şərtin ödənməsinə xidmət etməlidir. Yəni ekologiya ilə, iqtisaliyyatla, siyasətlə, dovlət quruculuğu ilə və s. bağlı işlər elə yerinə yetirilməlidir ki, onlar bu üç şərtin yerinə yetməsinə kömək etsin. Əgər iqtisadiyyat bu üç əlamətdən birinə ziyan verirsə – əhalinin fiziki sağlamlığına, mənəvi zənginliyinə xələl gəlirsə, yaradıcı əməyə marağını azaldırsa həmin iqtisadiyyat zərərli iqtisadiyyatdır. Ekologiya, siyasət, idarəetmə və s. də onun kimi… Bu istənilən sosial sistem, sosial subyekt üçün doğrudur. Götürək elə hər

hansı bir ailəni. Əgər o evdə pul qazanılması cinayətkar yollarla olursa, pulun xərclənməsində israfçılığa yol verirsə dərhal bu əlamətlərə təsir edir. Ailə üzvlərində təhlükəli davranışlar, mənəvi aşınma, tənbəllik kimi əlamətlər üzə çıxır. Bu isə həmin ailənin artıq öz missiyasına uyğun olaraq fəaliyyət göstərməməsinə, öz daxilində, ətrafda ahəngin pozulmasına gətirib çıxarır. Başqa proseslərin də bu əlamətlərə bu kimi təsirlərindən geniş danışmaq olar. Bu istənilən ailə üçün də, təşkilat üçün də, cəmiyyət üçün də bütovlükdə Yer üzü üçün də doğrudur.

İstifadə olunmuş ədəbiyyat

1. http://msviderskaya.narod.ru/introduction.htm;
2. http://tatjana17.pisem.net/ASP15.TXT)
3. http://lib.web-malina.com/getbook.php?bid=4870&page=1
4. (://www.pahra.ru/chosen-people/vinogradov/istoria_slov/progress.html)
5. http://fiziki.uniyar.ac.ru/educate/lectures/philosophi/topic16.html
6. Ленин В.И. Полн. собр. соч. Т.43, с. 81
7. ahttp://www.ugatu.ac.ru/ugatu.new/fakult/f6/k1/philosophy/topic16
8. http://www.bellabs.ru/Books/History/History-5-7.html
9. Р.Дж.Коллингвуд. Идея истории. Автобиография. М., 1980.
10. («Психические факторы цивилизации». М., 1897, с.335.
11.http://www.vusnet.ru/biblio/archive/novikova%5Frussksja/05.aspx
12. Сорокин П. Главнейшие теории прогресса в современной социологии //Вестник знания. 1911, № 9, с.779.
13. «Социологический прогресс и принцип счастья» //«Человек. Цивилизация. Общество». М., 1992, с. 511.
14. //www.gumer.info/bogoslov_Buks/Philos/Alex_Pan/60.php
15. ((http://homosapiens3.narod.ru/evolyucia/progress.htm))
16. Ə. Qəşəmoğlu. İnsanın mahiyyətinin dərk olunmasında sistemli yanaşma zərurəti. AMEA, FSHTİ, «Cəmiyyət keçid dövründə sosioloji və sosial-psixoloji aspektlər» Bakı, 2004.
17. Ə. Qəşəmoğlu. «Sosial» anlayişinın izahı üçün sistemli yanaşma zərurəti. AMEA, FSHTİ, «Dünya, cəmiyyət, fəlsəfə», Bakı, 2004.

Ахмед ГАШАМОГЛУ

О СУЩНОСТИ ПОНЯТИЯ «ПРОГРЕСС»

Резюме

В статье даётся абсолютно новое объяснение понятия «прогресс». Все подходы к этому понятию, существовавшие до сих пор в истории научно-

философской мысли, в основном в западных источниках, рассмотрены автором с критической точки зрения и обосновано их несовершенство. Объясняются причины охлаждения интереса европейской науки к понятию «прогресс» и обосновывается необходимость большей актуальности этой категории в настоящее время.

С помощью религиозных памятников, различных философских взглядов, особенно принципов единства и системного подхода автор попытался раскрыть сущность понятия «прогресс». Конкретно он определяет главные условия «прогресса» для социальных систем – их критерии.

Ahmad GASHAMOQHLU

ON THE ESSENCE OF NOTION "PROGRESS"

Summary

In the article a new explanation of the notion "progress" is given. All the approaches to this notion existent in history of scientific and philosophical thought, in particular, in the western sources up to now, have been considered by the author from the critical point of view and their imperfection has been grounded. The causes of cooling an interest to the notion "progress" on the part of European science are explained and necessity in higher urgency of this category at present is substantiated.

Arzu HACIYEVA
AMEA Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutunun aparıcı elmi işçisi, fəlsəfə elmləri namizədi

POL RİKERİN FENOMENOLOJİ HERMENEVTİKASININ BƏZİ ƏSAS PROBLEMLƏRİ

Geniş mənada mətnlərlə bağlı universal təlim kimi hermenevtika qarşısında duran bir çox əsas problemlərin qoyuluşu və həllində ümumi müddəalara malik olsa da, o, əvvəlcədən müəyyən edilmiş, donuq prinsiplər, üsul və vasitələr toplusu deyil. Onda ən müxtəlif mənbələrdən bəhrələnən, müxtəlif fəlsəfi meylləri özündə birləşdirən bir-birindən xeyli fərqli, problemlərə yanaşma nöqteyi-nəzərindən bir-birilə rəqabət aparan çoxlu istiqamətlər, təlimlər mövcuddur. Ona görə təsadüfi deyil ki, keçən əsrin 70-ci illərindən başlayaraq hermenevtika təlimlərinin təsnifatının verilməsinə cəhdlər edilir. Lakin həmin təsnifatlara daxil edilən qrupların ümumiləşdirilərək tarixən yaranmış və müasir dövrdə də mövcud olan iki böyük istiqamətdə: ənənəvi və fəlsəfi hermenevtikada birləşdirilməsi daha geniş yayılmışdır. Birinci istiqamət hermenevtikanı mətnlərin təfsiri nəzəriyyəsi və metodologiyası kimi, ikincisi filosofluqetmə üsulu kimi nəzərdən keçirir. Professor Y.Rüstəmov da «Fəlsəfənin əsasları» kitabında hermenevtikinın mahiyyətini ənənəvi hermenevtika və fəlsəfi hermenevtikanın banisi H.G.Qadamerin hermenevtikası ilə müqayisədə aydınlaşdıraraq həmin bölgüyə üstünlük vermişdir (8, 202-203).

Dövrümüzün ən məşhur mütəfəkkirlərindən biri olan fransız filosofu Pol Riker (1913) məhz fəlsəfi hermenevtikanın görkəmli nümayəndəsidir. O, özünəməxsus fenomenoloji hermenevtika konsepsiyasını, öz təbirincə desək, «Husserl fenomenologiyasının hermenevtik variantı»nı işləyib hazırlamışdır. Riker 1986-cı ilddə «Espit» jurnalında dərc olunan «Son 30 ildə məni nə məşğul edir» adlı məqaləsində yaradıcılığının əsas xüsusiyyətlərini təhlil edərək «fenomenoloji və hermenevtik ənənəyə» mənsub olduğunu, «bu ənənəni eyni zamanda həm davam etdirdiyini, həm təshih etdiyini, bəzən isə sual altında qoyduğunu» göstərir (6, 296). Maraqlıdır ki, bəzi tədqiqatçılar onu ontoloji, bəziləri qnoseoloji hermenevtikanın nümayəndəsi kimi təqdim edirlər. Əslində onun hermenevtika nəzəriyyəsi bütün bu yanaşmaların - ontoloji, epistemoloji, metodoloji məqamların vəhdətinə əsaslanır. Filosof dərindən öyrənib mənimsədiyi Qərbin fəlsəfə tarixində qədimdə və indi mövcud olan kəskin fikir ixtilafları doğuran ifrat baxışları öz fenomenoloji hermenevtikası vasitəsilə aradan qaldırmağa, onları bir-birilə əlaqələndirməyə, barışdırmağa çalışır. Bəlkə elə buna görə C.Blayçer öz təsnifatında P.Rikerin təlimini «yeni perspektiv» kimi hermenevtik istiqamətlərdən heç birinə daxil etməmişdi (3, 66).

Riker üçün hermenevtikanın məqsədi saysız-hesabsız məna strukturlarının – simvolların örtüyünü açmaqdır. Bu problemi o, ontoloji müstəviyə keçirib həll edir. Məhz insanın mədəniyyət dünyasına başlanğıc və məna verməsi, mənaların və rəmzlərin yaradıcısı olması ideyasına əsaslanaraq Riker şəxsiyyət anlayışını fəlsəfənin fundamental anlayışına çevirir. Şəxsiyət isə təkcə dərk edən məxluq deyil, o hissləri, iradəsi olan ictimai məxluqdur. Ona görə P.Riker Husserlin fenomenologiyasının səhvini şüurda affektiv və iradi aktlara məhəl qoymadan nəzəri fəaliyyətə üstünlük verməsində, bununla onun obyektləşdirici aktlarını rasionallığın dar çərçivələri arasına alıb məhdudlaşdırmasında görür. O, göstərir ki, fenomenoloji metodun imkanları məhduddur, çünki dünya fenomenal təsvir edilməli olan fenomenlərdən ibarət deyil, burada eyni zamanda işarələr, simvollar mövcuddur. Simvollar təfəkkürün elə formalarıdır ki, onların mövcudluğu labüddür, onları aradan qaldırmaq prinsipcə mümkün deyil. Riker simvolları bir neçə qismə bölür: daha universal xarakterli simvollar, yalnız bir mədəniyyətə aid olan simvollar, nəhayət, ayrıca bir insanın yaratdığı və hətta yalnız bir əsərdə rast gəlinən, canlı metafora ilə üst-üstə düşən simvollar. O, simvol dedikdə onu hər hansı elə bir məna strukturu kimi başa düşür ki, burada bir – ilkin, birbaşa, hərfi məna digər – dolayı, ikinci, məcazi mənanı ifadə edir, o da öz növbəsində yalnız birinci məna vasitəsilə qavranıla bilir: «Mən istənilən siqnifikativ strukturu simvol adlandırıram, onun birbaşa, əzəli, ədəbi mənası digər, dolayı, fiqurativ mənaya işarə edir, ona yalnız birincinin vasitəsilə yaxınlaşmaq olar» (9). Başqa sözlərlə, Rikerin fikrincə, simvolun xüsusiyyəti onda hər hansı bir mənanın başqa mənanın köməyi ilə verilməsindədir: simvolda ilkin hərfi məna məcazi, ekzistensial, mənəvi mənaya aparır. Həmin məna strukturlarını anlamaq üçün isə fenomenoloji təsvir kifayət etmir, onların təsviri əslində elə hermenevtik təfsiri nəzərdə tutur. Bütün bunlardan Riker belə nəticəyə gəlir ki, fenomenoloji təsvirin hermenevtik təfsirə keçməsi nəinki zəruri, həm də labüddür.

Filosof hermenevtik şərhin zəruriliyini simvolun təbiəti, mahiyyəti ilə əlaqələndirir. İşarə və simvol öz əksini dildə tapır. İnsana istənilən, hətta ən gizli duyğu və həyəcanını da dillə ifadə etmək meyli xasdır. Qavrayış söylənilir, arzu da dilə gətirilir. Yalnız dil mühitinə çıxarılması onların mənasını aydınlaşdıra bilər. Doğrudur, simvol dillə ifadə olunur, lakin o özünün dil ifadəsinin eyni deyil, onunla tamamilə üst-üstə düşmür. Simvolda dilə müncər edilməyən həmin artıq hissənin – qalığın anlanması dil və canlı təcrübənin quruluşu arasında mövcud olan əks əlaqənin müəyyənləşdirilməsini tələb edir. Beləliklə, əgər Qadamer hermenevtik təcrübəni yalnız dil təcrübəsi hesab edirdisə, Riker hermenevtikanı dildən kənar fenomenlərin təfsirinə də yönəldir. Bu mənada o, tamamilə haqlı olaraq, qeyd edir ki, hermenevtika yalnız öz arsenalında olan xüsusi metodları ilə kifayətlənə bilməz. Fenomenologiyanın məhdudluğunu təkcə ictimai elmlər vasitəsilə yox, həm də fenomenoloji ekzistensial ənənələr çərçivəsində filosofluqetmənin mövcud olan bir-birindən fərqli, lakin bir-birini tamamlayan müxtəlif tiplərini birləşdirmək yolu ilə

aradan qaldırmaq mümkündür. Riker hermenevtikanı insana xas olan müxtəlif xüsusi təfsir üsullarının nailiyyətlərinin sintezinə əsaslanan universal nəzəriyyə hesab edir. Onun fikrincə, hermenevtika həyat fəlsəfəsi, personalizm, psixoanaliz, strukturalizm, ruhun fenomenologiyası, analitik fəlsəfə, dil fəlsəfəsi tədqiqatlarının, mifologiyanın təqdim etdiyi təfsir nəzəriyyələri ilə sıx məhsuldar dialoqa girərək, onların verdiyi qiymətli materialdan, geniş imkanlardan hermenevtik şərhdə istifadə etməlidir. Bunun üçün nəinki müasir fəlsəfi təlimlərin hermenevtik sistemlər kimi bütün mümkün metodlarının tənqidi təhlili verilməli, eyni zamanda onların tətbiqi sahələri müəyyənləşdirilməlidir.

Filosof hermenevtik təfsirin simvolun xarakterindən asılılığını vurğulayır. Məsələn, yaradıcılığının ilk mərhələsində Riker düşünürdü ki, mövcud olan iki növ simvola - psixoanalitik və dini simvollara uyğun olaraq hermenevtik təfsir də iki növdür: məhz simvolların özünün həqiqi təbiətini açan – «demistifikasiya edən» hermenevtika və simvollarda ehtiva olunmuş mənanın dərkinə can atan «bərpaedici» hermenevtika. «Demistifikasiya edən» hermenevtikanın nümunəsi olan Z.Freydin psixoanalizi mənaların şifrini açmaq yolu ilə şüursuzun fəaliyyətini üzə çıxarır, yəni insanın ilkin instinktləri, istəkləri və meyllərini açmağa cəhd göstərir. Bərpaedici hermenevtika isə mahiyyətcə din fəlsəfəsinə yaxındır, belə ki, onun üçün simvol vəhyin ifadə olunduğu dildir. Ona görə hermenevtika irrasionalizmə və yaxud özünəməxsus simvolik uydurmalara aparıb çıxarmamalıdır (1, 84).

XX əsrin 70-ci illərində Riker simvol probleminə yanaşma alətini dəyişərək, sözü «daha münasib» alətlə – metafora ilə əvəz edir, başqa sözlərlə, təfsiri söz mühitindən mühakimə mühitinə keçirir. O, göstərir ki, hələ Aristotelin «Poetika»sına gedib çıxan klassik ritorikanın verdiyi tərifə görə, metafora adi adlandırmanın bənzəyiş əsasında bir şeydən başqa şeyə keçməsidir. Bu keçməni doğuran əməli başa düşmək üçün söz hüdudlarından kənara çıxmaq, cümlə səviyyəsinə qalxmaq və metafora-sözdən yox, metafora-ifadədən danışmaq lazımdır. Onda metaforanın məntiqi subyektlərə əvvəllər onlarla birləşə bilməyən predikatların verilməsindən ibarət olan dillə iş zamanı yarandığı aşkara çıxar. Metafora Rikeri dilin rəmziliyini əyani şəkildə nümayiş etdirdiyinə görə daha çox maraqlandırır. Metaforanın mənası ayrıca götürülmüş bir sözdə ehtiva olunmur, o, sözlərin hər hansı bir mühakimədə birləşərkən, öz hərfi mənaları ilə konfliktindən doğur. İfadənin, cümlənin semantik düzgünlüyünün pozulduğu, onun hərfi mənasının ikinci plana keçdiyi metaforik ifadədə insanın evristik fəaliyyətinin gücləmməsində özünü göstərən yaradıcılıq qabiliyyəti öz təcəssümünü tapır. Riker yazır: «Canlı metafora və intriqadüzəltmə (intriqa deyəndə filosof əsərin fabulasını nəzərdə tutur – A.H.) sanki yaradıcılıq qabiliyyətinin sirrinə açılan iki pəncərədir» (6, 304). Beləliklə, o, semantik innovasiya probleminə gəlib çıxır.

Yaradıcılıq təkamülündə filosof hermenevtikanı simvolların təfsirinə, yəni ikimənalı ifadələrdə ikinci, çox vaxt gizli olan mənanı aşkara çıxarmağa müncər etməklə onun predmetini daraltması qənaətinə gəlir və anlamın

şərtləndiyi simvoldan mətnə keçir. P.Riker üçün mətn «şərh edilmiş, təfsir olunmuş» varlıqdır. O, E.Husserlin «xalis təsviri»ndən imtina edərək, «bilavasitə» gözləri qarşısında görünən, özünü aşkar edən varlığı yox, rəmzlərin cəmləşdiyi mətni birinci, ilkin, əsas varlıq bilir. Burada fəlsəfə, Rikerin təbiri ilə desək, «təfsirin təfsiri» kimi çıxış edir. Onun fikrincə, mənanı anlamaq istəyirsənsə, mətni elə təfsir etməlisən ki, bir mənanın arxasında sadəcə gizlənmiş olanı yox, təfsirin özünün gedişində törəyən, meydana gələn digər mənanı görəsən. Hər bir təfsirdə təfəkkürün işi «mənanın arxasındakı mənanın şifrini açmaqda, hərfi mənada ehtiva olunmuş məna təbəqələrini aşkara çıxarmaqdan ibarətdir» (7, 18). Filosof göstərir ki, ənənəvi və ya xüsusi simvollar mənaları artırma ehtiyatlarını yalnız öz kontekstlərində, yəni tam mətn (məsələn, roman, poema, fəlsəfi əsər) daxilində açır. Bundan başqa eyni simvolizm onun hərfi əsasına, şüursuz mənbələrinə, sosial motivlərinə və ya geniş şərhinə müncər edilməsindən asılı olaraq bir-birilə rəqabət aparan və hətta tamamilə zidd olan təfsirlərə yol verir. Bir halda hermenevtika simvolizmdə olan gizli dərk edilməmiş qüvvələri aşkar edərək onun demifolojiləşdirilməsinə, digər halda daha zəngin, yüksək, mənəvi mənasının axtarılıb tapılmasına yönəlir. Bu konflikt eyni dərəcədə mətn səviyyəsində özünü büruzə verir.

Riker mətndə simvol və təfsir, təfsir və anlam, anlam və izah arasında münasibətlərə diqqət vermiş, onları şərh etməyə çalışmışdır. Onun anlamında simvol və təfsir korrelyativ anlayışlar kimi çıxış edir. Belə ki, mənaların çoxcəhətliliyinin aşkar özünü büruzə verdiyi yerlərdə, o cümlədən simvolik mətnlərdə təfsir tələb olunur və məhz təfsir zamanı mənaların çoxluğu üzə çıxır, öz növbəsində simvol dildə ifadə olunduğundan mövcudluq problemi buna müvafiq olaraq semantik təfsir edilməlidir (2, 100).

Təfsir və anlamın nisbətinə gəldikdə, Rikerə görə anlam tutumca daha geniş anlayışdır, çünki əgər təfsir yazılı mətnlərdəki işarələrlə bağlıdırsa, anlam psixi həyatın ifadə edildiyi bütün işarələrə aiddir. Bu baxımdan o, hermenevtikanı yazılı mətnlərin təfsiri üçün zəruri olan qaydalar məcmusu kimi nəzərdən keçirir. Riker yazır: «Hermenevtikanı mən anlam əməliyyatlarının mətnlərin təfsirinə münasibətdə götürülən nəzəriyyəsi kimi başa düşürəm. «Hermenevtika» sözü məhz təfsirin ardıcıl olaraq həyata keçirilməsini göstərir» (5, 3). Bununla əlaqədar, o, idrak nəzəriyyəsi üçün hermenevtikanın əhəmiyyətini vurğulayır, hermenevtikanın ontoloji aspekti ilə yanaşı Qadamerin ikinci plana keçirdiyi qnoseoloji aspektinə, metodoloji funksiyasına da diqqət verir. Humanitar elmlərin obyekti yazılı mətnlər, məqsədi prinsip etibarilə təfsir prosesində buradakı mənaların aşkara çıxaralması olduğundan, Riker «mətni sosial elmlərin obyektinin paradiqması kimi, mətnin təfsiri metodologiyasını isə onların metodoloji paradiqması kimi nəzərdən keçirir (1, 86).

Onun fikrincə, mətni anlama prosesi üç səviyyədə – semantik, refleksiv və ekzistensial səviyyələrdə həyata keçirilir. Semantik səviyyə – işarə-simvolik qurumların mənalarının açılmasını və bunun üçün psixoanaliz, Vitgenşteynin və

onun ardıcıllarının «məna fəlsəfəsi» təlimləri, Bultmanın və onun ardıcıllarının ekzegetikasının tətbiqini nəzərdə tutur. Digər tərəfdən çoxmənalı mühakimələri anlamaq eyni zamanda elə özünüanlamaq məqamını ehtiva edir, ona görə anlam refleksiv səviyyədə gerçəkləşir. Nəhayət, mücərrəd düşünən, refleksiya edən subyekt xalis Mən, yəni şüur deyil, o özünü refleksiya aktında hiss edəndən çox əvvəl ekzistensiya kimi mövcuddur, deməli, əvvəlcədən müəyyən öndəm anlama malikdir. Təfsirlərin fərqlənməsinin, Rikerin dili ilə desək, «toqquşmasının» səbəbi məhz ekzistensiya üsullarının müxtəlifliyindədir. Ona görə vahid və yeganə təfsir nəzəriyyəsi ola bilməz.

Riker anlam və izah arasında Dilteyin çəkdiyi səddi aradan qaldırmağa, onlar arasında qarşılıqlı əlaqəni və bu əlaqənin dialektik xarakterini aydınlaşdırmağa çalışır. O, yazır: «Bizim paradiqmanın ən mühüm nəticəsi odur ki, o, humanitar elmlərdə izah və anlam arasında münasibət probleminə yeni yanaşma aşkara çıxarır. Diltey bu münasibəti, məlum olduğu kimi, dixotomiya kimi başa düşürdü… mənim hipotezim Dilteyin qoyduğu problemə daha münasib cavab verə bilər. Bu cavab izah və anlam arasında münasibətin özünü daha çox qiraət zamanı büruzə verən dialektik xarakterindən ibarətdir» (4, 69). Filosof anlam və izahın qarşı-qarşıya qoyulması səbəbini anlama çox dar yanaşmanın, məsələn, anlamı yalnız yad mənəvi həyatı – tədqiq olunan əsərin müəllifini emosional cəhətdən, hissi şəriklik vasitəsilə onun cildinə girərək dərk edilməsi kimi başa düşülməsinin nəticəsi hesab edir. Halbuki anlama prosesi özündə nəzəri idrak vasitələrinin bütöv kompleksini ehtiva edir. Buna görə anlam izaha zidd deyil. O, izahetmə və anlamanın dialektikasını qiraət zamanı mətnin mənasının dərki prosesi və təfsirlərin çoxluğu kontekstində şərh edir.

Riker göstərir ki, mətn bir neçə müxtəlif üsulla tərtib edilə bildiyindən real olaraq həmişə cümlələrin xətti ardıcıllığından daha böyük olur. Bu baxımdan təfsirin çoxluğu və hətta təfsirlərin toqquşması çatışmamazlıq və ya nöqsan SAyılmır, əksinə, təfsirin mahiyyətini təşkil edən anlamın məziyyətidir. Burada leksiki polisemiya kimi, tekstual polisemiyadan danışmaq olar. «Anlam təfsirin qarşısıalınmaz əsasını qurmaqda davam etdiyinə görə, demək olar ki, o, fasiləsiz olaraq izah prosedurlarını qabaqlayır, müşayiət edir və tamamlayır». Anlam mətnin müəllifinin subyektiv ideyasına – niyyətinə yaxınlaşdığına görə izahı qabaqlayır, o, verilən mətnin predmeti vasitəsilə, yəni təxəyyül və hissi şəriklik sayəsində mətnin məzmununu təşkil edən və oxucunun məskən sala bildiyi dünyanı yaradır. Anlam izahı o dərəcədə müşayət edir ki, «yazı-oxu» cütlüyü intersubyektiv kommunikasiya sahəsini Kollinqvud və Qadamerin təsvir etdikləri sual-cavab dialoji modelinə uyğun formalaşdırmaqda davam edir. Nəhayət, anlam izahı o dərəcədə sona çatdırır ki, o, mətni onun təfsirçisindən ayıran coğrafi, tarixi və yaxud mədəni məsafəni aradan qaldırır. Lakin müəyyən mənada «son anlam» adlandırıla bilən bu anlam həmin məsafəni hər hansı bir emosional qovuşma vasitəsilə məhv etmir. O, daha çox «yaxınlıq və uzaqlıq oyunundan ibarətdir» ki, bu oyunda yad hətta yaxınlıq əldə ediləndən sonra da yad olaraq qalır. Riker izahı anlamı

inkişaf etdirməsinin miqyası baxımından qiymətləndirərək, izah və anlam arasındakı münasibəti xoşladığı bir deviz vasitəsilə qısaca belə ifadə edir: «Daha çox izah et ki, daha yaxşı anlayasan» (5, 7-8).

Beləliklə, Riker təfsirə anlam və izahın dialektikası kimi baxır. Bu dialektika mətnin immanent «mənası»nı üzə çıxarmaq səviyyəsində iki ifratçılığa uğramaqdan xilas edir: onlardan biri anlamla, digəri izahla bağlıdır. Riker bir tərəfdən, intim dialoq şəraitində subyektə yad şüura nüfuz etməyə imkan verən intropatiyanın mətnlər sahəsinə keçirilməsini düzgün saymır və burada bilavasitə anlamın irrasionallığını qəbul etmir. İkinci bir tərəfdən, o, izahın rasionallığını da inkar edir. Çünki hər ikisi «qeyri-adekvat ekstrapolyasiya»nın nəticəsidir. Əgər birincisi iki subyekt – müəllif və oxucu arasında kongeneallığın, bilavasitə gizli əlaqənin olmasına romantik illüziyanı müdafiə edirsə, ikinci-müəlifin və oxucunun hər cür subyektivliyindən asılı olmayan özündə qapanmış mətnin obyektivliyi haqqında pozitivist illüziya yaradır. Beləliklə, filosof iki cəbhədən, yəni «anlamı intropatiyaya müncər etməyə və izahı mücərrəd quramalara müncər etməyə» qarşı mübarizə edərək, onlara qarşı anlam və izah dialektikasını irəli sürür və bunu «hermenevtikaya birinci töhfəsi» kimi qiymətləndirir (6, 314).

Riker keçdiyi yol onu «birinci – refleksiya olan fəlsəfədən ikinci – fenomenologiya olan fəlsəfəyə və onun vasitəsilə üçüncü – işarələr, sonra simvollar, və nəhayət, mətnlər vasitəsilə şərtlənməyə», yəni hermenevtik fəlsəfəyə doğru aparmışdır. Son illər konsepsiyasının nəzəri müddəalarını praktikada tətbiq edərək o, mədəni-tarixi mətnlər, bədii, tarixi əsərlər, poeziya və fəlsəfi mətnlərin təfsiri ilə məşğul olmuş, müasir dünyada aktuallaşan insanlar arasında qarşılıqlı anlaşma, əxlaq və siyasət prolemlərinə xüsusi diqqət vermişdir.

İstifadə olunmuş ədəbiyyat

1. Бабушкин В.У. Феноменологическая философия науки. Краткий анализ. М.: Наука, 1985.

2. Вдовина И.С. Феноменологическая герменевтика Поля Рикера: задачи и метод. //Актуальные проблемы современной буржуазной философии и социологии. Вып.3. Л.:Изд.-во Ленинг. Ун-та, 1980.

3. Ивин А.А., Фурманова О.В. Философская герменевтика и проблема научного знания. //«Философские науки», 1984, № 5.

4. Кузнецов В. Г. Герменевтика и гуманитарное познание. М.: МГУ, 1991.

5. Рикер П. Герменевтика. Этика. Политика. Московские лекции и интервью. М.: Изд. центр "Academia", 1995.

6. Рикер П. Что меня занимает последние 30 лет. //Историко-философский ежегодник 90. М.: Наука, 1991, с.296-316.

7. Рикер П. Конфликт интерпретаций: Очерки о герменевтике. М.: Academia-Центр; Медиум, 1995.

8. Rüstəmov Y. Fəlsəfənin əsasları. Bakı: Elm, Azərbaycan Universiteti, 2004.

9. Софронов В.В., Грицанов А.А. Рикер Поль //История философии. Энциклопедия. http://www/velikanov.ru/philosophy/default.acp.

Арзу ГАДЖИЕВА

НЕКОТОРЫЕ ОСНОВНЫЕ ПРОБЛЕМЫ ФЕНОМЕНОЛОГИЧЕСКОЙ ГЕРМЕНЕВТИКИ ПОЛЯ РИКЕРА

Резюме

Французский философ П.Рикер является одним из выдающихся мыслителей современности. Он – представитель философсой герменевтики, создал своеобразную концепцию феноменологической герменевтики. Для П.Рикера герменевтика – эта теория, основанная на синтезе достижений специфических способов интерпретаций философствования, разработанных современными философскими системами Запада. В статье анализируются некоторые основные проблемы, особенности его учения, теорий символа, текста. Здесь рассматривается понимание мыслителя связей между символом и интерпретацией, интерпретацией и пониманием, пониманием и объяснением, в контексте которого выявляются отличительные черты его концепции от предыдущих теорий герменевтики.

Arzu HAJIYEVA

SOME BASIC PROBLEMS OF PHILOSOPHICAL HERMENEUTICS OF POL RICOEUR

Summary

The French philosopher P. Ricoeur is one of the outstanding thinkers of the present. He is a representative of philosophical hermeneutics, has created the original conception of phenomenological hermeneutics. For Ricoeur hermeneutics is a theory, based on synthesis of achievements of the specific interpretations' methods of philosophizing, elaborated by modern philosophical systems of West. In the article an analysis is made of some basic problems, the features of his doctrine, theories of symbol, text. There is considered understanding of the thinker of connections between symbol and interpretation, interpretation and understanding, understanding and explanation, in the context of which the distinctive features of his conception from the previous theories of hermeneutics come to light.

Səadət MƏMMƏDOVA
AMEA FSHTİ Sosiologiya və sosial-psixologiya şöbəsinin elmi işçisi, s.e.n.

SUİSİD DESTRUKTİV DAVRANIŞ FORMASI KİMİ

Təkamüllü inkişafın nəticəsi kimi meydana gələn insan özünü tanımağa başladığı vaxtdan mövcudluğunun mahiyyəti və başlanğıcı haqqında düşünməyə başlayıb. Həyat və ölüm məsələsi əbədi bir problem kimi daim insanları narahat etmişdir. Həyatın dərk edilməsi insanın varlığı ilə bağlı fəaliyyətdir desək, bəlkə də yanılmarıq. İnsan müxtəlif makro- və mikroqruplara daxil olur, onları təşkilatlandırır, öz mühitini yaradır və dəyişir, özü ilə, digər şəxsiyyətlə, bütöv cəmiyyətlə qarşılıqlı təsir prosesində formalaşır və sonra isə öz fəaliyyətinin nəticələrini dərk etməyə çalışır, özünün və ya özünəbənzər digər varlıqların mahiyyətinin açılmasında obyektiv gerçəkliyin ikinci dərəcəli təsirini öyrənir.

Müxtəlif tarixi dövrlərdə təbiət-şəxsiyyət, cəmiyyət-şəxsiyyət, şəxsiyyət-şəxsiyyət və şəxsiyyət-Mən (özüm) münasibətlərində yaranan ziddiyyətlər həyatın mənası problemini daha da qabardaraq insanın özünə və öz mühitinə qarşı yadlaşmasına və çox zaman dağıdıcı mövqe tutmasına səbəb olmuşdur. Həm insanın daxil olduğu sosial mühitə, həm də özünə qarşı çevrilmiş bu dağıdıcı münasibət isə müxtəlif formalarda təzahür etmiş və etməkdədir. Əgər mühitə qarşı yönəlmiş destruktiv davranış sübyektin obyektə yönəlmiş aqressiv və dağıdıcı münasibətilə (qarət, soyğunçuluq, müxtəlif formalı zorakılıq halları və s.) özünü büruzə verirsə, subyektin özünə qarşı yönəlmiş destruktiv davranışının son həddi intihardır. İntihar - sosial və psixoloji özgələşmənin son həddi, görünən tərəfi olub, insanın özünə qarşı yönəlmiş dağıdıcı davranış formasıdır.

İntihar tələbatların deyil, emosiyaların, daxili aqressiyanın boğulması və xarici aləmə qarşı olan etirazın özünə yönəlmiş forması kimi təzahür edir. Xarici aləmə qarşı olan, lakin özünə yönəlmiş etirazın şəxsiyyətin deqradasiyasına gətirən bir sıra formalarını fərqləndirmək olar: itaət və ya «Mən»in cılızlaşması, şəxsiyyətin ikiləşməsi, nevroz, əsəbi gərginlik, özünə yadlaşma, özünəqapanma, ölümdə ölümsüzlük axtarışı, ölümün mükəmməl olan kimi qəbul olunması.

İntihara gətirən səbəblər, problemlər, intiharetmə məqamında olan insanın sosial və psixoloji vəziyyəti başlıca təsiretmə amilləri kimi xüsusi analiz tələb edir. Bu baxımdan «intihar» anlayışının və probleminin öyrənilməsi ilə bağlı olan anlayışlar bazasının təhlili xüsusi əhəmiyyət kəsb edir. Yuxarıda qeyd etdiyimiz kimi, intihar insanın daxil olduğu sosial mühitə iə özünə özgələşməsi ilə bağlı yaranan dezadaptasiya prosesinin nəticəsi kimi təzahür edir. Dezadaptasiya özünü ilk növbədə şəxsiyyətin autizm haləti ilə, yəni ətrafdakılarla ünsiyyətdən, təmasdan yayınaraq, öz hisslərinə, öz dünyasına qapanması kimi büruzə verir. Özünəqapanmanı mənəvi-psixoloji gərginliklə

müşayiət olunaraq intihara gətirən xüsusi psixoloji halət kimi xarakterizə etmək olar. S.Şabanovun qeyd etdiyi kimi, məhz özünəqapanma vəziyyətində «suisidentin emosional halında intensiv olaraq mənfi reaksiyalar... yaranaraq, idrak imkanlarını poza bilir. Suisident tərəfindən zamanın təhrif olunaraq qavranılması, onun affekt halı ilə çulğaşaraq, ona edilən psixi zədənin təsiri nəticəsində keçirdiyi emosional hal böhranlı vəziyyətə gəlib çıxır. Onun daxili aləmində belə bir halın heç vaxt bitməyəcəyi təsəvvürü yaranır, onun idrak proseslərinin strukturunda əhəmiyyətli dərəcədə dəyişiklik əmələ gəlməklə, şəxsiyyətinin identifikasiyası pozulur, «Mən» obrazı təhrif olunur.

Fərdin bir sıra somatik pozuntularına rast gəlinir. Belə ki, suisidentdə fiziki cəhətdən zəiflik yaranır, onda yuxusuzluq və halsızlıq əmələ gəlir..., fərdin fəaliyyətində intellektual, emosional və davranış pozuntuları üzə çıxır.

Şəxsin davranışı impulsiv və qeyri-produktiv olmaqla, dezadaptiv xarakter daşıyır. (2, s.7) A.Q.Abramova, V.A.Tixonenko və L.L.Berqelson dezadaptasiyanın obyektiv və subyektiv əlamətlərini fərqləndirərək, hər bir suisidentdə bu əlamətlərin müşahidə edildiyini göstərirlər. Müəlliflərin qeyd etdiyi kimi, «dezadaptasiya... patoloji və qeyri-pataloji formalarda təzahür edir. ...Patoloji dezadaptasiya... psixopatoloji pozuntulara səbəb olaraq, şəxsiyyətin dəyər-yanaşma və kommunikativ fəaliyyətinin pozulmasına gətirir. Suisidlə nəticələnən sosial-psixoloji dezadaptasiyanın hər iki formasında iki faza - predispazision və suisidal seçilir. Bilavasitə ikinci faza suisidlə nəticələnir». Müəlliflər dezadaptasiyanı şəxsiyyətin həll etməkdə çətinlik çəkdiyi daxili və xarici konfliktlərin təzahürü kimi xarakterizə edirlər. (3, s.91-101) Eyni zamanda dezadaptasiya şəxsiyyətin autsayder, yəni daxil olduğu qrupa uyuşmazlığı səbəbindən qrupun üzvləri tərəfindən qəbul edilməməsinin nəticəsi də ola bilər. Ünsiyyətdə yaranan baryerin müəyyən forması kimi təzahür edən şəxsiyyətin sosial cəhətdən mənfi qiymətləndirilməsi, onun üçün müqəddəs olan hiss və duyğularına həqarətlə yanaşılması, insanın şəxsi imkanlarını həyata keçirməyə mane olan psixi baryer və s. frustrasiya halətinə gətirib çıxarır. Uğursuzluq, kədər və sarsıntı (stress) nəticəsində yaranan və ikiqat əsəb gərginliyi ilə müşayiət olunan frustrasiya insanda xarakterin dəyişməsinə, özünəinamsızlığın yaranmasına səbəb olur. Belə insanlarda çox vaxt depersonalizasiya, yəni insanı şəxsiyyət kimi xarakterizə edən psixoloji və davranış xüsusiyyətlərinin itirilməsi haləti və bunun nəticəsi olaraq, yaranan depressiya - şəxsiyyətin normal psixoloji və sosial durum strkturunun pozuluması müşahidə olunur. Beləliklə, həm psixoloji, həm də sosial gərginlik vəziyyətində olan şəxsiyyət ruhi pozğunluq halı - böhran keçirir. Psixoloji böhran halətində olan şəxsiyyətdə mənfi emossiyaların təsiri altında motivasiya sahəsinin koqnitiv təsəvvürləri dəyişir, ümumi davranış passivləşir. Çox vaxt ağır, uzun sürən depressiya vəziyyəti özünəyönəlmiş destruktiv davranışa - intihara səbəb olur.

İntiharla nəticələnən böhranın ekzistensial böhran forması fərqləndirilir. Ekzistensial böhran – mövcudluğun böhranıdır. Ekzistensial böhran insan taleyində fövqəladə vəziyyət olub, elə bir vaxtdır ki, bu zaman insan artıq

əvvəlki kimi yaşamağın mümkün olmadığını anlayır. Böhran zamanı insan həyatın mənasını itirdiyini, ağrı, kədər, həyəcan hiss edir. İnsan ancaq ölüm qarşısında olanda həyatın mənası haqqında düşünür, çünki böhran yaşantısı həyat və heçlik arasında seçim, yeni mənanın axtarışı və ya ondan imtina etməkdir. İnsan heç də həmişə yaşamağa davam etmək üçün özündə qüvvə tapa bilmir. Böhranın səbəbi tam məyusluq olur. Böhrana hazırlaşmaq olmur, o, qəflətən gəlir, lakin bəzən insan uzun illər ölümün astanasında yaşayır. İctimai sarsıntılar zamanı ekzitstensial böhran yaradıcı insanları əhatə edir. (4, s.454) İnsanın ekzistensional böhranı onun qlobal tənhalığının təzahür formasıdır.

İntihar edən insanlarda çox zaman xarakterin aksentuasiyasının güclənməsi müşahidə olunur. K.Leonqard və A.E.Liçko xarakterin aksentuasiyasının – tsikloid, astenik, senzitiv, şizoid, paranoid, epileptoid, isteoid, hipertim tiplərini fərqləndirilər. Bu tiplər bilavasitə depressiya meyilliyi ilə nəzəri cəlb edir. Qeyd olunan tiplərdə çox vaxt psixoz – gerçəkliyin təhrif olunmuş inikası müşahidə olunur.

Fərdin nəzarət fokusunun eksternal (fərd baş vermiş hadisənin səbəblərini tale, təsadüf, ətraf mühit kimi xarici amillərdə görür) və yaxud da internal (fərd həyatında baş verən hadisələrə görə daha çox özünün cavabdeh bilir) istiqamətindən asılı olaraq, suisidin demonstrativ və həqiqi növünü fərqləndirmək mümkündür.

Məlumdur ki, E.Dürkheym suisidin klassik tədqiqatçılarından olmuşdur. E.Dürkheym intihar anlayışını izah edərkən qeyd edirdi ki, «İntihar – bilavasitə və ya bilvasitə qurbanın özü tərəfindən müsbət və ya mənfi hərəkət kimi yerinə yetirilmiş hər cür ölüm hadisəsidir». (5) E.Dürkheym bu və ya digər ölkələrdə baş verən intihar halları ilə bağlı meydana çıxan faiz fərqlərini «hər bir sosial qrupun özünəməxsus xüsusiyyətləri» ilə əlaqələndirirdi. Müəllif psixoloji mahiyyətinə görə intiharın dörd – eqoist, altruist, anomik və fatalist hallarını fərqləndirdi. Eqoistik intiharı «insanın kəskin fərdiləşməsi» kimi izah edən müəllif qeyd edirdi ki, «altruizm eqoizmin tam əks mənasını ifadə edir. «Mən» insanın özünə aid olmayanda, özü deyil, başqası ilə birləşdikdə onun fəaliyyət mərkəzi öz varlığına deyil, həmin fərdin daxil olduğu qrupa aid olur». E.Dürkheym məcburi altruist intihar, fakultativ altruist intihar və təmiz altruist intiharı fərqləndirərək qeyd edir ki, məcburi altruist intihar borc naminə, fakultativ altruist intihar fərdi inamlar naminə, təmiz altruist intihar isə heç bir səbəb olmadan, özünü qurban vermək tərifəlayiq hesab edildiyi üçün yerinə yetirilir.

Anomal intiharı cəmiyyətin mənəvi-əxlaqi böhranı ilə əlaqələndirən müəllif, bu vəziyyətin tənzimlənməsi yolunda ictimai rəyin əsaslı rola malik olduğunu vurğulayır. Müəllif anomik intiharın əksi olan fatalist intihar növünü təqdim edərək, fatalist intiharın səbəblərini «nizamlamanın həddən artıq çoxluğu nəticəsində gələcəyin amansızcasına qapadılması, ehtirasların nizam-intizam vasitəsilə ciddi şəkildə qanuniləşdirilməsi» ilə izah edir.

E.Dürkheym fərqləndirilən intihar növlərinin baş vermə səbəblərini aşağıdakı kimi təqdim edir:

Eqoist intiharin əsas səbəbləri – uzun müddətli melanxoliya, xarici mühitə uyğunlaşma imkanlarının itirilməsi, həyatın mənasının itirilməsi, həyata məhəbbətin itirilməsi, əzablardan xilas olmaq istəyi ilə bağlı olur, subyekt epikur laqeydliyinə qapanır.

Altruist intiharin əsas səbəbləri – ağıl və iradənin birliyindən doğur, borcdan irəli gəlir, inam və entuziazma qapanma nəticəsində baş verir.

Anomal intiharin əsas səbəbləri – qəzəb və təəssüf, məqsədin itirilməsi, iradə zəifliyi, həyata nifrətlə bağlıdır. Anomal intihar proqressiv və reqressiv xüsusiyyətlərə malikdir.

E.Dürkheym qarışıq intihar növləri də təqdim edir. Bu sırada:

1. Eqoistik-anomik intihar – ehtiras və ehtirassızlığın, fəaliyyət və xəyalpərəstliyin nəticəsi kimi əmələ gəlir.
2. Anomik-altruist intihar – ehtiraslı fədakarlığın nəticəsində baş verir.
3. Eqoistik-altruist intihar – əxlaqi ciddilik tərəfindən məhdudlaşdırılmış melanxoliyanın nəticəsidir».

E.Dürkheym statistik məlumatlar əsasında faiz dəyişkənliyinə görə yuxarıdan aşağıya ardıcıllığına uyğun olaraq, intiharın sosial səbəblərinin aşağıdakı təsnifatını təqdim edir:

1) Yoxsulluq, var-dövlətin itirilməsi;
2) Ailə faciəsi;
3) Məhəbbət, qısqanclıq, pozğunluq, məqsədsiz həyat;
4) Müxtəlif xoşagəlməz hadisələr;
5) Psixi pozğunluq;
6) Vicdan əzabı, cinayətə görə lənətdən qorxu hissi, təqibdən qorxu;
7) Digər səbəblər, aydın olmayan səbəblər;
8) Fiziki əzab;
9) Ailədə xoşagəlməz hadisələr;
10) Pozğunluq, əyləncəli oyunlara ehtiras, alkoqolizm;
11) Dini çaşqınlıq;
12) Çılğın əsəbi vəziyyət;
13) Həyata nifrət.

E.Dürkheym intiharin ilkin sosial əsaslarını - 1. Cəmiyyəti təşkil edən fərdlərin təbiəti; 2. Onların assosiasiya olunması vasitələri, yəni sosial təşkilatların təbiəti; 3. Kollektivlərin anatomik quruluşuna toxunmadan kollektiv həyatın axarını pozan təsadüfi şərait, milli və iqtisadi böhranlar və s. ilə bağlayır.

Müəllifə görə intihar hadisəsinə səbəb olan «əsas qeyri-sosial amillər: fərdi cəhdlər və fiziki mühitin vəziyyəti»dir. Fərdin psixoloji vəziyyətinin intihar hadisəsinin baş verməsinə etdiyi təsiri araşdıran E.Dürkheym bu zaman Jousset və Moroau de Tours kimi psixoloqların əsərlərinə əsaslanaraq, intiharin baş verməsinə təsir edən dəlilik vəziyyətinin dörd növünü fərqləndirir. Bu Aşağıdakılardır:

1. Maniakal intihar – hallüsinasiya və sərsəm ideyalardan əzab çəkən adamlara xas olur.

2. Melanxolik intihar – yüksək ruhi düşkünlük, dərin kədər içərisində olan adamlar arasında rast gəlinir.

3. Beyindən çıxmayan ideyalardan doğan intihar – bu zaman intihar nə real, nə də xəyali səbəblərlə əsaslandırılmır. Ancaq xəstənin ölüm haqqında zəhlətökən fikirlərilə bağlı olur.

4. Avtomatik və ya impulsiv intihar – nə həqiqətdə, nə də xəstənin xəyalında intihar üçün heç bir səbəb olmur» (5).

M.Halbvaks «Suisid hadisəsi» əsərində intiharın yeni təsnifatını təqdim edir: ***günahdan təmizlənmək məqsədilə yerinə yetirilən intihar*** – hər hansı bir ağır cinayətdən sonra özünü cəzalandırma; ***lənətləndirici*** – cəmiyyətə qarşı qiyam kimi yerinə yetirilən intihar; ***dezillüzion*** – fərdin özünün cəmiyyətdəki mövqeyi ilə bağlı yaranmış məyusluğunun, ehtiyac hiss etdiyi yardımın olmamasının nəticəsi kimi (6).

B.P.Borisova görə, suisid – insanın qeyri-şüuri təbiəti və şəxsi varlığının dərk edilməsi tələbatı arasındakı ziddiyyətlərin həll edilməsində azadlığın təzahürü olub, həyat fəaliyyətinin əvvəlki keyfiyyətdə davam etdirilməsinin mənasızlığının dərk edilməsi kimi həmişə özünün təsdiqi üçün həyatın əks tərəfi kimi çıxış edir. Müəllifin qeyd etdiyi kimi, suisidin əsaslarının həyatın mənasızlığının dərki ilə əlaqəsi yalnız şəxsi deyil, həm də tarixi varlığı dərk etməyə imkan yaradır.

E.P.Qolovkoya görə isə suisid – özünə qarşı zorakılıq olub, başqaları üzərindəki zorakılıqdan fərqli olaraq, nə isə daha yüksək və daha azad olandır. (7, 754)

A.Q.Abrumova, V.A.Tixonenko və L.L.Berqelson suisidi – şəxsiyyətin mikrososial konfliktlər şəraitində sosial-psixoloji dezadaptasiyasının nəticəsi kimi izah edirlər və suisidin dörd formasını fərqləndirirlər: 1) etiraz; 2) çağırış; 3) özünü cəzalandırma; 4) imtina (9, s.95).

A.Malaxova görə, suisidin sosial xüsusiyyətləri özünü müasir dövrdə suisidin kütləvi, yoluxucu, şəhər xarakteri almasında göstərir. N.Kornetov isə bütün suisidləri üç qrupa bölür:

1. Həqiqi intihar (daxili səbəblərdən törəyir və çox vaxt gözlənilməz olur).

2. Gizli intihar (bunun layiqli yol olmadığı dərk edilsə də başqa çıxış yolu tapılmadığından baş verir).

3. Demonstrativ (köməyə çağırış olub, öz problemlərinə diqqət cəlb etmək məqsədi daşıyır) (10).

Müasir dövrdə intiharın geniş yayılmış formalarından biri də evtanaziyadır. Evtanaziyanı bəzən rasional intihar kimi də xarakterizə edirlər. Meqan-Cen Conson evtanaziyanın aşağıdakı formalarını fərqləndirir:

1. Könüllü aktiv (bu zaman xəstə sağlam ağla malik olur).

2. Könüllü passiv.

3. Məcburi aktiv (xəstənin iradəsi nəzərə alınmadan, yaxud da onun arzusu əksinə).

4. Məcburi passiv.

5. Könülsüz aktiv (sağlamlıq vəziyyəti və ya yaşı ilə əlaqədar olaraq, öz arzusunu ifadə edə bilməyən xəstəyə qarşı çevrilir).

6. Könülsüz passiv. (11, s.69-70)

Müasir dövrdə intiharın cavanlaşması müşahidə olunur. Belə ki, yeniyetmə və gənclər arasında suisid tədricən adi hal kimi qəbul edilməkdədir. Bir çox müəlliflər yeniyetmə və gənclər arasında baş verən suisidin xarakterik xüsusiyyətlərini aşağıdakı kimi təsnif edirlər:

- ailə, məktəb, qrup daxilində baş verən qısamüddətli, obyektiv ağır olmayan münaqişələrlə bağlı baş verən intihar;
- münaqişə son dərəcə mənayüklü və zədələyici qəbul edilərək, daxili böhran döğurur və hadisələrin dramatikləşdirilməsinə gətirib çıxarır;
- suisid romantik-qəhrəmanlıq orealında qəbul edilir;
- suisid nümayişkaranə xüsusiyyətə malik olur;
- suisid affekt vəziyyəti ilə müşayiət olunur (10).

Məktəb yaşlı oğlan və qızlar arasında baş verən intiharın əsas səbəblərindən biri tərbiyəçi tərəfindən pedoqoji aktın pozulması nəticəsində şagirddə yaranan və qorxu və frustrasiya ilə müşayiət olunan və nevroza gətirən didaktogeniya vəziyyətidir. Uşaq yaşlarında yaranan və psixotravmatik situasiyalarda aktivləşən, həyat əhəmiyyətli münasibətlərin pozulması, yəni əsəb konflikti olan nevrozun üç növü fərqləndirilir: nevrasteniya, isteriya və zəhlətökən halların nevrozu. Həm yaşlı, həm də gənc insanlarda nevrozun yaranmasının başlıca səbəbi bilavasitə insanın natamamlıq kompleksinin güclənməsilə bağlıdır. Natamamlıq kompleksi insanın 1) öz fiziki, intellektual və s. xüsusiyyətlərinin dərk olunması; 2) özünüqiymətləndirmə; 3) şəxsiyyətə təsir edən xarici amillərin düzgün qavranılması ilə bağlı olan özü haqqındakı təsəvvürlər sistemində yaranan neqativ istiqamətli meyllərin nəticəsi kimi təzahür edir. Nevrozun yaranma səbəbləri sırasına insanın başqa insan və ya qrup tərəfindən məqsədyönlü təsirə məruz qalmasının nəticəsi kimi təzahür edən təlqini aid etmək olar. Təlqin zamanı insan mənimsənilən iformasiyanı tənqidi qiymətləndirə bilmir, bu isə hər bir halda (təlqinə müqavimət göstərilsə də, müqavimət olmasa da) psixoloji gərginliklə müşayiət olunur. Destruktiv davranış formalarının baş verməsində təqlidin də xüsusi yeri vardır. Belə ki, xüsusilə gənc və yeniyetmələr ideallaşdırdıqları şəxslərin geyim, həyat tərzi və davranışlarını təqlid etməyə meylli olurlar. Kütləvi intihar hadisələrində isə təqlid əsas amillərdən birinə çevrilir.

XIX əsrin sonlarında E.Dürkheym intihar hallarında irsi xüsusiyyətlərin mövcudluğunu vurğulayırdı. Artıq XXI əsrdə tibbi və psixoloji tədqiqatlar intiharın psixiki, bioloji, genetik və sosial irsiyyət xüsusiyyətlərinin olmasını sübut ediblər. İntiharın neyrobioloji əsaslarını tədqiq edən bir sıra suisidoloqlar qeyd edirlər ki, genetik amillər və mühitin qarşılıqlı təsiri nəticəsində əmələ gələn stress vəziyyəti fərdin həyəcan və narahatlığının yüksəlməsi ilə müşayiət olunaraq, aqressiv impulsların güclənməsinə və depressiyaya aparır, bu isə beyində neyrobioloji pozuntulara səbəbə olur.

N.Kreitman suisidin genetik əsasları dedikdə bilavasitə, sosial irsiyyət amilini ön plana çəkərək, öz fikrini aşağı təbəqələr arasında sosial vəziyyətə qarşı yönəlmiş intihar halları ilə sübut etməyə çalışır. İntiharın bioloji əsaslarını tədqiq edən D.A.Brent qeyd edir ki, valideynləri intihar etmiş övladların 12-18 %-i intihar meylli olurlar. F.Schulsinger və P.Vender isə göstərirlər ki, hətta övladlığa götürülmüş uşaqların bioloji valideynləri intihar ediblərsə, yeni şəraitdə belə uşaqlar arasında suisidə meyl 6 dəfə artır. A.Roy qeyd edir ki, monoziqotlu əkizlər arasında intihar diziqotlu əkizlərə nisbətən 20 dəfə çox rast gəlinir (10).

Bir çox suisidoloqlar intiharın tibbi əsaslarını tədqiq edərək, belə nəticəyə gəliblər ki, suisidlə nəticələnən stress beyində bir sıra tibbi-bioloji dəyişikliklər baş verməsi ilə müşayiət olunur. Fenfluraminin effekti kütləşir və prolaktin artır (E.F.Coccaro, J.Mann, V.Aranqo, A.J.Cleare), dofaminergen sistem pozularaq (M.S.Brodie, A.R.Vize, V.J.McBride, D.C.Hoffmann), depressiyaya, motivasiyanın itirilməsinə, köməksizlik, qorxunun yaranmasına gətirib çıxarır, noradrenerqen neyronların sayı azalır, noradrenalin aşağı düşür, tirozinqidroksilazin fəallığı yüksəlir, adrenoreseptorların miqdarının artması noradrenerqik sistemin zəifləməsinə (J.Mann, V.Aranqo) səbəb olaraq, suisidə gətirir. Qipotalamo-qipozizar-kortikoid sistemindəki dəyişikliklər stressin əsasını təşkil edərək, intihara meylliyi artırır (L.Traskman-Vendz). Suisidə gətirən tibbi-bioloji amillərdən biri də immun sistemindəki pozuntulardır. Belə ki, immun sisteminin pozulması psixoloji pozuntularla müşayiət olunur (J.Berquist, L.Traskman-Bendz). M.Zureikin tədqiqatlarına görə, intihara cəhd edən 43-53 yaşlı kişilərin qanında xolesterolun aşağı olması aşkar edilmişdir. Aşkar edilmişdir ki, qanda xolesterolun aşağı enməsi beyində biokimyəvi proseslərə təsir edərək, insanın davranışına və əhval-ruhiyyəsinə mənfi təsir edir, bu isə suisid riskini artırır. Bilavasitə müxtəlif psixi xəstəliklər zamanı xolesterolun azlığı müşahidə olunur (P.F.Boston, J.Ryvakovski).

A.Malexov suisidə gətirən şərtləri aşağıdakı kimi analiz edir:

- psixoloji zədələyici vəziyyət;
- suisidentin şəxsi xüsusiyyətləri;
- tələb və arzuların təmin olunması yollarının tapılmamasından yaranan gərginlik;
- çətin vəziyyətlərdən çıxış yolu tapmaqdan imtina etmə;
- aşağı səviyyəli özünənəzarət;
- əsəb gərginliyinin yumşaldılmasında təcrübəsizlik;
- emosional qeyri-sabitlik;
- təlqin etmənin yüksəlməsi;
- güzəştə getməmək;
- həyat təcrübəsinin olmaması.

Kaliforniya Universitetinin professoru E.Şneydman suisidə gətirən səbəbləri aşağıdakı kimi təsnif edir:

- Bütün suisidlərin ümumi məqsədi – problemin həlli yolunun axtarışıdır.

- Bütün suisidlərin ümumi məsələsi – şüurun dayandırılmasıdır.
- Bütün suisidlərin ümumi stimulu – dozülməz ruhi əzabdır.
- Bütün suisidlərin ümumi stressoru – təmin edilməmiş psixoloji tələbatlardır.
- Əsas suisidal emosiya – köməksizlik – ümidsizlikdir.
- Psixikanın ümumi vəziyyəti – «tunel düşüncə»dir.
- Digər adamlarla ümumi əlaqə – niyyət haqqında məlumat verilməsidir (10).

İntiharın qarşısını almaq üçün potensial suisidentlərin aşkar olunması və onlara psixoloji xidmət göstərilməsi vacib şərtdir.

Bu məqsədlə suisid probleminin reabilitasiyası ilə bağlı ABŞ, Rusiya və bir sıra digər ölkələrin təcrübəsindən istifadə edilməli, bilavasitə intihar meylli insanlara xidmət edən inam telefonları, reabilitasiya mərkəzləri açılmalıdır.

İstifadə olunmuş ədəbiyyat

1. İ.Məmmədov. İzahlı psixoloji lüğət, B., 2002.
2. S.F.Şabanov. «Suisidal hallar üzrə Məhkəmə-psixoloji ekspertizasının keçirilməsi (metodik vəsait)», B., 2000.
3. А.Г.Абрумова, В.А.Тихоненко, Л.Л.Бергельсон. «Социально-психологическая дезадаптация личности и профилактика суицида», журн. «Вопросы психологии», № 4, 1981.
4. Е.А.Кочемировская. «50 знаменитых самоубийц», М., ФОЛИО, 2004.
5. Э.Дюркгейм. «Самоубийство», М.,1912.
6. П.А.Сорокин. «Самоубийство как общественное явление», Социологические исследования, 2003, № 3.
7. Б.П.Борисов. «Психология суицида на закате человеческой истории», Философия и будущее цивилизации, тезисы докладов и выступлений IV Российского Философского конгресса, т.4, М., 2005.
8. Э.П.Головко. «Самоубийство как социальный феномен в русской философии». Философия и будущее цивилизации, тезисы докладов и выступлений 4 Российского Философского конгресса, т.4, М., 2005.
9. А.Г.Абрумова, В.А.Тихоненко, Л.Л.Бергельсон. «Социально-психологическая дезадаптация личности и профилактика суицида», журн. «Вопросы психологии», № 4, 1981.
10. Карен Хорни. Суицид теории Самоубийство Tools of Death – Энциклопедия орудий смерти!. http://ersia.narod.ru/suicide/su05/su0007.html.
11. М.Алиева. «Эвтаназия и проблема гуманности в медицине», Б., 2004.

Саадат МАМЕДОВА

СУИЦИД КАК ДЕСТРУКТИВНАЯ ФОРМА ПОВЕДЕНИЯ

Резюме

Данная статья посвящена изучению понятийной базы проблемы суицида. Отмечается, что суицид – видимая сторона, крайняя степень социального и психологического отчуждения и форма деструктивного поведения, которое направлено против самой личности.

Предлагаются формы суицида (демонстративный и истинный), основные факторы и причины, приводящие к суициду.

Saadat MAMEDOVA

SUICIDE AS A FORM OF DESTRUCTIVE BEHAVIOUR

Summary

The present articlle is dedicated to shidy of conceptional base of the suicide problem. It is noted that suicide is a visible aspect, the extreme degree of social and pscicological alicnation and a form of a destrucive behaviour which is directed against a personality himself. There are considered the forms of suicide (demonstrative and true), basic factors and the causes bringing to suicide.

Фарида МИР-БАГИРЗАДЕ
кандидат искусствоведения, старший научный сотрудник отдела Аксиологии и философской антропологии Института Философии и Политико-правовых исследований Национальной Академии Наук Азербайджана

СИМВОЛЫ В СИСТЕМЕ КУЛЬТУРЫ

Ядром культуры служат понятия ценности и смысла. Именно категории ценности и смысла по существу и являются той необходимой предпосылкой, которая определяет внутреннюю сущностную основу человеческого бытия как порождающего фактора культуры.

Культура, взятая в аспекте своего ядра, представляет собой сложную системную иерархию ценностей. Любой элемент человеческой культуры может быть рассмотрен как ценностность: ценностны природа, предметы, орудия, инструменты, сам человек, его слова, действия, отношения и т.д. Вместе с тем все элементы культуры как ценности находятся в определённом соотношении в зависимости от того, воплощением какой ценности они являются. Так, наиболее значимыми ценностями человеческой культуры-ценностями, венчающими культурную иерархию – будут представления об истине, добре, красоте.

Сопричастным понятию «ценность» в объяснении культуры является понятие «смысл». Смысл – это духовная направленность бытия человека в сторону реализации его культурно-исторических ценностей. Смысл-это специфическая форма выражения деятельности человека в соответствии с теми или иными ценностями и идеалами. Разве можно понять смысл того или иного события, вещи или текста вне определённой системы ценностей, ведь они имеют смысл лишь как некая позиция по отношению к различным ценностям: добро-зло, истина-ложь, прекрасное-безобразное, полезное-вредное и т.д. Неразрывная, сущностная связь ценностно-смыслового ядра культуры с областью языка непосредственно подводит к центральной проблеме наших рассуждений-символу. Во всём многообразии знаково-языковых средств культуры символ занимает особое место. Он, по существу, своим силовым полем охватывает все элементы и феномены культуры. Являясь «чувственно-сверхчувственным» образованием, диалектически воплотившим в себе единичное и всеобщее, конечное и бесконечное, конкретное и абстрактное, материальное и идеальное, символ явился наиболее законченной и универсальной формой выражения человеческого смысла и человеческих отношений.

Символ представляет собой изначальную и всеобщую сторону познания, сложившуюся естественно историческим путём для образного

представления в сознании человека абстрактных идей тех или иных классов предметов, их свойств и отношений. Символ представляет собой выражение сущности познавательного образа как результата обобщающей деятельности отражения, как формы обозначения окружающего нас мира.

В процессе познавательной деятельности человека символизация проявляется в различных формах. С одной стороны, во внешней чувственно-наглядной форме, в виде тех или иных материальных символах, скажем графиков, диаграмм, систем уравнений и др., с другой стороны в абстрактно-изобразительной форме, в виде тех или иных мыслительных отражательных образований, так называемых идеализированных объектов, логических конструкций типа- прямая линия, материальная точка, несжимаемая жидкость и т.д. Символ в системе культуры-это собирательное понятие для выражения общего принципа конструирования культурных смыслов и ценностей принципа, проявляющего себя в многочисленных феноменах, каждый из которых в отдельности в своей основе хотя и имеет символическую природу, однако никогда до конца её не исчерпывает.

Наибольшее выражение своих сущностных характеристик и особенностей символ в системе культуры находит в искусстве. В области политики символ служит эффективным средством привнесения в массы, коллективы, в сознание отдельных людей о тех или иных смыслов и стоящих за ними идей и ценностей. К основным политическим символам относятся различные призывы, воззвания, лозунги, планы, проекты, программы, решения, афиши, церемонии, а также политически-административные и государственные указы, законы, конституции и т.д.

Графический способ представления символического выражения – один из наиболее распространенных. Он присущ многочисленным сферам жизнедеятельности человека-науке, искусству (всевозможные проекты, карты, физические, химические, математические, логические и т.д. формулы и конструкции), политике (различные плакаты, афиши) и т.д.

Дискурсивные символы - это символические обобщения и конструкции, возникающие не столько в результате зрительного восприятия, сколько мыслительного процесса. К ним относятся всевозможные литературные символы и им сопутствующие языковые конструкции, метафоры, сходства, сравнения и т.д., а также символы философии, теологии, науки, законодательства и т.д.

Процессуальные символы выражают определённые ценности и идеи при помощи конкретных действий. К ним относятся всевозможные виды политической жизнедеятельности человека - различные манифестации, марши, ритуалы, церемонии, проводы, встречи, а также различные политические и народно-календарные празднества и всевозможные обряды и т.д.

Операционные символы - это такие символы и символические структуры, которые применяются для поддержания определённого общественного порядка, устойчивого состояния общества. Наиболее значительным и повсеместно распространенным операционным символом являются валютные знаки-символы, выступающие в различных своих «ипостасях»-прежде всего деньгах, кредите, а также в драгоценных металлах.

Одними из самых существенных способов реализации символического начала культуры являются лингвистические символы-язык, речь. Каждый язык представляет собой определённый набор, или словарь слов, обозначающих все известные или представляемые человеком определённой культурной общности или народа предметы, явления, процессы окружающего мира. Каждый язык одновременно с этим обладает определённым видом грамматики и синтаксиса, которые упорядочивают и организуют в специфическую последовательность слова. Было бы невозможно выделить части речи, если бы наше мышление не различало таких категорий, как предметность, движение, состояние, качество, отношение и т.д. В этом смысле можно утверждать, что грамматические категории всегда взаимодействуют с категориями логики, возникающими в процессе познания действительности.

Слово, как символ, как целостный многообразный мир внутренних отношений в своем строении может быть представлено как соотнесённое единство трёх слоев или кругов, последовательно охватывающих один другой. Первый слой – это фонема или костяк слова, представляющий собой материальную субстанцию, посредством которой слово передаётся другому, звучит и слышится. Второй слой-это морфема-ткань слова, или общее представление о действительности, которое фонема несёт. Третий слой-это семена-духовная субстанция слова, идея, которую слово выражает.

Итак, рассмотрение символа как универсального, всеобщего средства выражения смыслов культуры-её идей и ценностей, позволяет сделать такой вывод-человек существо символическое, он живёт посредством символов и благодаря им. К наиболее важным функциям места и роли символа в системе культуры относятся следующие: мировоззренчески-познавательные, регулятивно-адаптивные и коммуникативно-информационные.

Мировоззренчески-познавательная функция символа заключается в том, что символ, в каких бы областях культуры не реализовывался, всегда есть специфическая форма отражения действительности. Постижение реальности в её внутренней закономерной связи и глубинных сущностных отношениях происходит через призму создаваемых человеком в процессе своей целенаправленной предметно-практической деятельности идей, ценностей, которые с одной стороны, выражаются в универсальных проблемах человеческой культуры, а с другой – в наиболее характерных и определяющих

особенностях социально – исторического момента определённого этапа развития культурной жизни.

Вторая функция символа-адаптивно-регулятивная. Она означает то, что символ служит активным регулятором социального поведения человека, инструментом его адаптации в культуре, а также эффективным средством установления взаимных связей между людьми.

Адаптивно-регулятивная функция символов особенно чётко проявляется на примере обычаев и обрядов. Если обратиться к одной из наиболее распространённых форм обычаев и обрядо-календарной обрядности, к её древнейшему, первичному, то окажется, что в обычаях и обрядах в самых общих чертах выражена своеобразная адаптация человеческой деятельности к объективному космическому ритму природы. Чтобы нынешний год был не менее удачен, чем прежний, нужно повторить всё, что делалось в прежнем, и повторить именно также, без изменений-только тогда не изменится мир. Эти регулятивно повторяемые символические действия и стали обрядами.

Третьей функцией символа является коммуникативно-информационная, которая означает то, что символ является своеобразным конденсатором памяти культуры о себе самой, о своих основополагающих отношениях к миру, о своих сущностных идейно-ценностных ориентациях.

Коммуникативно-информационная функция символа означает, что он служит не только наиболее универсальным и действенным механизмом коллективной памяти человечества, но и синтезирующим принципом единства культуры. Являясь важным механизмом памяти культуры, символы переносят тексты, сюжетные схемы и другие семиотические преобразования из одного пласта культуры в другой. Символ – это механизм единства памяти культуры, носитель социальной наследственности, накапливающий и объединяющий вокруг себя новый исторический опыт человечества. Выступая в этом своём качестве, символ представляет собой концентрированное выражение всех принципов знаковости и одновременно переход за их границы. Он - посредник между разными сферами семиозиса, а также между семиотической и внесемиотической реальностью. В равной мере он посредник между синхронией текста и памятью культуры. Роль его – роль семиотического конденсатора. Обобщая, можно сказать, что структура символов той или иной культуры образует систему, изоморфную и изофункциональную генетической памяти индивида.

Список использованной литературы

1.Вернадский В.И. Избранные труды по истории. М. «Наука», 1981.

2. Карнап Р. Значение и необходимость. Исследования по семантике и модальной логике. М., 1959.

Fəridə MİR-BAĞIRZADƏ
sənətşünaslıq namizədi

MƏDƏNİYYƏT SİSTEMİNDƏ RƏMZLƏR

Xülasə

Rəmz özünün sahəsi ilə mədəniyyətin fenomenini və bütün elementlərini özündə əks etdirir. Rəmz təffəkkürün ilk və ümumi tərəflərini birgə müşayət edir. Rəmz xarakterik xüsusiyyətlərinə görə incəsənətdə öz yerini tutur. Mədəniyyət sistemində əsas funksiyası və rolu olan rəmz dərk olunan dünya görüşlü, informasiya və məlumat vermək növlərinə aiddir.

Müəllif rəmzlərə mədəniyyətin ideya və dəyərlərinin ümumi və universal fikir ifadəsi kimi baxır. Bu və ya digər mədəniyyətin rəmzlərinin quruluşu fərdin genetik yaddaş sistemini yaradır. Məqalədə mədəniyyətin real varlığı rəmzlərin xüsusiyyətlərində açıqlanır.

Farida MIR-BAGIRZADEH
kandidat of art science

SYMBOLS IN CULTURAL SYSTEM

Summary

The symbol covers all elements and phenomena of culture by its force field. It represent the primery and general part of knowledge. The symbol found, the greatest expression of its intrietic charactecs and features in art.

The ideological-cognitive and communacetional-informative functions of the symbol-are the most umnortant functions of a place and a role of the symbol in art.

The author shows symbols as universal, common forms of imagination of cultural minds, its ideas and values. The construction of symbols of this or other culture creates the system of genetic memory. In the article a real being of culture is revealed in the features of symbols.

Şirinxanım EYVAZOVA
AMEA-nın Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitunun «İdrak nəzəriyyəsi və elm fəlsəfəsi» şöbəsinin kiçik elmi işçisi

MUĞANNANIN (İSA HÜSEYNOV) «MƏHŞƏR» ROMANINDA İNAM, İDRAK VƏ EHKAM MÜNASİBƏTLƏRİ

İsa Hüseynovun (Muğannanın) «Məhşər» romanı müasir dövrü əks etdirməsə də, burada qoyulan problemlər özünün fəlsəfiliyi və aktuallığı ilə hər zamana uyğun gələ bilir, hətta ən ideal zaman hesab edilən sosializm dövrünə də.

Əsərin bəhs etdiyi əsrlə, zamanla əsərin yazıldığı əsr, zaman təzadına A.Hüseynov öz münasibətini, bizcə, doğru müəyyənləşdirir: «Əlbəttə, müasirlik geniş anlayışdır və həqiqi sənətkarlar ən qədim dövrlərə üz tutanda da yaradıcılığın həmin vacib məziyyətini qoruya bilirlər, keçmişin dərki, mənalandırılması əslində hazırkı qayğı və düşüncələrimizin daha aydın şərhinə doğru yönəlir». (1, s.154)

Müəllif İsa Hüseynovun XIV əsrə üz tutmasının səbəbini belə izah edir: «Qələmə aldığı o uzaq keçmişin siyasi, mənəvi mənzərəsindəki kəskin təzad, heç şübhəsiz, İsa Hüseynovun sənətkar qəlbini həyəcana gətirmişdir: doğrudan da bir tərəfdən insanın ən ali yaradıcı qüvvə – allah səviyyəsindəki ucalığına, mötəbərliyinə bəslənilən müdrik Nəimi inamı, sönməz Nəsimi etiqadı, «cəmi yer üzündə həqq səltənəti qurmaq» kimi nurlu ideaların saçdığı şölə, digər tərəfdən ən dəhşətli qırğınlar, dünyaya fəlakət gətirən cahillik ehtiraslarının tüğyanı... bunlardan təsirlənməmək, sarsılmamaq mümkün deyildir». (1, s.133)

Zaman hürufilər deyəni demir, bu zamanın inamı inamsızlığa, idrakı idraksızlığa xidmət edir. Zəmanə inamının təmsilçiləri ali mənsəb dinçilər – sədrəddinlər, şeyxlər, seyidlər, qazilər, hacılar, zəmanə idrakının nümayəndələri – sultanlar, şahlar, hökmdarlar, bahadırlar bir-birindən bəhrələnirlər. Din hakimiyyətə, hakimiyyət dinə yarayır və bir-birini qoruyur:

Diri-diri torpağa basdırılanların, divara hörülənlərin, odda yandırılanların, saman tüstüsündə boğulanların, namusu ayaqlar altında tapdalananların, zorlananların, kəllələrindən məscid tikilənlərin mühitinə, dövrünə qarşı nə dinçi, nə də hakim etirazı var. Əslində həmin dövrü yaradan, cahilləşdirən, insansızlaşdıran onlardır. Yanlışlaşdırılan etiqadlar, korlaşdırılan, korşallaşdırılan ağıllar, idraklar zülm, zor, qorxu buxovuna salınıb, inamsızlıq, idraksızlıq əsarətində qalıb. Teymurlar, Miranşahlar, Sultan Əhmədlər, İbrahimlər, Şeyx Bərəkələr, Şeyx Əzəmlər və hürufilər.

Bəşər tarixinin indiyə kimi elə bir dövrü olmayıb ki, inam və idrak vasitəsi ilə insanı allah sayan, hər şey hesab edənlərlə qorxu və zülm vasitəsiylə insanı həşəratdan da zəif, gücsüz sayan, heç şey hesab edənlər arasında bu dərəcədə böyük təzad olsun.

İnsana möhtəşəm inamsızlıq ifadəçisi Əmir Teymur qılınc adamıdır, onun bütün idrakı qılınca sərf olunub. O, «başı üstündə peyğəmbərin bayrağını», «əlində islamın qılıncını gəzdirir», «Dini xilas etmək» adıyla adamları dəhşətli

inamsızlığa, zülm və qorxuyla idraksızlığa düçar edir.

«İnsan zülmə tabedir, zülm etməsən tabe olmur, itaətdən çıxıb qiyam qalldırır. Ona görə də divan tutdum və gözlərinin qabağında kəllə yığdım ki, yüz min il sonra da Məhəmmədin qılıncını unutmasınlar». (2, s.106)

Hətta Teymurun inamsızlığı o həddə çatır ki, insan onun üçün qoyundan da qiymətsiz olur:

«Din və allah yolundan azmış Sultanı 6 ay himayə etdiklərinə görə və İsfahana peyğəmbərin bayrağı ilə gələn orduya tələfat verdiklərinə görə bu qurban bayramı günü isfahanlılar Əmir Teymurun bir əsgərinə bir qurban verməli idilər və bu qurbanların hamısı əli qılınc tuta bilən kişi olmalı idi». (2, s.56)

Teymur idrakı insanlıq qanunlarına yox, bioloji mövcudluğun qanunlarına və məntiqinə uyğun nəticə çıxarır; yaşayış uğrunda amansız mübarizə, yırtıcı instinktlər, özünümühafizə əsasında mövcudluğunu qoruyan heyvanlar hər üç qanunu qorxu hissiylə birləşdirməsələr yaşaya bilməzlər.

İnsana inanmayan Teymur «qorxusuz insanı qudurmuş it»dən də pis sayır və insan ruhunu – inamını, idrakını, mənəviyyatını, iradəsini əslində inkar edir: «Xırda həşərat iri həşəratdan qorxur... Qoyun qurddan qorxur... Gücsüz adam güclüdən... Cəmi bəşər də bir olan allahdan qorxur! – dedi. – Qorxu üstündə bərqərar deyilmi dünyamız?!» – deyir.

Azərbaycanın, Şərqin müxtəlif yerlərində yaşayan Hürufilər və Hürufi pərəstişkarları Əmir Teymurun tam ziddi olan Nəimiyə səcdə qılır, onu allah kimi «laməkan» hesab edirlər.

Teymur hökmranlığına zidd başqa bir hökmranlıq meydana gəlir. Ona görə də Nəsiminin Teymura müraciətlə dediyi «...səltənətdə sən insanı cəhalətdə saxlamaq və qorxutmaqla hökmransan, Fəzl isə elmi ilə, insana ləyaqət və ucalıq bəxş etməklə hökmrandır» (2, s.224) sözləri təsadüfi deyildi. Elə buradaca Teymur və Nəimi təzadında iki aləm üzə çıxır: Nəimiyə səcdə insani vüqarın təsdiqidir, bu səcdə insanı əksildən, kiçildən hadisə deyil, əksinə, Nəimi səcdəsinə yüksəlirlər, ucalırlar, müqəddəsliyi, kamilliyi qiymətləndirmə səviyyəsinə qalxırlar, Teymura münasibətdə isə insan kiçilir, alçalır, çünki Teymur «möhtəşəmliyini», «müqəddəsliyini», «böyüklüyünü» onun qılıncı, həmin qılıncdan süzülən qan yaradıb. Nəticədə Teymura səcdə yox, itaət edirlər, ona görə ki, itaətdə olan tabeçilik, xof, qorxu səcdədə olmur.

Beləliklə, Teymur qalalar, ölkələr fatehi olduğu dərəcədə Nəimi ürəklər, beyinlər fatehidir; birincidə insan özünü itirir, ikincidə tapır. Məhz elə bu səbəbdən də Dərviş Asirin dediyi «– Sən qalalar fəth edirsən, hökmdar, onlar qalalarda adamların ürəklərini fəth edirlər!» – sözləri Əmir Teymurun Hürufilərə olan qəzəbini artırır.

Hər kim ki, adəmzadədir, etməzsə insanə sücud
Zahirdə adəm, batində şeytan gələr, şeytan gedər

– deyən Hürufilər insana səcdə İdeyasını ilk dəfə doğrultdular.

Səcdə müqəddəs sayılan inanılana qeyri-adi münasibətin ifadəsidir.

A.Hüseynov dövrün inam və ehkam təzadını doğru görür və əsaslandırır: «Təhkiyənin ruhu bədii məntiqin ardıcıllığı ilə yazdırdığı belə bir fikri təlqin edir

ki, Yaxın və Orta Şərqi bir tərəfdən təlatümə gətirən, oyadan «ənəlhəqq» nidası və inamıdırsa, digər tərəfdən vahiməyə salan, şüurları boğan «lailahəilləllah» xofu və ehkamıdır və bunların toqquşması dövrün başlıca kompozisiyasına çevrilir». (3, s.162-163) Lakin qəribədir ki, müəllif İnsana inamın, ilahi sevginin, onu müqəddəs saymağın gerçək ifadəsi olan səcdə ideyasını «bütləşdirmə» əməli hesab edərək yazır: «Müridlər kütləsi hələ bütsüz keçinə bilmirlər, dərk olunmuş etiqadı kor-koranə pərəstişlə, zəkanın mətin, təmkinli inamını hisslərin fanatikcəsinə coşğunluğu ilə, çılğın ehtiraslarla qarışdırır. Bütə sitayiş olan yerdə təlim də ehkamlaşır, İdrak da kəskin çərçivəyə salınır, düşünüş də dondurulur, zəkalar susdurulur». (3, s.133)

Əslində isə müəllif özü inam və ehkam məsələsini qarışdırdığından bu nəticəyə gəlir: bütləşdirmə ehkamdan, səcdə isə inamdan doğur. «Kəskin çərçivəyə salınan idrak», «dondurulan düşünüş», «susdurulan zəka» məhz ehkama gərəkdir. Dünyanın bütün fəlsəfi, dini, siyasi, mənəvi ehkamları insana qarşı dayandıqları nöqtədə birləşirlər. Ehkamın ölümü onun dərkindən başlayır, bu mənada öz inamlarını dövrün hər cür ehkamlarına qarşı qoyan Hürufilər həm də bütləşməyə qarşıydılar. Çünki Asif Atanın dediyi kimi, onlar «hər bir insanı allah sayırdılar – təkcə Peyğəmbərləri, hökmdarları yox».

«İsaçılar İnsanı allah oğlu sayırdılar, Makedoniyalı İsgəndər allah sayılırdı, Roma imperatoru Kaliqula özünü allah elan etmişdi, İslamda İnsan Allahın bəndəsiydi, quluydu, Peyğəmbər özü Allahın quluydu, Allah insanı yaratmışdı. Aqibətiylə, Qismətiylə birgə, İnsan Allah İdrakının, İradəsinin alətiydi, İtaətçiydi, Hürufilikdə İnsan dünyanın canıydı». (4, s.21) Bütün bunlara baxmayaraq, insana səcdə ideyasını qəbul etməyən A.Hüseynov bu ideyanı o dərəcədə naqis hesab edir ki, hətta Nəimi – Nəsimi fəlsəfəsində onun mövcudluğunu belə şübhə altına alır: «Ola bilməzdi ki, Nəimi, Nəsimi kimi müdrik simalar insan ucalığına etiqadı insan şəxsiyyətinə bəsit pərəstiş həddinə endirəydilər, bütöv bir təlimin məğzini tapındıqları idealların aqibətini təkcə bir adamın adı ilə bağlamağın məhdudluğunu, ancaq bir nəfərin şöhrəti və mövcudluğu ilə əlaqələndirməyin naqisliyini başa düşməyəydilər». (1, s.162-163)

Əslində isə Nəimiyə səcdə həm də onun timsalında insana, onun kamilliyinə, allahlığına səcdə idi. Buradakı allahlıq rəmzi məna daşıyırdı, insanın allah qədər hüdudsuz qüdrətə, mütləq imkanlara malik olmasına işarə idi. Buradakı allahlıq qulluğu, köləliyi, qorxunu, yırtıcılığı qəbul etmirdi. Necə ki, buradakı hökmranlıq inam və idrak işi hesab edilirdi: «Dünya üzərində hökmranlıq dünyanı dərk etmək yolu ilə əldə edilə bilər». (2, s.144).

Teymur allahlığı isə hərfi mənada allahlıq idi, «göydə allah, yerdə mən!» iddiasının aşkarlanması idi. Teymurun allahı onun özüdür, yerdə qalan nə varsa onun üçün vasitədən başqa bir şey deyil: «Əmir Teymur əməl adamıdır, şeyx! Dini də qurban verər öz niyyətinə, allahı da!» (2, s.113)

Asif Ata Teymurləng əməlini «Fateh əməlsizliyi» hesab edərək yazır: «Teymurləng Zəmanə cəhalətindən yaranır və Zəmanə cəhalətinə yarayır; o, zəmanə cəhalətindən bəhrələnib, cahangirliyi allahlıq kimi anlayıb və qılıncıyla, siyasətiylə, məharətiylə bunu dünyaya təlqin eləyib, dünyayla birgə olub Teymur,

dünyaya hakim olub, dünyanın fövqündə durmayıb, zamandan kənara çıxmayıb idrakında, inamında, iradəsində, bu səbəbdən də əməlsizliyini görməyib.

«...Fateh İradəsi – Ruhsuzdu. Fateh İdrakı nursuzdu». (5, s. 34) Ruhsuz iradəylə nursuz idrakın törətdiyi qan əməlidir, qan əməlində insan qatilliyi təsdiqlənir, inamsızlıq və amansızlığın qələbəsi kimi. Bu iki cəhət Teymurun az qala keyfiyyətinə çevrilir. Teymurun inamsızlığından amansızlıq, Amansızlığından inamsızlıq doğur. Onun əsas gücü hər iki cəhəti özündə birləşdirməkdən yaranır. Teymurun taktikası həm də qələbəni tezləşdirmək üçün amansızlıq vasitəsi ilə möhtəşəm qorxu yaratmaq idi. Digər tərəfdən isə bir psixoloci hadisə kimi Teymur sadistcəsinə, döyüşdən və öldürməkdən həzz alırdı. Ona görə də əsl türk ruhunu Teymurda yox, insana inam mücəssiməsi Nəimidə axtarmaq lazımdır.

Nəimi bir kamil xilqət tanıyır – İnsan; bir dünya tanıyır – kamillərin, əbədilərin dünyası: «... İnsan cəmi zərrələrin təzahürü və xaliqin ən kamil yaranmışıdır. Axirət dünyası, məhşər günü və ölülərin dirilməsi haqqında iddialar uydurmadır. Hər şey, cənnət də, cəhənnəm də bu dünyadadır. Kamillərin, əbədilərin dünyasında...». Həmin dünyanı yaratmaq üçün ləyaqətli insanlar gərəkdir. Həmin ləyaqətə isə eşq vasitəsilə nail olmaq olar. Həmin eşq isə əql və ehtirasın birliyindən yaranmalıdır. Nəimiyə görə idrak duyğulardan xali olmamalıdır; həqiqi idrakda duyğular və hisslər iştirak etməlidir, yəni duyğusuz, hissiz, qup-quru idrak cəhalətə sərf oluna bilər. Ancaq idrakdan ayrılmış duyğular, hisslər də instinkt səviyyəli hadisələr törədə bilər: «İnsanın ləyaqəti eşqində məlum olur övladlarım – dedi – eşqin ləyaqəti isə əql və ehtiras vəhdətinin bəhrəsində məlum olur.

O adamın ki, əqli ehtirasına qalib gəlib hissini öldürür, o adamı biz cahil adlandırmışıq və isbat etmişik ki, ehtirasdan məhrum əql bəla törədir.

O adamın ki, ehtirası əqlinə qalib gəlib idrakını ölüdürür, o adamı biz vəhşi adlandırmışıq və isbat etmişik ki, əqldən məhrum ehtiras fəlakət törədir.

Sizə məlumdur ki, yalnız əqllə ehtirasın vəhdətində insan mələkmisal olur və yalnız mələkmisal insan həqiqi eşqə qabil olub səhv etmir». (2, s.144)

Nəimi bütün bəlaları törədən cahilliyi xilas yolu olan kamillik vasitəsi ilə aradan qaldırmağa inanır. «...Yer üzündə ədalətsizliyin səbəbini Fəzl insanın cahilliyində görür, özündən əvvəlki kamillər tək o da cəmi bəşəri kamilləşdirmək yolu ilə istibdadı məhv etmək əzmindədir». (2, s.223-224)

Bu inamın arxasında xülya dayanmır, çünki o, bilir ki, «həqq səltənəti»nə çatmaq üçün uzun illər, əsrlər gərəkdir, mütləq azadlığın, kamilliyin, ədalətin tam bərqərar olması üçün həmin azadlığa, kamilliyə, ədalətə çatan kamil insanlar, başçılar yetişməlidirlər və bu fikirlər bir ölkə həddində, səddində yayılmamalıdır, bütün bəşəri əhatə etməlidir: «...məhdud ərazidə qurulan ədalət səltənətində, cahangirlər dünyasının əhatəsində mütləq doğru azadlıq, həqiqi kamillik və ədalət qeyri-mümkündür; yer üzündə axırıncı hökmdar qurşağına taxta qılınc bağlayana qədər elm yayılmalıdır». (2, s.160)

Nəimiyə görə insanın fərəhi onun mübarizəsi ilə bağlıdır. Mənalı ömür fərəhə – mübarizəyə xərclənən ömürdür. Mübarizədə yalnız qələbəni düşünmək,

tez-tələsik qələbəyə çatmaq müdriklərin yox, naşıların işidir: «Mövlanə Tacəddin: – bu ki, qeyri-mümkündür, ustad! – dedi. Yer üzündə dili ayrı, din əsiri cahil hökmdarların sayı-hesabı yoxdur! Hamısına elm öyrətməyə ömrümüz çatarmı?

Fəzl: – Vacibdirmi çatsın? Bizim şadlığımız mübarizədir. Əmələin bəhrəsini görməyə tələsmək naqislikdir, övladım – dedi». (2, s.161)

Mümkün olanı oldurmaq adi işdir, əsil hünər, qəhrəmanlıq qeyri-mümkünü mümkünləşdirmək, imkansızlıqdan imkan yaratmaqdır. Dünyada elə bir qeyri-adi əməl yoxdur ki, imkan və mümkün olandan yaransın. İcazəli qəhrəmanlıq olmur, qəhrəmanlıq ona görə qəhrəmanlıqdır ki, o, mühiti, şəraiti, zamanı ötür.

Mühit, şərait, zaman qəhrəmanlıq yaratmır, çünki mühit, şərait, zaman öz qənimini yaratmır, təsdiqini yaradır. Və, beləliklə, mühiti, şəraiti, zamanı təsdiq edənlərdən heç vaxt qəhrəman olmur. Qəhrəman mühiti, şəraiti, zamanı inkar edir, qeyri-mümkünə olan eşqi ilə qalib çıxır. «... Hər yerdə türk, fars, ərəb, əcəm içində əsnafla birgə minlərlə məscid əhli də «lailahəilləllahın» inkarına durmuşdusa, bu, qeyri-mümkünün mümkünlüyünü sübut etmirdimi? İnkarın bəhrəsi – insanın cümlə aləmi, aləm içində özünü dərk etmək və cəmi bəşəri kamilləşdirmək amalının özü də qeyri-mümkünü mümkün etmək eşqindən törəməyibmi?». (2, s.2-14)

Bəs necə oldu ki, Şeyx Fəzlullah Cəlaləddin Nəiminin qeyri-mümkünü mümkünsüzləşdirmək əməli bəhrəsiz qaldı? Nəimi hünəri, Nəimi qəhrəmanlığı dövrləri, zamanları aşaraq ibrətçilikdən və heyrət doğuracaq hadisədən başqa bir şeyə çevrilmədi?

Səbəblər çoxdur. Başlıcasını müəllifin diliylə deyək: «Fəzl tədris və mühafizə işlərinə, mövcud hökmdarlarla onların varislərinin mövqelərini müəyyənləşdirmək qayğılarına qapılıb Saf Ağ insanın tərbiyəsinə diqqət yetirməmiş, hətta varisinin tərbiyəsi ilə də lazımınca məşğul olmamış, beləliklə, həqiqəti əbədi kamillər silsiləsində görən, yalançı «lailahəilləllah» düşməninin özü, zəmanəsində yeganə kamil kimi tanınmışdı». (2, s.153)

Başqa bir tərəfdən səbəb o idi ki, müridlərin kamilliyi mütləq deyildi; idrak, inam mütləqliyinə çatmayanın ruhu rəvan ola bilməz. Hadisələrin arxasındakı mənanı görmək, mühitin, şəraitin təsirinə düşməmək üçün mütləq kamilliyə çatmaq gərəkdir. Fəzlin müridləri isə idrak, inam yarımçıqlığının, nisbi kamilliyin nəticəsində özləri də bilmədən Fəzlə sadiq ikən Fəzlə xain çıxırlar:

«– Həm sadiq, həm xain?! Sədaqətlə xəyanət bir araya necə sığır, ustad?!

Fəzl köksünü ötürdü:

– Bizim kamilliyimiz nisbidir, hamımız idrak yolundayıq, mövlana!

Kamilliyimizlə qeyri-kamilliyimiz bir araya necə sığırsa, sədaqətlə xəyanətimiz də elə sığır». (2, s.161)

Və nəticədə «özündən başqa hələ heç kəs bilmirdi ki, Şeyx Fəzlullah Nəiminin faciəsi, nəhayət, son həddinə çatmışdı: Saf Ağ insanın tərbiyəsinə diqqət yetirmədiyinə görə xəlifələrinin yeddisi üz döndərmiş, səkkizincisi itkin düşmüş, doqquzuncusu «cismində həqq ruhunu qoruyub» «silsiləni yaşatmaq» əvəzinə hüdudsuzluq alan kimi düşmən içinə aşkar ölümə getmişdi». (2, s.164)

Belə bir sual da ortaya çıxa bilər; Nəimi ölməliydi ya yox? Təbii ki, Hürufilərin zahiri məğlubiyyətini Nəiminin təslimiylə bağlamaq olmaz. Nəimi ruhaniyyatçı idi, inam, idrak adamı idi, əgər o, siyasətçi kimi hərəkət etsəydi, təslimi seçməsəydi, bu, səhv olardı. Nəimi inamçı olduğundan, inam sahibi kimi öz ölümü ilə də inamını təsdiq edir.

İstifadə olunmuş ədəbiyyat

1. Hüseynov A.N. «Məhşər» romanı haqqında qeydlər: İsa Hüseynovun «Məhşər» romanı haqqında //Azərbaycan, 1987, № 2.
2. Hüseynov İ.M. Seçilmiş əsərləri, 3 cilddə. I c. B., Azərnəşr, 1978.
3. Hüseynov A.N. «Məhşər» romanı haqqında qeydlər: İsa Hüseynovun «Məhşər» romanı haqqında //Azərbaycan, 1987, № 2.
4. Ata A. Azərbaycanımız, Azərbaycanlığımız, Hürufiliyimiz-ənəlhəqliyimiz //Azərbaycan, 1993, 13 yanvar.
5. Ata A. Tarixə çatmaq //Gənclik, 1988, № 2.

Ширинханум ЭЙВАЗОВА

ОТНОШЕНИЯ ПОНЯТИЙ ВЕРЫ, СОЗНАНИЯ (ИЛИ ИНТЕЛЛЕКТА) В РОМАНЕ МУГАННЫ (ИСА ГУСЕЙНОВ) «ПЛАХА»

Резюме

Роман Муганны «Судный день» построен на противоречии между догматизмом Тамерлана, который под знаменем утверждения религии сеет неверие и неразумие, основанное на страхе, и хуруфитами, которые считали человека богом.

Выявлено – как поверить человеку, как его делать разумным – в учении Наими, как можно потерять веру человека, и лишить его разума, – тиранией Тамерлана.

Shirinkhanum EYVAZOVA

RELATIONSHIP OF THE NOTIONS OF BELIEF, CONSCIOUSNESS (OR INTELLECT) IN THE NOVEL OF MUGHANNA (ISA HUSEINOV) «EXECUTIONER′S BLOCK»

Summary

Muganna’s novel “Doomsday” is built on antagonism between Teymur’s dogmatism, which under slogan of declaration of religion was disseminating unbelief and unreasonableness relied on fear and Khurufits, who were considering a man to be God. Tamerlane’s thoughts and activities were always against the human beings.

In conclusion we can say that Tamerlane's thoughts and deeds show not to believe in people what as a result could bring to slow-wittedness. Naimi's attitude was against all of them. As for Naimi to believe in all people was very important.

Kamilə QASIMOVA
AMEA Fəlsəfə və Siyasi-Hüquqi
Tədqiqatlar İnstitutu, kiçik elmi işçi

QLOBALLAŞMA VƏ MƏDƏNİYYƏTLƏRİN DİALOQU MƏSƏLƏSİNƏ DAİR

İki əsrin qovşağında dünyada baş verən sosial-siyasi proseslərin və mədəni- konfessional dəyişikliklərin öyrənilməsi milli müstəqillik yoluna yenicə qədəm qoymuş gənc respublikamız üçün mühüm əhəmiyyət kəsb edir. Bu mənada mədəniyyətlərin qarşılıqlı təsiri və dialoqu təxirəsalınmaz vəzifələrin həyata keçirilməsini tələb edir. Xalq istər-istəməz dünyada gedən bu mühüm proseslərə qoşulur və onda iştirak edir. Lakin qloballaşma adını almış bu kimi proseslərdə xalqın iştirak səviyyəsi onun bu prosesləri qəbul etməyə nə dərəcədə hazır olmasından asılıdır. Yalnız yüksək siyasi mədəniyyətə malik olan xalqlar bu prosesləri qəbul edib onu həzm edə bilir, özünün milli inkişaf süzgəcindən keçirərək bir növ özününküləşdirir. Məlumdur ki, qloballaşma müasir dövrün meyllərini müəyyən edir. Bu proses Qərbin (ABŞ və Avropanın) bilavasitə təsiri və təkidilə həyata keçirilməkdədir. Qərb özünün inkişaf modelini, həyat tərzini, mədəniyyətini dünyanın yerdə qalan digər millət və xalqlarına da təlqin edir, onları da «özü olduğu kimi» görmək istəyir. Qərbin təsir istiqamətləri və vasitələri müxtəlifdir. Onlara qarşı dayanmaq asan məsələ olmadığı kimi öz milli özgürlüyünü də buraxıb birdəfəlik Qərb mövqelərinə keçmək də asan məsələ deyildir. Qərbləşmək, Qərb texnologiyasına yiyələnmək, Qərbin dövlət idarəçiiliyi modelini qəbul etmək heç də o demək deyildir ki, mütləq Qərbin həyat tərzini və mənəviyyatını da olduğu kimi qəbul edəsən. Burada mənəvi mədəniyyətin özünün qüruba doğru getdiyi bir zamanda (Şplenqer) bizim onun qəbul etməyimiz nə dərəcədə doğru olardı? Amma Qərb bütün vasitələrlə onu kompleks şəkildə qəbul etməyimizi istəyir. Qərb insanları Avropa yönümündə və Avropa biçimində görmək istəyir. Qərb vahid insan modelini yaratmaq istəyir. Bu insan ABŞ və Avropada yaşayan adamları təqlid edən bir varlıq olmalıdır. Qərb buna nail olmaq üçün qloballaşma ideyasını ortaya atmışdır. Amma bu elə prosesdir ki, onu hamı eyni dərəcədə qəbul edə bilmir. Dünya ölkələrinin inkişaf səviyyələrinin bərabər olmaması buna mane olur. Amma onu da deyək ki, bugünkü dünyada baş verən sosial-siyasi, iqtisadi-mədəni proseslər istər-istəməz bütün insanları və xalqları əhatə edir və onlar vahid dünya inkişafının ümumi axarına qoşulmalı olurlar. Deməli, qloballaşma özlüyündə iki mühüm istiqamətin yaranıb inkişaf etməsinə səbəb olmuşdur. Bir tərəfdən, milli sərhədlər dağılır, insanlar əlahiddəlikdən və qapalılıqdan xilas olur, digər tərəfdən isə milli müstəqillik hərəkatı, milli dövlət və milli mədəniyyət hər cür inkişafın qarantı, başlanğıcı elan olunur. İnsanlar bu gün belə bir dilemma qarşısında qalıb hər iki istiqaməti götür-qoy edir, onların hansının daha məqbul olması üzərində baş sındırır, mühakimələr, fikirlər irəli sürürlər. Hər bir kəs özünün müdafiə

etdiyi yolun düzgünlüyünə digərlərini də inandırmağa səy göstərir. İndi söhbət onları birləşidirməkdən, bir məcraya salmaqdan gedir. Amma qloballaşma prosesi mürəkkəb və ziddiyyətli bir fenomendir. Burada bütün dövlətlərin payı eyni deyildir. İri və böyük dövlətlər daha varlı, kiçik və zəif ölkələr isə daha yoxsuldurlar. Qloballaşma bu prosesi daha da sürətləndirir. Ona görə də bir sıra cəmiyyətlər və təşkilatlar onun əleyhinə çıxış edirlər. Vaxtilə K.Yaspers gələcəkdə dünyanın vahid qlobal vahidə çevriləcəyi proqnozunu vermişdir. Doğrudan da müasir dünyada hamının eyni dərəcədə informasiya almaq imkanı dünya adamlarının yeni, vahid mentalitetinin əsasını qoymuşdur. Dünya vahid tarixi məkana çevrilmək üzrədir. Xalqların ünsiyyətə olan zəruri tələbatı onların mədəniyyətlərinin inteqrasiyası problemini ön sıraya çəkir. İnsanlar bu inteqrasiyaya daxili tələbat hiss edirlər. Ona görə də dövrümüzdə vahid informasiya məkanı formalaşmaqdadır. İnsanlar informasiya vasitələrinin köməkliyi ilə bütün dünyada baş verən hadisələrdən xəbərdar olur, dünya mədəniyyəti sərvətlərinə daha asan qovuşmaq imkanı əldə edirlər. Amma daha güclü dövlətlər daha təkmil informasiya vasitələrinə malik olurlar. Burada siyasi məkanla informasiya məkanı arasında uyğunsuzluq əmələ gəlir. Hər bir ölkə özünəməxsus siyasi məkana malik olduğu halda bu sözü informasiya məkanı haqqında demək mümkün olmur. Böyük və güclü dövlətlər burada da zəifləri sıxışdırırlar. Bir qrup ölkələr informasiya məkanını bölüşdürür və bundan istifadə edərək belə bir imkana malik olmayan ölkələrin əhalisinə hər cür ideoloji təsirlər göstərirlər. «İnformasiya müharibəsi» vasitəsi ilə dünyanın bir çox millət və xalqlarını istədikləri kimi manipulyasiya edir və öz tərəflərinə çəkirlər. Biz bunun parlaq nümunəsini Dağlıq Qarabağ ətrafında baş verən hadisələrdə gördük. İlk illər «İnformasiya müharibəsində» düşmənə güzəştə getməli olduq. Çünki ermənilər öz işlərini planlı şəkildə qurmuş və illərlə onunçün hazırlıq işləri aparmışdılar. Belə ki, onlar dünya ictimaiyyətini aldatmağa və çaşdırmağa nail oldular. Böyük dövlətlərin dəstəyini və informasiya vasitələrini əldə etməklə onlar bir müddət bu sahədə hegemonluğu ələ aldılar və açığını deyək ki, elə indinin özündə də bəzi məqamlarda öz köhnə mövqelərini qoruyub saxlamağa nail olmuşlar. Lakin sonralar ümummilli lider H.Əliyevin və prezident İ.Əliyevin məqsədyönlü fəaliyyəti nəticəsində bu sahədə buzlar qırıldı və dünya ictimaiyyətinə həqiqət çatdırıldı. Dünya informasiya agentlikləri Qarabağ həqiqətinin əsil mahiyyətini adamlara bu dəfə başqa şəkildə çatdırmağa başladılar. Qloballaşma, xüsusilə də ABŞ və Qərbi Avropanın başçılığı altında həyata keçirilən qloballaşma istər-istəməz bəzi ölkələri və xalqları narazı salır, onları Qərbin hegemonluğuna qarşı qalxmağa vadar edir. Bjezinski ABŞ-ın başçılığı ilə olan qloballaşmada Qərbi Avropanı özünə birinci müttəfiq sayır. Bu da onların «Qərb hamıya qarşı!» (West is aqainst Rest!) şüarına tam uyğun gəlir. Belə olan şəraitdə məlum olur ki, qloballaşma rəvan getmir, onun ziddiyyətləri də varmış.

İngilis yazıçısı və publisisti Redyard Kiplinqin «Şərq Şərqdir, Qərb isə Qərb. Onlar heç zaman birlikdə ola bilməzlər» tezisi özünü doğruldur. Qərbin Şərqə qarşı bəslədiyi ögey münasibət son anda onun özünə qarşı yönəlir,

insanlar məhz Qərbin baçılığı ilə gedən qloballaşmaya qoşulmaq istəmirlər. Şərq xalqları ilə Qərb xalqları arasında olan ənənəvi fərqləri də buraya əlavə edəndə qloballaşmanın şalvarındakı digər yamaqlar da üzə çıxır. Dünya sosializmini məğlub edib birqütblü dünya sistemi yaradan ABŞ bu dəfə düşmən obrazını islam dünyasında gördüyündən ona qarşı apardığı mübarizədə bütün Qərbi öz ətrafına toplamağa çalışır. Bu da öz növbəsində həm islam ölkələrində, həm də Qərbin bir sıra yerlərində əkstəsir doğurur. ABŞ-ın qloballaşdırma siyasəti bu regionlarda bir növ iflasa uğrayır, adamlar ondan uzaqlaşmağa çalışırlar. «American qlobalization» (Amerikanın qloballaşdırması) müəyyən mənada Avropanın bir sıra ölkələrində diktat kimi başa düşüldüyündən Avropanın özü ABŞ-ın təsirindən qorunmaq üçün özünü müdafiə tədbirləri görür. Avropasentrizmi amerikanosentrizmə qarşı qoyur. Lakin dünyanın yerdə qalan əhalisi, xüsusən islam dünyasında yaşayan millət və xalqlar Amerikanın, eləcə də Avropanın yaratdığı bu mərkəzçilik siyasəti ilə barışmır, onu tənqid edirlər. XIX əsrin sonunda Nitşe belə bir fikrə gəlir ki, XX əsr dünya tarixinin ən qanlı-qadalı əsri olacaqdır. A.Kamyu XX əsri «qorxu əsri» adlandırdı. S.Hantinqton XX əsri «sivilizasiyaların toqquşması əsri», F.Fukuyama isə onu «tarixin sonu» kimi səciyyələndirirdi. Rusiyalı filosof Q.Q.Diligenski F.Fukuyamaya cavab olaraq bildirdi ki, «tarixin sonu»na çox var və Rusiya hələ bundan sonra dünya sivilizasiyasına qoşulacaqdır. Amma onun hansı sivilizasiyaya və onun hansı inkişaf mərhələsinə qədəm qoyacağı sual altındadır». (1, s.9)

Z.Bjezinski XX əsri Avropanın hegemonluğunun sonu və ABŞ hegemonluğunun başlanması əsri kimi səciyyələndirir. Başqa bir alim isə XX əsri «burulğan əsri» adlandırır. Həqiqətən də XX əsr tarixə müharibələr, sosial inqilablar, milli və dini qarşıdurmalar, elmi-texniki tərəqqi əsri kimi daxil olmuşdur. Dünyanın siyasi mənzərəsinin dəyişilməsi, siyasi aləmdə baş verən mühüm hadisələr mədəniyyətə də sirayət etmiş, dünya xalqlarının mədəniyyəti sahəsində də köklü dəyişikliklər baş vermişdir.

Geopolitika nəzəriyyəsinin banilərindən biri olan X.Makkinderə görə, millətlərin yaranması onların qarşıdurmasının nəticəsidir. İngiltərə ideyası normand istilası, Fransa ideyası isə hunların hücumları nəticəsində yaranmışdır. Hətta cəmiyyətin «şəhərlərə və kəndlərə ayrılması da etnik münaqişələr ucundan yaranmışdır», onların birinin digərinə olan ehtiyacı etnik balansı saxlamışdır. Ejen Veber yazırdı ki, Fransada feodal münasibətlərinin dağılması ərəfəsində, hətta Fransa inqilabı illərində bir sıra kəndlərdə əhali özünü fransız adlandırmırdı. Onlar heç fransızca da danışmırdılar. Lord Ekten milləti anlamanın yaxşı (ingilis) və pis (fransız) növlərini göstərərək yazırdı ki, «birincidə millət dövlətə uyğundur, ikincidə isə millət dövlətdən əmələ gəlir». Entoni D Smit milləti «ərazi» və «etnik» millətlərə ayırır və yazır ki, onların ideyası siyasi və etnik millətçiliyə uyğun gəlir. (2, s.154-155)

Avropada iri millətlərin və milli dövlətlərin yaranması onların mərkəzləşdirilməsi ilə nəticələndi. İntibah dövründə İtaliyada başlanan bu hərəkat

Avropadan Rusiyaya və oradan Şərq ölkələrinə keçdi. Deməli, millətlər və milli dövlətlər kimi, milli dövlət ideyası da Avropada meydana gəlmişdir.

Fransa inqilabından sonra millətçiliyin güclənməsi ilə milli dövlətlərin yaranması uğrunda mübarizə başladı. Dağınıq və pərakəndə halda yaşayan Avropa xalqları ayrı-ayrı knyazlıqları, qraflıqları, hersoqluqları, əyalətləri və s. birləşdirməyə başladılar. Məsələn, Napoleon Bonapart bir əmri ilə 52 alman knyazlığını «Reyn İttifaqı» adı altında birləşdirdi. Əslində Napoleon bununla da yeni yaratdığı alman dövlətini digər alman dövləti olan Prussiyaya qarşu qoymağı planlaşdırırdı. Lakin özü də bilmədən alman xalqına böyük xidmət göstərmiş oldu. Gələcəkdə onun Bismark tərəfindən birləşdirilməsinin əsasını qoydu. Napoleonun topları bir çox xırda feodal Avropa dövlətciklərinin axırına çıxdı. Ona görə də bu məşhur sözləri onun adına çıxırlar ki, «top feodalizmin axırına çıxdı, kağız-qələm də kapitalizmi yıxacaq».

Avropada iri və güclü milli dövlətlərin yaranması, onların mərkəzləşdirilməsi və tərəqqisi Şərq ölkələrində əks proseslərin genişlənməsi ilə bir vaxta düşürdü. Ona görə də güclü Qərb zəif düşmüş Şərqi əzdi və onun torpaqlarını tədricən işğal etməyə başladı. Avropada «bir birinin yanında yaşamağa qadir olan iri millətlər» (K.Marks) formalaşdı «Dünyanın üç ən sivil xalqı» (V.İ.Lenin) - ingilislər, almanlar və fransızlar millət kimi formalaşdılar. İslam Şərqi ölkələrindəki pərakəndəlik, feodal özbaşınalığı, üstəgəl Qərb ölkələrinin müdaxiləsi burada yaşayan böyük-böyük xalqların (ərəblərin, fransızların, türklərin) millət şəklində formalaşması prosesini ləngitdi. Bu proses XX əsrin əvvəllərinədək davam etdi. XX əsrin əvvəllərində Şərq ölkələrində baş verən yeniləşmə hərəkatı, milli özünüdərk və milli oyanış bu ölkələrdə türk, ərəb, fars millətlərinin yaranıb inkişaf etməsinə səbəb oldu. Onlar da öz növbələrində milli azadlıq hərəkatının güclənməsi ilə müşayiət olundu və nəhayət, islam Şərqində də milli dövlətlər yarandı. Lakin bu milli dövlətlər elə indinin özündə də hələ Avropa və Qərb milli dövlətləri ilə müqayisədə çox zəif və cılız görünürlər. Ona görə də Qərb özünün istədiyi inkişaf modelini asanlıqla ona sırımağa nail olur. Bunun da nəticəsində hazırda Şərqdə milli demokratiya modelləri hakim mövqelərə çıxmışdır.

Milli hüquqi dövlətdə bütün millətlər və milli azlıqlar bərabər hüquq əldə edirlər. Ermənistanı milli hüquqi dövlət adlandırmaq olmaz. Çünki onlar ölkə daxilindəki milli azlıqları repressiyaya və deportasiyaya məruz qoymuş, qonşu xalqlara qarşı şovinist aksiyalar həyata keçirmişlər.

Azərbaycanlıların hüququ təkcə Ermənistanda deyil, bir sıra qonşu dövlətlərdə də pozulur və bu baxımdan onları da milli-hüquqi dövlət adlandırmaq olmaz. Milli hüquqi dövlətə hazırda ən yaxşı nümunəni Avropa dövlətləri, ABŞ, xüsusilə də Almaniya göstərir. Almaniya faşizmin qurbanları olmuş digər xalqlara, ən əvvəl isə yəhudilərə xüsusi qayğı göstərir, onlara dəymiş maddi və mənəvi ziyanı ödəməyə çalışır. Almaniya faşistlərin bütün fəaliyyəti üçün özünü bir növ təqsirkar sayır və ona görə də onu unutdurmaq, onun əvəzini çıxmaq üçün öz qoynunda bu xalqlara isti yer və müxtəlif kompensasiyalar ayırır. Bu gün ABŞ bütün dünya xalqları və irqləri üçün açıq

bir dövlətə çevrilmişdir və orada heç bir milli və irqi ayrı-seçkiliyə yer verilmir. Ölkədə milli və dini zəmində böyük tolerantlıq var. Azərbaycan Respublikası da bu sıradadır. Ölkədə yaşayan bütün xalqlar və millətlər milli və dini bərabərliyə malikdirlər.

Bu günkü Azərbaycan regional qloballaşmaya parlaq misal ola bilər. Azərbaycanda millətlərin və xalqların, onların mədəniyyətlərinin bir-birilə qarşılıqlı dialoq azadlığı mövcuddur. Müxtəlif xalqlar və millətlər öz milli-mənəvi və konfessional özəlliklərini hərtərəfli şəkildə inkişaf etdirmək imkanına malik olduqları kimi, başqalarınkından da istifadə etmək imkanlarına malikdirlər. Bu mənada Azərbaycan milli hüquqi dövlət olmaqla yanaşı həm də qloballaşdırıcı bir dövlətdir.

Mədəniyyət, onun inkişaf səviyyəsi, mövcud mədəni mühit bütün tarixi dövrlərdə şəxsiyyətin formalaşması və inkişafında müstəsna dərəcədə böyük rol oynayır, onun davranış ustanovkalarına, nail olmağa çalışdığı məqsədlərə və bütövlükdə fəaliyyətinə güclü təsir göstərir.

Bu günün reallıqları mədəniyyət ilə şəxsiyyətin münasibətlərinin prinsipcə yeni şəkildə qavranılmasına doğru dönüş yaradır. Buna görə də şəxsiyyətin mədəniyyətə münasibəti mədəni ənənələrin, dilin, adət və ənənələrin – bütövlükdə mədəni mühiti təşkil edən bütün amillərin qorunub saxlanılması və möhkəmləndirilməsi praktiki vəzifəsini ifadə edir. Bu baxımdan yanaşdıqda, şəxsiyyətin mədəniyyət sistemində varlığı onun real həyat prosesi kimi çıxış edir. Mədəniyyətin şəxsiyyətin formalaşmasına və inkişafına göstərdiyi təsir öz xarakterinə görə birmənalı deyildir, yəni o, təkcə müsbət deyil, həm də mənfi istiqamətə yönələ bilir. Bu mənada müasir dünyada qərarlaşmış ümumi mədəni şəraitin neqativ tərəfləri – «kütləvi mədəniyyət»in geniş yayılması, milli münaqişələr, kiçik və zəif ölkələrə müxtəlif növlü siyasi, mədəni təzyiqlər göstərilməsi və başqa amillər, şəxsiyyətin ümumi mədəni inkişafına mane olur. Təsadüfi deyildir ki, tanınmış mütəfəkkirlərin yaradıcılığında bu məqam dəfələrlə qeyd olunur. A.Şveytser sözügedən cəhətə xüsusi diqqət yetirərək göstərirdi ki, «biz mədəniyyətin tənəzzülü ilə səciyyələnən bir şəraitdə yaşayırıq». (3, s.33)

Keçid dövrü şəxsiyyətinin mədəniyyət ilə əlaqələri özünün dinamik xarakteri ilə səciyyələnir. İndi ictimai həyatın bütün sferalarında və tərəflərində baş verən əsaslı dəyişikliklər özünün müvafiq əksini bu dövrün şəxsiyyətində və onun mədəniyyətində də tapır. Onların qarşılıqlı əlaqələrinin dinamizmi öz məzmununa görə zəngin olub, aşağıdakı üç istiqamətdə özünü göstərir: 1) insanın şəxsiyyəti və mədəniyyəti arasında kortəbii qarşılıqlı təsir; 2) onlar arasında ictimai şüur formaları (elm, incəsənət, əxlaq, fəlsəfə), kütləvi şüur və ictimai psixologiya tərəfindən formalaşdırılan mədəniyyət simvollarının sabit sistemi vasitəsilə yaranan spesifik qarşılıqlı təsir; 3) insanın şüuru, onun psixikası, aktiv yaradıcı təbiəti ilə şərtlənən dəyişdirici mənəvi və maddi fəaliyyətdə ifadə olunan qarşılıqlı təsir. (4, s.227)

Müasir tipli şəxsiyyəti mədəniyyət kontekstində təhlil edərkən, onun ünsiyyət sistemində dialoqun artan rolu xüsusi qeyd olunmalıdır. Bu işdə

genişlənməkdə olan demokratikləşmə prosesləri, fikir plüralizminə və tolerantliğa real şəraitin yaranması müstəsna dərəcədə böyük əhəmiyyətə malikdir. Şəxsiyyəti səciyyələndirən mühüm əlamət kimi dialoqun, kommunikativliyin rolunun çoxalması bu və ya digər ölkənin hüdudları ilə məhdudlaşmayan ümumi qlobal prosesdir. Bu hər şeydən əvvəl sivilizasiyanın müasir mərhələsində insanın sosial inkişaf göstəricilərinin yüksəlməsi, ümummədəni səviyyənin və yaradıcılıq üfüqlərinin qeyri-adi dərəcədə genişlənməsi ilə izah olunur. Təsadüfi deyildir ki, müasir dövrün ən nüfuzlu fəlsəfi təlimlərindən olan hermenevtika insanın dialoqluluğu və kommunikabelliyi ilə bağlı problemləri özünün mərkəzi mövzularından hesab edir. Həmin təlimin nümayəndələri (H.Qadamer, M.Haydeqqer) dialoqu geniş miqyasda araşdırır və ona şəxsiyyətin yaradıcılığı forması, insanın özünün inkişafı və sosial dünyasının genişlənməsi üsulu kimi yanaşırlar.

Müasir şəxsiyyət özünün bütün rəngarəng mədəni keyfiyyətlərə malik olmasına baxmayaraq, əsasən iki mədəniyyət mərkəzinin (Qərb və Şərq) orbitində fəaliyyət göstərir. Şərq və Qərb mədəniyyətləri bütün tarix boyu bir-birilə qarşılıqlı təsirdə inkişaf edərək yüksəlmişlər, eyni zamanda aralarındakı münasibətlərdə müxtəlif çətinliklər və ziddiyyətlər də özünü göstərmişdir. (5, s.21)

Bizə belə gəlir ki, Qərb və Şərq sivilizasiyalarının münasibətləri problemi geniş təhlil tələb edir, onları bir-birinə qarşı qoymaq əsassızdır. Bu iki region mədəniyyətinin qarşılıqlı əlaqələri və dialoqunu gücləndirmək zəruridir. Belə bir məqamı xüsusi vurğulamaq lazımdır ki, həmin mədəniyyət tiplərinin hər birinə xas olan müsbət cəhətləri əlaqələndirmək və onlardan şəxsiyyətin inkişafı naminə istifadə etmək müasir Azərbaycan cəmiyyəti üçün daha vacibdir. Ölkəmiz coğrafi məkan baxımından hər iki sivilizasiyanın qovuşma sərhəddində yerləşdiyi üçün, bir tərəfdən burada sözügedən məsələnin həlli baxımından daha əlverişli şərait yaranır (hər iki mədəniyyətə xas olan mütərəqqi cəhətləri əlaqələndirmək üçün). Digər tərəfdən, Azərbaycan Qərb və Şərq mədəniyyətinin özünəməxsus toqquşma meydanı kimi çıxış edir. Buna görə də cəmiyyətimizin hər bir üzvünün mənəvi-mədəni keyfiyyətlər labirintində düzgün seçim edə bilməsi son dərəcə vacibdir.

İstifadə olunmuş ədəbiyyat

1. Гасан Гасанов. Цель истории. Баку. Элм, 2004.
2. Yenə orada.
3. Швейцер А.Культура и этика. М., 1979.
4. Григорьев С.И. Основы построения социологической теории жизненных сил человека // Социология на пороге XXI века // М., 1998.
5. Məmmədov P.H. Keçid dövrü şəxsiyyətinin sosial-fəlsəfi təhlili, Dokt.disser.avtoref., Bakı, 2005.

Кямиля КАСУМОВА

К ВОПРОСУ О ГЛОАБАЛИЗАЦИИ И ДИОЛОГЕ КУЛЬТУР

Резюме

В статье рассматриваются вопросы глобализации и диалога культур в современных условиях.

Взаимодейтсвие и глобализация национальных культур рассматриваются как исторический и объективный процесс. Проблема изучается на примере разных культур, в том числе и на примере культуры Азербайджанской Республики.

Культуры Запада и Востока сравниваются на основе фактических материалов. В становлении культуры большую роль играет личностный фактор, в связи с чем исследуется роль личности в глобализации отдельных культур.

Kamila KASUMOVA

TOWARDS GLOBALİZATİON AND DİALOGUE OF CULTURES

Summary

The article is devoted to the globalization and dialogue of cultures in contemporary conditions. İnterrelation and globalization of national cultures are considered as an historical and objective process. The problem is studied on the case of the different cultures including culture of Azerbaijan Republic as well.

The western and oriental cultures are compared on the basis of the factic material. Personality factor presents great importance in formation of culture. In connection with this the role of personality in globalization of some cultures is researched.

Rəşad ASLANOV
AMEA Fəlsəfə və Siyasi-Hüquqi
Tədqiqatlar İnstitutunun «Sosial fəlsəfə»
şöbəsinin dissertantı

İNSAN HAQLARI İCTİMAİ HƏYATIN VƏ SİYASƏTİN ƏXLAQİ ÖLÇÜSÜ KİMİ

Bu gün biz dövlətçiliyin yeni zirvəsinə doğru inamla addımladıqca və respublikamızda cərəyan edən quruculuq proseslərinin mahiyyətinə dərindən vardıqca, koqnitiv müstəvidə bir universal həqiqətə daha çox yaxınlaşırıq və aydın dərk edirik ki, siyasi hakimiyyətin başlıca mənəvi ölçü meyarı insan hüquqlarının etibarlı qorunması və təmin olunmasıdır. Bu həqiqətin fərdi və ictimai şüurda qərarlaşması, öz növbəsində, dövlət tərəfindən həyata keçirilən çoxşaxəli islahatların, mühüm tədbirlərin müsbət nəticələrinə zəmanət verir, pozitiv inkişafa yardımçı olur. Beləliklə, dövlətin fəaliyyəti həm mənəvi dayaq alır, həm də əlavə enerji və güc qazanır. Təsadüfi deyildir ki, A.Tokvil vurğulayırdı: «Azadlıq səltənətini mənəviyyatın hökmranlığı olmadan əldə etmək mümkün deyil». (6, s.33) Ümumiyyətlə, bir çox görkəmli mütəxəssislər qeyd edirlər ki, bu günün və gələcəyin problemləri yalnız siyasi və iqtisadi vasitələrlə həll oluna bilməz; mənəvi qüvvələr köməyə çağırılmalı və səfərbər olunmalıdır.

Tarixi təcrübə dəfələrlə göstərmişdir ki, «məqsəd vasitəni doğruldur» şüarı olduqca təhlükəli və məhvedicidir. Bütün hallarda siyasi fəaliyyət, onun məqsəd və vasitələri mənəvi-əxlaqi meyarlarla ölçülməli, humanizm hüdudları daxilində həyata keçirilməlidir.

Siyasətin və mənəviyyatın bir-birindən ayrılması cəmiyyət tərəfindən həmişə neqativ hadisə kimi dərk edilmiş, insanların quruculuq, yaradıcılıq ovqatına mənfi təsir göstərmişdir. Bu səbəbdən də görkəmli dövlət başçıları, siyasətçilər öz fəaliyyətlərinin mənəvi cəhətdən əsaslandırılmasının zərurətini anlayaraq bu istiqamətdə ciddi çalışmışlar. Ümummilli liderimiz Heydər Əliyevin möhtəşəm siyasi fəaliyyəti bunun bariz sübutudur. O, müdrikcəsinə anlayırdı ki, hər tarixi dövr öz çağırışını ortaya qoyur, öz problemlərini irəli sürür və əgər hansısa inkişaf mərhələsinin çətinliklərinə əsaslanaraq siyasət və hakimiyyətin əxlaqi meyarları ləğv edilərsə, onda cəmiyyətdə zəruri olan siyasi, sosial, iqtisadi islahatları qeyri-mümkün edən hərc-mərclik hökm sürər, destruktiv meyillərə yol açılar. Elə bu səbəbdən də Heydər Əliyev milli mədəniyyətin, dilin, dəyərli tarixi ənənə və adətlərin, xalqın özünəməxsusluğunu ifadə edən irsi potensialın inkişafına daim diqqət yetirmiş, hətta ən çətin anlarda da öz qayğısını əsirgəməmişdir. Məhz belə yanaşma, fikrimizcə, bu görkəmli şəxsiyyətin siyasət sahəsində böyük uğurlarına zəmin olmuşdur.

Təsadüfi deyildir ki, Heydər Əliyevin prezidentliyi dövründə insan hüquqları ilə bağlı müddəalar Azərbaycan Konstitusiyasında öz ifadəsini tapmış, hüquqi dövlət və demokratik vətəndaş cəmiyyəti quruculuğu istiqamətində sanballı işlər görülmüşdür. Bir sözlə, Heydər Əliyev siyasətin əxlaqdan, insani

humanizmdən uzaqlaşmasını heç bir vaxt məqbul hal hesab etməmiş, əxlaqi relyativizmə haqq qazandırmışdır.

Əlbəttə ki, müxtəlif sosial, siyasi, dini, hətta etnik qruplara nəzərən mənəvi meyarlar eyni olmamışdır. Buna görə də bəşəriyyət əxlaqın universal tələblərinə uyğun ictimai idealı əsrlərlə axtarmışdır. Belə bir dəyər-fenomen əxlaqi və hüquqi əsasları birləşdirən ***insan hüquqları*** ideyası idi. İnsan hüquqları həm siyasət və hakimiyyətə istinad edən hüquqi əsasları, həm də onların mənəvi xüsusiyyətlərini aşkara çıxaran universal qiymətləndirmə kateqoriyasıdır ki, demokratiyanı bir siyasi prinsip, dövlət idarəetmə forması və həyat tərzi kimi labüd edir. Bu mənada hələ qədim dövrlərdən fəlsəfi, sosial-siyasi və hüquqi fikrin nəzər-diqqətinin demokratiya məfhumuna yönəlməsi qanunauyğun və əlamətdar hal kimi qiymətləndirilə bilər. Məsələn, qədim yunan filosoflarının ən böyük nailiyyəti bəlkə də azadlıq və şəxsiyyətin dəyərli ideyalarını ön plana çəkmələri idi. Protoqorun məşhur «insan bütün varlıqların meyarıdır» tezisi cəmiyyət və dövlətin inkişafında personosentrik baxışların əsasını qoymuşdur. Platonun ideal dövlət modeli isə ədalətin və qanunçuluğun ən yaxşı əsaslarda idarə edilməsi ilə əlaqədar olmuşdur, baxmayaraq ki, sonralar Karl Popper bu modeli «qapalı cəmiyyət» tipinə aid etmişdir (5). Aristoteldə əxlaq və siyasətin qırılmaz əlaqəsi daha qabarıq göstərilmişdir. Bu mütəfəkkirə görə, siyasət – insan və dövlətin ali rifahı haqqında elmdir və ona görə də o, mənəviyyat haqqındakı təsəvvürlərin inkişaf etdirilməsini, etik qaydaların dərkini tələb edir. Və bu tələb yalnız başçılara deyil, həm də vətəndaşlara aiddir. Aristotelin fikrincə, siyasətin başlıca məqsədlərindən biri gözəl hərəkətlərə, nümunəvi davranışlara yardımçı olan məziyyətləri vətəndaşlara tərbiyə etdirməkdir. (2, s.114) Demək olar ki, Aristotel etikanı bütünlüklə siyasətin geniş anlayışına tabe etmişdir. (bax.:1)

Orta əsr nəzəriyyələrində hakimiyyətin mənəvi xarakteri ilahi (dini) mənşəyə əsaslanırdı ki, bu da təsadüfi deyildi, çünki xristian təlimi bilavasitə etika ilə bağlı idi. İlahi qanuna istinad edən siyasət və hüquq etik-dini sanksiya alırdı. Bu tip yanaşma Foma Akvinski tərəfindən daha parlaq, möhtəşəm ifadə edilmişdir.

İnsan və vətəndaş haqlarının qorunması kontekstində siyasət və mənəviyyatın qarşılıqlı əlaqə problemləri, ilk burjua hüquq və dövlət konsepsiyalarında yeni təkan olmuşdur. Hələ Dirçəliş və Reformasiya dövrlərində orta əsr təliminin dağılması və ilkin kapitalist münasibətlərinin qərarlaşmasına dair baxışların ortaya çıxması baş verir. İnsan, onun muxtariyyəti, öz gücü ilə öz müqəddaratını müəyyən etmək və buna nail olmaq imkanı barədə fikirlər ön plana çəkilir. Yeni yaradılmış konsepsiyalarda humanizm mövqeyindən insanın təbii hüquqlarına hörmət aşılanır; ünsiyyət, mülkiyyət, fərdin muxtariyyətinə və azadlığına istiqamətlənmiş universal norma və prinsiplər sistemi yaradılır.

Hüquq, əxlaq və ədalətin qarşılıqlı təsiri və üzvi uzlaşması səviyyəsində yeni baxışlar sisteminin yaradılmasında Q.Qrotsi, B.Spinoza, T.Hobbs, C.Lokk, Ş.Monteskyu, C.C.Russo kimi mütəfəkkirlərin xüsusi xidmətləri olmuşdur. Məhz onların dövründə ictimai həyatın hüquq və mənəviyyat prinsiplərilə

tənzimlənən «alqebra»sı ortaya qoyulmuş, niyyət və arzuların etibarlı təminatı yolunda ciddi addımlar atılmışdır.

Sonralar bu iş İ.Kant, G.Hegel, İ.Fixte, C.Mill və bir çox başqa zəka sahiblərinin zəhməti hesabına davam etdirilmiş, insan haqları ideyasının mükəmməl fəlsəfəsi formalaşdırılmışdır. O fəlsəfə ki, ictimai həyatın, sosial praktikanın əsaslarını təşkil etmiş, cəmiyyətlərin necə və nə cür idarə olunmasını müəyyənləşdirmişdir. Məhz bu hesaba Qərb dünyası, Avropa ölkələri güclü və etibarlı inkişaf mənbələri əldə etmiş, innovasion biliklərin, yeni texnika və texnologiyaların yaradılmasında önə çıxmışlar. Elə bu əsasda da Qərb sivilizasiyası hökmran mövqeləri fəth etməyə başlamışdır ki, biz bu fakta istər-istəməz, müəyyən qısqanclıqla yanaşırıq. Ancaq nə qədər qısqanclıqla baxsaq da, anlamalıyıq ki, bütün bu nailiyyətlərin kökündə insan varlığına, onun suverenliyinə, hüququn aliliyinə və qanunun hökmranlığına, nəhayət, demokratik norma və prinsiplərə böyük hörmət dayanır. Sadəcə hörmət yox, fədakarlıq və uzunmüddətli zəhmət, əzmkarlıq dayanır!

Hüquqi dövlət nəzəriyyəsinin banilərindən olan C.Lokk qeyd edirdi ki, dövlət vətəndaşların şəxsi maraqlarının – yaşayış, azadlıq, cismani əzabların olmaması, habelə pul, torpaq, ev, ev avadanlıqları və s. nemətlərə yiyələnməsinin təmin edilməsi, qorunması üçün yaradılmış insan cəmiyyətidir. Belə cəmiyyətin əsasını ictimai həmrəylik, birgəyaşayış qanunları və mədəniyyəti təşkil edir; bu həm də onun ümumi rifahın əldə edilməsinə istiqamətlənmiş fəaliyyətini müəyyənləşdirir. (3, s.34, 98) C.Lokk siyasi hakimiyyət və onun yaranmasının düzgün anlamının iki şərtini müəyyən edir: birincisi, insanların tam azadlıqlarının onların təbii halı kimi nəzərdən keçirilməsi; ikincisi, elə bərabərlik halları ki, bu zaman hər cür hakimiyyət və hər cür hüquq qarşılıqlı olur, heç kəs başqasından artığına malik olmur. (3, s.6)

İnsan haqları ideyasının inkişafında böyük xidmətləri olmuş, sosial liberalizmin banisi C.St.Mill cəmiyyətin siyasi təşkilatlarının mənəvi formalarının yaranması haqqında yazırdı: «Mən indi siyasi təsisatların çeşidinə maddi maraqlar nöqteyi-nəzərindən yox, mənəvi tərbiyəvi nöqteyi-nəzərindən baxıram». (4, s.152)

Dövlət, hüquq və əxlaqın sıx qarşılıqlı təsiri olduğu yerdə mənəvi aləmin real-praktiki əhəmiyyəti bu hadisələrin bağlılığını düzgün nəzərə çarpdırmağa imkan verir, problemlərə yeni baxışı müəyyənləşdirir və ön plana, K.Popperin təbirincə desək, «kim idarə etməlidir?» məsələsini deyil, «biz siyasi təsisatlarımızı necə qəbul etməliyik ki, pis və ya səriştəsiz başçılar olduqca çox ziyan vurmasınlar» məsələsini keçirir. (5, s.161)

Demokratiyanın, insan haqlarının təmin olunması üçün öz-özünü idarə etməyə qədər yüksəlmiş, öz hüquqlarını dərk edən və başqalarının hüquqlarına hörmət göstərən, öz vəzifələrini başa düşən və özünü məhdudlaşdırmağa qadir xalq lazımdır. Siyasi düşüncə belə yüksəkliyə heç vaxt birdən-birə qalxmır, o, həyatın uzun sürən və çətin təcrübəsi ilə əldə edilir. İnsan haqları yalnız demokratik hüquqi dövlətin əlaməti deyil, həm də ümumi rifah və mədəniyyət, ləyaqət və ədalət, şərəf və xeyirxahlıq anlayışlarını millət səviyyəsində

konkretləşdirən əxlaq kateqoryiasıdır. Əxlaq və mədəniyyət tənəzzülə uğrayan yerdə insan hüquqları təmin oluna bilməz. İnsan hüquqlarının qorunmadığı cəmiyyətdə isə ictimai proseslərin normal inkişafı, demokratik institutların səmərəli fəaliyyət göstərməsi, hakimiyyətə ictimai nəzarətin həyata keçirilməsi, sosial tarazlığın təmin edilməsi mümkün deyil.

İstifadə olunmuş ədəbiyyat

1. Аристотель. Сочинения в 4-х томах. Т.4. М., 1984.
2. Вернан Ж.П. Происхождение древнегреческой мысли. М., 1988.
3. Локк Дж. Избранные философские произведения. В 2-х т. Т.2.
4. Милль Дж. С. Автобиография: история моей жизни и убеждений. СПб, 1986.
5. Поппер К. Открытое общество и его враги. В 2-х т. М., 1992.
6. Токвиль А. Демократия в Америке. М., 1992.

Рашад АСЛАНОВ

ПРАВА ЧЕЛОВЕКА КАК НРАВСТВЕННАЯ МЕРА ОБЩЕСТВЕННОЙ ЖИЗНИ И ПОЛИТИКИ

Резюме

В статье обосновывается фундаментальная роль единства политики и морали в обеспечении прав человека, важность соответствия средств политики поставленным ею целям. Лишь в такой реализации политики становится возможным становление и развитие демократии как универсального принципа, формы управления и способа жизни. Нравственное же измерение политики является необходимым элементом существования и функционирования как правового государства, так и полнокровного гражданского общества.

Rashad ASLANOV

HUMAN RIGHTS AS A MORAL MEASURE OF A PUBLIC LIFE AND POLITICS

Summary

In the paper the fundamental role of unity of politics and morals in ensuring human rights, importance of conformity of the means of politics to the purposes pursued by it is grounded. Only under such realization of politics formation and development of democracy as universal principle, form of management and a way

of life becoms possible. Moral measurement of politics is a necessary element of existence and functioning both of a lawful state, and sanguineous civil society.

Nəriman HƏSƏNOV
AMEA-nın Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutunun dissertantı

SOSİAL İNSTİTUTLAR VƏ ONLARIN QRUP VƏ TƏŞKİLATLARLA QARŞILIQLI MÜNASİBƏTLƏRİ

Sosial institutların mahiyyətinin araşdırılması və təhlili üçün institusional-təşkilati sahə ilə ictimai münasibətlər subyektlərinin qarşılıqlı təsirinin araşdırılması zəruridir.

İnstitut – canlı, inkişaf edən sosial təzahürdür. Onun daxili məzmunu, xarici görünüşü həm bütövlükdə cəmiyyətin, həm də sosial subyektlərin dəyişməsinin təsiri altında dəyişilir. Bizlərdən hər birimiz ictimailəşmə prosesi vasitəsi ilə müxtəlif sosial institutlarla «tanış olur», (elə ictimailəşmə prosesinin özü də onlar tərəfindən tənzimlənir) onları «hazır» vəziyyətdə tapır. Lakin sosial institutlar nə cəmiyyətin hüdudlarından kənarda dayanan zəkanın məhsulu və nə də Berdyayevin düşündüyü kimi, şəxsiyyəti istismar edən kollektivin kinli iradəsinin ifadəsi deyildir. V.M.Bıçenkov institutları kollektivdən üstün sosial qurumlar hesab edir. «Kollektivdən üstün» anlayışını irəli sürərək, o, bu anlayışın «fərd» - «fərdüstü», yəni «kollektiv» kimi məntiqi anlayışlar sırasına mənsub olduğunu qeyd edir. Daha sonra fərddən mücərrədləşmə dərəcəsinə, uzaqlaşma sırasına görə «kollektivdən üstün» anlayışı gəlir. «Kollektivdən üstün»ün sosial reallığa çevrilməsi məhz institutdur. O, xüsusi olaraq qeyd edir ki, «kollektivdən üstün» «sosialüstü» demək deyildir. Əgər biz nəyi isə sosialüstü adlandırırıqsa, bununla onu insan cəmiyyətinin hüdudlarından kənara çıxarırıq… kollektivdən üstün sosial qurumlar məhz sosialdırlar». (3, səh.95) Ona görə də kollektivüstü fenomen olan sosial institutları insanın şüurlu fəaliyyətinin nəticəsi kimi qəbul etməliyik. Yəni obyektiv əsasda yaranan, lakin subyektiv xarakterə malik təzahür kimi. E.B.Alaev yazır ki, birliyi ictimai institutlardan fərqləndirmək lazımdır, birlik obyektiv təzahürdür, institutlar isə cəmiyyət tərəfindən müəyyənləşdirilir. (1, səh.195) Ona görə də onlar sinif, sosial təbəqə, milliyyətlə müqayisədə başqa qəbildən olan fenomenlərdir.

İnstitutların subyektivliyi probleminin həllinə ondan başlayaq ki, ümumiyyətlə, cəmiyyətə qarşı qoyulan abstrakt insan, fərd ümumfəlsəfi planda subyektdir. Lakin abstraktdan konkretə yüksəlmə zamanı müəyyən olunur ki, insan sosial varlıqdır və onunla cəmiyyət arasında müxtəlif birliklər və institutlar «yerləşir», həm də onun həyatı dəyişkən olub konkret yanaşma tələb edir.

«İctimai quruluş və dövlət daima müəyyən fərdlərin həyat proseslərindən yaranır («başqalarının və özlərinin təsəvvürlərindəki kimi yox, reallıqla olan)… Təsəvvürlərin yaranması, təfəkkür tərzi, insanların mənəvi ünsiyyəti burada onların maddi fəaliyyətlərinin bilavasitə təzahürləridir. Bu həm də bu və ya digər xalqın siyasət dilində, qanunlarında, əxlaqında, dinində, metafizikasında

və sairədə ifadə olunan mənəvi istehsala da aiddir. İnsanlar öz təsəvvürlərinin, ideyalarının və s. istehsalçılarıdırlar. Lakin söhbət həqiqi, məhsuldar qüvvələrin müəyyən inkişaf səviyyəsi və ona uyğun ünsiyyətlə (onun ən uzaq forması da daxil olmaqla) şərtlənən insan fəaliyyətindən gedir.(4, səh. 13-14)

İnsan-xüsusi, substrat sosial subyektdir. Bu keyfiyyətdə fərdlər müxtəlif sosial birliklərə, qruplara daxil olurlar. Cəmiyyət insanların qarşılıqlı fəaliyyətinin məhsuludur. Lakin o, təkcə bundan ibarət olmayıb, fərdlərin bir-biri ilə olan əlaqə və münasibətlərinin cəmidir.(2, səh.4) Substrat sosial subyektlərin fəaliyyəti ilə sosial subyektlərin fəaliyyət uyğunluğu nə dərəcədə dolğundursa, ümumilikdə cəmiyyətin həyat fəaliyyəti də bir o qədər uğurlu, sabit və dinamikdir. Bu uyğunluğun təmini ictimai institutlar sisteminin əsas vəzifəsidir.

Hesab edirik ki, cəmiyyət ilk növbədə iqtisadi münasibətlərin məcmusudur. Məhz bu məcmu əsasında ictimai institutlar sistemi formalaşır, fəaliyyət göstərir və inkişaf edir. İctimai münasbətlər öz əsasında müəyyən obyektiv sistem yaradır. V.M.Bıçenkov bu müddəanı mütləqləşdirərək yazır: «İnsan ictimai münasibətlərin məcmusudur» postulatından marksizm belə bir nəticə çıxarır ki, müəyyən şəraitin yaradılması ilə insanlar yaxşılığın, xeyirxahlığın təmsilçilərinə çevriləcəklər. Eyni zamanda onlar özləri tarixin məhsulu olmaqla heç bir düşünülmüş şəkildə edilən dəyişikliklərdən asılı olmayan xüsusiyyətlərə malikdirlər və əksinə, dəyişikliklərin mümkün olması bu xüsusiyyətlərdən asılıdır».(3, səh.774) Buna etiraz kimi Marksın özündən sitat gətirmək yerinə düşər: «Göydən yerə enən alman fəlsəfəsinin birbaşa əksinə olaraq biz burada yerdən göyə qalxırıq. Yəni biz insanların nə danışmalarından, düşüncələrindən və təsəvvürlərindən çıxış etmirik, biz həmçinin yalnız sözlərdə, düşüncələrdə, təsəvvürlərdə mövcud olan insanlardan çıxış etmirik ki, onlardan əsil insanlara gələk: bizim üçün çıxış nöqtə həqiqi, fəal insanlardır və onların real həyat prosesindən biz ideoloji münasibətləri və bu həyat prosesinin əks-sədasını çıxarırıq… öz maddi istehsalını və maddi ünsiyyətini inkişaf etdirən insanlar onunla birlikdə həm də öz təfəkkürlərini və təfəkkürlərinin məhsullarını dəyişirlər».(4, səh.14)

Məhz insanlar və sosial qruplar bu və ya digər maraqları rəhbər tutaraq bu sistemin effektivlik və davamlılıq dərəcəsini daima təmin etməyə və artırmağa çalışırlar. Ona görə də təşkilati tərəf ictimai münasibətlər sisteminə xasdır. İctimai münasibətlər sisteminin təşkilati tərəfinə qarşılıqlı fəaliyyətdə olan insanlar və sosial qruplar arasındakı davamlı əlaqələrin institusional sistemi kimi baxmaq olar.

Artıq birgə fəaliyyətin ən sadə formalarında qarşılıqlı fəaliyyətdə olan fərdlər arasında əmək bölgüsü münasibətləri (onun aktlarının, vasitə və nəticələrinin bölgüsü) də daxil olmaqla təşkilati münasibətlər yaranır. Daha mürəkkəb hallarda əmək bölgüsü sosial rolların və statusların sabit, şəxssiz (yəni daşıyıcının fərdi xüsusiyyətindən asılı olmayan) sistemini yaradır. Bu sistemə müxtəlif professional funksiyaları («rəislərin» və «tabe olanların», «mülkiyyətçilərin» və «mülkiyyətdən məhrum edilənlərin» və s. vəzifələrini

yerinə yetirən) həyata keçirən canlı fərdlər «qoşulmağa» məcburdurlar. Bu cür rollların və statusların məcmusu hər bir fərdin uyğunlaşmalı olduğu ümumi funksiyaların yerinə yetirilməsini təmin edən ictimai institutlar sistemi yaradır.

Məsələ burasındadaır ki, ayırdığı korporasiya, təhsil, müəssisə institutları kimi institut növlərini araşdırmaqla V.Mbıçenkov, A.İ. Priqocin və D.M.Qvişianinin sosial təşkilat kimi təsvir etdiyi fenomenlərdən bəhs edir. Onun instituta aid sadaladığı əlamətlər qeyd olunan müəlliflərin sosial təşkilata aid verdikləri xüsusiyyəti praktiki surətdə təkrar edir. Məsələn: «Korporasiya institutu kollektiv tərəfindən yaradılır, onun üzərində isə sosial-iqtisadi, sosial-hüquqi «maska» bərqərar olur. Öz növbəsində kollektiv qurum (ümumiyyətlə, bu qurum bir iştirakçıdan da ibarət ola bilər) məntiqi cəhətdən qabaqlamaqla bu maskanın daşıyıcısı kimi çıxış edir. İdarə institutu, əksinə, kollektivə, onun heyətini təşkil edən insanlara nisbətdə məntiqi baxımdan ilkindir. Müəssisə institutu öz əmək kollektivinin maskası deyildir. Bu, əgər belə ifadə etmək mümkünsə, korporasiyaya nisbətən daha müstəqil mahiyyətdir, lakin sonuncu insanlarla münasibətlərində onu müəssisə ilə yaxınlaşdıran xüsusiyyətlər kəsb edə bilər… Lakin institut yalnız, o fərdlər üçün korporasiya ola bilər ki, onlar ümumilikdə müvafiq sosial «maska»nın daşıyıcaları kimi çıxış edirlər; korporasiyaya xidmət edən muzdlu heyət üçün isə o, faktiki olaraq dövlət müəssisəsi, universitet və ya buna bənzər bir idarə kimidir». Və sonra: «müəssisədə işləyən insanların birliyinin öz xüsusi adı vardır – «əmək kollektivləri», «heyət». Bu kollektiv şəxs bir sıra şəraitlərdə praktiki şəkildə uyğun gəlməklə abstrakt şəxslə tamamlana bilər. Lakin istənilən halda o, müəssisənin abstrakt şəxsi ilə eyni olmayacaqdır, korporasiya kimi qalacaqdır. Əmək kollektivinin özü isə muzd haqqında müqavilənin şərtləri əsasında müəssisədə abstrakt şəxsin yanında dayanan kimi duran heyətdir.(3, səh.260-261) Başqa sözlə, A.İ.Priqojinin anlayışlarından istifadə edərkən söhbət formal və qeyri-formal təşkilatlardan gedir. Özü də fikrin mahiyyəti xırdalıqlara qədər üst-üstə düşür.(5, səh.26) B.M.Bıçenkov təsvir etdiyi təzahürlərin təşkilatların yox, institutların mahiyyəti olduğunu sübut etməyə cəhd etsə idi, onun nəticələri ilə razılaşmaq və ya mübahsə etmək olardı. Lakin belə cəhd yoxdur. Həm də diqqətdə saxlamalıyıq ki, Bıçenkov ictimai institutların mahiyyətinə sosial-fəlsəfi mövqedən yanaşdığı halda, D.M.Qvişiani, A.İ.Priqojin və yuxarıda qeyd olunan digər müəlliflərin əsərlərində təşkilatların və institutların problemləri sosioloji yanaşma çərçivəsində həll edilir. Fikrimizcə isə institutların sosial-fəlsəfi və siyasi problemlərini onun sosioloji təhlilini vermədən həll etmək olmaz. Bundan başqa ictimai həyat hadisələrinin öyrənilməsinə hansı tərəfdən yanaşılmasından asılı olmayaraq təhlil olunan eyni obyektdir. Baxış nöqteyi-nəzərləri, təhlil metodları dəyişir, kateqorial aparat isə dəyişməməlidir.

Təşkilatı, institutdan fərqli olaraq, öz xüsusi «cismi» olan, həndəsi nöqtə ilə müqayisə etmək maraqlıdır. Və bu, o halda daha ədalətli olar ki, biz təşkilata institusional sahənin reallaşma momenti kimi baxaq. Lakin ontoloji nöqteyi-nəzərdən

Qrup →institut subyekt →üsul
↓ üçlüyü ↓ variantını ifadə edir.
təşkilat forma

Burada ikinci və üçüncü komponentlər institutisonallaşma və ya təşkilatlanma dərəcəsi baxımından bir-biri vasitəsi ilə ifadə oluna bilsələr də bir-birinin eyni deyillər. Belə ki, təkcə institusional sahə (məsələn, qərarlaşmış davranış qaydaları) təşkilatları formalaşdırmır, həm də təşkilati sahə (yəni daha çox qəbul olunan fəaliyyət forması) institutlar vasitəsi ilə reallaşır. Bir çox institutların fəaliyyəti (yalnız mənəvi sahənin bəzi institutları istisna olunmaqla) təşkilatların yaradılması ilə bağlıdır. Bu təşkilatlar vasitəsi ilə institut çərçivəsində baş verən fəaliyyət predmetləşir. Məsələn, müasir cəmiyyətdə təhsil institutunu məktəblərsiz, pedaqoci kadrları hazırlayan idarələrsiz, ümumdövlət miqyasında orqanlarsız təsəvvür etmək mümkün deyildir. Bu idarələrin hər biri müstəqil təşkilatdır və onların konkret siması institusional komponentdən başqa bir çox digər faktlarla da müəyyən olunur. Ona görə də müxtəlif sosial sistemlərdə eyni institut fərqli təşkilati formalarda (cəmiyyətin real tələbatına daha çox cavab verən)reallaşır. Beləliklə, təşkilatın konkret siması əsasən mövcud institusional sistemdən törəyir ki, o da subyektin fəaliyyət formasını müəyyənləşdirməklə bu sistemin özünə də təsir göstərir.

Maraqlıdır ki, Qərb sosial-siyasi fikrində də buna oxşar ideyalara rast gəlirik. Belə ki, məsələn, Qi Roşer sosial təşkilata struktur və mədəniyyət elementlərinin birləşməsi kimi baxaraq, mahiyyət etibarı ilə bu anlayış altında institusional sahənin meydana gəlməsini nəzərdə tuturdu. «Sosial təşkilat sosial aktorların istənilən kollektivliyi üçün sosial fəaliyyətin genişləndiyi analitik kontekst kimi çıxış edir. O, sosial fəaliyyətin faktiki nəticəsidir».(6, səh.156)

Beləliklə, institut yalnız təşkilatların fəaliyyəti vasitəsi ilə deyil, həm də institusional qrupların mövcudluğu ilə reallaşır. Bu zaman xüsusilə qeyd etmək lazımdır ki, təşkilatların və institusional qrupların miqdarı «bütün» institutların fəaliyyəti üçün zəruri şərt deyil. Biz onların müxtəlif reallaşma üsullarını müşahidə edə bilərik.

1. Təşkilatlar və institusional qruplarsız varlığı mümkün olmayan institutlar (məsələn – dövlət). Onun mövcudluğu həm təşkilati sistem, həm də xüsusi institusional qrupların – siyasətçilərin, dövlət qulluqçularının və s. fəaliyyəti vasitəsi ilə reallaşır).

2. İnstitusional qrupları olan, lakin təşkilati forması olmayan (analıq) və ya təşkilati başlanğıcı institusionalda əridən (məsələn, ordu həm subyektin fəaliyyət üsulu, həm də formasıdır. Eyni zamanda hərbi xidmətçilər, şübhəsiz, institusional qrupdurlar) institutlar.

3. Əsasən təşkilati strukturlar vasitəsi ilə reallaşan institutlar. Məsələn, bank işi institutu. Çətin ki, bank qulluqçularına, onun əmanətçilərinə və xidmətçilərinə institusional qruplar kimi baxmaq mümkün olsun. Bankda işləyən hüquqşünas, reklam agenti, maliyyəçi öz iş yerini dəyişə bilər (deyək ki,

sənaye korporasiyasına keçə bilər), lakin bu, onun digər bərabər şəraitlərdə sosial statusunu əhəmiyyətli dərəcədə dəyişməyəcəkdir.

Bundan başqa, nadir hallarda olsa da, xüsusi təşkilatlara və institusional qruplara ehtiyacı olmayan institutlara da rast gəlinir. Məsələn, əxlaq institutu. Bu onunla bağlıdır ki, bu cür institutlar bütün cəmiyyətin fəaliyyətinin təşkili üsuludur və spesifik fəaliyyət sahəsinə malikdirlər.

Biz ictimai həyatın qeyd olunan fenomenlərinin təşkilində bir sıra mərhələləri ayıra bilərik. (O, şərtlə ki, bu proses özbaşına getsin).

1. Daha geniş sosial məkanda – sosial dairədə ünsiyyətin formalaşması.
2. İlkin (kiçik) qrupun formalaşması.
3. Kiçik qrupun artıq kiçik hesab oluna bilinməyən həddə qədər genişlənməsi – yəni heç də bütün üzvlər bir-birləri ilə tanış deyillər və bir-birləri ilə birbaşa əlaqə saxlamaq imkanları yoxdur.
4. Əvvəlki mərhələdə yaranmış qrupun fəaliyyətini nizamasalma forması kimi sosial təşkilatın formalaşması.

Cəmiyyətdə nə sosial təşkilat, nə də ictimai institut tək olmadığı üçün (məsələ məhz belədir) yaranan və mövcud olan ictimai təşkilatlar müasir cəmiyyətin mürəkkəb strukturunu təşkil edərək çulğalaşırlar. Onların hamısı fərdlərin hansısa həyati zəruri tələbatlarını ödəyirlər və ona görə də mövcuddurlar. Sosial təşkilatların nomenklaturasının özü bir növ cəmiyyətin inkişaf səviyyəsinin, onun tələblərinin, ehtiyaclarının, nəyə üstünlük verməsinin göstəricisidir.

Paralel olaraq sosial subyektlərin həm qruplar və təşkilatlar daxilində, həm də qruplararası və təşkilatlararası məkanda qarşılıqlı fəaliyyətinin daha effektiv üsulları işlənib hazırlanır. Bu üsullar institutlaşma prosesində möhkəmlənir ki, bu da sosial institutlar sisteminin yaranmasına gətirib çıxarır. Təşkilatlar kimi institutlar da artıq mövcud olan sosial fenomenlərin təsiri ilə formalaşırlar və ona görə də mürəkkəb genezisə malikdirlər.

İstifadə olunmuş ədəbiyyat

1. Алаев Э.Б. Социально-экономическая география: понятийно-терминологический словарь. М., 1983.
2. Беленький В.Х. Активные элементы социальной структуры общества: социально-философские и социально-политические проблемы. Красноярск, 1997.
3. Быченков В.М. Институты: сверхколлективные социальные образования и безличные формы социальной субъективности. С.774.
4. Маркс К., Энгельс Ф. Фейербах. Противоположность материалистического и идеалистического воззрения //Маркс К., Энгельс Ф. Избранные произведения, Т. 1, М., 1983.

5. Пригожин А.И. Современная социология организаций, М. 1995; Попова Е.П. Проблема структурной инерции и ориентиры развития организаций //Вестник МГУ, сер.18, 1995, № 2.

6. Антонович И.И. Буржуазная социологическая теория. Ч.2, Минск, 1981.

Нариман ГАСАНОВ

СОЦИАЛЬНЫЕ ИНСТИТУТЫ И ИХ ВЗАИМООТНОШЕНИЯ С ГРУППАМИ И ОРГАНИЗАЦИЯМИ

Резюме

Для изучения и исследования сущности социальных институтов необходимо проанализировать взаимовлияние институционально-организационной сферы с субъектами общественных отношений.

С этой точки зрения в статье исследуются такие проблемы как является ли институт субъектом общественных отношений, свойственна ли ему субстанциональность, какое влияние оказывают институты на индивиды и их объединения. Место институтов в системе общественных отношений, их взаимовлияние и связи с другими институтами и организациями были взяты как предмет научно-теоретического и политологического анализа.

Автор так же исследуя способы образования и этапы развития институциональных групп и организаций, особенно после подчеркивания трех из них приходит к выводу, что институты реализуются не только деятельностью организаций, но и существованием институциональных групп.

Nariman HASANOV

SOCIAL INSTITUTES AND THEIR INTERRELATIONSHIP WITH THE GROUPS AND ORGANIZATIONS

Summary

For study and research of the main points of social institutes the mutual influence of institution-organization spheres and the subjects of social relations should be analysed.

In the article, sush problems as: whether the instute is the subject of social relations, substantiality is typical to it, what influence the institute exerts on individiums and their unions, are studied from this point of view.

The place of institutes in the system of public relations, their mutual influence and associations with other institutes and organizations were taken as a subject of seientific-theoretical and politological analysis.

As well, on studying the ways of formation and stages of the development of institution groups and organizations, in particular, underlining three of them, the author draws a conclusion that the institutes are realized not only by the activities of the organizations but also existence of institutional groups.

II SOSİAL-SİYASİ BÖLMƏ

Əlikram TAĞIYEV
fəlsəfə elmləri doktoru, professor.

NİZAMİ GƏNCƏVİ VƏ TOMAS MOR: SOSİAL UTOPİYADAN UTOPİK SOSİALİZMƏ

Hər hansı bir elmi müddəada utopizm elementləri mövcuddur. Xüsusilə də cəmiyyət haqqında olan elmi əsərlərdə bunsuz keçinmək qeyri-mümkündür. Utopizm və romantika hətta ciddi elmlər sayılan təbib elmlərində də vardır. Bu ona görə belədir ki, insanın arzuları və istəkləri onları daim xəyallara dalmağa sövq edir və bu da öz nəticəsini onların xəyallar aləmindən əxz etdikləri fikirlərində tapmış olur. Şübhə yoxdur ki, utopik ideyaların yaranması bir tək insanların fərdi hisslərini gündəlik həyat tərzlərinin nəticəsidir, məhsuludur. İnsanlar həmişə xoşbəxt həyat sorağında olmuş və uzaq keçmişlərdə, doğrudan da hardasa belə bir həyatın mövcud olmasına inanmışlar. Hətta, coğrafi kəşflər dövründə bu işə qoşulaqların bəziləri hansısa uzaq bir adada belə bir quruluşla rastlaşacaqlarına inanırdılar və bəzən də ibtidai xalqların həyatında ona oxşar bir mənzərə ilə doğrudan da qarşılaşırdılar. Avropa dünyası coğrafi kəşflərin çevriləcəyinə əmin idilər. Oraya çatan yeni-yeni məlumatlar, yeni-yeni torpaqların və xalqların kəşf olunması bu ideyaların reallaşması üçün bir əminlik yaradırdı. Bu əminliyi ifadə edən ilkin mütəfəkkirlərin əsərlərindən görünür ki, insanların yaşayış səviyyələri onların məfkurəsini doğurur. İllərlə əzilən, ruhən sarsılan və daim ehtiyaclar içərisində çırpınan insanlar özlərinin gözə görünməz bir qüvvə tərəfindən haçansa bu əzablardan xilas olunacaqlarını zənn etmişlər. Bu da onları utopik xəyallara qapılmağa sövq etmişdir. Lakin heç də onların hamısı bu xəyalları yazıya köçürmək və öz fikirlərini ifadə etmək iqtidarında olmamışlar. Yalnız cəmiyyətin ağıllı, düşünən beyinləri onların bu arzu və istəklərini ifadə edə bilərdi. Qədim Çində Ulmbulun «Günəş dövləti» əsəri, Platonun «Atlantik» ideyası, Nizaminin ideal cəmiyyət haqqındakı fikirləri, qədim «ictimai müqavilə» nəzəriyyələri, Avropa utopik sosialistlərinin öz fikirlərində quraşdırdıqları müxtəlif dövlətlər və cəmiyyətlər, məzdəkilərin ibtidai kommunist bölüşdürücülüyü kimi primitiv bərabərlik ideyaları nəhayətdə dünyanın yenidən təşkil oluna biləcəyi fikrini irəli sürdü. Bəziləri hətta bunun qan və üsyanla, terror və qorxu ilə yaradılacağı fikrinə gəldilər. Onlar cəmiyyət binasının kökündən sökülüb yenidən tikilməsi üçün inqilabları əsas vasitə saydılar. Bu da ədalətli cəmiyyəti yolunda, bir qrup adamın xoşbəxt yanaşması üçün milyonların qurban verilməsi hesabına başa gələ bilərdi. İslahatlar və inqilablar onları həyata keçirənlərin hamısını «Lehifan» kimi bir ucdan udur. Fransa inqilabını xatırlamaq kifayətdir. Bu inqilab nə qədər cəsur inqilabçının başını yemişdir. Robesayer, Sen Müst, Marat, Lafyeyet, Babof, Barras, Dantan, Karno, Qays, Demulen, Momet, Kuton, Kondorse kimi inqilabçılar, Napoleon,

Temyron, Marşal Ney, Mürat, avantürist Füje və digər islahatçıların hamısı başlarına öz ideyalarını həyata keçirmək yolunda qoymuşdur. Rus inqilablarının yediyi başlara baxın: Litii, Trotit, Buxorin, Lorkov və onlarla başqalır! Məsələ burasındadır ki, cəmiyyət bir tərəfdən belə dəyişiklikləri istəyir, digər tərəfdən isə onu həyata keçirməyə heç də həmişə hazır olmur. Ona görə də onun tələbatı ilə siyasi liderlərin arzuları arasında ziddiyyət yaranır. Bu da siyasi liderlərin iflasına və cəmiyyət tərəfindən rədd edilməklə səbəb olur. İnqilabın məhv etdiyi adamlar Azərbaycanda da kifayət qədərdir. Onların ən görkəmli nümayəndələrindən XX əsrin birinci yarısında Azərbaycan mühitində yetişən M.Ə.Rəsulzadəni, N.Nərimanovu və C.Bağırovu göstərmək olar. Bismark yazırdı ki, inqilabı nəzəriyyəçilər.... fanatiklər həyata keçirir, nəticələrindən isə avantüristlər istifadə edir.

Hər hansı bir sahədə edilmiş kardinal dəyişikliklər köhnə həyata alışmış adamların maraqlarına uyğun gəlmir, onlar yeniliyi heç də həmişə qucaqlayıb bağırlarına basmağa tələsmirlər. Ona görə də yeni cəmiyyət yaratmaq ideyaları tarixən həmişə uğursuzluqla nəticələnmişdir. Onlar öz nəzəriyyələrini tətbiq etmək istəyəndə görürlər ki, real həyat tamamilə başqa işlərin görülməsini tələb edir.

Marks Paris Kommunasının təcrübəsindən danışarkən yazırdı ki, hakimiyyət nəzəriyyələrin əlinə keçəndə onlar daim real həyatda olduğunun tam əksinə hərəkət edirlər. Lakin cəmiyyət daim öz axarı ilə yaşamışdır. Nə inqilablar, nə müharibələr, nə də islahatlar onu dəyişdirə bilmədilər. Yüz il keçsə də cəmiyyət yenə də öz köhnə vəziyyətinə və inkişaf yoluna düşmüş, inqilablar və müharibələr yolu ilə yeni cəmiyyət quracaqlarına əmin olan insanların ideyaları və fikirləri ilə özlərini doğrultmadı. Bolşeviklərin bütün cidd-cəhdlərinə baxmayaraq onların qurmaq istədikləri ədalətli cəmiyyət dünyanın əksər hissələri üçün ədalətsiz sayıldı və süquta uğradı.

NİZAMİ GƏNCƏVİ

B.e.ə. V əsrdə Pelomoness döyüşlərində həlak olmuş şəhidlərin qəbri üstündəki məşhur nitqində Afina strateqi Perikl demişdir: «Kasıb olmaq ayıb iş deyil. Ayıb iş odur ki, kasıbçılıqdan çıxmağa çalışmayasan». Görünür, dövrdə Afina şəraitində buna imkan vardı. Yəni əziyyət çəkənlər öz zəhmətlərilə müəyyən mərtəbələrə qalxa bilirlərmiş. Bizdə isə bu imkanı adamlara heç vaxt verməyiblər. Düzdür, biz həmişə keçmişi ilahiləşdirmiş, elə hər şeyin, hətta «qızıl əsrin» də elə keçmişdə qaldığını zənn etmişik. Amma bizim tariximizə və ictimai siyasi fikrimizə nəzər saldıqda zəhmət adamlarının, qələm sahiblərinin elə bütün dövrlərdə əziyyət çəkdiklərini görürük. Məsələn, Nizami yazırdı: «İnsanlar həmişə özlərindən əvvəlki nəsillərin həsrətini çəkmişlər. Vay o adamların halına ki, bizim həsrətimizi çəkəcəklər». Bütün bunların kökündə tarixən ictimai sərvətin düzgün bölüşdürülməməsi, hökmdarların özbaşınalığı, kamil insanın yetişməsinə şəraitin olmaması, cahillik və s. kimi amillər dayanmışdı və elə indinin özündə də belədir ki var.

Bəşəriyyətin yetirdiyi ən nadir zəkalardan biri olan Nizami gəncəvi insanların arzularını, onların istəklərini real həyata çevirməyin mümkün olmadığını bilsə də, ədalətli cəmiyyətin təsvirini verməklə bir növ özü də təskinlik

tapmışdır. Nizami də bir çoxları kimi görürdü ki, günlər biri-birindən pis gəlir, ona görə də belə bir cəmiyyətin gələcəkdə qurulmasına ehtimal azdır. Yəqin ki, adamların xəyallarında yaratdıqları belə bir cəmiyyət həqiqətən də keçmişdə, məsələn elə Makedoniyalı İskəndər dövründə mövcud olmuşdur. O, İsgəndəri belə bir ədalətli cəmiyyətə aparıb çıxarmaqla dövrünün hökmdarlarına göstərmək istəyirdi ki, cəmiyyət onlarsız da keçinə bilər, yaxud onlar istəsələr dünyada zülm və istisnaların kökünü kəsə bilərlər və yaxud onu nisbətən yüngülləşdirə bilərlər. Bu kimi sosial-utopik ideyalar hələ Nizamiyədək də mövcud idi. Onların tarixi qədimdir. Onun sosial bazası geniş olmuşdur; sənətkarlar, kəndlilər, şəhər və kənd yoxsulları, pauperlər və s. məmurların özbaşınalığı, vergilər qanlı müharibələr və amansız istismar yeni-yeni üsyanlara səbəb olurdu. Xalq kütlələrinin ağır güzəranı onları xoş gələcək haqqında şirin xəyallara dalmağa məcbur edirdi. Bu ideyalar cəmiyətin qabaqcıl nümayəndələri tərəfindən qələmə alınır və xalq arzuları ancaq utopik xəyallar şəklində mövcud ola bilərdi. Habelə, bu ideyalar sistemli xarakter daşımırdı, ayrı-ayrı süjetlərindən və epizodlarından ibarət olurdu. Yeni tarixi dövrün utopik sosialistləri isə cəmiyyətin təxmini tam mənzərəsini yarada bilirdilər. Ona görə də sosial utopistlərlə utopik sosialistlər təsvir etdikləri cəmiyyətin sxemini çəkməkdə bir-birindən seçilirlər. Sosial utopiya tərəfdarlarının cəmiyyəti heç də mükəmməl deyildi, freqmatik idi. Utopik sosialistlər isə onlardan çox şeyi əxz etmişdilər. Bu baxımdan aşağıdakılar maraq doğura bilər:

Ən əvvəl utopik sosializmdə iki cəhəti birləşdirmək lazımdır:

1. Rasional.
2. İllüziyalı (müsbət) – fanatik.

Bu, utopik sosializmin təbiət və xarakterini meydana çıxarmağa açar verir.

İkinci tərəfdən, utopik sosializm bir şəraitdə mütərəqqi, digər şəraitdə isə mürtəce hadisə kimi çıxış edə bilərdi.

Üçüncüsü, utopik sosializmi sosial utopiya ilə qarışdırmaq, eyniləşdirmək olmaz. Onlar arasında oxşar və fərqli cəhətlər vardı. Sosial utopiya gələcək xoşbəxt cəmiyyət haqqında xalq kütlələrinin arzu və istəklərini ifadə edir və o, xüsusi mülkiyyətin yaranması ilə əlaqədar idi. Utopik sosializm bu ideyaların ən yüksək zirvəsi idi.

Dördüncüsü, ictimai idəlat, xoş gələcək, sosial azadlıq uğrunda, xalq kütlələrinin mübarizəsi baxımından həm sosial utopiya, həm də utopik sosializm qlobal xarakter daşıyırdı.

Və nəhayət, insanları mükəmməl, ədalətli cəmiyyət uğrunda, humanizm uğrunda mübarizəyə səsləyən xalq sosial utopiyasının Şərqdə və hətta Qərbdə geniş yayılmış təlimlər üçün bir ideya mənbəyi olduğu zənn edilir. Prof. C.Mustafayev N.Gəncəvinin utopiyasından bəhs edərkən göstərir ki, Nizami öz təlimindən qədim yunanların utopik əsərlərindən də istifadə etmişdir. Müəllif yazır ki, qədim yunanlar, onların məlum olan Himalay dağlarında Uttara-Kuru tayfalarının yerləşdiyi cənnət ölkə haqqında hind nağıllarından bəhrələnmişlər. Çox ehtimal ki, Tomas Morun «Utopiya»sı da həmin mənbəyə əsaslanaraq yaradılmışdır. (1, s.120)

Nizami «İsgəndərnamə» oemasında İsgəndəri özünün təsəvvür etdiyi həmin ideal ölkəyə aparıb çıxarır. Burada ona deyirlər:

Bizdə bərabərdir hamının varı,
Bərabər bölərik bütün malları.
Bizdə artıq deyil heç kədən heç kəs,
Bizdə ağlayana bir kimsə gülməz.
Oğrudan qorxaraq, biz nə şəhərdə –
Qaraul qoyarıq, nə də çöllərdə.
Qaraul qoyarıq, nə də çöllərdə.
...Kimsəni pis yola sarı çıkmərik,
Fitnə axtarmarıq, heç qan tökmərik.
Birimiz qəm çəksə olarıq şərik,
Şadlıqda hamımız şadlıq eylərik.

...Qızıla, gümüşə aldanmaz heç kəs,
Onlar bizim yerdə bir şey dəyməz.
...Bizdə cavanlıqda ölməz bir nəfər,
Yalnız çox yaşamış qocalar ölər.

Nizami Gəncəvi özünün yaratdığı şah obrazını ədalətli cəmiyyət problemi ilə birləşdirməyə çalışırdı. Ədalətli cəmiyyət və ədalətli şah ideyaları Nizamidən sonrakı mütəfəkkirlərin, xüsusən Avropa alimlərinin əsərlərinin mühüm qaynaqlarından biri idi. Hətta «İctimai müqavilə» nəzəriyyəsinin yaranması və təkmilləşməsində də Nizami ideyalarının izləri görünməkdədir. Bunu bir sıra Avropa alimlərinin özləri də təsdiqləmişlər. Onlar qeyd etmişlər ki, Avropa intibahı öz nəzəri mənbəyini məhz İslam Şərqi ölkələrindən almışdır.

Dahi Azərbaycan şairi Nizami Gəncəvinin əsərlərində ədalətli şah məsədəsi mühüm yer tutur. «İskəndərnamə»yə qədər hökmdarsız cəmiyyət quruluşu təsəvvür edə bilməyən Nizaminin yaradıcılığından ədalətli şah surətləri tərbiyə edib yetişdirmək məsələsi qırmızı bir xətlə keçir.

Nizaminin poemalarında və lirik şerlərində mərhəmətlə ədalətin təbliği, zülmkarlığın tənqidi, ədalətli hökmdar problemi kimi məsələlər izah edilmiş, hökmdarsız ideal cəmiyyətin təsviri məsələsinə də toxunulmuşdur.

Sözün əsl mənasında sonda belə bir cəmiyyətin təsvirini vermək tədrici təkamülü proseslərin gedişi ilə əsaslandırılır, həmçinin ədalətli şah surətləri tərbiyə etməklə cəmiyyətdə idarəçiliyin ədalətli və əmniyyətli olmasını bərqərar edən bir dövlət təlimindən söhbət açılır.

«Sirlər xəzinəsi» poemasında Nizami yazırdı:
«Şan-şöhrətli dünyaya sığışmazdı türklərin,
Ölkəsi ədalətlə güllü yazdı türklərin.
Zalımlığın bəllidir, işin-peşən talandır,
Sən ki, hindli quldursan, türk olmağın yalandır».

Nizaminin ideal dövləti qədim türklərin ədalətdən yoğrulmuş dövlət quruluşlarına çox oxhayır. Yarım əsr də keçəcək və italyan Tommazo Kompanella türk dövlətindəki ədaləti vəsf edən «Günəş şəhəri» kitabını yazıb

onu İstanbula ithaf edəcəkdi. Nizaminin əsərlərində təsvir olunan ədalətli cəmiyyət ideyası elə əslində o zamanlarda türklərin qurduqları bir çox iri dövlət birləşmələrində öz real təsdiqini tapmışdır və təbii ki, Nizami də bunlardan xəbərsiz deyildi və ona laqeyd qala bilməzdi.

Qədim Sparta çarı Aqaselaydan soruşdular: «Sizcə ədalət yaxşıdır, yoxsa cəsarət?» Cavab verdi: «Ədalət olan yerdə cəsarətə ehtiyac qalmır».

İnsanlar hələ qədim zamanlardan etibarən ədalətin, düzgünlüyün və qanunların aliliyinin təmin olunduğu cəmiyyətlərdə yaşamağı arzu etmişlər. Onlar belə cəmiyyətlər haqqında müxtəlif rəvayətlər, nağıllar, dastanlar uydurmuş, onları nəsildən-nəsilə ötürmüşlər. Belə yazıya köçürülmüş ilk abidələrdən biri olan qədim çin mütəfəkkiri Yambu «Günəş dövləti» əsəri ilə özündən sonrakı utopistlər üçün yeni bir mövzu qoyub getdi. Orta əsrlər İslam Şərqində bu mövzunu ən yüksək zirvəyə qaldıran Nizami oldu. nizami özünün sosial utopik fikirlərilə orta əsrlərin sonu – yeni dövrün lap başlanğıcında yaranmış Avropa ictimai-siyasi fikirlərinə güclü təsir göstərdi. Höte, Tomas Mor, Melye, Sen Simon və başqa mütəfəkkirlər onun haqqında yadda qalan sözlər demişlər. Bu sözlər, eləcə də Nizami kimi mütəfəkkirlərin yaradıcılığı Avropa sentristlərin yalançı iddialarını heçə endirir. İslam Şərqi xalqlarının müstəqil düşüncə tərzlərinə, azadlıq ideyalarına qarşı hər cür ittihamlarını puça çıxarır. Solondan soruşanda ki, «Hansı ölkədə doğulmaq daha yaxşı olardı?» – cavab vermişdi: «Qanunlarına əməl olunan ölkədə». Qədim insanlar ədalətin bərpası uğrunda öz canlarından keçmişlər. Nizami kimi söz xridarları isə onları ipə-sapa düzmüşlər. Təqdim olunan bu yazı deyilən problemin açıqlanması yolunda irəliyə doğru atılmış yeni bir addımdır.

TOMAS MOR

Mor - ingilis ağlına və nadir alimlik qabiliyyətinə malik bir insandır. Ona bərabər bir adam tanımıram... O, bütün zamanların insanıdır (Robert Uittinqton).

Tomas Mor – düz 471-ci il bundan əvvəl edam olunmuşdur. Kitabları kilsə tərəfindən qadağan edilmiş və «Lənətlənmiş kitablar» siyahısına salınmışdır. Yalnız anadan olmasının 400 münasibətilə bu ad üzərindən götürülmüş və kilsə tərəfindən əvvəlcə əzabkeş (1881), sonra isə «Müqəddəs» (1935) elan olunmuş-dur. ABŞ-ın Uel universiteti anadan olmasının 500 illik yubileyi münasibətilə onun 16 cildlik küliyyatını nəşr etmişdir. Tomas Morun elmi-nəzəri müddəaları və siyasi fəaliyyəti uzun illərdir ki, müxtəlif ideoloji görüşlərin diqqət mərkəzindədir. Onlar bu böyük fikir sahibini öz cərgələrində görmək üçün müxtəlif vasitələrə əl atır, onu öz ideyalarının tərcümanına çevirməyə cəhd göstərirlər. Bunun üçün də onun ideyaları tarixən saxtalaşdırılmış və müxtəlif ideoloji cərəyanların mənafelərinə uyğunlaşdırılmışdır. Amma dünyanın vicdanlı adamları bu böyük insana onun öz həqiqi həqiqi qiymətini verməyə çalışmış, onu olduğu kimi öyrənməyə və təqdim etməyə, layiq olduğu mərtəbəyə qiymət verməyə çalışmışlar.

Həyatı – Tomas Mor London hüquqşünası, centlemen Con Morun oğlu 6 fevral 1477-ci ildə varlı ailədə anadan olmuşdur. Nəslən aristokrat olan Tomas

Mor öz dövrü üçün yaxşı təhsil almışdı. Əvvəlcə qrammatika məktəbində, sonra isə Oksvord Universitetində oxumuşdur. 1502-ci ildə advokat olur. Həm də hüquqdan dərs deyir. Hüquq elminə xüsusi marağı olan Tomas Mor 1504-cü ildə parlament üzvü seçilir. VII Henrixin vergi siyasətini tənqid edir. Ona görə də repressiyadan qorxub köhnə işinə qayıdır və boş vaxtlarını qədim dilləri – yunan və latın dilini öyrənməyə həsr edir. T.Morun bir humanist kimi formalaşmasında niderlandlı alim Erazm Retterzamlının böyük rolu olmuşdur. İlk dəfə 1499-cu ildə Erazmla görüşən Mor ömrünün sonunadək onunla dostluq və əməkdaşlıq etmişdir. Onların hər ikisi o zamanlar üçün mütərəqqi hal sayılan islahatlar tərəfdarı idilər. 1510-cu ildə VIII Henrixin ilk parlamentinin üzvü seçilir. Eyni zamanda o, London şerifinin hüquq məsələləri üzrə məsləhətçisi və mülki işlər üzrə hakim təyin olunur. T.Mor burada özünü bacarıqlı bir hüquqşünas kimi göstərir və xalqın rəğbətini qazanır. Bir sıra diplomatik danışıqlarda iştirak edir və 1516-cı ildə «Utopiya» əsərini yazıb çap etdirir. Bu, gənc VIII Henrixin diqqətini cəlb edir. Humanistlərə xüsusi qayğı ilə yanaşan VIII Henrix 1517-ci ildə onu özünə məsləhətçi götürür. 1518-ci ildə Kaleyə səyahət edir və elə həmin il də Kradın katibi vəzifəsinə irəli çəkilir. Kralı bütün səfərlərdə müşayiə edir və dövlət işlərində böyük uğurlar qazanır. 1521-ci ildə xəzinədarın köməkçisi təyin edilir və Cəngavər titulunu alır. Kansler T.Uolsini bir mıra səyahətlərdə müşayət və diplomatik işlərdə iştirak edir. T.Mor kralın xoşuna gəlirdi və ona görə də tez-tez onunla görüşüb söhbət edirdi. Bu rəğbətin nəticəsi idi ki, ona xeyli torpaq sahəsi bağışladı.

Mor həyatda çox sadə, gülərüz və qənaətcil idi. Sadə geyinər və heyvanları çox sevərdi. Böyük humanist adamlara həmişə yardım etməyə hazır olardı, qadınların təhsil alması tərəfdarı idi. Öz gənc arvadını və uşaqlarını böyük məhəbbətlə sevirdi. Xasiyyəti mülayim idi, yumoru xoşlayırdı. E.Ratterdamsı onu «Britaniyanın bəzəyi» adlandırmışdı. 1523-cü ildə birinci nazir Uolsinin və kralın özünün təklifilə T.Mor parlamentin spikeri seçilir. Dövlətin idarəçiliyindəki iştirakı kralın ona olan rəğbətini artırırdı. Ona görə də kral onu özünə yaxın adam hesab edir, hətta onun ailəsinə tez-tez qonaq gəlir, Londonun ətrafında olan Çelsidəki evində onunla çörək kəsir, bağında gəzinir və onu bir dost kimi qucaqlayırdı. T.Mor bu vaxt bu yaxınlışdan sui istifadə etməzdi. 1525-ci ildə Mor hörmətli və çox şərəfli sayılan bir vəzifəyə – Langester Hersoqluğunun Kanslerliyinə keçir. Bununla bərabər o, diplomatik fəaliyyətini də davam etdirir. Fransa ilə sülh bağlanılmasından yaxından iştirak edir. 1529-cu ildə Lord-Kansler Uolsi vəzifə həddini aşdığına görə işdən azad olunur. Bu böyü vəzifə Mora tapşırılır. Hersoq Horfolk sarayda rnu təqdim edəndə Mor öz ənənəvi cavab nitqində deyir: «Mən bu vəzifəni hkç də şərəfli deyil, əksinə qorxulu hesab edirəm. Nə qədər yüksəyə qalxırsansa, yıxılanda bir o qədər dərinə düşürsən. Məndən əvvəlkinin vəziyyəti bunu sübut edir». Daha sonra o, göstərirdi ki, «yeni kreslosu ona başının üstündə qılınc asılmış Damoklun kreslosu qədər xoş gəlir»

Ölkədə güclənən Refermasiya hərəkatı nəticəsində bidətçilərə qarşı aparılan mübarizə heç bir nəticə vermirdi. İkinci bir tərəfdən, VIII Henrix birinci

arvadı Yekatrina Arqonslunu boşamaq haqqında məsələ qaldırdı. Siyasi mülahizələr ucbatından papa onu təsdiq etmədi. Belə olan halda, Mor da kralın əleyhinə çıxdı və papanın qərarını təsdiqlədi. Morun krala qarşı çıxması, ona sədaqət andı içməkdən imtina etməsi kralın və eləcə də Morun düşmənlərinin ona qarşı sərt mövqe tutmaları ilə nəticələndi və ona xəyanətkar, satqın damğası vuruldu. 1532-ci ildə VIII Henrix papanın hakimiyyəti devrildiyini və müstəqil Anmikan kilsəsinin yaradıldığını elan etdi. Mor da əvəzində vəzifədən istefa verdiyini bildirdi və kral möhürünü təhvil verdi. 1535-ci ildə kralın əmrilə edam edildi.

1516-cı ildə çap olunmuş «Utopiya» əsəri T.Mora dünya şöhrəti qazandırdı. Latın dilində yazılmış bu əsər tezliklə başqa dillərə tərcümə olundu.* İlu dəfə 1524-cü ildə Bazeldə İohan Bebel tərəfindən alman dilində tərcüməsi çap edilir. 1548-ci ildə Venetsiyada O.Pando tərəfindən italyan dilində nəşr olunur. 1550-ci ildə fransız dilində, 1551-ci ildə isə ingilis dilində çap edilir. Əsər 1553-ildə holland, 1637-ci ildə isə ispan dilində işıq üzünü görür. Fransız humanisti Qayom Bnode hələ 1517-ci ildə yazırdı ki, «bu və bundan sonrakı yüzillikdə adamlar bu əsərin təsiri altında olacaqlar». T.Morun bu əsəri dövrünün sosial-siyasi ziddiyyətlərindən bir çıxış yolunu aramaq ümidilə yazılmışdır.

Utop – adanın yerli sakinlərinə qalib gələn adamın adıdır. Onun əvvəlki adı Abraks olub. Burada 54 şəhər var. Ada sakinlərinin dili, adət-ənənələri, qayda-qanunları birdir. «Utopiya» yunan dilində olan olan oy–yox, toyos–yer–yəni «heç yerdə olmayan yer» mənasını verir. Tomas Mor Niderlandiyaya səfər edərkən burada humanist Pyotr Eqida ilə tanış olur. Onun yanında dənizçi paltarında Rafael Qitlodey adlı birisini ona təqdim edirlər. Bütün əhvalat da onun dilindən və onun mübahisə şəklində qələmə alınmışdır. Əsər 1514-cü ildə yazılmış, amma sonra əlyazma itmişdir.

T.Morun əsərində antik filosofların, eləcə də intibah dövrünün böyük humanistləri olan Erazmin, Rablenin təsirini hiss edirik. Dövlətin və cəmiyyətin nümunəvi və ideal təşkili məsələsi Moru maraqlandıran əsas məsələ idi. Bununçün o, mövcud quruluşları antik dövrün demokratiyası ilə müqayisə edir və burada üstünlüyü onlara verirdi. Morun cəmiyyətində hamı seçilir və onlar xalqın maraqlarını ifadə edirlər. Xalq hakimiyyəti T.Mor üçün irsi monarx hakimiyyətindən daha məqbuldur. T.Mor əsərində işlətdiyi «prinsens» terminini öz dövlətində ən yüksək vəzifə sahibini göstərmək üçün işlətmişdir. Bəziləri isə səhvən onu «kral», «knyaz» kimi başa düşürlər. T.Morda ən yüksək vəzifə sahibi olan prinsens belə seçilir və xalqa xidmət edir. Adadakı mövcud olan senat (Mor onu sifoqrantların məclisi adlandırır – Ə.T.) hər şeyə nəzarət edir. Ondan kənarda həyata keçirilən fəaliyyəti T.Mor cinayət adlandırırdı. T.Mor Aristotelin «Poilitika» əsərində irəli sürdüyü «qarışıq dövlətin» tətbiqini də mümkün sayırdı. Ada 54 özünü ifadəedən federasiyadan ibarət idi. polislərin hamısı eyni təsərrüfat həyatına malik idilər. Ona görə də o adanın əsas şəhəri

* O zamanlar köhnə dillər adı altında latın və yunan dilləri, yeni dillər adı altında isə alman, fransız və ingilis dilləri başa düşülürdü (müəllif).

olan Amauratanın təsvirilə kifayətlənir və qeyd edir ki, digərləri də ona oxşadılar. Hər bir şəhərin başında gizli səsvermə ilə ömürlük seçilən hökmdar durur. Hökmdarla yanaşı, senat da mövcuddur və o əsas rol oynayır. Hər il hər bir şəhərdən üç müdrik qoca yığışıb dövlətin işlərini müzakirə edirlər. Xalq içərisində isə fövqəladə hallar da çağırılır. Bütün məsələlər əvvəlcə ailədə, sonra isə hər 30 ailədən bir seçilmiş sifoqrantlar tərəfindən müzakirə edilir və senata təqdim edilir. Senat 200 sifoqrantdan ibarət seçilir. Belə ki, Morun ideal dövləti bərabət hüquqlu insanlardan təşkil olunmuş böyük bir ailəni andırır. Bütün yüksək vəzifələr, eləcə də hökmdar alimlərin içərisindən seçilir. Onlar bütün xalqı maarifləndirirlər. Təhsilə və maarifə yiyələnən vətəndaşlar yüksək mənəvi keyfiyyətlər qazanmış olurlar. Bununla da ağıl təntənə çalır. Platonun ardınca Mor belə hesab edirdi ki, bu ideya sonralar bir sıra alimlər tərəfindən tənqid edilmişdir. Orteqa i Qasset yazırdı ki: «Əgər alimlər hökmdarlıq edəcəksə, bəs onda alimliyi kim etməlidir?» Yəni alimin eyni zamanda hökmdarlıq, həm də alimlik etməsi qeyri-mümkündür. Utopiya adasında insanlar elmə heç də sxolastlar kimi yanaşmırlar, əksinə, onlar təbiət elmlərini daha çox sevirlər, Hippokratı, Qalileyi, Feofrastı öyrənirlər, astronomiya, mexanika, riyaziyyat elmlərinə meyl edirlər. Onlar mədəniyyət nümunələrindən bəhrələnirlər. Platonu, Aristoteli, Homeri, Sofoklu, Evripidi, Heredotu, Fukadada, Plutarxı oxuyurlar. Utopiyalılar təhsil sahəsində çox demokratikdirlər. Hər iki cins təhsil almağa borcludurlar. Onlar politexnik təxsili idman məşqlərilə birləşdirir və beləliklə də əqli qabiliyyətlərini fiziki sağlamlıqlarıyla tamamlayırlar. Bütün adamların ali təhsilə yolu açıqdır, onlar dövlət tərəfindən ağır əməkdən azad olunur və maliyyələşdirilir. (2)

İnsanlar elmə, incəsənətə və istirahətə mümkün qədər çox vaxt ayırırdılar ki, bu da onların həyatlarını rəngarəng edirdi. Əmək hamı üçün məcburidir və hər cür səadətin mənbəyidir. Mükəlləfiyyət olmadığı üçün insanlar həvəslə işləyirlər və başa düşürlər ki, cəmiyyətin yaşaması üçün bu başlıca şərtdir, əmək ona görə məcburi sayılırdı ki, heç kim başqasının hesabına yaşaya bilməsin. Cəmi 6 saat işləyən insanlar qalan vaxtlarını səmərəli keçirmək üçün başqa məşğuliyyət növlərindən istifadə edirlər. İnsanlar var-dövlət və sərvət toplamırlar, çünki bu heç onlara lazım da olmur. Bu, lap Nizaminin cəmiyyəti andıdır. Onu da deyim ki, bir sıra alimlər bu məsələdə T.Mora məhz Nizaminin təsir etdiyini yazırlar (məsələn, professor C.Mustafayev, habelə M.Şakiyan). V.P.Volqin yazırdı ki, «Morun böyük tarixi xidməti ondan ibarət idi ki, o, XVI əsrdə kommunist təşkilindən istehsalın kommunist təşkilinə yüksələ bilmişdi». (3, s.12)

T.Mor əməyi hamının yerinə yetirməli olduğu mükəlləfiyyət hesab edirdi. Belə olarsa, birinin digərinin istismarı zamanla aradan çıxmış olur.

Aydındır ki, bunlarla o, öz dövrünün feodal elitasını, onların varlanmağa olan dərin ehtirasların, kasıbları saymadıqlarını və s. nəzərdə tuturdu. Ona görə də insanların tələbatı elə də yüksək deyil, hətta onlar eyni bir paltarı iki il geyirlər və birinin digərindən üstünlüyünü göstərməmək üçün eyni materialdan tikirdilər. Ərzaq ümumi ambarlara toplanır və hamfya ehtiyacı müqabilində pulsuz

paylanır. Heç kim ona lazım olandan artıq götürmür. İnsanların sosial tələbatı bərabər həkildə ödənilir. Xüsusi mülkiyyət yoxdur və insanlar varlı və kasıb zümrələrinə bölünürlər. Qeyri-bərabərlik yalnız zəka sahəsində mövcuddur, amma adanın sakinləri xeyirxah və gülərüzdür. Onlar kənd təsərrüfatında işləyirlər. Burada qullar və azad vətəndaşlar var. Texnika tərəqqi qullar vasitəsilə əldə edilir. Mor adada dinin də mövcudluğunu zəruri sayırdı. Qullar adada öz cəzalarını işləməklə yuyan keçmiş canilər idilər. Belələri Avropada adətən ölümə məhkum edilirdilər. Belə ki, Mor ölüm hökmünün əleyhinə çıxış edirdi.

T.Morun utopik idealında ailə təsərrüfatın ilkin özəyi olub ciddi patriarxal qayda-qanuna tabedir. Ailənin başçısı var, qadın kişiyə qulluq edir, uşaqlar ailə başçısının sənətini davam etdirirlər. Hər bir adam iki il kənd təsərrüfatı ilə məşğul olub yenidən şəhərə qayıdır və öz köhnə sənətindən yapışır. Belə ki, əmək məşğələsinin dəyişməsi və hamının politexnik əməklə məşğul ola bilməsi imkanı yaranır. Cəngavər ənənələrinin əksinə olaraq o, döyüşçülərin də əməklə məşğul olmalarını zəruri sayırdı və müharibədən qazanılmış qəniməti şərəfsiz şöhrət adlandırırdı. T.Mor müharibə əleyhinə olsa da pasifist də deyildi. Onun adasındakı sakinlər daim əldə silah öz vətənlərini qorumağa hazır idilər. Onlar habelə öz qonşularına da kömək etməyə hazır idilər ki, onlar ədalətsiz tiranları devirib yerində ədalətli dövlət quruluşu yaratsınlar. Belə ki, «Utopiya» müəllifi orta əsrlərin soyğunçu müharibələrini pisləməklə heç də ədalətli və istiqlaliyyət müharibələrini inkar etməmişlər.

T.Morun etik görüşlərinin təhlili onun utopizmini meydana çıxarır. T.Morda əsas məsələ insanların xoşbəxtliyyə çatması məsələsidir. T.Mor belə hesab edirdi ki, sağlam bədənə və sağlam ruha malik olan insanlar əylənmək və zövq almaq hüqüquna malikdirlər. (4, s.53; 5, s.125-130) Bu sahədə o mistikanın xristian etikasının əleyhinədir. İnsanlar başqasının maraqlarına ziyan vurmadan öz mənəvi ehtiyaclarını ödəməlidirlər. Utopiya sakinləri xeyirxahdırdar. Onlar öz mənəvi və fiziki kamilliklərini daim təkmilləşdirirlər və gözəllikdən zövq alırlar. Amma onlar burada hər cür zövqü-səfadan deyil, ağlauyğun həzzlərdən qidalanırlar. T.Mor ruhun ölməzliyini qəbul edirdi. Dini dünyagörüş zorla qəbul etdirilirmir, insanlar istədikləri dinə etiqad edirlər. Bu xüsusiyyət utopiyanın hər bir şəhərinə xas idi. Belə ideyalarla Tomas Mor az qala öz dövrünün kilsəsinə və din xadimlərinə meydan oxuyurdu. Yaxşı ki, o, bütün bunların xəyali bir adada mövcud olduğunu yazırdı. Yoxsa xristian din xadimləri onu bidətçilikdə günahlandırıb odda yandırardılar. Tomas Morun sosial ideyaları və utopik sosialist görüşləri sonrakı nəslə güclü təsir göstərmiş, tənqidi utopik sosializmin və eləcə də ondan sonra yaranan sosialist və kommunist ideyaların mənbəyinə çevrilmişdir. Lakin onu da deyək ki, digər sosialist və kommunist bərabərçiləri kimi Tomas Morun da ideyaları sonradan bolşeviklər tərəfindən saxtalaşdırılmış şəkildə qələmə verilməyə başladı, onun ideyaları bolşeviklər üçün öz anti humanist aksiyalarının həyata keçirilməsi vasitəsi kimi istfiadə olundu.

Yekun

Ədalətli cəmiyyət haqqında Nizami Gəncəvinin və Tomas Morun ideyaları sonrakı ictimai-siyasi fikrə çox böyük təsir göstərmişdir. Bu mütəfəkkirlər arasında tarixi paralellik, oxşarlıq və fərqlər arayarkən aşağıdakıları qeyd etmək olar:

– onların hər ikisi eyni bir məqsədin yerinə yetirilməsinə, yəni cəmiyyətin daha elmi və ədalətli prinsiplərlə idarə edilməsinə çalışmışlar;

– onlar bu yolda hökmdarlara bir nümunə göstərmək və dərs vermək istəmişlər, onları başa salmağa çalışmışlar ki, insanlar daha ədalətli bir quruluş yaratmağa qabildirlər;

– yaşadıqları sosial-ictimai və mədəni mühitin müxtəlifliyinə baxmayaraq, bu mütəfəkkirləri bir xəttdə birləşdirən amal tələbatın və istehsalın daha ağıllı şəkildə təşkil olunması, insanların mənəvi saflığı, fiziki kamilliyi və faktik bərabərliyinin əldə olunmasıdır;

– Nizamidə bu deyilən məsələlər daha çox utopik, xəyali və romantik şəkildə qoyulduğu halda, onlar Tomas Morda sistemləşdirilib, bütövləşdirilir, real həyata uyğunlaşdırılır;

– Tomas Mor öz ölkəsinin ən böyük rəsmilərindən biri idi. belə ziyalı adamların sarayda olmasından xalq həmişə udmuşdur. Çünki onlar öz əməllərilə daim xalqa arxa olmuş, onun işini asanlaşdırmışlar. Bir növ xalqla hakimiyyət arasında bir körpü rolunu oynamışlar. Tomas Mor da öz həyatını xalqın daha firavan yaşaması yolunda, öz ideyalarının və inamlarının təntənə çalması yolunda qurban verdi. Əgər belə etməsəydi onda o, artıq Tomas Mor olmazdı. Tarix ona münasibətdə öz səhvini gec də olsa düzəltdi. Onu əzabkeş və müqəddəs elan etdi;

– Nizami isə elə əvvəldən müqəddəs idi. Saraya getməsə də, o daim xalqın işinə yarayır, hökmdarlara verdiyi məsləhtlərlə onları bir növ ram edirdi. Əgər o, saraya getmiş olsaydı, kim bilir, sonrakı taleyi necə olacaqdı. Əgər o saraya getmiş olsaydı, o, artıq bizim tanıdığımız Nizami olmayacaqdı. Saray intriqaları və dövlət (divan) işləri ona imkan verməyəcəkdi ki, «Xəmsə»ni yazıb başa çatdırsın və hökmdarlara belə sərbəstliklə yol göstərmiş olsun;

– onların hər ikisi heç bir əsas olmadan uzun illər bolşeviklərin təbliğat vasitəsinə çevrilmişdir. Bolşeviklər həqiqi sosializmlə və kommunizmlə heç bir əlaqəsi olmayan total dövlət ideyalarının çıxış nöqtəsi üçün bu mütəfəkkirlərin idnyalarını saxtalaşdırılmış şəkildə tətbiq etməyə çalışmış, öz niyyətlərini və əməllərini bu adamların ideyaları vasitəsilə həyata keçirməyə səy göstərmişlər;

– hər ikisi öz dövrlərinin sayılıb-seçilən şəxslərindən olmuş, öz xalqlarını məhəbbətini və hüsn rəğbətini qazanmış, hələ öz sağlıqlarında ikən böyük hörmət və nüfuza sahib olmuş, öləndən sonra isə müqəddəsləşmişlər;

– Nizami Gəncəvinin və Tomas Morun ideyaları indi də qiymətlidir, bu ideyaların oxşarlığı Qərbi Şərqə qarşı qoymaq istəyən avropasentrizmə tutarlı cavadır;

– hər ikisinin elmi-nəzəri və praktiki fəaliyyətlərindən bu günkü insanlar çox şeyi əks edir, onlardan elm, mərifət, cəsarət və kişilik öyrənirlər.

İstifadə olunmuş ədəbiyyat

1. Дж.Мустафаев. Природа социальных утопий стран Ближнего Востока, – «Вопросы философии», М., 1968, № 68.
2. И.Н.Осиновский. Томас Мор, М., «Мысль», 1985.
3. Волгин В.П. Наследия утопического социализма, – В об. «История социалистических учений», М., 1962.
4. Т.Мор. Утопия, М. «Наука», 1978; Утопический социализм, М., Полит., 1982.
5. Ə.Tağıyev. İnsan və siyasət, Bakı, 2005.

Аликрам ТАГИЕВ

НИЗАМИ ГЯНДЖАВИ И ТОМАС МОР: ОТ СОЦИАЛЬНОЙ УТОПИИ К УТОПИЧЕСКОМУ СОЦИАЛИЗМУ

Резюме

В статье профессора А.М.Тагиева рассматривается эволюционное развитие идей социальных утопий к утопическому социализму. Сопоставляются социальные и политические знания данных идей для последующих поколений на примере приведенных фактов из произведений «Сокровищница тайн», «Искандернаме» Низами и «Утопия» Т.Мора, в работе также дается анализ историко-культурных условий феодализма средневековья в мусульманском Востоке и развитие ранних капиталитических отношений в Западной Европе. Сопоставляя их заслуги, взгляды, автор подчеркивает, что они исходили из сторонних позиций своих эпох и выражали думы и чаяния широких народных масс своих обществ. В конце статьи приводятся некоторые заключения и положения, вытекаюшие из исследования данной проблемы.

Alikram TAGİEV

NİZAMİ QANJAVİ AND THOMAS MORE: FROM SOCİAL UTOPY TO THE UTOPİAN SOCİALİZM

Summary

The article is devoted to the analysıs of develovment of social utopism to the level of utopian socializm. The author compared social and political meaning of the given ideas, on the examples and facts from, «The treasure of mystery», «A book of Allexander», by Nizami and «Utopia» by T.More. İn the work the analysıs of historical and cultural conditions of the medieval ages of islamic world and development of early capitalist relations of Western Europe is

given as well. The author compared the role and outlook of the greatest thinkers. İt the end of the article the author comes to some conclusions arising out of the investigations of this problem.

Əyyub KƏRİMOV
Fəlsəfə elmləri namizədi, dosent

DEMOKRATİYAYA KEÇİD CƏMİYYƏTİNİN SİYASİ SİSTEMİNDƏ DÖVLƏT

Cəmiyyətin siyasi (o cümlədən iqtisadi) sistemi sosial sistemlərə aid olub, bir-biri ilə və təbii sistemlərlə qarşılıqlı təsirlə mürəkkəb makrososioekosistemlər yaradır. Onlar həm də statik və dinamik qanunlarla inkişaf edir.

Əgər sistemin inkişaf etdiyi əsas istiqaməti müəyyənləşdirsək, burada hissələri qarşılıqlı təsirlə çulğalaşmış olan nə isə inteqral bir tamın tədricən yaranmasını əhəmiyyətli hal kimi qeyd etmək olar.

Bizim tədqiqatımız kontekstində fəlsəfə və müasir politoloji praktika nöqteyi-nəzərindən keçid dövrü siyasi sistem tiplərinin hansı əlamətlərinin daha əhəmiyyətli olması prinsipial əhəmiyyət kəsb edir. (1, səh.19) Rus tədqiqatçılarının fikrincə siyasi sistem konkret mənada cəmiyyətdə hakimiyyətin formalaşmasının və fəaliyyətinin real mexanizmidir. Bu mexanizmə dövlət, partiyalar, kütləvi informasiya vasitələri, siyasi assosiasiyalar, müxtəlif siyasi subyektlərin (qrupların, fərdlərin) birlikləri və onların qarşılıqlı əlaqəsi, siyasi şüur və mədəniyyət, siyasi normalar daxildir. (2, səh.3-18) Adətən qeyd olunur ki, cəmiyyətin siyasi sistemi siyasi institutlar kompleksidir. Onlar içərisində mərkəzi yerdə dövlət institutu dayanır, qalanları isə onun ətrafında qruplaşır. Bu da müəyyən sinif və sosial qrupların maraqlarının müdafiəsi üçün siyasi funksiyalar yerinə yetirən dövlət və qeyri dövlət sosial institutlarının mürəkkəb, çoxsahəli sistemidir.

Ümumilikdə iğtimai həyatın, siyasətin və siyasi sistemlərin təhlilinə sistemli yanaşma nəzəriyyəsinin işlənib hazırlanmasına böyük töhfə vermiş qərb filosoflarının baxışları elmi maraq doğurur.

Kanadalı politoloq D.İstonun «Siyasi sistem» (1953), «Siyasi təhlilin həddi» (1965), «Siyasi həyatın sistemli təhlili» (1965) və s. əsərlərində siyasi sistemlərin müasir elmi tədqiqinin əsasının qoyulduğu əksəriyyət tərəfindən qəbul edilir. (3, səh.132)

T.Parsonsun, T.Almondun, M.Dyuverjenin siyasətin ümumi nəzəriyyəsinə, siyasi sistemin və sosiumun inkişafına, müqayisəli politologiyaya, siyasi kommunikasiyalara dair əsərləri misilsiz dəyərə malikdir. (4, səh.112)

Fikrimizcə isə cəmiyyətin siyasi sistemi dedikdə hakimiyyəti həyata keçirmək üçün istifadə olunan və ümumiyyətlə cəmiyyətin idarə olunması ilə bağlı olan bütün vasitələrin, təşkiltların, qurumların məcmusu başa düşülə bilər. Həmçinin siyasi sistem siyasi münasibətləri, siyasi normaları, siyasi baxışları, nəzəriyyələri və ənənələri də özündə ehtiva edir.

Qeyd olunanlara əsaslanaraq siyasi sistemin tipologiyası qurula bilər. Demokratik, avtoritar və totalitar siyasi sistemlər həmin əlamətə görə fərqlənirlər. Demokratiya vətəndaşların artan təbii tələblərini yerinə yetirir, hökumətin vəzifələri qanunlara uyğun həyata keçirilir və nizama salınır. İnsanlar

dövlətin idarə edilməsində iştirak etmək, öz fikrini ifadə etmək və eşidilə bilmək imkanı əldə edir. Avtoritarizm kütlə ilə oynayıb manevr etməklə «qamçı və peçenye» siyasətinə rəvac verir, totalitarizm isə insanların tələb və maraqlarını rədd edir, onların qanuni hüquq və azadlıqlarını boğur.(5, səh.32)

Həmçinin qeyd etmək lazımdır ki, siyasi sistemlərrin demokratik, avtoritar və totalitara bölünməsi son hədd deyildir.

Belə ki, demokratik siyasi sistemlərin liberal və milliyə] avtoritarın teokratik və milliyə] totalitarın hərbi, faşist və xunta kimi növlərə bölünməsi halları da vardır. Politoloq J.Blondel hansı idarəetmə formasının mövcud olmasından çıxış edərək siyasi sistemin 5 tipini ayırır: 1) liberal demokratiya] 2) kommunist sistemləri] 3) ənənəvi (oliqaqxiyalı) sistemlər] 4) avtoritarizm] 5) avtoritar - konservativ.

Q.Almonda görə isə ənənəvi, inkişaf etməkdə olan, kommunist siyasi sistemləri, həmçinin ingilis-amerikan və kontinental-Avropa tipləri mövzuddur.

Siyasi sistemin müxtəlif əsaslar üzərində qurulan başqa təsnifatları da vardır. Genetik əlamətlərə görə siyasi sistemlər maddi və ideala] formasına görə – kiçik, orta, böyük və mürəkkəbə] ətraf aləmlə qarşılıqlı təsirin xarakterinə görə – açıq və qapalıya, qanunauyğunluğunun xarakterinə görə – ehtimallıya bölünür. (6, səh.68-79) L.Sanisteban siyasi sistemin tarixi tipologiyasında imperiyanı, konfederasiyanı və müasir milli dövləti göstərir. (7, səh.111-118)

Qeyd etmək lazımdır ki, cəmiyyətin siyasi sistemlərinin təsnifatı üçün politologiyada qəbul olunmuş əsaslar artıq reallaşıb və fəaliyət göstərir. Məhz ona görə də onları bizim keçid dövrünün siyasi sisteminin xarakterinə «birbaşa» tətbiq etmək çətindir və hətta demək olar ki, mümkün deyildir.

Nəzərə almalıyıq ki, bütün ən yeni tarix ərzində cəmiyyətin sosializmdən başqa ictimai və dövlət quruluşuna keçməsi nümunəsi olmamışdır. Hazırda cəmiyyətşünaslar qarşısında siyasi sistemlərin ümumi qəbul edilmiş tipologiyasında dəyişikliklər etmək vəzifəsi durur. Azərbaycanın, keçmiş postsosialist ölkələrinin, həmçinin mərkəzi və şərqi Avropa ölkələrinin demokratiya yolu ilə inkişafı qeyd olunan məsələnin həlli üçün zəruri material alınmasına imkan verəcəkdir.

Siyasi sistemin fəaliyyətinin mərkəzi problemlərindən biri onun institusional tərkibi və dövlətin orada yeridir. K.S.Hacıyev bir sıra politoloji əsərlərində dövlətin siyasi sistemdə mərkəzi yerdə durması, xüsusi rolu və cəmiyyətlə əlaqəsini nəzəri cəhətdən əsaslandırır. Onun konsepsiyasının mahiyyəti aşağıdakılardan ibarətdir:

Dövlət siyasi sistemin mərkəzi institutu, özəyidir. Müxtəlif sosial-siyasi qüvvələr arasında mübarizə hər şeydən əvvəl dövlət hakimiyyəti uğrundadır. Siyasi partiyalar, seçki sistemi, nümayəndəlik sistemi və s. dövlətlə əlaqəsiz ağlasığmazdır. O, cəmiyyətdə idarəetmə və qayda-qanunun bariz strukturu olub, hakimiyyət və nəzarət münasibətlərini tənzimləyir.

Dövlət-hakim və əsas sosial qruplar arasında münasibətlərin fəal iştirakçısıdır] bu fəaliyyətində o ümumilikdə bütün cəmiyyəti təmsil edir. XX əsrin tarixi təcrübəsi göstərdi ki, iqtisadi və siyasi sistemin mahiyyətinin

xarakteri məhz vətəndaş cəmiyyətindən asılıdır. Hüquqi dövlət vətəndaş cəmiyyətinin, onun əsas institutlarının, prinsip və dəyərlərinin yaşamasını və fəaliyyətini təmin etməlidir. Ona görə də vətəndaş cəmiyyətinin bütün üzvlərini birləşdirən və öz mahiyyətinə görə fövqəlsinfi, ümumbəşəri xarakter daşıyan br sıra ümumi hüquqi əsaslara malikdir.(8, səh.9)

Siyasi elmlərdə, sosial fəlsəfədə, hüquqi təlimlərdə dövlətə, onun funksiyalarına və cəmiyyətin siyasi sistemində yerinə dair başqa baxışlar da mövcuddur. Bu baxımdan dövlətin mənşəyi və təyinatı haqqında dini nəzəriyyəni, dövlətçiliyin texnokratik izahını, «müqavilə dövləti» konsepsiyasını və s. göstərmək olar. Məlum olduğu kimi marksizmdə əsasən dövlətin iqtisadi əsasına, onun sinfi təbiətinə istinad olunurdu.

Dövlətlərin tipologiyasına, onların sosial təbiətinə, ali hakimiyyətin yaradılması üsuluna, milli-ərazi təşkilatının prinsipinə, dövlət-hüquqi rejimin xarakterinə fasiləsizlik və varislik prinsipindən çıxış etməklə müxtəlif yanaşmalar mövcuddur. Dövlətin liberal, konservativ və s. izahına da rast gəlinir.

Qərb politologiyasında siyasi sistemin demokratik inkişafının və onun legitimliyinin zəruriliyi üzərində dayanılır. Həmçinin Almondun, İstonun və Raulun əsərlərində göstərilir ki, bu sistemlər cəmiyyətdə məcburiyyət, cəza və vətəndaşların dövlətə tabeçiliyinin qanuniləşdirilməsi ilə asosiyalaşır.

Amerika alimləri Macconat və digərləri bildirir ki, siyasi sistem universallıqla bərabər, (yəni bütün cəmiyyətə aid olması ilə) cəmiyyətdə məcburiyyətə fövqəladə hüquqi vardır. Daha dəqiqi odur ki, söhbət mövcud sistemin bütün elementlərindən deyil, məhz dövlətdən getməlidir.

Dövlət məcburiyyət səlahiyyətlərinə malik olduğu üçün bu məqsədlə xüsusi aparat saxlaması mübahisə doğurmur. O hamı üçün məcburi qanunların qəbul edilməsi və cəmiyyətin həyatının normallaşdırılmasında eksklyuziv hüquqa malikdir. O, ictimai asayişi, şəxsi və ümumi təhlükəsizliyi, əməyin və ətraf mühitin mühafizəsini təmin edir. Dövlət gələcəkdə də məcburiyyətsiz keçinə bilməz: məsələn vergi almadan, jinayət hallarına qarşı mübarizə aparmadan. Dövləti qorxunc bir qüvvəyyə bənzətmək də qeyri-düzgün və ədalətsiz olardı.

Siyasətdə və siyasətşünaslıqda sosial reallıqdan uzaqlaşmamaq, zaman faktorunu nəzərə almaq həddən artıq vacibdir.

Demokratiya yolu ilə bir mərhələdən digər mərhələyə doğru inkişaf edən dövlətin və bütövlükdə siyasi sistemin əsas vəzifəsi məhz həmin demokratiyanın özünün əldə edilməsidir. Nə vaxta qədər ki, demokratiya möhkəmləyməyib, cəmiyyətin və vətəndaşların təbii və adi həyat normasına çevrilməyib bu proses davam edəcəkdir. Əks halda hər hansı islahat və bazar – istər əmtəə, istərsə də kapital, fəhlə qüvvəsi, xidmət və informasiya olsun insanlar üçün əsil mənasını itirəcəkdir. Öz tarixi təcrübəmizdən bilirik ki, mərkəzdə və yerlərdə sovet hökumətinin süqutunun əsas səbəblərindən biri də onun demokratik olmaması idi. Bizim sosializm adlandırdığımız və demokratiyadan uzaq olan cəmiyyət

totalitarizm əjdahasını doğurdu. Müasir siyasi sistem siyasi hökmranlıqla yox, azadlıq və demokratiya ilə qovuşmalıdır.

Razılaşmamaq olmaz ki, yalnız hakimiyyət münasibətlərinin geniş sosial bazası, onların demokratizmi, idarəetmə orqanlarının əhali ilə əlaqələrinin müxtəlifliyi əsl demokratiyanın inkişafına, qanunverici, icraedici və məhkəmə hakimiyyətinin funksiyalarının effektiv bölgüsünə gətirib çıxara bilər. (9, s.197)

Ümumiləşdirərək qeyd edə bilərik ki, siyasi sistemdə, onun cəmiyyətin başqa sistemləri ilə qarşılıqlı əlaqəsində və münasibətlərində, sistemin «giriş»ində və «çıxış»ında əks əhəmiyyətli proseslər baş verir. Bu bir tərəfdən sistemin demokratikləşdirilməsi və humanistləşdirilməsi, digər tərəfdən isə antidemokratik tendensiyaların yanması prosesidir. Birincilər vətəndaş cəmiyyəti və hüquqi dövlətin yaranması və ardıcıl olaraq təkmilləşməsinin təsdiqinə, ikincilər isə avtoritar və totalitar rejimlərin bərqərar olunmasına aparır. Postsovet ölkələrinin yaşamalı olduqları keçid dövrünün əsas xüsusiyyətlərindən biri də odur ki, onlarda keçmişin və gələcəyin simvolu kimi hər iki proses faliyyət göstərir.

Cəmiyyətin və dövlətin inkişafının nəticə vektoru demokratiya qüvvələri ilə (iqtisadi, siyasi, mənəvi), onun əleyhidarlarının qüvvələr nisbətinə görə müəyyən olunur. Bütövlükdə keçid dövrünün birinci mərhələsində mühafizəkar qüvvələrin, dezinteqrasiya tendensiyalarının təsiri hələ böyük olur. İqtisadi və siyasi islahatlar ardıcıl və müvəffəqiyyətlə həyata keçdikcə, dövlət institutlarının və bütün ictimai həyatın demokratikləşməsi, sosiumun qabaqcıl qüvvələrinin inteqrasiyası və yeni siyasi sistemin özünütəşkili üçün zəmin və şərait yaranır.

İstifadə olunmuş ədəbiyyat

1. Зеркин Д.П. Основы политологии: Курс лекций. Ростов-на-Дону, 1996, с.137-237: Щавров О.Ф. Политическая система демократического общества. В кн.: Концепция современной политологии: М., 1993.

2. Пугачев В.П., Соловьев А.И. Введение в политологию. Изд. 2-е, М., 1995.

3. Easton D. Political system –№ 4.-1964: Framework for Political Analysis-№ 4.-1965: System Analysis of Political Life - № 4 – 1965.

4. Parsons T. The social system – № 4-1966: Almond G.A. Political Development: Essays in Heuristic Theory. - Boston, 1970: Dikorger M. Introduction to the social sciences-L., 1967.

5. Краткий терминологический политологический словарь, М., 1994.

6. Белов Г.А. Политология – М., 1994, с.155 – 158. Политические режимы. История и теория вопроса, М., 1995.

7. Санистебан Л.С. Основы политической науки. М., 1992.

8. Гаджиев К.С. Политическая наука. Гл.IV, М., 1994, Паймаханов М., Право, сознание, поведение //мысль – 1993, № 4.

9. Тощенко Ж.Т. Социология общий курс – М., 1994.

Эйюб КЕРИМОВ

ГОСУДАРСТВО В ПОЛИТИЧЕСКОЙ СИСТЕМЕ ОБЩЕСТВА, ПЕРЕХОДЯЩЕГО В ДЕМОКРАТИЮ

Резюме

Политические системы общества относятся к социальным системам, которые взаимодействуя между собой образуют сложные макросоциоэкосистемы. Политические системы можно характеризовать и как относительно самостоятельный и саморегулирующий общественный организм, отвечающий сигналам, приходящим извне.

В статье после оригинальных анализов политической системы исследовались место и роль государства, занимающего центральное и самое значительное место в этой системе.

После изучения основных современных теорий по этой проблеме обосновывается такое мнение, что государство, имеющее в руках огромные силы и средства имеет чрезвычайные возможности в демократизации общества. Но для достижения этого государство должно образовываться демократическим путем. А такое государство, исходя из своего генетического свойства, должно мобилизовать все ресурсы для укрепления основы демократии в обществе.

Eyub KERIMOV

A STATE IN THE POLITICAL SYSTEM OF A SOCIETY TRANSFORMING INTO DEMOCRACY

Summary

The political system of a society refer to the social systems which interacting form the complex macro socio ecosystems. The political systems may be characterized also as a relatively independent and self regulating social organism reacting to the signals coming outside.

In the article afterwards the original analyses of the political system the place and role of a state taking the central and the most significant place in this system were studied.

Afterwards study of the main contemporary theories on this problem such an opinion is substantiated that a state possessing the great forces and means has great possibilities in democratization of a society. To reach this, a state should be formed by democratization of a society. Such a state proceeding from its genetic property

has to mobilize all the resources for strengtheming the foundations of democracy in a society.

Rafail ƏHMƏDLİ
fəlsəfə elmləri namizədi

ƏLİ BƏY HÜSEYNZADƏNİN SİYASİ VƏ İDEOLOJİ GÖRÜŞLƏRİ

Yusuf Akçuraoğlunun «Üç tərzi-siyasət» məqaləsi Misirdə nəşr olunan «Türk» qəzetində çap edildikdən sonra bu məqalə ilə bağlı İslam dünyasının bir çox yerlərində buna münasibətlər bildirildi. Bu münasibətlərdən biri də bütün Türk aləmində «bir haqq elçisi», «bütün Türk dünyasının mücahidi», «bütün Türk və müsəlman xalqlarının siyasi və milli əsarətdən azad olması uğrunda mübariz», hələ öz sağlığında «Yalavac» (peyğəmbər – R.Ə.) adlandırılan, milli tariximizə görkəmli publisist, tənqidçi, şair, nasir, tərcüməçi, ideoloq və filosof kimi daxil olan, istiqlaliyyət uğrunda, milli qurtuluş məramının carçısı, türk xalqlarını Vahid Turan ideyası ətrafında birləşməyə çağıran, «türkləşmək, islamlaşmaq, avropalaşmaq» ideoloji sisteminin yaradıcısı Əlibəy Hüseynzadənin 24 noyabr 1904-cü ildə «Məktubi-məxsus» (Xüsusi məktub – R.Ə.) başlığı və «Ə.Turani» imzası ilə həmin «Türk» qəzetində çap etdirdiyi sanballı məqaləsidir. Bu məqalədən öncə Əlibəy Hüseynzadə özünü Türk ictimai həyatında bir «Turançı» kimi tanıtdırmış, istər Peterburqda Təbii Elmlər fakültəsində oxuyarkən, istərsə də İstanbul Hərbi Tibb məktəbində təhsil alarkən Qafqazın Şeyxülislamı olmuş ana babası Şeyx Əhməd Səlyani və Mirzə Fətəli Axundovun təsiri ilə qazandığı Türklüyə bağlılıq duyğusunu öz tələbə yoldaşlarına da aşılamışdı. Digər «İslam Birliyi» tərəfdarlarından fərqli olaraq Əlibəy Hüseynzadə daha çox müsəlman türklərin birliyi ideyasına önəm vermişdir. Şərqin böyük İslam filosofu Şeyx Cəmaləddin Əfqaninin Əlibəy Hüseynzadənin yetkinləşməsində xüsusi rolu olmuşdur.

Qədim yunan, latın, alman, rus, ingilis və bütün Şərq ədəbiyyatlarına dərindən bələd olan Əlibəy Hüseynzadə müasirlərinin də qeyd etdiyi kimi: «İstanbul Tibb Məktəbinə Qərb fikirlərini, Qərb ədəbiyyatını, Qərb irfan və mədəniyyətini, qısacası Qərbi tanıtmaqda professorlarından çox xidmət etdi». (1, s.143) İstanbul Tibb məktəbindəki tələbə yoldaşlarından olan məşhur Abdulla Cövdət Əlibəy Hüseynzadə haqqında «Türk yurdu» jurnalında yazırdı ki, «Əlibəy (Əlibəy Hüseynzadə – R.Ə.) sakit və düşüncəli halı, əsrarəngiz öyrədici öyütləri ilə üzərimizdə (tələbə yoldaşları üzərində – R.Ə.) bir peyğəmbər təsiri buraxırdı. Bəli, o, bir Allah elçisi idi». (1, s.143)

Qahirədə nəşr olunan «Türk» qəzetində Əlibəy Hüseynzadənin çap olunan «Məktubi-məxsus» məqaləsindən bəhs edən Yusuf Akçura göstərir ki: «Əlibəy Hüseynzadə «süni olaraq ayrıca «Pantürkizm», «Panislamizm» adları ilə məslək icadına nə lüzum vardır?» - deməklə və «Türk» qəzetinin baş redaktorunun «Türk» qəzetinin baş redaktoru Əli Kamal Yusuf Akçuranın «Üç tərzi-siyasət» məqaləsini tənqid edərək, elə redaktoru olduğu «Türk» qəzetində də «Cavabımız» başlıqlı məqalə dərc etmişdir. Bu məqalədə Əli Kamal Yusuf Akçuranın irəli sürdüyü hər üç fikri tənqid etmiş və göstərmişdi

ki, «Nə qədər möhtəşəm, nə qədər əziz olursa olsun, anlaşılmaz, xüsusilə imkansız olduğu üçün biz belə bir Osmanlı millətinin vəhdəti, İslam Birliyi, Türk Birliyi kimi fikirləri əməllərimizə hədəf kimi qəbul edə bilmərik, bu yollara əmək sərf edə bilmərik» (3, s.40) bəzi görüşlərinə qatılmış kimi görünməklə bərabər, özünün «Panislamizm»ə və «Pantürkizm»ə müxalif deyil, tam əksinə, tərəfdar olduğunu anladırdı». (1, s.140)

Əlibəy Hüseynzadə «Məktubi məxsus» məqaləsi ilə ilk dəfə olaraq göstərmişdi ki, «tatar» deyə adlandırılan bir xalq yoxdur. Krımlıların, Qazanlıların, Orenburqluların hamısı Türk oğlu Türkdür. Bütün Türklüyün iftixar qaynağı olan Çingizlər, Teymurlar kimi hərb dahilərinə həqarət dolu sözlər söyləmək qaş qoymaq əvəzinə vurub göz çıxarmaq kimi bir şeydir… Müsəlmanlar və xüsusilə Türklər hər harada olurlarsa olsunlar – istər Osmanlıda, istər Türküstanda, istər Baykal gölünün ətrafında, ya Qaraqum ətrafında olsun bir-birlərini tanıyacaq, sevəcək, sünni–şiəlik və daha bilməm nəlik adları ilə məzhəb təəssübünü azaldıb, Qurani-Kərimi anlatmağa qeyrət göstərərək, dinin əsasının Quran olduğunu bilmiş olarlarsa, əlverişli olmazmı? Bir millət üçün hər şeydən əvvəl arzu ediləcək şey güclü olmaqdır. Bir millətin güc qazanması onlar arasında mənəvi əlaqənin artmasına bağlıdır. Xüsusilə onlar arasında qarşılıqlı sevginin artmasına çalışılmalıdır. Məsələ bir-birimizi tanımaq, sevmək, mədəniləşmək yolunda bir-birimizə yardım etmək məsələsidir». (4) Sülh və sakitlik, anlaşma və ahəngdarlıq tərəfdarı olan Əlibəy Hüseynzadə bu məqaləsində bir-biri ilə mübahisə edən tərəflərin tezis və antitezislərini yüksək bir sintez halında birləşdirərək, hər iki tərəfin haqlı fikirlərini qəbul etmiş və sonda müsəlman Türklərin birləşməsini vacib saymışdır. Bunu və onun bir çox şerlərini nəzərə alan Yusuf Akçura göstərirdi ki: «Hüseynzadə Əlibəy müsəlman türklər arasında ilk Turani, yəni Panturanistdir – desək, xəta etmiş olmarıq, zənnindəyəm Onun (Əlibəy Hüseynzadənin – R.Ə.) şairanə Turançılığı 1908-ci ildən sonra İstanbulda digər Turançıları, başlıcası Göyalp Ziyanı yaratmışdır». (1, s.141)

Əlibəy Hüseynzadənin bu məqalədə irəli sürdüyü bir çox fikirləri daha sonra böyük dramaturqumuz Hüseyn Cavid dram əsərlərində daha da qabarıq şəkildə ifadə etmişdir. Onun «Maral» əsərində oxuyuruq: «Avropalılar böyük İskəndər, böyük Napoleon deyə heykəllər yapdırıyor, bizsə Teymur kimi dahilərə, Çingiz kimi cahangirlərə «quduz canavar» adı qoyuruq». (5)

Əlibəy Hüseynzadənin ən böyük fəaliyyəti Azərbaycana dönüşündən sonra başlamışdır. Azərbaycana dönən Əlibəy Hüseynzadə ilk olaraq Zeynalabdin Tağıyevin maliyyələşdirdiyi və sahibi olduğu «Həyat» qəzetini Əhmədbəy Ağayev və Əlimərdan Bəy Topçubaşov ilə çıxarmağa başlayır. Əlibəyin «Həyat»da çıxan ilk mühüm məqalələri «Türklər kimdir və kimlərdən ibarətdir?», «Bizə hansı elmlər lazımdır?» və «Yazımız, dilimiz» adlı məqalələridir. Birinci məqalənin əsas qayəsi Türk xalqlarının bir bütün, bir birlik yaratmalarını göstərmək və açıqlamaqdır ki, bunun əsasında «Türkləşmək» ideyası dayanır. İkinci məqaləsində Əlibəy «Bizə müasir elmlər lazımdır» - deməklə «Müasirləşmək» ideyasını irəli sürür. Bu məqalədə o,

həmçinin müsəlman Türk xalqları üçün bir ideoloji sistemin - türkləşmək, islamlaşmaq, avropalılaşmağın əsasını qoyur və bu müddəaların məqsədəuyğunluğunu isbat etməyə çalışır. Əlibəy Hüseynzadənin bu üç ideoloji sistemi Türk aləminin hər tərəfinə tezliklə yayılır və xüsusilə ikinci Məşrutiyfyətdən sonra İstanbulda daha geniş vüsət alır. Belə ki, Ziya Göyalp «Türkləşmək, İslamlaşmaq, Müasirləşmək» mövzusu ilə bağlı yazılar yazmağa başlayır.

«Həyat» qəzeti bağlandıqdan sonra yenə də Hacı Zeynəlabdin Tağıyevin maliyyə dəstəyi ilə çap olunan «Fyüzat» jurnalına redaktorluq edən Əlibəy Hüseynzadə burada öz siyasi və fəlsəfi məqalələrini dərc etdirir. Bu məqalələrdə Əlibəy Hüseynzadə məzhəbçilik vasitəsilə Azərbaycan türklərini farslaşdırmağa çalışan iranizmə, həmçiinin daha çox vasitə və gücə sahib olan ruslaşdırmağa qarşı Türkçülüyü qoyur. Əlibəy Azərbaycan türklüyünün qarşısında əsas güc və dayaq nöqtəsi olaraq məzhəb ayrılığından – sünni-şiəlikdən yüksəkdə duran İslam Birliyini və Osmanlı dövlətini görür. Ümumiyyətlə, «Füyuzat» jurnalı şiə və sünni ayrılığının aradan qaldırılmasına, osmanlı-türk mədəniyyətinin tanınması və sevilməsinə çox çalışmış, siyasi baxımdan Osmanlı dövlətini, Osmanlı türklüyünü bağımsız türklüyün nüvəsi saymış, bütün türklər arasında Osmanlı türkcəsinin yayılmasına, bütün türklərin ədəbi dilinin Osmanlı türkcəsi olmasına çalışmışdır». (6, s.258)

Həyatının Azərbaycan dövründə (1903-1910) Əlibəy Hüseynzadə şairlikdən daha çox mütəfəkkir bir ideoloq kimi fəaliyyət göstərib və gələcək «Türkçülük» hərəkatının nəzəri-ideoloji əsasını təşkil edən fəlsəfi məqalələrini yazıb «Türk», «İrşad», «Həyat», «Tərəqqi» və s. kimi qəzetlərdə və «Füyuzat» jurnalında çap etdirmişdi. Onun «Məktubi-məxsus», «Türklər kimdir və kimlərdən ibarətdir?», «Bizə hansı elmlər lazımdır?», «Yazımız, dilimiz, birinci ilimiz», «Nicat məhəbbətdədir», «Məcnun və Leylayi-İslam», «İntikad ediyoruz, intikad olunuyoruz» və xüsusilə «Siyasəti-Fürusət» adlı əsərlərində irəli sürdüyü milli Azərbaycan idealı, islam miqyasında intibah və türklük aləmindəki «turançılıq» ideyası çar Rusiyası senzurasını, rus-erməni irticaçılarını dərindən narahat edir və ciddi təqiblər nəticəsində Əlibəy Hüseynzadə də Əhmədbəy Ağaoğlu və Yusuf Akçuraoğlu kimi vətəni tərk etməyə məcbur olur. Əlibəy Hüseynzadə və Əhmədbəy Ağaoğlunun vətəni tərk etmələri bir çox irticaçıları sevindirsə də, məşhur alimimiz Əliabbas Müznib yazırdı ki: «Onların (Əlibəy Hüseynzadə və Əhmədbəy Ağaoğlunun – R.Ə.) getməyi Qafqaz əhalisini başsız, böyüksüz buraxmaq kimidir, çünki o cənablar dilsizlərin dili, karların qulağı, korların gözü idilər». (7, s.419)

Əlibəy Hüseynzadə 1910-cu ildən ömrünün sonuna qədər, yəni 1940-cı ilə qədər Türkiyədə yaşayır, orada yazıb-yaradır.*

---

*Əlibəy Hüseynzadənin həyatının Türkiyə dövrü haqqında geniş məlumat üçün bax: prof., doktor Əli Heydər Bayat «Əlibəy Hüseynzadə və Türkiyədə yayınladığı əsərləri», İstanbul, 1992. /Əsər 184 səhifədən ibarətdir.

Əlibəy Hüseynzadə Türkiyədə yaşadığı dövrdə də Qafqaz, İran və bütövlükdə Rusiya türklərinin taleyi və gələcək vəziyyətləri ilə bağlı aktual problemlərin həlli ilə məşğul olur. Bu məqsədlə o, Rusiya müsəlmanlarının «Müdafiəyi-hüquq Cəmiyyəti»ndə fəal rol oynayır, həmkaları ilə birlikdə «Turan Heyəti» adı altında Avropaya – Budapeşt, Vyana, Berlin, Lozannaya gedir, Berlində «Türk qövmləri» konqresində, Lozannada «Rusiyadakı xalqlar Konqresi»ndə, Stokholmda «Sosialist Konqresi»ndə iştirak edir, 1918-ci ildə Əhmədbəy Ağaoğlu ilə birlikdə Batum və Gəncədə olur, 1926-cı ildə Fuad Köpürlüzadə ilə birlikdə Bakıda «Birinci Türkoloji Qurultay»da iştirak edir və bu Qurultayda «Qərbin iki dastanında Türk» mövzusunda çıxış edir. (8, s.25-26)

Azərbaycan ictimai-siyasi və mədəni həyatında M.F.Axundovdan sonra «Qərb-Şərq sintezi»nin ən böyük nümayəndəsi Əlibəy Hüseynzadə olmuşdur. Əlibəyin bu sintezində ən mühüm məsələ türklərin Qərbdən və Şərqdən nə alması və ən başlıcası «dünyaya nə verməsi» məsələlri öz əyani ifadəsini tapmışdır. Əlibəy Hüseynzadənin «Türkçülük» və «Müasirlik» haqqındakı fikir və mülahizələri haqqında başqa məqalələrdə söhbət açdığımızdan burada yalnız onun islamlaşmaq və islam birliyi ideyasından bəhs edəcəyik.

Əlibəy Hüseynzadənin tutduğu yol «Türklük, Müsəlmanlıq və Avropalılıq»dır. Bu ideoloji düsturun yaradıcısı da odur. O, İslamı ortodoks və mühafizəkar qatdan təmizləməyə, formal mərasim strukturlardan azad etməyə və ən başlıcası, İslamı reforma ideyalarına açmaqla daxili əxlaqa və mənəviyyata dayanan fəlsəfə səviyyəsinə yüksəltməyə çalışmışdır. İslam dinini bir qrup işbazın və mühafizəkar funksionerin əlindən alıb ən geniş xalq kütlələrinin ixtiyarına verməyi qarşısına məqsəd qoymuşdu. O, İslamı dəyişmək yox, xalqa həqiqi İslamı mənimsətmək yolunu tutmuş və bu məqsədlə də Qurani-Kərimin ana dilinə tərcüməsi ideyasını irəli sürmüşdür. İslam Birliyi tərəfdarı kimi Əlibəy Hüseynzadə göstərirdi ki; İslam Birliyi – «Panislamizm bir məqsəddir ki, nəticəsi cəmi əqvam və məmaliki – İslamiyyəyi bir-birinə zəbt edib qayət vaze və həddən ziyadə böyük bir məmləkət, bir hökumət təşkil etməkdir… Müsəlmanlar panislamizm məqsədinin ətrafına cəm olmağa hərəkət ediyorlar və dəryada qərq olub boğulanlar kimi onun vasitəsilə nicat tapmağa səy və qeyrət ediyorlar». (7, s.435)

İslam Birliyi ideyasından qorxuya düşənlər, xüsusilə ermənilər və ruslar hər vəchlə bu ideyanı pisləməyə çalışdıqları və hədyanlar yazdıqları bir dövrdə Əlibəy Hüseynzadə onlara cavab olaraq yazırdı ki: «Sizi ittifaq və ittihadmı qorxudur? – Biz isə nifaq və düşmənçilikdən qorxuruq… Nifaq və düşmənçilik deyilmidir ki, sizlərlə (ermənilər nəzərdə tutulur – R.Ə.) bizlər arasında bu qədər qan tökülməyə səbəb oldu. Bizim Qafqazda bu nifaq, bu ədavət və qətllər yetmiyormuş kimi bir də ümum İslam aləmi içinə dəxi nifaq salıb öz xeyriniz üçün müsəlmanların da biri-digərinin qanını tökməsini istəyirsiniz? Xeyir, sizi qorxudan ittifaq və ittihad deyildir. Bu, zatən min üç yüz ildən bəri mövcuddur. Siz hər nə isə islam aləminin birliyindən deyil, qəflət yuxusundan oyanıb sivilizasiya yoluna düşməsi və maarifə yiyələnməsindən qorxursunuz.

Sizi təlaşa salan zənn edirəm ki, bu cəhətdir. Sizin qorxu və təlaşınızla təbii qanunlara sədmi çəkiləcək, zənn edirsiniz. Və ya siz bütün Avropanı təlaşa düşürməklə bizi təhdid etdiyiniz üçün biz: Xeyir, əstəğfürüllah, qələt etdik, biz nə İslam aləminin sülh və insaniyyət dairəsində birliyini arzu edir və nə də bu aləmin (İslam aləminin – R.Ə.) qəflət yuxusundan oyanıb mədəniyyət işığı ilə ziyalı olmasını istəyirik – deyənlərdənmiyik, zənn edirsiniz… Xeyir. Xeyir! Sizin və bizim və bütün insaniyyətin nicatı və qorunması haqqı bilməkdə, maarif nurunda, mədəni tərəqqidə və daimi təkamüldədir. Etiqadımızca, ancaq bu vasitələrlə insanlar, millətlər, din və məzhəblər arasından nifaq və düşmənçilik, müharibə və döyüş yox edilə biləcəkdir… Bu bir təbiət qanunudur ki, adına «evolyusiya» - təkamül qanunu deyirlər. Biz də bu yol ilə gedirik. Məqsədimiz, amalımız birlik, bərabərlik, ictimai maarif, xoş güzəran, sənaye, ticarət və sairə ilə Yer kürəsi üzərində insanlara qismət olan səadətə nail olmaqdır. Menşikov, Mağda, Neman, Çirevanski, «Mşaq», «Arşalyus» və sairə adlı devlər, ifritələr arxadan, sağdan, soldan istədikləri qədər çığır-bağır etsinlər. Biz qorxub geri çəkilənlərdən deyilik». (7, s.432, 3, 5, 7)

Heç təsadüfi deyildir ki, Əlibəy «panislamizm»dən harada danışıbsa, oradaca «erməni məsələsi»ndən də söz açıb. Çünki ermənilər yalnız bu yolla bütün xristian dünyasını İslam dünyasına başçılıq edən türklərə qarşı qaldıra bilərdi. Əlibəy Hüseynzadə ermənilərə və onlara havadarlıq edənlərə cavab olaraq özünün «Panislamizm məsələsi və ermənilər» adlı məqaləsində göstərirdi ki: «Bizdə özümüzə naməlum, özgələrə aşkar, özümüzdən gizli, özgələrə əyan bir qüvvə var ki, hamı ona məna verib, hamı ondan qorxur. Bu qüvvət də haman «panislamizm» deyilən qüvvətdir. İslamların tutduğu, yaşadığı yerlərin şəklin, xəritəsin dürüst nəzərdən keçirəndə bunun üstünə bir az da qeyrət, namus, canlılıq, fəaliyyət fikri gətirəndə, doğrudan da, elə bir qüvvət əmələ gəlir ki, ondan nəinki xristian aləmi, bəlkə bütün dünya təşvişə düşsə haqlıdır. İslam torpaqları bir kəmər kimi bütün Avropanın belində sıxılıb əlləşməyə məcbur olan əjdaha nisbətində başın əzib beynin çıxarmağa hazır İslam tayfasını görür. Lakin hamısı yatmış, hamısını bir şirin yuxuya dalmış görür». (9)

Əlibəy Hüseynzadə erməni iftiralarından olan guya: «Ümummüsəlmanlar, yəni üç yüz milyondan (indi bir milyarddan çox – R.Ə.) ibarət müsəlmanlar birləşib bu günlərdə (söhbət XX əsrin əvvəllərindən gedir – R.Ə.) çəyirtkə kimi qanadlanıb uçacaq və Rusiya ilə Avropanın üstünə tökülləcək, Qərb mədəniyyətini və bəlkə də bütün xristian aləmini bağı ilə, bağçası ilə, əkini ilə, əhalisi ilə yuyub atacaqmış» kimi fikirlərinə cavab olaraq yazırdı ki: « Yüksəlin, qonşular, yüksəlin! Dar bir nasionalizm dairəsindən dişarı çıxınız. Millətinizin üzvlərini zəlalətə düçar etməyiniz… Bu gün bu qədər… sərvət və var-dövlətinizlə ümum insaniyyəti, hətta bir-iki qonşunuzu belə məsud edəcək içinizdən bir fərd yetişmədi. İçinizdən nə bir Əbu Əli ibn Sina, nə bir Mollayi Rumi, nə bir Uluğ bəy göstərə bilməzsiniz. İki min illik tarixinizi eşələyin, yenə göstərə bilməzsiniz… Yüksəlmədikcə, əxlaqınızı təmizləmədikcə, şovinist xəyalları beyninizdən çıxarıb atmadıqca, ümumi

bəşəriyyətə, insaniyyətə İsalar, Məhəmmədlər, Buddalar kimi bir nəzərlə baxmadıqca bir qorxulu həlaka düşüb gedərsiniz». (10)

Əlibəy Hüseynzadə göstərirdi ki, biz müsəlmanlar tərəqqi etsək də, tərəqqi etməsək də bizdən şikayətlənirlər, birlik istəsək də, nifaq və düşmənçiliyə düçar olsaq da yenə də şikayətlənirlər. Birlik istədikdə «Panislamist» adlandırırlar: «Və əlhasil tərəqqi və inkişaf edib göylərə çıxsaq deyəcəklər ki: «ay haray, qoymayın! Müsəlmanlar göyə çıxıyorlar, olmaya ki başımıza asimandan qığılcımlar, ildırımlar, atəşlər yağdırarlar! Yox, tənəzzül edib yerin dibinə keçəcək olsaq bağıracaqlar ki, ay haray! Qoymayın, cəhənnəm odunu gətirənlər bunlardır. Vezuvi yanardağının ətrafa saçdığı odları, külləri, kükürdləri, lavaları püskürən bunlardır! Yerdən də, göydən də əl çəksək, dəryalara, dənizlərə sığınsaq, yenə susmayacaqlar, fəryad edəcəklər ki, ay haray! İslam qövmünün hərbi dəniz qüvvələri artıq… sahillərinizə barıtlar, güllələr, bombalar yağdıracaqlar… Bu adamları nə ilə məmnun etməli? … Bunların xoşuna gəlmək üçün nə etməliyik? Nə etməli? Ya boynumuza bir əsarət zənciri salmalı, yaxud məhv və yox olmalı, vəssalam! Üç-dörd yüz milyon xalq ya əsarətdə, ya məhviyyatda! Başqa heç nə!... Bu mümkünmü, əzizim erməni mühərriri. Biz nə boğulub qərq oluruz və nə də «Panislamizm»i geniş və böyük bir dövlət təşkil etməyi özümüzə bir nicat vasitəsi bilirik. Səhvin var, xətan var. Biz bir sövqi-təbii ilə, bütün dünyanın, xalq və millətlərin getdiyi yollarla gedirik! O yolun başlanğıcı qaranlıq və tikanlı isə də, qabağı işıq və çəmənlikdir… Millətlərin bir qismi yolun ortasında getdikləri və sonuna yetişdikləri halda, digərləri o yolu başlayırlar… Bu bir təbiət qanunudur ki, adına «evolyusiya», yəni «Təkamül qanunu» deyirlər». (7, s.436)

XX əsrin əvvələrində Əlibəy Hüseynzadənin siyasi-ideoloji və fəlsəfi publisistikasında erməni şovinizminin və öz siyasi məqsədləri üçün onları dəstəkləyən xristian dünyasının rəhbər tutduğu, inad və israrla həyata keçirdikləri konkret tarixi və milli-siyasi proqramların qlobal motivləri, ideya kökləri və strateji hədəfləri, dini, irqi, qövmi və sosial əsasları, mənəvi terrorları, ikiüzlü, saxta və məkrli üsul və vasitələri təfsilatlı elmi şərhini və təhlilini tapmışdır. Əlibəy tarixdən və keçmişə səyahətdən gördüyü və götürdüklərini özünün məşhur «Siyasəti-Fürusət» əsərində bütün dünyaya və bütün zamanlara göstərdi. Bu əsər özünə qədərki böyük tarixi və sosial hadisələri özündə birləşdirərək Turanın, İranın, Yaxın və Uzaq İslam Şərqinin bütün dərdərlrini özündə əks etdirməklə bütün nəsillərin dərslik kitabına çevrilməlidir. Çünki bu əsərdə Əlibəy Hüseynzadə İslam birliyi, Türk bütövlüyü ideyasını nəzəri, fəlsəfi, ideoloji-siyasi əsaslarını açıb göstərməklə bərabər, İslam dinini dünya miqyasında hərraca çıxaran mürtəce din xadimlərini, Xəzəri şor su kimi ruslara satan İran şahlarını, İslam aləminin başı üstündə dolaşan səlib xaçını, Puruşkeviçin timsalında çar Rusiyasının müstəmləkəçilik siyasətini siyasi parodiya, fəlsəfi kinayə və həcv ilə ifşa edir, məhşər ayağına çəkirdi. Müəllif əsərdə türk hökmdarları Əmir Teymur, Şah İsmayıl Xətai və Nadir Şahın timsalında türk və müsəlman xalqlarının milli və dini birliyə nail olmasında İslam ideologiyasının birləşdirici ideya olduğunu açıqca

göstərmişdir. Əsərdə Cənubi Azərbaycanda baş verən Səttarxanın başçılığı ilə Məşrutə inqilabına böyük əhəmiyyət verən Əlibəy Hüseynzadə yazırdı ki: «Çəkilin ortadan! Mədəniyyət gəlir. Təbriz mücahidlərinin, Səttarxanların qalibiyyəti ilə gəlir». (11, s.114)

İstibdadın, çarizmin yeritdiyi müstəmləkəçilik siyasətinin ifşası, İran Məşrutə inqilabının tərənnümünü, İran mütləqiyyətinin zülm və cəhalətinin tənqidi, Əmir Teymurun müsəlman xalqlarını və torpaqlaırnı İslam bayrağı altında birləşdirməsi, Türk sülalələrindən Səfəvi hökmdarı Şah İsmayıl Xətainin İslam ideologiyası ətrafında İran, İraq və Azərbaycan xalqlarını birləşdirərək mərkəzləşmiş dövlət yaratması, yadellilərə qarşı mübarizə aparıb İranı və Azərbaycanı əsarətdən qurtaran Azərbaycan türklərinin əfşar tayfasından olan Nadir şah Əfşarın müsəlman ölkələri arasındakı sünni-şiə ixtilafına son qoymağa çalışmasından və sairədən bəhs edən «Siyasəti-fürusət» əsəri ilə Əlibəy Hüseynzadə müsəlman xalqlarını ayıltmağa, onlarda milli şüuru oyatmağa çalışmışdır. Bütün bunları nəzərə alan Əlibəy Hüseynzadə «əsərlərində müstəmləkəçi dövlətləri insanlığın ən qəddar düşməni kimi ifşa və tənqid etməklə yanaşı istiqlaliyyət və azadlıq uğrunda mübarizəyə başlamış müsəlman və türk xalqlarını vahid ideya – İslam Birliyi ideyası ətrafında birləşməyə çağırırdı». (11, s.3)

«Türk qanlı, müsəlman etiqadlı, Avropa fikirli» fədailər yetişdirmək missiyasını üzərinə götürən, İslam və Türk Birliyi uğrunda ömrünün sonunadək mübarizə aparan», bütövlükdə İslamın yaddaşına, Türklüyün tarixinə çevrilən, şəxsi tərcümeyi-halı ilə Əlibəy (Əlibəy Hüseynzadə – R.Ə.) doğrudan da elə bir ömür yaşadı ki, bu ömür bitəndə o özü məmnun, aləm isə məğmun və pərişan oldu». (7, s.448)

İstifadə olunmuş ədəbiyyat

1. Yusif Akçura. Türkçülüyün tarixi. İstanbul, 1990.
2. Yusif Rüstəmov. Siyasi-hüquqi təlimlər tarixi. Bakı, 2000.
3. Yusif Akçura. Üç tərzi-siyasət. 2-ci basqı, Ankara, 1987.
4. «Türk» qəzeti. Qahirə, 1904, № 23-24.
5. Hüseyn Cavid. Əsərləri C.X., Bakı 1986.
6. Yusif Akçuraoğlu. Hüseyinzade Ali bey, Türk yurdu C. VIII.
7.Yaşar Qarayev. Azərbaycan ədəbiyyatı XIX və XX yüzillər. Bakı 2002.
8. Heydər Bayat. «Əli bəy Hüseynzadə və Türkiyədə yayınladığı əsərləri», İstanbul, 1992.
9. Əli bəy Hüseynzadə. Panislamizm məsələsi və ermənilər. «Təzə həyat», 1907, № 20-22.
10. «Həyat» qəzeti, 1906, 9 aprel (№ 77).
11. Ofelya Bayramova. Siyasəti-Fürsət, Bakı, 1994.

Рафаэль АХМЕДЛИ

ПОЛИТИЧЕСКИЕ И ИДЕОЛОГИЧЕСКИЕ ВОЗЗРЕНИЯ А. ГУСЕЙНЗАДЕ

Резюме

В статье анализируется жизненный путь великого мыслителя и идеолога А.Гусейнзаде, его борьба за исламское и тюркское единство, просвещение и эволюцию своего народа.

А.Гусейнзаде, который является вторым после М.Ф.Ахундова представителем «Западовосточного синтеза», подготовил идеологическую формулу для всего тюркского мира, особенно для Азербайджана.

А.Гусейнзаде призывает в своих политико-идеологических и философских работах армянский шовинизм и поддерживающий их ради своей политической выгоды христианский мир к более гуманным и возвышенным ценностям.

Rafail AKHMEDLI

THE POLITICS AND IDEOLOGICAL VIEWS OF ALIBEY HUSEYNZADE

Summary

In the article there is considered the life, struggle for Islamic and Turkic Union and creative activity of the famous ideologist Alibey Huseynzade. His regular published articles were important for Azerbaijan and for Turkish world as well. In the socio-political and cultural life of Azerbaijan and Turkish world A. Huseynzade was well-known figure. He worked out ideology formula for all Turkish world.

In the beginning of the 20th century in his political ideological and philosophical works A. Huseynzade called the Armenian chauvinism the Christian world to more humane and Armenians lofty values who supported them for their political interest.

İnşallah QAFAROV
Sosiologiya elmləri namizədi

EMİL DÜRKHEYM SOSİOLOGİYAYNIN PREDMETİ HAQQINDA

Demokratiya və sivil inkişaf yolunu seçmiş ölkəmizin beynəlxalq aləmdə nüfuzu sürətlə artmaqdadır. Müstəqillk əldə etmiş xalqimizin daha da inkişaf etməsi və ölkəmizdə bəşər sivilizasiyasının ən böyük nailiyyətlərindən biri olan demokratik dövlətin qurulması və vətəndaş cəmiyyətinin təşəkkül tapması üçün vacib olan müvafiq nəzəryyə və konsepsiyaların tədqiq edilməsi məsələsində ictimaiyyətşünas alimlər üzərinə böyük məsuliyyət düşür. Müasir gerçəklik bizdən daha sanballı tədqiqatlar həyata kecirməyi, hər cür ideologiya və tendensiyalardan uzaq, yalnız obyektiv araşdırmalara əsaslanan elmi nailiyyətlər əldə etməyi tələb edir. Xalqımızın ulu öndəri Heydər Əliyevin dediyi kimi: «Hər bir xalqin səviyyəsini onun bilik səviyyəsi müəyyən edir». (1, səh.136) Bu baxımdan sosiologiya elmi klassiklərindən biri, cəmiyyətin inqilabi yolla deyil, təkamül yolu ilə inkişafının qatı tərəfdarı, demokratiya və sivilizasiyanın əldə edilməsinə dair orijinal ideyaların müəllifi, görkəmli ***fransız mütəfəkkiri Emil Dürkheymin (15.04. 1858-15.11.1917) elmi-nəzəri irsinin tədqiqi cox aktualdır.***

E.Dürkheymin sosiologiya elmi qarşısındakı xidmətləri cox böyükdür və o, bu günədək sosiologiya tarixində ən böyük fiqurlardan biri hesab edilir. 1887-ci ildən başlayaraq Bordo universitetində sosiologiyanın sisctematik kursunu tədris etməyə başlamış mütəfəkir,* 1902-ci ildən məşhur Sarbonna universitetndə sosiologiya professoru vəzifəsində calışmiş, «Sosioloji almanax» jurnalını nəşr etdirmiş və Fransa sosiologiya məktəbinin əsasını qoymuşdur. Mütəfəkkirin ən böyük xidmətlərindən biri də bu elmin müsstəqil bir bilik sahəsi kimi formalaşmasında əsas şərt hesab olunan sosiologiya predmetinin təşəkkül tapmasındakı əməyi ilə bağlıdır. Belə ki, ondan əvvəl yaşayıb yaratmış filosoflar - Kont və Spenser çalışsalar da bu elmin konkret olaraq funksiyaları, metodları, tədqiqat sahələrinə dair əsaslı postulatlar irəli sürə bilməmişlər. Məhz bu səbəbdəndir ki, onlar sosiologiyanin klassikləri səviyyəsinə yuksələ bilməmişlər. Müasir elm aləmində məhz K.Marks, E. Dürkheym, M.Veber, F.Tyunnis, G.Zimmel, V.Pareto və digər filosoflar sosiologiyanın klassikləri və banisi hesab edilirlər.

Bu mütəfəkkirlərdən yalnız E.Dürkheymi sosiologiyanın empirik bir elm olmasi haqqındakı ideyalar və bu elmin predmetinə dair fikirlər maraqlandırırdı. Qeyd etmək yerinə düşərdi ki, cəmiyyətin inqilabi yolla inkişafinin əleyhdarı olan və cəmiyyətin inkişafında evolyusiyaya üstünlük verən mütə-

* Qeyd: Bu, sosiologiya tarixində ilk dəfə olaraq bu fənnin ali məktəbdə tədrisi idi.

fəkkirə qarşı marksistlər həmişə etinasızlıq göstərmiş, onu burjua alimi kimi qiymətləndirmiş, mütəfəkkirin müasir dövrdə belə öz aktuallığını itirməyən nəzəriyyələrinə ***(sosial həmrəylik və sosial realizm)*** lazımı diqqət yetirməmişlər.

E.Dürkheym «Sosiologiya metodu» (1897) əsərində Sosioogiya elminin predmetinin indiyədək heç bir elm tərəfindən öyrənilməyən və sosial faktlardan ibarət olan sosial realliqlar olduğu qənaətinə gəlmişdir. O, hər bir sosial fakta birinci növbədə bir əşya kimi yanaşmağı tələb edir və göstərirdi ki, yalnız o halda sosial faktlar elmi tədqiqat obyekti ola bilər və təhlil edilə bilər (2, səh.421). Bu ideyanın bir cox alimlər tərəfindən dərin tənqidə məruz dalacağını sanki əvvəlcədən dərk edən mütəfəkkir «Sosioloji metodun qaydası» (1895), «Sosiologiya metodu» əsərlərini yazmış və bununla da sosiologiya elminin predmeti və metodlarının irəli sürülməsində misilsiz xidmətlər göstərmişdir. Mütəfəkkirin bu əsərlərdə irəli sürdüyü orijinal ideyalar sosioloqizm* konsepsiyasından bəhrələnirdi. Onun möhkəm əqidəsinə görə cəmiyyətin əsasını nə isə xüsusi bir «reallıq» təşkil edir. Bu «reallıqlar» cəmiyyətdə yaşayan insanları bir vəhdətdə birləşdirir, onlar arasında həmrəylik yaradır və o, ümumi və xüsusi qanunlara malikdir. Məhz bu qanun və qanunauyğunluqlar sosiologiyanin tədqiqat predmetidir. Həmin «sosial reallıqlar» cəmiyətdə tam hakimdir və öz qaydalarını, yəni, ictimai gözləmə, tələbat, əxlaq prinsipləri və s. şəklində insanlara diqtə edir və deməli, insanlardan kənarda fəaliyyət göstərirlər. E.Dürkheym bu qanunauyğunluqlardan irəli ğələn və insanların fəaliyyəti ilə bağlı olan ümumi kollektvçiliyi «sosial fakt» adlandırır. O, bu anlayışın təhlil edilməsinə xüsusi diqqət yetirir və sosiologiyanın metodlarını araşdımazdan əvvəl bu faktların məzmununu açıqlamağa cəhd göstərir. (3, səh.410-428)

Sosioloqun fikrincə, sosiologiyanin metodlarından fərqli olaraq sosial faktlar haqqında indiyədək müəyyən fikirlər irəli sürülsə də bu terminin mahiyyəti hər hansı bir ümumi maraqları ifadə edən anlayışlarla qarışdirilirdı. Hətta həmin anlayışa sosial ruh verən insan amili də çox zaman movcud olmurdu. Məlum olduğu kimi hər bir fərd su içir, qidalanır, yatır, hər hansısa məsələ barəsində düşünür və s. Lakin bu faktlar sosial faktlar kimi qəbul edilə bilməz, çünki qeyd olunanlar biologiyanın və psixologiyanın tədqiqat sahəsidir.

Lakin həqiqətən bir çox faktlar vardır ki, bu faktlar heç bir təbiət elmləri tərəfindən öyrənilmir.Məsələn, insan ictimai həyatda kiminsə qardaşı, kiminsə həyat yoldaşı, iş yoldası kimi cıxış edir və ya hər hansı bir mü-

* Qeyd: Sosioloqizm ideyasinin əsas mahiyyəti ondan ibarətdir ki, cəmiyyətin inkişafını müəyyən edən əsas prinsiplər sosial gerçəkliyin tərkib hissəsi olan sosial faktlardır və bu faktlardan törəyən hadisə, prosesi və inkişaf fərdlərindən deyil, həmin sosial reallıqlardan – sosial faktlardan asılıdır. Bax: Современная Западная социология. Словарь., М., 1990, с.224-225.

qavilədə tərəf kimi müəyyən şərtlərə əməl edir. Bütün hallarda insan həmin öhdəliklərin mahiyyətinə varmadan, onları təhlil etmədən və özündən cox-çox əvvəllərdən bəri mövcud olan qaydalara əməl edir, müəyyən normalar çərçivəsində fəaliyyət göstərir və üzərinə düşən öhdəlikləri yerinə yetirir. Qeyd olunan dəyərləri hər bir insan təlim-tərbiyə vasitəsi ilə mənimsəyir. Dində də belədir. İnsan hər hansı bir dini qəbul edərkən, qeyri-ixtiyari olaraq özündən yüz bəzən min illər əvvəl formalaşmiş qaydaları, ayinləri, adət və ənənəlri qəbul etməli olur. Başqa sözlə desək, insan özünün yaratmadıği, özündən kənarda yerləşən və özünün ictimai həyata qoşulmasına qədər artiq hazir şəkildə olan qaydlara əməl etməli olur. Ümumiyətlə, ictimai həyatın bütün sahələrində istehsalatda, kommersiya fəaliyyətində, elmi araş-dirmalarda, hər hansi bir peşəkarliq fəaliyyətində yuxarıda qeyd olunan və heç kimdən asılı olmayan qanunlar sistemi mövcuddur. Dürkheym hətta təfəkkür tərzinin fəaliyyətinin və müəyyən istiqamətlərdə inkişafının da insandan asilı olmayan sosial mühitin, yəni kənar amillərin təsiri ilə formalaşdığını qeyd edir.

Qeyd olunan amillər, eyni zamanda, hər bir insanda davranış tiplərini müəyyənləşdirir. Həmin davranış tipləri insanlardan kənarda fəaliyət göstərir və insanlar üçün məcburi xarakter daşıyır. Qeyd etmək vacibdir ki, sosial faktların əhəmiyyəti və sosiologiyanın predmeti kimi çıxış etməsinə dair mütəfəkkir ayrıca bir nəzəriyyə - ***sosial realizm*** nəzəriyyəsini yaratmışdir.

Sosioloqizm ideyalarına söykənən sosial realizm nəzəriyyəsində biz Dürkheymin ictimai şüur probleminə xüsusi yer verdiyini aydın şəkildə hiss edirik. Müasir sosiologiyanın korifeylərindən hesab olunan, Amerikanın Kaliforniya universitetinin professoru H.Smelzer yazır: «E.Dürkheym sosial faktları onların ümumı qaydalarının yarardılmasında yerinə yetirdikləri funk-siyalarla izah etməyə çalışırdı». (4, səh. 242) Lakin o, əmin idi ki, təbiət hadisələri kimi sosial faktlar da insanlardan və fərdlərdən asılı olmadan fəaliyyət göstərirlər. Sosial faktlara fərdlərə kənardan məcburi təsir edən bütün təsir vasitələri daxildir. Başqa sözlə desək, bütün həyat boyu cəmiy-yətdə mövcud olan və cəmiyyətdəki fərdlərdən asılı olmayan göstəricilər sosial faktlardır. Bu faktları müəllif ***morfoloji faktlara*** (maddi mühit, əhalinin sıxlığı; mənəvi və fiziki göstəricilər - fərdlər arasında əlaqələrin intensivliyi və davamlılığı; nəqliyyat əlaqələrinin mövcudluğu; yaşayış məskəninin xarakteri və s.) və ***mənəvi faktlara*** (maddi olmayan - kollekrtiv şüurun məhsulu olan faktlar) ayırır. (5, səh. 421)

E.Dürkheym daha çox ikincilərin – din, əxlaq, hüquq və cəmiyyət tərə-findən qəbul edilmiş norma və dəyərlərin rolunu tədqiq etməyə istiqamət-lənmiş, həmin amillərin yerinə yetirdiyi sosial funksiyaları dərindən araşdır-mışdır.

Mütəfəkkirin fikirincə sosial faktlara iqtisadi, psixoloji, fiziki faktorlardan fərqlənən və yalnız kollektiv şüurun məhsulu olan siyasi, mənəvi, hüquqi ideya, norma və dəyərlər, o cümlədən, ənənələr və davranış qaydaları daxildir. Dürkheymə görə hər bir ideologiyanın, o cümlədən, dinin əsas mahiyyətini onun doqmatik tərəfində deyil, kollektivçilik məzmununda axtarmaq lazımdır. Yeri gəlmişkən qeyd edək ki, mütəffəkkirin dini təsəvvürlərin, ilk növbədə, kollektiv şüurun, kollektiv adətlərin məhsulu olduğunu sübut etməyə çalışdığı «Dinin sosiologiyası» əsəri bu gün də tədqiqatçıların diqqətini və marağını cəlb etməkdədir. E.Dürkheym şüurla materiyanın əlaqəsini araşdırarkən göstərirdi ki, şüur, ilk nöbədə ictimai şüur «sosial mühitdən» - cəmiyyətdən əmələ gəlmişdir. Ümumiyyətlə, Dürkheym həmişə cəmiyyətin müstəqilliyi və sərbəstliyi fikrini müdafiə edir, onun obyektivliyini və spesifik xüsusiyyətlərə malik olduğunu göstərir və cəmiyyəti insanın yaradıcısı hesab edirdi. Bundan əlavə, cəmiyyətin müqəddəsliyi və həmişə fərdlər üzərində mənəvi üstünlüyə malik olması ideyası mütəfəkkirin bütün yaradıcılığı boyu özünü biruzə verirdi. Cəmiyyət, onun fikirincə, fərdlər vasitəsilə reallaşan ideyaların, etiqadların və hisslərin vəhdətini təmin edən birlikdir. Bu barədə onun konsepsiyasının əsas mahiyyətini əxlaq və dini fenomenlərin təbiət hadisələri sferasına daxil edilməsi, lakin bununla yanaşı sosial hadisələrin spesifik xüsusiyyətlərə malik olması ideyası təşkil edir.

Dürkheym fərdi şüurla kollektiv şüur arasında konkret fərq qoyurdu. Yəni insan psixikası elə formalaşmışdır ki, hər hansı bir qrup üzvləri qrup daxilində özlərini bir cür ondan ayrıldıqda isə başqa cür aparır, fəaliyyət göstərir və düşünürlər. O, kollekiv və ya ümumi şüuru cəmiyyətin inkişaf üslubu, özünün xassələri və mövcud olma şərtləri olan psixi tip adlandırırdı. Kollektiv şüurun dinamik aspektini, onun spontan və tənzimedici xarakterini ifadə etməyə çalışırdı. O öz əsərlərində kollektiv şüurla sosial mühitin qarşılıqlı əlaqəsini vacib sayır, kollektiv şüuru bütün cəmiyyətin həyat şəbəkəsi hesab edirdi. Buna görə də emosional çalarları olan ümumi ideyaları və etiqadları ifadə etmək üçün «kollektiv təsəvvürlər» terminini işlədirdi.

Beləliklə, coxsaylı elmi araşdırmalar və nəzəri müşahidələr aparan mütəfəkkir son nəticədə belə qərara gəlmişdir ki, sosiologiyanin predmetini indiyədək hec bir elm tərəfindən tədqiq edilməyən və sosial həmrəyliyin əsas subyektləri rolunda cıxış edən sosial faktlar (adət-ənənələr, siyasi, mənəvi, dini, hüquqi ideya, norma və dəyərlər və s.) təşkil edir və bu faktlar məhz ictimai şüurun məhsulu kimi meydana cıxır. Mütəfəkkir həmçinin, cəmiyyətin tərəqqisi ücün ən başlıca amillərin inqilabi cevriliş və sinfi mübarizənin olduğunu deyil, sosial həmrəylik və konsensusdan ibarət oldduğunu sübut etməyə cəhd göstərmişdir.

İstifadə olunmuş ədəbiyyat

1. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Bakı, Azərnəşr, 2004, C.IV.
2. Дюркгейм Э. О разделении общественного труда. Метод социологии (пер. с франц.). - М., Наука.1990.
3. Bax: **Y**enə orada.
4. Bax: Смелзер Н. 4. Социология (пер. с англ.): М., 1991.
5.Bax: Дюркгейм Э. О разделении общественного труда. Метод социологии (пер. с франц.). М., Наука. 1990.
6. Э.Дюркгейм. О природе социального феномена. М.,1968.
7. Осипова Е.В. Социология Эмиля Дюркгейма. Критический анализ методологической концепции. М.,1977.
8. Кравчэнко А.И Социология -М:Академический проект. 2002.
9. Бороноев А.О., Смирнов П.И. О понятиях ”общество” и “социальное”. //См. Социологические исследования, 2004., № 8.
10. Современная Западная социология: Словарь. – М.: Политиздат,1990.

Иншаллах ГАФАРОВ

ЕМИЛЬ ДЮРКГЕЙМ О ПРЕДМЕТЕ СОЦИОЛОГИИ

Резюме

Емиль Дюркгейм (1858-1917) является основателем французской социологической школы. На начальных этапах своего научного творчества он во многом опирался на позитивистскую философию О.Конта.

Е.Дюркгейм считал, что предметом социологии является социальные факты, под которым он подразумевал независимую от индивидов реальности, обладающую принудительной силой (способ мышления, законы, обычаи, язык, верования, денежная система и т.д.). При изучении социальных фактов Дюркгейм рекомендовал применять методы сравнения и функциональный анализ, которые позволяют устанавливать соответствие между социальным явлением, социальным институтом и определенной потребностью общества как целого.

Inshallah QAFAROV

EMIL DURKHEIM ON A SUBJECT OF SOCIOLOGY

Summary

Emil Durkheim (1858-1917) is a founder of French sociopolitical school. On initial stages of his sientific creative work he relied mostly on positivist philosophy of O.Kont.

E. Durkheim considered that the subject of sociology are social facts by which he ment the reality, independent of individuals of reality, possessing compulsory power (way of thinking, laws, customs, language, beliefs, monetarery system and ets). At studying the social facts Durkheim recommended to apply the methods of comparison and functional analysis, which permit to establish conformity between social phenomenon, social institute and definite requirement of a society as a whole.

Habil HƏMİDOV
AMEA Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutu, p.e.n.

AZƏRBAYCANIN BEYNƏLXALQ MÜNASİBƏTLƏR SİSTEMİNƏ İNTEQRASİYASINDA İPƏK YOLUNUN ƏHƏMİYYƏTİ

Müasir bazar iqtisadiyyatı şəraitində dünya ölkələri arasında gedən inteqrasiya proseslərində bir sıra sosial-iqtisadi amillərlə yanaşı, nəqliyyat iqtisadi əlaqələri də mühüm əhəmiyyət kəsb edir. Bu nöqteyi-nəzərdən məsələyə yanaşsaq belə bir fikir söyləmək olar ki, Azərbaycanın dünya ölkləri arasında əlverişli geosiyasi vəziyyətdə olması, dünya ölkələrinin iqtisadi marağına səbəb olan nəqliyyat sahələrinin inkişafı, onun beynəlxalq nəqliyyat sisteminə malik olmasına etibarlı zəmin yaradıb ki, bu da mühüm iqtisadi amillərdən sayılır. Problemi elmi cəhətdən araşdırmağa çalışsaq fikrimizi aşağıdakı kimi əsaslandıra bilərik.

- Ötən əsrin sonunda dünyanın mühüm qlobal problemlərindən biri olan qədim İpək Yolunun Azərbaycanda mərkəzi mövqe tutması;
- İran körfəzi, Aralıq dənizi, Qara dəniz hövzəsi ölkələrinin iqtisadi əlaqələrində mühüm rol oynayan dəniz nəqliyyatının respublika ərazisində kəsişməsi;
- Avropa-Asiya ölkələri arasında səmərəli iqtisadi əlaqələrin inkişafına şərait yaradan Avropa – Qafqaz – Asiya (Transqafqaz) nəqliyyat dəhlizinin birbaşa respublika ərazisində mərkəzləşməsi;
- dəniz nəqliyyatı vasitəsilə İran-Rusiya və Orta Asiya respublikaları ilə iqtisadi əlaqələrin Azərbaycanda kəsişməsi;
- planetin bir çox dövlətləri arasında o qədər də böyük əraziyə malik olmamasına baxmayaraq, dünyanın nəqliyyat cəhətdən inkişaf etmiş ölkələrinə xas olan beynəlxalq əhəmiyyətli nəqliyyatın mühüm sahələrinin: dəmir yolu, dəniz, avtomobil, boru kəməri və hava nəqliyyatının inkişaf etməsi, daxili və xarici yükdaşımaların ən səmərəli yollarla həyata keçirilməsi üçün əlverişli iqtisadi şəraitin olması;
- təklif olunan alternativ dəhlizlərin keçdiyi ölkələrə nisbətən Azərbaycanda fəaliyyət göstərən bütün növ nəqliyyat vasitələrinin hərəkətinin təhlükəsizliyinin etibarlı təminatı, kommersiya üçbucaq "servis-vaxt-tarif"ə müvafiq səmərəli iş üçün lazımi şəraitin olması və s.

Qeyd olunan amillərlə əlaqədar olaraq respublikanın nəqliyyat sahələrinin qarşısında duran müasir problemlər yalnız Azərbaycanın daxili problemi kimi yox, eyni zamanda dünya ölkələrinin problemi kimi də şərh oluna bilər. Həmin məsələ ilə əlaqədar olaraq artıq Avropa İttifaqı Birliyi tərəfindən qəbul edilmiş TASİS və TRASEKA proqramlarında Avrasiya ölkələri arasında gedən inteqrasiya proseslərinin yaxın gələcəkdə daha intensiv xarakter daşıyacağı müəyyənləşdirilib. Dünyanın, xüsusilə Avropa və Asiyanın bir sıra ölkələrində olduğu kimi, yüklərin maneəsiz daşınmasını təmin etmək üçün respublikanın bütün nəqliyyat sahələrinin dünya standartları səviyyəsinə çatdırılması və bu sahədə məqsədyönlü işlərin aparılması qarşıya mühüm tələb kimi qoyulur.

TRASEKA proqramına əsaslanaraq "Böyük İpək Yolu"nun bərpası ilə əlaqədar Azərbaycanın dünya iqtisadiyyatına qovuşmasında yuxarıda göstərilən nəqliyyat sahələri ilə yanaşı avtomobil nəqliyyatının da mühüm rolu vardır. Əvvəlcə respublika daxilində mövcud vəziyyəti qısa şərh etməyə çalışaq.

Məlum olduğu kimi, respublikamızda sərnişin və yükdaşımaların 80 faizə yaxını avtomobil nəqliyyatı tərəfindən həyata keçirilir. Lakin nəqliyyatdan söhbət gedirsə, yol probleminə toxunmamaq mümkün deyil, çünki avtomobil və yol sahələrini ayrı-ayrılıqda təsəvvür etmək çətindir. Hesab edirik ki, onların işinin etibarlılığı bir-birindən asılıdır. Beynəlxalq təcrübə sübut edir ki, yollar gərək ekoloji və estetik baxımdan lazımi ölçülərə uyğun olsun, sərnişin və yükləri mənzil başına tez, təhlükəsiz çatdırmağa imkan versin.

Təbii olaraq dəyər-səmərəlilik baxımından daha faydalı sayılan Avropa-Qafqaz dəhlizindən Asiya ölkələri də öz dövlətlərinin iqtisadi qüdrətinin artmasına əsaslı kömək göstərəcək, inteqrasiya prosesini gücləndirəcək bu vasitədən istifadə edərək əks istiqamətdə həmin ölkələrə müvafiq yüklərini göndərəcəklər. Respublika daxilində fəaliyyət göstərən dəimr yollarının ümumi uzunluğu 2100 km-dir. Gələcəkdə müəyyən problemlərin yaranmaması üçün, yəni kütləvi yük axınlarını tənzimləməkdən ötrü Azərbaycan dəmir yolunda yenidənqurma işlərinin aparılması, onun texniki səviyyəsinin yüksəldilməsi, yüzdən artıq stansiyada yükvurma və boşaltma əməliyyatlarının mexanikləşdirilməsi üçün beynəlxalq standartlara uyğun işlərin görülməsi indidən öz həllini tapmalıdır. Bunlardan əlavə Azərbaycan üçün də mühüm strateji əhəmiyyət kəsb edən Bakı, Sumqayıt, Əli Bayramlı, Yevlax, Gəncə, Culfa, Naxçıvan, Astara nəqliyyat qovuşuqlarında stansiyadaxili dəmir yolunun artırılması, xidmət sferalarının beynəlxalq standartlara uyğun şəkildə inkişaf etdirilməsi mühüm problemlərdən sayılır. Bu barədə əvvəlki yazıdarımızda müəyyən məlumatlar olduğu üçün geniş şərhə ehtiyac duyulmur.

Beynəlxalq nəqliyyat sistemində Azərbaycanın yerini müəyyən edən ikinci mühüm amil dəniz nəqliyyatının inkişaf etdirilməsidir. Xəzər dənizinin respublika ərazisində müəyyən mövqe tutması Azərbaycanı Xəzər dənizi hövzəsi ölkələri ilə əlaqələndirməklə yanaşı, Qara dəniz, Aralıq dənizi hövzəsi ölkələri, həmçinin Atlantik okeanı və Hind okeanı hövzəsi ölkələri ilə də iqtisadi əlaqələrin yaradılmasında mühüm əhəmiyyət kəsb edir. Sözsüz ki, "Böyük İpək Yolu"nun bərpası nəticəsində dəniz nəqliyyatı Avropa və Asiya ölkələri arasında tranzit yük axınına malik olan mühüm nəqliyyat vasitəsinə çevriləcəkdir. TRASEKA proqramına uyğun olaraq digər əlaqədar bölgələrdə olduğu kimi Aralıq dənizi, Qara dəniz hövzəsi limanları ilə yanaşı Xəzər dənizinin istər Azərbaycan daxili, istərsə də ümumi Xəzər hövzəsində fəaliyyət göstərən limanların beynəlxalq dünya standartlarına uyğun şəkildə inkişafı öz əksini tapmalıdır. Qeyd etdiyimiz kimi, bu istiqamətdə artıq müəyyən işlər görülmüş və bundan sonra da görüləcəkdir. Təbii ki, bütün bunlar dövrün, zamanın tələbidir. Çünki bu məqsədlə Avrasiya ölkələri arasında daşınacaq yüklərin Bakı limanından keçməsi istər-istəməz bu limanın beynəlxalq nəqliyyat qovşağı rolu oynamasına səbəb olacaqdır. Respublika ilə müqayisədə yüksək tələblərə cavab verən Bakı limanı

da daxil edilməklə yaxın gələcəkdə kütləvi yük axınlarını tənzimləmək üçün Azərbaycanın Hövsan, Ələt körpüsü, Lənkəran və Sumqayıt limanlarının müasir tələblər səviyyəsində tikintisinin aparılması son dərəcə vacib məsələlərdən hesab edilir. Eyni zamanda, Xəzər dənizində yük axınlarını intensivləşdirmək məqsədilə ağır tonnajlı yeni gəmi bərələrin: Həştərxan – Bakı - Pəhləvi, Türkmənbaşı - Həştərxan, Bakı - Alaca, Bakı - Bektaj və digərlərinin gələcəkdə intensiv fəaliyyət göstərməsi də dövlətlərarası beynəlxalq iqtisadi münasibətlərdə mühüm rol oynaya bilər. Yalnız bir faktı qeyd edək ki, respublika daxilində daşınan yüklərin 18 faizi təkcə dəniz nəqliyyatının payına düşür. O cümlədən daşınan yüklərin 90 faizini Bakı limanı təşkil edir. Bakı limanına gətirilən yükün 72 faizi, göndərilən yükün isə xeyli hissəsi Türkmənbaşı limanı və həmin göstəricilərə müvafiq olaraq 0,3-4,1 faiz Mahaçqala, 0,5-4,2 faiz Həştərxan, 19,8-4,9 faiz Bekdaş, 0,6 faiz Alaca, 6,3 faizi isə Kinolı limanlarının payına düşür. Şübhəsiz ki, gələcəkdə dəniz nəqliyyatı vasitəsi ilə yük karvanlarının göndərilməsinin səmərəliliyini artırmaq üçün yuxarıda adları qeyd edilən limanlarda TRASEKA proqramına uyğun tikinti işlərinin aparılması zərurəti yarandığından öz müsbət həllini tapacaqdır.

Nəzərə alsaq ki, kommunikasiya sistemi bazar infrastrukturunun əsas həlqəsidir, onda bu halda həmin sistemin inkişafını dünya səviyyəsinə çatdırmaq üçün ölkəyə xarici sərmayə cəlb etmək başlıca şərt olmalı və bütün bunlar birbaşa dövlətin siyasət kursuna daxil edilməlidir. Çünki "Böyük İpək Yolu"nun bərpası nəticəsində respublikamızda yükdaşımanın, həcminin artdığı indiki vaxtda Avropadan Asiyaya və yaxud əksinə ağır tonnajlı avtomobillərin (traylerlərin) hərəkəti üçün yeni beton örtüklü yollar, körpülər və digər müvafiq mühəndis qurğuları tikilməlidir.

Önəmli haldır ki, Azərbaycanda bu işlərə praktik şəkildə başlanmışdır. Bütün bunlar isə, əsasən xarici sərmayələr və respublikanın daxili imkanlarından ayrılmış vəsaitlər hesabına həyata keçirilir.

Dünya praktikası sübut edir ki, inkişaf etmiş ölkələrdə pullu yol tikintisi xüsusi milli kapitalın yol təsərrüfatına cəlb edilməsi ilə tənzimlənir. Pullu yolların istismarından dövlət 60 faiz gəlir götürür. Məsələn, İtaliyada yolların əksəriyyəti "İtalstat" şirkətinin himayəsindədir və avtonəqliyyat şəbəkəsinə qoyulmuş hər lirə üç-dörd lirə əlavə gəlir gətirir.

Odur ki, bu sahəyə qoyulan sərmayələrin gəlir gətirəcəyinə şübhə yaranmamalıdır, əksinə belə bir fikir formalaşmalıdır ki, bizim iqtisadiyyatımıza nüfuz etmək istəyən sərmayədarlar üçün yol tikintisi ən ideal obyektdir və bu da respublikamıza birbaşa gəlir gətirə bilər. Sadəcə, xarici sərmayəni bu sahəyə cəlb etməkdən ötrü müvafiq şərait yaratmaq lazımdır.

Hələ neçə illər bundan qabaq bu sahənin iqtisadi səmərəsini yaxşı bilən, dünyada ən nüfuzlu birliklərdən olan Avropa Əməkdaşlıq Komissiyası, onun üzvü olan ölkələrin mütəxəssisləri ilə birlikdə Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizindən keçəcək yolun layihəsini hazırlayıb. Azərbaycan ərazisindən çəkilməsi planlaşdırılan bu cür yolların bir neçə variantı mövcuddur. Məsələn, TRASEKA proqramına əsasən "İpək Yolu layihəsi» hazırlanarkən planlaşdırı-

lan yolların bir variantı da magistralın Avropanı kəsib keçəcək, Bolqar şəhəri Varnanı bərə-keçidlə Qara dənizin Gürcüstan sahili ilə birləşdirəcək, sonra isə Gürcüstan və Azərbaycan ərazisindən keçəcək marşrutun yenidən bərə keçidi ilə Xəzərin o biri sahilinə – Türkmənistanın sahil ərazisinə çatdırılması nəzərdə tutulur. Müzakirələr zamanı digər bir marşrut da Türkiyənin sabiq baş naziri Tansu Çillərin təklif etdiyi Türkiyədən keçən yol idi.

Təklif olunan hər iki marşrutun və digərlərinin ayrı-ayrılıqda özünün müəyyən fərqli və üstün cəhətləri vardır. Hansının daha məqbul yol olduğunu müəyyənləşdirib seçmək isə mütəxəssis-ekspertlərdən asılıdır. Onların ən başlıca vəzifələrindən biri isə "İpək Yolu"nun bərpasında marağı olan ölkələrin həmin marşrutlardan məqbul variantın Azərbaycan ərazisindən keçən magistralının tikilməsi üçün sərmayə qoymalarına inam yaratmaqdır. Bu cür sərmayələr hesabına isə, istər yeni tikilən avtomobil yolları, istərsə də əvvəldən mövcud olan yolların bərpası işi həyata keçirilməklə magistralları beynəlxalq standartlar səviyyəsinə qaldırmaq olar.

Xüsusilə qeyd etməliyik ki, Bakı - Hacıqabul istiqamətində yeni yolların salınması, körpülərin tikilməsi və s. quruculuq işlərinin praktik şəkildə həyata keçirilməsi onu göstərir ki, Azərbaycan dövləti bu istiqamətdə xeyli irəliləyiş əldə etmişdir. Ekspertlərin rəyinə əsasən demək olar ki, TRASEKA proqramı çərçivəsində Avropa və Asiya dövlətləri tərəfindən əsas marşrut kimi müəyyənləşdirilmiş magistral avtomobil yollarının tikintisi beynəlxalq standartlara uyğundur. Bu isə respublika ərazisində fəaliyyət göstərən avtomobil yollarının texniki iqtisadi göstəricilərinin yüksəldilməsi və beynəlxalq standartlar səviyyəsinə çatdırılması deməkdir. Nəticə etibarilə bu da təbii olaraq dünya ölkələri avtomobil nəqliyyatının yükdaşımalarda səmərəliliyini gördükcə sərmayə qoyuluşunu daha da artıracaqdır.

Nəqliyyat dəhlizində yükdaşımaların intensivliyi artdıqca Azərbaycanın tranzit ölkə kimi gəlirləri də ardıcıl surətdə çoxalacaqdır. Avropa-Qafqaz-Asiya nəqliyyai dəhlizi Azərbaycana, bəlkə, neftdən də çox gəlir gətirər, çünki respublika ərazisindən keçən tranzit yüklərinə görə normativ sənədlər əsasında müəyyən olunmuş vəsait ödənilir. Respublikamız üçün bu yolların əhəmiyyəti bir də ona görə böyükdür ki, Avropa ölkələri ilə birbaşa əlaqələrin yaranması milli iqtisadiyyatımızın inkişafını sürətləndirəcək. Hesab edirik ki, bu layihələrin həyata keçirilməsində marağı olan dövlətlər üçün yüklərin Rusiya ərazisindən keçməsi artıq o qədər də əlverişli variant sayılmır.

Respublikamızın dünya ölkələri arasında yerini müəyyən edən ən mühüm amillərdən biri də tarixən neftin istehsalı ilə əlaqədar olaraq boru kəmər nəqliyyatının inkişafıdır. XX əsrin sonu XXI əsrin əvvəllərində respublika daxilində istehsal olunan neftin boru kəmərləri vasitəsilə xaricə nəql edilməsinin coğrafiyası xeyli genişlənmiş və bu istiqamətdə indi də ciddi işlər görülməkdədir. Bakı – Gürcüstan - Türkiyə (Ceyhan), Bakı – Novorossiysk – Supsa neft kəmərləri vasitəsilə neftin dünya bazarına birbaşa nəql edilməsi Azərbaycanın dünya iqtisadiyyatında yerini müəyyən edən mühüm faktor kimi qiymətləndirilir. Azərbaycan ərazisində fəaliyyət göstərən boru kəmər nəqliyyatının uzunluğu

təxminən 33 min kilometr təşkil edir. Düzdür, bu da Avropa və Asiya ölkələrinin bəziləri ilə müqayisədə çox böyük fərqlə, Azərbaycanın onlardan irəlidə olduğunu göstərir. Lakin bütün bu göstəricilərə baxmayaraq boru kəmər nəqliyyatının texniki iqtisadi göstəriciləri dünya standartları səviyyəsinə tam cavab vermir. Şübhəsiz ki, neft-qaz hasilatı sahəsində dünyanın bir sıra aparıcı dövlətləri ilə bağlanmış müqavilələr neftin və qazın istehsalının artırılması ilə yanaşı, onun nəqlinə xidmət edən boru kəmər nəqliyyatının təkmilləşməsinə dair beynəlxalq səviyyəli işlərin aparılmasını da sürətləndirəcəkdir. Bu da danılmaz həqiqətdir ki, neft hasilatı və emalı ən çox gəlir gətirən sahələrdən biridir. Əksəriyyət belə hesab edir ki, iqtisadiyatın böhranlı vəziyyətindən çıxmaq üçün indiki şəraitdə yeganə çıxış yolu beynəlxalq neft müqavilələrindədir. Lakin Azərbaycan iqtisadiyyatına milyonlarla dolar gəlir gətirəcək nəqliyyat sahəsinə ikinci dərəcəli əhəmiyyət kəsb edən məsələ kimi baxmaq düzgün deyildir. Çünki neçə illər ərzində nəqliyyat dəhlizindən istifadə nəticəsində respublika büdcəsinə daxil olan küllü miqdarda vəsait bunu bir daha sübut edir. Ona görə də Avropa – Qafqaz - Asiya nəqliyyat dəhlizinin açılması, fəaliyyəti və gələcək perspektivləri ilə əlaqədar Yaxın Şərq, Orta Asiya, Qazaxıstan, Çin və başqa ölkələrlə aparılan tranzit ticarətinin Azərbaycana real gəlir gətirəcəyi şübhə altına alınmamalıdır. Analitik mənbələrə əsasən demək olar ki, indinin özündə də Qərbi Avropa, Orta Asiya və Qazaxıstandan gələn yüklərin həcmi sürətlə artmaqdadır. Ona görə də bu beynəlxalq magistralın iqtisadiyyatımızın inteqrasiyasında mühüm rol oynayacağı şəksizdir.

Bunları nəzərə alan Azərbaycan dövləti haqlı olaraq adı çəkilən tranzit yolunun maliyyələşdirilməsi və tikintisinin sürətləndirlməsi üçün dünyanın bir sıra aparıcı dövlətləri ilə, bu işə marağı olan bəzi maliyyə dairələri ilə hökumət səviyyəsində danışıqlar aparmağı vacib saymış və həmin siyasət xəttini götürməkdə yanılmamışdır. Həqiqətən də Azərbaycandan keçəcək Avropa – Qafqaz - Asiya nəqliyyat dəhlizinə iqtisadiyyatımızı böhrandan çıxara bilən və onun sürətli inkişafına etibarlı təminat yaradan mühüm amillərdən biri kimi yanaşmaq lazımdır.

Reallıqlar onu göstərir ki, TRASEKA proqramı əsasında "İpək Yolu"nun bərpası Azərbaycanın beynəlxalq münasibətlər sisteminə inteqrasiyasında mühüm rol oynayacaqdır.

İstifadə olunmuş ədəbiyyat

1. "Böyük İpək Yolu"nun bərpası ilə əlaqədar 1998-ci il sentyabrın 7-8-də Bakıda keçirilən konfransın materialları.
2. Paskal Lord, Fransua Tüal. «Geopolitika». Bakı, 2001.
3. Həmidov H. Böyük İpək Yolu Azərbaycanın beynəlxalq münasibətlərində». Bakı, 2001.
4. Piriyev A. Siyasi strategiya və milli təhlükəsizlik problemi. Bakı, 2002.
5. Nikolson Q. Diplomatiya, M., 1941.
6. Səmədzadə Z. Tərəqqi və sülh yolu. «İpək yolu», Bakı, 1998.

7. Ятсенко Б. «Проблемы трансевразийских экономических отношений. «Новый Шелковый Путь». – «Шелковый Путь», 1999, 19-25 февраля; 26 февраля-4 марта.

Габиль ГАМИДОВ

ЗНАЧЕНИЕ ШЁЛКОВОГО ПУТИ В ИНТЕГРАЦИИ АЗЕРБАЙДЖАНА В СИСТЕМЕ МЕЖДУНАРОДНЫХ ОТНОШЕНИЙ

Резюме

В статье расматриваются некоторые новые субъекты международных отношений, находящиеся на стадии своего формирования и обосновывается роль этого пути в интеграции Азербайджана в данную систему.

Подходя к вопросу в данном контексте, автор приходит к выводу, что выгодное геополитическое положение Азербайджана, богатые природные ресурсы и огромный потенциал для развития транспортных коммуникаций являются одним из основных факторов в экономической заинтересованности иностранных государств. Естественно, что государством региона. Это одновременного играет важную роль в интеграции Азербайджана в систему международных отнощени и держит Азербайджан в сфере интересов иностранных государств. Кроме этого восстановление Великого Шёлкового Пути один из основных факторов в расширении и укреплении зарубежных связей азербайджанского государства.

Habil HAMIDOV

AN IMPORTANCE OF THE SILK WAY FOR INTEGRATION OF AZERBAIJAN INTO SYSTEM OF THE INTERNATIONAL RELATIONS

Summary

In the article a some new subjects of the international relations which are taking place at a stage of their formation are considered and a role of this way in integration of Azerbaijan into the given system is grounded.

Approaching to the question in the given context, the author comes to a conclusion, that favourable geopolitic position of Azerbaijan, rich natural resources and huge potential for development of transport communications are one of the major factors in economic interest of the foreign states. It plays the important role in integration of Azerbaijan into system of the international relations and holds Azerbaijan in sphere of interests of the foreign states. In addition restoration of the Great Silk Way is one of major factors in expansion and strengthening foreign relations of Azerbaijan state.

Yadigar TÜRKEL
AMEA Fəlsəfə və Siyasi-Hüquqi
Tədqiqatlar İnstitutu, Politologiya şöbəsi

AZƏRBAYCAN RESPUBLİKASI VƏ DEMOKRATİK SEÇKİLƏR PROBLEMİ

Çağdaş demokratiyanın əsas göstəricilərindən biri siyasi hakimiyyət institutlarının azad seçkilər yolu ilə tutulmasıdır. 1991-ci ildən müstəqil, 1995-ci ildən ***demokratik, hüquqi, unitar, dünyəvi*** dövlət olan Azərbaycan Respublikasında siyasi, hərbi, mədəni, təşkilati, mənəvi-psixoloji və başqa səbəblərdən siyasi hakimiyyət institutlarının seçkilər yolu ilə tutulumasında bəzi çətinliklər yaranmışdır. Amma siyasi sistem demokratikləşdikcə seçki sisteminin təkmilləşməsi prosesi gedir. Azərbaycan Respublikasının 1995-ci ildə qəbul edilmiş Konstitusiyasında ölkədə demokratik seçki sisteminin əsasları müəyyənləşdirilmiş, yaradılan seçki məcəllələrilə seçkilər keçirilmişdir. Avropa Şurası və başqa beynəlxalq təşkilatlar da Azərbaycanın seçki qanunlarındakı irəliləyişləri qeyd etmişlər. Amma Azərbaycan cəmiyyətinin tam demokratik prinsiplərlə keçirilən seçki sisteminin yaradılmasına ehtiyacı vardır.

Seçkilər – demokratik sistemin əsas ünsürlərindən biridir. Seçkilərdə seçilmişlərə siyasi hakimiyyət hüququ verilir və onlar xalqın, millətin, dövlətin adından hakimlik edirlər. Seçkilər vasitəsilə hakimiyyət institutları (icra, qanunverici, bəzən də məhkəmə) formalaşdırılıb legitimləşdirilir, onların millətin, əhalinin qarşısında məsuliyyət duyğusu artırılır, hökumətlərin yanlış siyasi kursları dəyişdirilir, müxalifət müəyyənləşdirilir. Azad insan yetişdirməyə xidmət edən seçkilər millətin, xalqın, əhalinin suverenliyinin əsas göstəricilərindən biri olub demokratiya formalarının gəlişməsində böyük rol oynayır. Seçkilər zamanı cəmiyyətdəki sosial, siyasi, iqtisadi, milli-mənəvi və başqa problemlər açıqlanır, sistemləşdirilir, aşırı baxışlardan təmizlənir. Bu gün bütün demokratik dövlətlərdə siyasi hakimiyyətə seçkilərdən başqa digər yolla gəlmək qəbuledilməzdir.

Seçkilər əhaliyə siyasi hakimiyyətə daha çox nəzarət və təsir etmək imkanı verir. Demokratik cəmiyyətlərdə seçkilər tez-tez təkrarlanan böyük ictimai, siyasi hadisədir. Azərbaycan Respublikasında da hər beş ildən bir Prezident, Milli Məclis və bələdiyyə seçkiləri keçirilir. Gələcəkdə rayon icra hakimiyyətləri başçılarının və məhkəmə sədrlərinin seçilməsi cəmiyyətin daha da demokratikləşməsinə səbəb olar.

Seçkilər icra hakimiyyətini, parlamenti formalaşdırır, müxalifəti müəyyən edir. Demokratik dövlətlərdə icra hakimiyyətinə nəzarət parlament, məhkəmə hakimiyyəti, seçicilərin və KİV-in dəstəyilə həyata keçirilir. Növbəti seçkilərdə uduzmaqdan qorxan hökumətlər tənqidlərə qulaq asaraq güzəştlərə getməyə məcbur olur, daha düzgün yol tutur. Seçkilər dövründə vətəndaşlar maariflənir, siyasi dəyər və normaları mənimsəyib təcrübə və siyasi fəallıqlarını

artırırlar. Seçkilər vətəndaşların siyasi elitaya girməsi, onu dəyişməsi, yeniləməsi üçün ən demokratik vasitədir. Seçkilər cəmiyyətdə yeni siyasi şəxsiyyətlərin, siyasi liderlərin yetişməsinə, xalqın etimadını itirən lider və partiyaların siyasi səhnədən getməsinə səbəb olur. Seçkilərdə siyasi mübarizə edən quvvələr cəmiyyətə yeni siyasi proqramlarını təqdim edirlər. Bu yolla uğursuz siyasət və siyasətçilər ortadan qalxır, cəmiyyətin elmi əsaslarla, daha yaxşı idarə edilməsi üçün şərait yaranır. Azad, ədalətli, şəffaf, tərəfsiz keçirilən seçkilər insanların iradəsini əks etdirib cəmiyyətdə sabitliyə, yüksəlişə səbəb olur.

Demokratik seçkilər konstitusiya ilə müəyyənləşdirilən seçki hüququ prinsipilə keçirilir. Seçki hüququ prinsipi hər bir vətəndaşın seçkilərdəki statusunu müəyyən edib seçicilərə namizədlər haqqında bütün bilgilərin verilməsi və seçkilərin nəticələrinin çap edilməsini təmin edir. Seçki hüqüqü aktiv (seçmək) və passiv (seçilmək) seçki hüququna bölünür. Aktiv seçki hüququ – seçmək hüququ qanunla müəyyənləşdirilir. Azərbaycan qanunlarına görə Prezident seçkilərinin, Milli Məclisə seçkilərin, bələdiyyəyə seçkilərin, referendumun keçirilməsi günü (həmin gün də daxil olmaqla) 18 yaşına çatmış Azərbaycan Respublikasının hər bir vətəndaşının seçmək, referendumda səs vermək, seçkilərin (referendumun) gedişini müşahidə etmək, seçkiqabağı (referendumqabağı) təşviqatda iştirak etmək hüququ vardır.

Passiv seçki hüququ – Azərbaycan Respublikası qanunlarına görə aktiv seçki hüquqlu hər bir vətəndaşın referendum üzrə təşviqat qruplarının yaradılmasının təşəbbüsçüsü olmaq, Azərbaycan Respublikasının Konstitusiyası ilə müəyən edilmiş prezidentliyə, millət vəkilliyinə, bələdiyyə üzvlüyünə namizədlər üçün tələblərə cavab verdikdə seçilmək hüququdur.

Seçkiləri keçirmək üçün gərək olan siyasi subyektlərin, qurumların, qanunların, norma və prinsiplərin toplamına seçki sistemi deyilir. Çağdaş demokratik dövlətlərdə çeşidli seçki sistemləri tətbiq edilir. Majoritar və proporsional adlı iki əsas seçki sistemi vardır. Çeşidli dövlətlərdə işlədilən qarışıq seçki sistemləri majoritar və proporsional sistemləri birləşdirməklə yaradılır. Seçki sistemləri namizədləri hakimiyyət uğrunda qanuni mübarizəyə yönəltdiyindən seçkilərin xarakterinə ciddi təsir edir.

Majoritar (fr. majorite – çoxluq) seçki sistemində namizəd və ya partiya seçicilərin səsinin çoxunu qazanmalıdır. Bu sistemdə çox səs qazanmağın mütləq və nisbi hədləri qanunla müəyyən edilir. Məsələn, mütləq üstünlük- seçicilərin 50 faizi və üstəgəl bir səs. Bu daha çox prezident seçkilərində tətbiq edilir. Nisbi çoxluğun tələb edildiyi demokratik dövlətlərdə ancaq rəqibi ötmək tələb olunur. Mütləq çoxluğun tələb edildiyi seçki sistemlərində heç kəs istənilən səsi yığmayanda, ən çox səs toplayan iki namizəd arasında ikinci tur keçirilir.

Proporsional seçki sistemində yerlər siyasi partiya və blokların yığdıqları səsə uyğun bölünür. Bəzi dövlətlərdə qeyd edilən hər iki seçki sisteminin çatışmamazlıqlarını aradan qaldırmaq üçün cəmiyyətin tarixi formalaşma prinsiplərini, milli-etnik təmsilçilik və başqa şərtləri nəzərə alıb, qarışıq

sistemlər tətbiq edilir. Son dövrlərdə BMT konsensus seçki sistemi təklif edir. Bu sistemdə məsələn, prezidentliyə 5 namizəd varsa, birinci yeri tutana 5, ikinciyə 4, üçüncüyə 3, dördüncüyə 2, beşinciyə 1 xal verilir. Xallar toplanıb sayılandan sonra qalib elan olunur.

Seçki hüququ seçkilərin təşkilinin demokratik prinsiplərini müəyyən etmişdir. Bunlar seçkilərin demokratik keçirilməsini tələb edən hüquqi qaydalar və yaradılan sosial-psixoloji şəraitdir. Bərabərlik – hər seçicinin ancaq bir səs hüququnun olması, onun səsinin ancaq bir səs kimi sayılmasıdır. Bu prinsip ölkədəki seçki dairələri arasında nisbi bərabərliyi təmin edir. Gizlilik – seçicinin qərarının ancaq ona bəlli olmasıdır. Heç kim seçicini yönəltməməli, ona təsir etməməlidir. Bu prinsip seçkilərin azadlığını təmin edir, onları təzyiq, sıxışdırma və çeşidli yollarla ələ almaqdan qoruyur. Birbaşa səsvermə – seçici seçki siyahısına yox, bülletendə adı olan gerçək namizədə səs verir. Seçim imkanının verilməsi, seçkilərin azadlığı, ədalətlilik, şəffaflıq, aşkarlıq, yarış, rəqabət, namizədlərin, siyasi partiyaların maddi və informasiya imkanlarının bərabərliyi prinsipləri seçicinin və KİV-in seçkilərlə bağlı bütün bilgiləri almaq hüququnu, seçkilərin nəticələrinin çapını təmin edir.

Seçkilərin əsas subyektlərindən biri seçicidir. Seçici – aktiv seçki hüququ olan vətəndaşlara, namizəd isə namizədliyi irəli sürülüb qeydə alınmış passiv səs hüquqlu şəxsə deyilir. Hər iki seçki subyektinə yaş həddi, təhsil və başqa məhdudlaşdırıcı senzlər – qadağalar tətbiq edilir.

Siyasi partiyalar da vacib seçki subyekti olub siyasi sistemin demokratikliyinin əsas göstəricilərindən biri sayılırlar. Siyasi partiyaların seçkilərdə iştirakı üzvlərinin sayının azlığı, əvvəlki seçkilərdə müəyyən səs həddinin yığılması, bir neçə il seçkilərdə ardıcıl iştiraketmə kimi şərtlərlə məhdudlaşdırılır.

Seçkilər müəyyən konkret ictimai-siyasi şəraitdə keçirilir. Seçkilərin keçirilməsi bir neçə mərhələyə bölünür: a) hazırlıq dövrü, b) namizədlərin irəli sürülməsi və qeydiyyatı, c) təbliğat-təşviqat dövrü, ç) seçki günü və nəticələrin elanı, d) seçkidən sonrakı dövr.

Hazırlıq dövründə cəmiyyətdə gələcək seçkilər haqqında müəyyən ilkin fikirlər yayılır, KİV-də seçkilərlə bağlı bəzi bilgilər verilir, ayrı-ayrı şəxslər və ictimai-siyasi qruplar ölkədəki seçkiqabağı sosial-siyasi durumu öyrənib gələcək fəaliyyətləri üçün müəyyən özül hazırlayırlar.

Namizədlərin verilməsi – seçkilərə hazırlıq mərhələsi və onun keçiriləcəyi gün rəsmi elan ediləndən sonra passiv seçki hüququna uyğun namizədliyin verilməsi başlayır. Seçkilərin prezident, parlament, bələdiyyə seçkiləri olmasından asılı olaraq namizədlərə müəyyən tələblər qoyulur.

Təbliğat-təşviqat dövrü – namizədlərin qeydiyyatından sonra təbliğat-təşviqat dövrü başlayır. Bu dövrdə ayrı-ayrı namizədlər, səlahiyyətli nümayəndələr, vəkillər, partiyaların başçıları və üzvləri, tərəfdaşlarına yardım edən könüllülər daha çox səs qazanmaq üçün seçicilərlə görüşlər keçirir, cəmiyyətin idarə edilməsi, sosial-siyasi, milli-mənəvi problemlərin həllilə bağlı mövqelərini açıqlamağa çalışırlar. Bu işlərdə natiqliyə, KİV, mətbuata, əyani

vasitələrə üstünlük verilir. Çağdaş dövrdə bütün seçki təbliğatını elmi əsaslarda qurmağa çalışırlar.

Səsverməyə 24 saat qalmış təbliğat-təşviqat dövrü qurtarır.

Gizli səsvermə – seçicinin iradəsini hər hansı müdaxilə olmadan bildirməsidir. Səsvermə seçicinin iradəsinin əks olunduğu an olduğundan o, başqalarının təsir və təzyiqindən azad olmalıdır.

Seçkilərin sonrakı mərhələsi nəticələrin sayılması və elanıdır. Seçki sistemi demokratiyanın dərinləşməsinə, insan və milli hüquqların qorunmasına, siyasi sistemin gəlişməsinə şərait yaratmırsa, yeniləşdirilməlidir. Bu işi görənlərin aşağıdakıları eşitməsi məsləhətdir: ***Sistemi sadələşdirin, vətəndaşların ictimai həyatda fəallığının artırılmasına üstünlük verin, ictimai həyatın butun əsas subyektlərinin legitimliyi və qarşılıqlı anlaşmasına nail olmağa çalışın, seçicilərin nüfuzunu qaldırın, formalaşmış, strateji milli proqramları olan partiyaların ziyanına seçki sistemi quraraq, millətin təşkilolma qabiliyyətini, təşkilatlanma həvəsini qırıb müxalifəti dağıtmayın.***

İstifadə olunmuş ədəbiyyat

1. Azəraycan Respublikasının Konstitusiyası. B., 2004.
2. Azərbaycan Respublikasının Seçki Məcəlləsi. B., 2005.
3. Azərbaycanın statistik göstəriciləri. B., 2005.
4. «Azərbaycan» qəzeti. 26 oktyabr 2005, № 248.
5. «Azərbaycan» qəzeti. 3 dekabr 2005, № 280.
6. «Azərbaycan» qəzeti. 14 dekabr 2005, № 289.
7. «Azərbaycan» qəzeti. 22 dekabr 2005, № 296.
8. «Azərbaycan» qəzeti. 16 may 2006, № 106.
9. «Respublika» qəzeti. 12 may 2005, № 107.
10. «Respublika» qəzeti. 7 fevral 2006. № 026.
11. Seçkiqabağı kampaniya üçün soraq kitabı. B., 2000.
12. Robert Dahl. Demokratiya haqqında. B., 2004.
13. Adam Seliqman. Vətəndaş cəmiyyəti ideyası. B., 2005.
14. Федеральный закон о выборах депутатов государственной думы федерального собрания Российской Федерации. М., 2003.
15. Конституционный закон Республики Казахстан о выборах в Республике Казахстан. Астана, 2004.
16. Лавриненко В.Н. Политолоэийа. М., 2002.
17. Мельник В.А. Современный словарь политологии. М., 2003.
18. Пугачов В.П., Соловьёв А.И. Введение в политологию. М., 2000.
19. Rəhimov A. R. Siyasi təbliğatın əsasları. B., 1999.
20. Yadigar Türkel. Politologiya (Açıqlamalarla sözlük). B., 2006.

Ядигяр ТЮРКЕЛЬ

АЗЕРБАЙДЖАНСКАЯ РЕСПУБЛИКА И ПРОБЛЕМА ДЕМОКРАТИЧЕСКИХ ВЫБОРОВ

Резюме

В статье анализируется процесс демократизации в Азербайджанской Республике, излагаются конституционно-правовые основы этих событий, отмечается особая роль системы демократических выборов при переходе от тоталитаризма к демократии. Учитывая большое значение выборов в демократизации общества, коротко, но всесторонно описывается система демократических выборов. В конце статьи дается советы тем, кто занимается усовершенствованием выборного законадательства.

Yadigar TURKEL

AZERBAİJAN REPUBLİC AND DEMOCRATİC ELECTIONS

Summary

The process of democratization in Azerbaijan is analysed, constitutional-legal foundations of these events are stated, a particular role of the system of democratic elections at transition from totalitarianism to democracy is pointed out in the article. Taking into account a great importance of the elections in democratization of a society the syistem of democratic elections is comprehensively elucidated.

As well the recommendations for improvement of elective legislation are given in the end of the article.

Эсма ЭМИР-ИЛЬЯСОВА
Научный сотрудник Института Философии
и Политико-Правовых Исследований

СОВРЕМЕННЫЕ ТЕОРИИ МЕЖДУНАРОДНОЙ ТОРГОВЛИ И ИХ ЭВОЛЮЦИЯ

Исторически очевидным является тот факт, что развитие крупной машинной индустрии обусловливает резкий рост внешнеторговых связей промышленно развитых стран, вставших на путь массового крупносерийного производства. Эта тенденция была выявлена еще классиками международной торговли в XIX в. Но она сохраняет свое значение и поныне. Используя более дешевую рабочую силу, а также сырье, материалы, топливо и емкие внешние рынки крупные транснациональные корпорации (ТНК) стали добиваться повышения нормы прибыли, а следовательно снижения издержек производства и себестоимости своей продукции. В результате производители-экспортеры из развитых стран стали получать добавочную прибыль за счет сбыта своих товаров на рынках менее развитых стран.

Для анализа внешнеэкономических связей необходимо хорошо представлять основные теории торговли, поскольку их содержание и использование помогают определить производство продукции в том или ином регионе, где компания может организовать эффективное производство, нужно ли государственное вмешательство и свободный торговый обмен между странами и т.д. и т.п.

Одним из ведущих направлений буржуазной политической экономии второй половины 30-х гг. XX в. стало кейнсианство. Это учение - важнейшая теоретическая основа государственного регулирования капиталистической экономики. Ее основателем был Дж.М.Кейнс (1883-1946 гг.)

С именем Дж.М.Кейнса [1,с.7] связан термин «смешанная экономика», отражающий содержательную сторону современной экономики состоящей из разных форм укладов собственности. Исследовав количественные функциональные зависимости капиталистического процесса воспроизводства и закономерные количественные связи совокупных народнохозяйственных величин (капитало-вложений и национального дохода, инвестиций и занятости населения, национального дохода, потребления и сбережений, совокупности количества денег в обращении, уровня цен, зарплаты, прибыли и процента и т.п.), он положил начало буржуазной теории государственного регулирования капиталистической экономики на макроуровне.

Решающей сферой воспроизводства Дж.Кейнс обжявляет рынок и в недостатке «эффективного спроса» видит главную причину кризисов капиталистической экономики. Дж.Кейнс сформировал свою концепцию как «общую теорию занятости». Центральным пунктом кейсианства является так

называемый принцип эффективности спроса, с которым сам Дж.Кейнс связывает сущность своей теории.

С принципом эффективного спроса, Дж.Кейнс связывал сущность своей теории[1,с.24]. Он исходит из того что ключевой проблемой капиталистической экономики является емкость рынка, возможности его расширения, в соответствии с увеличением предложения товаров. В своей теории он делает важный вывод о необходимости государственного регулирования экономики через обеспечение государством необходимого обжема «эффективного спроса». В недостатке «эффективного спроса», Дж.Кейнс видит и причину кризисных явлений в экономике, безработицы, недогрузки производственных мощностей, низких темпов роста производства и т.п.

В теории рынка Дж.Кейнс исходит из положений А.Смита, в которой стоимость общественного продукта отождествляется с суммой доходов всех классов общества.

Его теория «мультипликатора» служит обоснованием вульгарной концепции «происхождения дохода от инвестиций» (1929 – 1933 гг.).

Подчеркивая ограниченность рынка на предметы потребления, Дж.Кейнс ставит вопрос о возможности компенсировать ее за счет расширения рынка на средства производства, емкость которого он определяет соотношением предельной эффективности капитала и нормы процента. В трактовке же сущности заработной платы Дж.Кейнс придерживается в основном вульгарной концепции «предельной производительности».

Основная же цель теории и политики кейнсианства изображается как определение причин безработицы и поиски средств ее ликвидации, хотя на самом деле ей отводится производная от проблемы роль предпринимательской прибыли.

Одним из направлений обжяснений теории международной торговли (обмена) в этот период стала **теория факторов производства и предельной производительности,** разработанная в трудах шведских ученых Э.Хекшера и Б.Олина.

По их теории международная торговля уравнивает ценовые факторы, и тем самым подрывается теория относительных преимуществ (сравнительных) в производстве товаров. В их графиках и диаграммах приводились доказательства того, что на каждый товар идут равные количества капитала и труда, т.е. товары разных стран становятся якобы равными по капиталоемкости и трудоемкости. Тем самым они отвергали закон сравнительных издержек. Их идея выравнивания ценовых факторов производства отражала лишь одну из тенденций образования мировых цен, миграции капитала и рабочей силы. Но она не уменьшала неравномерности распределения капитала, земли и труда между странами.

Доминирующая идея в первоначальной концепции Э.Хекшера-Б.Олина основывается на том, что все страны имеют примерно одинаковую технологию, но в разной степени наделены такими факторами производства, как земля, рабочая сила, природные ресурсы и капитал.

Однако, со временем все чаще стало высказываться мнение, что теория сравнительных преимуществ на основе вышеуказанных факторов не в полной мере отражает и обжясняет структуру экспорта и импорта.

Более того эта теория не учитывает и того факта, что большая часть импортно-экспортного обмена приходится на промышленно развитые страны и ТНК, которые примерно в равной мере обладают необходимыми факторами. Стандартная теория сравнительных преимуществ не учитывает масштабов экономики отдельных стран, дифференциацию товаров по рынкам сбыта. Кроме того она предполагает жестко фиксированное наличие факторов и отрицает их перемещение из страны в страну. В реальной действительности в условиях жесткой конкуренции сплошь и рядом отмечается перелив капитала, рабочей силы, сырьевых ресурсов и других факторов.

Неоклассическая концепция Э.Хекшера–Б.Олина, негативно оценивая различные ограничения, затрудняющие межстрановые перемещения товаров и факторов производства, отвечала на поставленные экономические и политические вопросы XIX в. в условиях появления "общего рынка".

Так в соответствии с их концепцией, США отводилась роль страны, экспортирующей капитал, и, наоборот, импортирующей трудоемкие товары.

Чтобы определить правильность тезиса о том, что страна, обладающая избыточными дешевыми факторами производства экспортирует товары, требующие для производства эти факторы, проводились многочисленные исследования, начиная с середины 50-х годов XXв. Среди них можно выделить работу американского экономиста В. Леонтьева в 1947 и 1954 гг. В основу расчетов при изучении структуры внешней торговли США им были заложены два фактора производства - труд и капитал и использованы данные межотраслевого баланса "затраты - выпуск".

Исследовав содержание факторов производства в экспорте и импорте США, В.Леонтьев пришел к любопытному выводу: экспорт США является трудоинтенсивным, а товары, заменяющие импорт, - капиталоинтенсивными (8,s.363). Полученные результаты, были названы «парадоксом В.Леонтьева», и они как бы формально отвергали модель Э.Хекшера-Б.Олина.

Итоги исследований, проведенных в Японии на основе анализа импортно-экспортных операций в 1959 г. показали, что страна экспортирует капиталоемкие и импортирует трудоемкие товары. Это противоречит прогнозу, следующему из положений доктрины Э.Хекшера – Б.Олина.

Однако анализ ученых, произведенных на базе данных двухсторонней торговли США с Японией, выявил результаты, подтверждающие постулаты неоклассической концепции.

Исследования, проведенные в 1962 г. индийским ученым Р. Бхарадважем на основе анализа внешнеторговых связей Индии дали в ряде случаев противоречивые результаты.

Однако общие их итоги подтвердили обоснованность расчетов В. Леонтьева, и наличие противоречий между положениями неоклассической концепции и развитием внешнеторговых связей отдельных стран. В результате ими был избран путь "поправок" отдельных элементов неоклассической концепции при сохранении применимости ее главных положений для обжяснения общих тенденций в структуре торговли (средних затрат труда или капитала на производство единицы продукции).

В своем подавляющем большинстве поправки сводятся к увеличению числа факторных издержек, определяющих сравнительные преимущества и прежде всего таких факторов как: "технология", "квалификация рабочей силы", информационного и других. Сюда, по нашему мнению, можно добавить и генетические особенности той или иной нации.

Ведущие направления экономической мысли в области создания "открытой экономики" как кейнсианство и современный неоклассический подход, апеллирующий к идеологии "рыночного саморегулирования" так и не смогли обжяснить и решить большинства проблем внешнеторгового обмена.

Специфические факторы производства (ее модель) и внешняя торговля. При проверке теории Э.Хекшера-Б.Олина английские ученые П.Самуэльсон и Р.Джонсон разработали как «сопутствующий результат» модель, специфических факторов на базе теории Д.Рикардо, в которой экономика условно производит два товара и соответственно труд может быть использован в двух отраслях. При этом труд рассматривается как мобильный фактор, а другие так называемые – специфические факторы как стабильные, при производстве товаров в определенных отраслях. П.Р.Кругман и М. Обстфелд для иллюстрации своих доводов, абстрагируясь от других производств, рассматривают экономику страны, производящую лишь два вида продукции – промышленные товары и продовольствие.

В качестве факторов производства учитываются три основных фактора: труд (L), капитал (K) и земля (T). При этом делается предположение, что при производстве промышленных товаров используется труд и капитал (земля – не учитывается), при изготовлении пищи – труд и земля, а капитал – нет. В этом примере труд – мобильный фактор, а земля и капитал – специфические факторы, которые используются при производстве только одного вида товара». [1,с.39]

С учетом этого исчисляется обжем продукции, полученной при длинных затратах по секторам:

1. Выпуск промышленных товаров (Qm) = [Затраты капитала (K) + Затраты труда (Lm)].

2. Выпуск продовольствия (QF) = [Количество земли (T), Затраты труда в производстве пищи (LF)].

3. Для экономики в целом общее количество применяемого труда (L) выглядит так:

4. Lm + LF = L [54, с.40]

Анализ результирующих показателей в двух секторах экономики позволяет выявить производственные возможности каждого из факторов, т.е. обжем выпуска промышленных товаров (предельный продукт труда). А это своего рода исходная база, которая формирует предпосылки для экспорта товаров на внешние рынки. Другое условие, необходимое для ее реализации, - наличие разных цен на товары между экспортерами и импортерами отдельных стран. Этот принцип, стимулирует внешнюю торговлю всех фирм. Отсутствие разницы в относительных ценах на товары аналогичного свойства делает внешнюю торговлю бессмысленной.

Постепенно и им был противопоставлен несколько иной подход в качестве обжекта исследования в них уже выступала не отдельная страна а международная фирма.

На первый план выдвинулись идеи и концепции, сформулированные в трудах американских ученых С. Робока и К. Симмондса: «Бизнесмены торгуют и во все больших обжемах. Разные товары проходят таможенные барьеры отдельных стран, причем иногда в рамках единой фирмы. Потому первичное звено, принимающее решение, - это коммерческое предприятие, а не нация»- считают они[3].

В качестве доказательства правильности своих позиций они апеллировали особенностями внутрифирменной торговли, отражающимися в таких качественных характеристиках как товарная структура внешней торговли по номенклатуре. Эта торговля, как правило базируется на обмене полуфабрикатами и запасными частями, предназначенными для сборки изделий, поставляемых на мировой рынок. Тем более, анализ современных тенденций подтверждает, что именно такого рода обмен набирает темпы.

Анализируя особенности продвижения технологически сложных товаров американский ученый С.Линдер приходит к выводу о том, что эти изделия создаются, прежде всего, в ответ на потребности внутреннего рынка. И только после насыщения внутреннего рынка фирмы выходят на внешний рынок и всячески стремятся завоевать его.

В целом, теория С. Линдера была незавершенной, так как охватывала аспект поставки лишь технологически сложной продукции.

Попытка дальнейшего ее развития и создания теории «жизненного цикла товара» связана с именем Р.Вернона, Л.Уэлса и др. Лучше всего эта теория разработана у Р.Вернона, который пытался обжяснить, почему США

лидируют в производстве и экспорте такого количества новых и перспективных товаров. Спрос на эти товары, возникающий раньше, чем в других странах, стимулирует их производство за рубежом, так как национальные производители экспортируют их в другие страны на стадии развития производства. Наконец, с вывозом «Nou-hou» [досл.пер.«Знаю как»] за рубеж, аналогичные товары начинают производиться иностранными фирмами, и теперь уже эти последние экспортируют товары в США.

Понятие «жизненный цикл товара», служит началом действительно динамичной теории и показывает, как внутренний рынок влияет на внедрение и рост масштабов производства новых прогрессивных видов товаров.

Теория жизненного цикла товара, теория мировой торговли в соответствии с которой готовые изделия в своем движении проходят цикл, состоящий из четырех этапов: внедрение, рост, зрелость, упадок.

Жизненный цикл товара – это период жизни товара на рынке, от момента его внедрения в производство до вытеснения его на рынке другим, более прогрессивным товаром, то есть до его морального износа.

Представленная схематически кривая позволяет оценивать конкурентоспособность товара в динамике, что особенно актуально при выпуске новых видов изделий.

Схема
Кривая связи жизненных циклов товаров



Как справедливо отмечает Н.С.Карлова, при разработке товара необходимо выяснить, в какой стадии жизненного цикла находятся его аналоги, уже представленные на рынке. [4, с.402-416]

Чтобы достичь стабильности в процессе продаж (поддерживая или увеличивая уровень), разработку и внедрение последующего товара надо начинать задолго до того, когда предыдущий товар вступит в полосу зрелости. Не учет этих условий в конечном итоге ведет к потере конкурентоспособности товара. Основной причиной устаревания товара является сокращение под действием научно-технического прогресса его жизненного цикла. [6, с.49-50]

Хронологически теория «жизненного цикла товара» может занимать время от нескольких лет до десятилетий. Эта теория, обжясняющая закономерности развития внешней торговли для целого ряда товаров имела достаточно широкое распространение до середины XX в.

1931-ci ildə əksəriyyəti yunan olan kiprlilər silahlı çıxışlar edərək Yunanıstana birləşməyi tələb etdilər. Qanunverici şura buraxıldı. Həmin ilin oktyabr ayında İngiltərənin bu hərəkətinə qarşı türklər, yerli rumlarla birlikdə üsyan qaldırdılar. 1943-cü ildə İngiltərə bələdiyyə seçkiləri keçirdi və söz verdi ki, II Dünya müharibəsindən sonra adaya özünüidarə hüququ veriləcəkdir. Müharibədən sonra kiprli yunanlar öz müqəddəratlarını təyin etmək və Yunanıstana birləşdirmək barədə siyasi təbliğatları canlandırdılar. Arxiyepiskop Makeriosun rəhbərliyi altında kiprli yunanlar üsyan etdi. Üsyanın bir nəticə verməyəcəyini görən Makarios 1950-ci il yanvarın 15-də kilsədə saxta seçki keçirdi. Kiprin Yunanıstana birləşdirilməsinin lehinə 90 faiz səs topladısa da Türkiyə və İngiltərə bu saxta seçkini tanımadı. 1950-ci ildə Kipr problemini həll etmək üçün Türkiyə və Yunanıstan razılaşsalar da, bu dostluq NATO-nun Kipr probleminə müdaxiləsi ilə pozuldu. Türkiyə ilə Yunanıstan arasında dost münasibətlər ABŞ-ı, Böyük Britaniyanı narahat etdi. Böyük Britaniya yunan kiprlilərin tələblərini rədd edəndə Yunanıstan hökuməti bu məsələni 1954-cü ilin dekabrında BMT-nin müzakirəsinə verdi. Qarşılıqlı olaraq Türkiyə də belə bir haqqın Kipr türklərinə verilməsini BMT-dən rəsmən tələb etdi. Yunanıstan BMT-dən rədd cavabı alan kimi Makariosun təklifinə uyaraq məsələni silah gücünə həll etmək məqsədilə EOKA (Kipr Mübarizlərinin Şimal Təşkilatı) adlı terror təşkilatı yaratdı. Bu təşkilatın mübarizəsi 1955-ci ilin aprelində ingilislərə qarşı terror aktları ilə müşahidə olundu. Həmin ilin avqustunda Böyük Britaniya Yunanıstan və Türkiyənin iştirakı ilə Kiprdə vəziyyəti müzakirə etmək üçün konfrans təşkil etdi. Konfransda heç bir nəticə əldə edilmədi, vəziyyət mürəkkəbləşdi. EOKA terror təşkilatının 1955-1958-ci illərdə fəaliyyəti nəticəsində yüzlərlə türk qətlə yetirildi, 6 min türk qaçqın vəziyyətinə düşdü. Yüzlərlə kiprli həbsxanaya, cəza düşərgələrinə göndərildi. Böyük Britaniya, Yunanıstan və Türkiyə (hər üçü NATO-ya daxil idi) arasında mübahisələr ciddiləşdi. EOKA-nın belə vəhşiliklərini görən Kipr türkləri özlərini, mülkiyyətlərini müdafiə etmək üçün 1958-ci il avqustun 1-də Türk Müqavimət Təşkilatını yaratdılar. Böyük Britaniya Kiprdə vəziyyəti tənzimləmək üçün Kipr üzərində Britaniya mandatını

saxlamaqla yunan muxtariyyatını və türk icması yaratmaq planını irəli sürdü. Türkiyə bu planı qəbul etdi, lakin Yunanıstan və arxiyepiskop Makarios bu planı rədd etdi. Yunanlar adanın ikiyə bölünməsi təhlükəsindən qorxdular. 1959-cu il fevralın 11-də Türkiyə və Yunanıstan arasında Züric və London sazişinə əsasən, Kipr Respublikasının əsas strukturu müəyyənləşdirildi. Fevralın 19-da Yunanıstan, Türkiyə, Böyük Britaniya arasında arxiyepiskop Makariosun, prezident köməkçisi doktor Fazil Küçüyün və yunan türk icmaları nümayəndələrinin iştirakı ilə London sazişi imzalandı. Bu saziş Kiprə müstəqillik verdi. Böyük Britaniya Kiprdə iki hərbi baza yerləşdirdi. Böyük Britaniya, Yunanıstan və Türkiyə yeni dövlətin müstəqilliyinə təminat verirdilər. 1960-cı il aprelin 16-da Kiprin müstəqilliyi elan edildi[5] və həmin il o, BMT-yə qəbul edildi. 1959-cu il sazişi Kipr Respublikasının konstitutsiya strukturunu müəyyən etdi. Konstitutsiya böhranı yeni prezident seçkilərində konstitutsiyaya əlavə etməyi tələb edən Makariosu seçməyə imkan yaratdı. Türkiyə və kiprli türklərin rəhbərliyi tərəfindən bu təklif rədd edildi. Yeni respublikanın elan etdiyi ilk rəsmi sənəd Nazirlər Şurasının yaradılması haqqında fərman oldu. Bu fərmanda nazir yerlərinin əksəriyyəti kiprli yunanlar və üç nazir vəzifəsi kiprli türklərə verildi. Kiprdə iki palatalı parlament yaradıldı. Parlament nümayəndələr palatası və iki kommuna palatasından - milli palatadan ibarət idi. Nümayəndələr palatasında 35 yer kiprli yunanlara, 15 yer isə kiprli türklərə verilmişdi. Bu bərabərlik uzun sürmədi. Makarios kiprli türklərin bir xalq yox, bir azlıq kimi tanınması məsələsini irəli sürdü, bu təkliflərə tərəfdar toplamaq üçün Moskvaya, Avropa dövlətlərinə səfər etdi.[6] 1963-cü ilin dekabrından Kiprin idarəsində böhran yarandı. Kiprli türklərin naziri vitse-prezident doktor Fazil Küçük, nümayəndəli palata üzvləri məmurları arasında münaqişə başladı. Kiprli yunanlar Kiprin türk hissəsi olan Nikosiyanı aldılar. Onlar faktiki olaraq 10 il ərzində Kipr hökumətini idarə etdi. Vəziyyətin ağır olduğunu nəzərə alan BMT 1964-cü il martın 4-də Kiprə sülhməramlı qüvvə göndərmək barədə qərar qəbul etdi. Adaya BMT qüvvələrinin gəlməsi ilə Kiprdə nümayişlər keçirildi. Nümayişçilər Kiprdən BMT qoşunlarının çıxarılmasını tələb etdilər. Arxiyepiskop Makarios silah gücünə hökuməti ələ aldı və kiprli türklərin hüquqlarını tapdayaraq qeyri-qanuni Kipr Rum hökuməti yaratdı. Böyük Britaniya Makariosun siyasətinə etiraz edərək bildirdi ki, «Kiprə xüsusi ordu lazım deyil. Kiprdə yerləşən BMT qoşunlarının üçdə birindən çoxunu təşkil edən ingilis əsgərləri onu lazımınca qoruyur». Bu zaman Makarios SSRİ ilə aviasiya müqaviləsi bağladı[7], ondan silah və təyyarələr aldı, öz tabeliyində olan hərbi qüvvələrə 5 min nəfərlik «Xüsusi Polis Dəstəsi» əlavə edərək kiprli türklərə amansız divan tutdu.[8] Makariosun cinayətkar fəaliyyəti nəticəsində 92 kiprli türk öldürülmüş, 475 nəfər yaralanmış, əksəriyyət itkin düşmüş, 30 min nəfər qaçqın vəziyyətinə salınmış, 103 türk kəndi yerlə yeksan edilmişdir. Bu siyasətin əsas məqsədi etnik təmizləmə aparmaqla, türksüz Kipr yunan dövləti yaratmaq idi. Bu işdə Kiprdə olan yunan terrorçuları Yunanıstana arxalanırdılar. Makarios Yunanıstandan yunan əsgərlərini geri çəkməsini tələb

etdiyi üçün Yunanıstanla Makarios arasında ziddiyyətlər yarandı. 1974-cü il iyunun 15-də Yunanıstanda hakimiyyətə gələn kiprli yunanların Milli Qvardiyası hərbi diktatorun əmri ilə Makarios hakimiyyətini devirdi. Makarios İngiltərəyə qaçdı. Türkiyə dövlət çevrilişinin Kipri Yunanıstana birləşdirməsinə imkan yaradacağından ehtiyat edərək Kiprə çoxminli ekspedisiya göndərdi. Yunan zabitləri Kiprdə hakimiyyətə «insan qəssabı kimi» ad çıxaran Nikos Samponu gətirdilər.[9] N.Sampon terror dəstənin köməyi ilə Kipri işğal edərək, böyük binaların üzərində yunan bayrağı asdırdı. 1974-cü il iyulun 19-da BMT TŞ-da Makarios bu barədə belə demişdir: «Yunanlar Kipri işğal etdilər. Adada çarpışmalar qanlı şəkildə davam etməkdədir. Böyük binalara yunan bayrağı asılmışdır. Küçələrdə tanklar dolaşmaqdadır. Bu işğal Kiprin müstəqilliyini, ərazi bütövlüyünü əlindən almışdır. Bu gün türk azlığı da təhlükə içindədir». Göründüyü kimi, Makarios öz nitqində «türk xalqı» deyil, «türk azlığı» ifadəsi işlətmişdir.

1974-cü il iyulun 20-də Kiprin Yunanıstana birləşdirilməsinin qarşısını almaq üçün Türkiyə Kiprə ordu yeritməyə məcbur oldu. Kiprli türkləri iki zonadan ibarət olan Kipr federasiyasının tərkibində muxtariyyat tələb edirdilər. Bu məsələyə dair Türkiyə, Yunanıstan, İngiltərə dövlətləri arasında Cenevrədə danışıqlar oldu. Onlar arasında protokolun imzalanması, Kiprə yeni status verilməsi üçün mühüm addım oldu. Avqustda Türkiyə yeni əməliyyatlar keçirərək Kiprin şimal rayonlarını (adanın 37%-ni) tutdu. 200 minə yaxın kiprli yunan Kiprin cənubuna, 40 minə yaxın kiprli türk adanın şimalına qaçdı. Hər iki tərəfdən öldürülənlər oldu.

1974-cü ilin dekabrında Makarios qayıdaraq hakimiyyəti ələ keçirdi.

1975-ci il fevralın 13-də Kipr Türk sülh hərəkatı nəticəsində müstəqil Kipr Federativ Dövləti elan edildi, prezidenti Rauf Denktaş oldu. 1977-ci ilin avqustunda Makariosun ölümündən sonra 1978-ci ildə Spiros Kiprian prezident seçildi. Kiprli yunanlar, xüsusən də qadınlar şimali Kiprin qaytarılmasını tələb edən nümayişlər keçirdilər. 1983-cü il mayın 13-də BMT Kipr Federativ Dövlətini ləğv etdi. Bu qərar kiprli türklərin səbr kasasını doldurdu. Kiprli türklər 1960-cı ildə öz müqəddəratlarını təyin etmək barədə qərarın qəbul edilməsindən istifadə etdilər. 1983-cü il noyabrın 15-də Kipr Türk Federativ Məclisinin yekdil səsverməsi ilə R.Denktaş Şimali Kipr Türk Respublikası yaradılmasını elan etdi. Həmin gün ŞKTR Türkiyə tərəfindən tanıdıldı. BMT TŞ bu addımı tənqid edərək, türk silahlı qüvvələrinin adadan çıxarılmasını tələb etdi və adada BMT-nin sülh məramlı qüvvələrini yerləşdirmək barədə qərar qəbul etdi. 1988-ci il fevral seçkilərində sosialist və kommunistlərin dəstəyi ilə Georgis Vasili prezident seçildi. 1989-cu ilin mayında Nikosiyada «yaşıl xətt» yaradılaraq 2,3 min BMT sülhməramlı qüvvələri yerləşdirildi. 1990-cı il prezident seçkilərində R.Denktaş prezident seçildi. 90-cı illərdə Kipr probleminin həlli istiqamətlərində BMT bəzi təşəbbüslər irəli sürdü. 1992-ci ildə BMT baş katibi B.B. Qali 1984-cü il tələblərinə uyğun olaraq, Kiprdə yunanların prezidenti və türklərin vitse-prezidenti olmaqla federativ respublika yaradılmasını təklif etdi. Bunun

müqabilində ŞKTR hər iki zonanın suverenliyini tələb etdi. 1992-1994-cü illərdə BMT-nin himayəsi altında bir sıra iclaslar keçirilsə də, müvəffəqiyyət əldə edilmədi.[10] 1996-cı il mayın 31-də BMT Kiprdə sülhməramlı qüvvələr yerləşdirdi. Adanın hər iki tərəfini birləşdirmək məqsədilə bir çox planlar irəli sürülmüş, ancaq bu planlar baş tutmamışdır. Kipr probleminin həlli BMT səviyyəsində, eyni hüquqlu tərəflər kimi qəbul edilməklə, beynəlxalq hüquq normalarına müvafiq həll edilməlidir. 2002-ci il 11 noyabr tarixli müzakirəyə görə ümumi Kipr dövlətinin yaradılması nəzərdə tutulurdu.[11] Bu dövlət Kipr türklərinin, Kipr yunanlarının müstəqil parlamenti, vətəndaşlıq hüquqlarının qorunması, müstəqil dövlətçilik birliyinə əsaslanmalıdır. Kipr probleminin həlli üçün beynəlxalq təşkilatlar, o cümlədən, BMT, Avropa Şurası müəyyən təşəbbüslər irəli sürsə də, problem hələ də tam həllini tapmamış, praktiki olaraq problemin həllində real addımlar atılmamışdır.

Kipr probleminin həllində Avropa Şurasının rolu ola bilər. Belə ki, Kiprin AŞ-na daxil edilməsi üçün problemin nizama salınması tələb edilir. Kipr problemi Kiprdə olan hər iki icmanın, eyni zamanda hadisələrin gedişatında təsir göstərən Yunanıstan və Türkiyənin iştirakı, beynəlxalq təşkilatların vasitəçiliyi ilə danışıqlar yolu ilə həll edilməlidir.

Yuxarıda deyilənləri ümumiləşdirərək belə nəticəyə gəlirik ki, Kipr probleminin yaranmasının tarixi kökləri aşağıdakılardır:

- Böyük Britaniyanın hakimiyyəti illərində Kiprdə yaşayan türklərin hüquqlarının məhdudlaşdırılması, kiprli yunan-türk qarşıdurması;
- vəziyyətdən sui-istifadə edən Yunanıstanın Kipri özünə enozisi (ilhaqı) məsələsini ortaya atması;
- Kipr probleminin həllində ABŞ, Böyük Britaniyanın SSRİ-nin maraqlarının olmaması;
- SSRİ-dən alınan silahlar və Makariosun «Xüsusi polis dəstəsi»nin kiprli türklərə divan tutması;
- Kiprdə yunan terror təşkilatı olan Kipr Mübarizələrinin Şimal Təşkilatının (EOKA) yaradılması nəticəsində kiprli türklərin kütləvi qırğınına yol verilməsi;
- Züric-London sazişinə məhəl qoymayaraq, Makariosun türkləri xalq kimi deyil, azlıq kimi tanınması tələbi;
- ən başlıcası, Yunanıstanın bu işlərə qarışaraq öz məqsədini – Kiprin Yunanıstana enozisini həyata keçirmək cəhdi;
- nəhayət, vəziyyətin mürəkkəbləşdiyini, öz soydaşlarının Kiprdə kütləvi surətdə qırıldığını görən Türkiyənin Kiprə ordu yeritməsi, öz xalqını müdafiə etməsi.

Kipr probleminin həlli üçün beynəlxalq təşkilatlar, o cümlədən, BMT, Avropa Şurası təşəbbüslər irəli sürsə də, problem hələ də tam həllini tapmamış, praktiki olaraq onun həlli istiqamətində real addımlar atılmamışdır. Zənnimizcə, problemin düzgün həllini tapmaq üçün beynəlxalq təşkilatlar bu istiqamətdə qəti addım ataraq, adada yaşayan insanların təhlükəsizliyini və əminamanlığını təmin edən qərarlar qəbul etməlidir.

İstifadə olunmuş ədəbiyyat

1. Kipr. http: /militera lib ru /common / show / html.
2. История Кипра. http /www keepr ru / history / htm.
3. Заяц Д.В. Турецкая Республика Северного Кипра. http:qeoseptember php
4. http / allturkey narod ru / historymlado htm.
5. «Kommunist», 17 avqust, 1960.
6. Kasatkin D. İmperializm Kiprdə ara qarışdırır. Azərbaycan gəncləri, 10 yanvar 1964-cü il.
7. «Kommunist», 20 sentyabr 1964.
8. Melek M. Firat 1060-71 arası Türk Diş politikası və Kibris sorunu. Siyasal kitab evi, 1997, s.138-139.
9. Yenə orada.
10. SİTA-nın məlumatı. «Kommunist», 31 yanvar, 1994.
11. Бредихин О. Кипрский конфликт в системе международных отношений, «Мировая экономика и международные отношения», 2003. № 4, с.954-962.

Алмаз ГАСАНОВА

ИСТОРИЧЕСКИЕ КОРНИ КИПРСКОЙ ПРОБЛЕМЫ

Резюме

Статья посвящена исследованию истории кипрской проблемы. Автор показывает, что межобщинный конфликт греков и турок-киприотов остается очагом напряженности уже около полвека. Внутрикипрские межобщинные отношения характеризуются жестким противостоянием основных интересов греков и турок-киприотов. В частности, в 1960-1974 гг. отношения между Кипром и Грецией были сложными, особенно обострившись с приходом к власти в Афинах военной хунты.

Основным интересом греков-киприотов было присоединение Кипра к Греции. Для кипрской общины основным было обеспечение своей безопасности и недопущение присоединения. В заключение автор анализирует роль международных организаций в решении Кипрской проблемы и выдвигает предложения, касающиеся данной проблемы.

Almaz HASANOVA

THE ROOTS OF HISTORY OF CYPRIAN PROBLEMS

Summary

The article is devoted to a study of history of Cyprian problem. The author shows that inter-communal conflict of the Greeks and the Turks-Cypriots has been remained the seat of tensences about half a century.

Inter-communal relations within Cyprus are characterized by severe opposition of the basic interests of the Greeks and Turks-Cypriots.

In particular, in 1960-1974 the relations of Cyprus and Greece were intricate, specifically became sharp with accession of military dictatorship to power in Athens. The basic interest of the Greeks-Cypriots was annexation to Greece. Ensuring its security and non-admission of annexation was principal for Cyprian problem community. The author analyses the role of international organizations in solving Cyprian problem and puts forward the proposals concerning this problem.

Tahir MƏMMƏDOV
Azərbaycan Respublikası Prezidentinin yanında
Dövlət İdarəçilik Akademiyasının dissertantı

HEYDƏR ƏLİYEVİN DÖVLƏTÇİLİK FƏALİYYƏTİ VƏ AZƏRBAYCANDA SİYASİ MƏTBUATIN İNKİŞAFI

Bütün dövrlərdə ictimai-siyasi, formasiyaların bir-birini əvəzi etdiyini zamanlarda belə, tarixdə şəxsiyyətin rolu haqqında uzun-uzadı söz-söhbətlər olub, müxtəlif rəy və fikirlər yazılıb. Burjuaziya ideoloqları da, marksistlər də çox zaman bir-birini inkar və ittiham etmişlər. Kommunistlər tarixi zəruriyyəti qəbul etsələr də, tarixdə ayrı-ayrı şəxsiyyətlərin, rəhbər adamların cəmiyyətdə əhəmiyyətini bəzən qəbul etməmişlər. Şəxsiyyətin böyük rolu isə bütün zamanlarda danılmamışdır.

Azərbaycan xalqının görkəmli yetirməsi olan Heydər Əliyev danılmaz şəxsiyyətlər düzümündə ən ön sıralarda özünə layiqli yer tutmuşdur.

1990-cı il 20 Yanvar faciəsi ilə əlaqədar Azərbaycanın Moskvadakı daimi nümayəndəliyində keçirilmiş mətbuat konfransındakı çıxışından sonra bütün dünyanın demokratik mətbuatı bu çıxışı şərh etməyə başladılar. Ona görə ki, Heydər Əliyevin bu çıxışı bütöv bir xalqın, millətin tarixi faciəsi ilə bağlı idi. 70 il bir ittifaqda yaşayıb çalışan beynəlminəlçik ideyalarından dəm vuran bir imperiyanın öz müttəfiqinə, dinc əhalisinə odlu silahlardan istifadə etməsini ittiham edən bu cəsarətli çıxışı təkcə qərbə yox, okeanın o tayında – ABŞ-da öz obyektiv əks-sədasını tapmışdır.

«Vaşinqton postu» qəzetinin müxbiri Heydər Əliyevin həmin çıxışını şərh edərək yazırdı:

«Heydər Əliyev qədd-qamətli qıvraq və yaraşıqlıdır. Bu günsə o, arıqlamış və sarsılmışdır. Lakin heç nə onun mübarizəlik əzmini qırmamışdır. Bu mənada onun mərdliyi mərhum Andrey Saxarovun mərdliyinə bərabərdir» (Bakı «Vətən səsi» qəzeti, 20 iyun 1990).

Tarix artıq çoxdan sübut etmişdir ki, həqiqətən də Böyük şəxsiyyət yalnız o adamlar adlana bilər ki, o, bütün həyatı ilə, bütün fəaliyyəti və əməlləri ilə öz xalqının, öz Vətəninin inkişafına, istiqlaliyyətinə ardıcıl və dönmədən xidmət etsin.

- «Şəxsiyyətlərin miqyasları bir tərəfdən onun öz zamanında gördüyü işlərin, yaratdıqlarının, etdiklərinin, dediklərinin həyata keçirdiklərinin əhəmiyyəti ilə ölçülürsə, digər tərəfdən bu fəaliyyətin tarixdə əks-sədası ilə, uzun illər, dövrlər müddətində hadisələrin gedişatına yönlətməsi ilə müəyyənləşir. Hər iki meyarla Heydər Əliyev tarixi şəxsiyyətdir» ***(Anar. Şəxsiyyətin miqyası «H.Əliyev işığı – İpək yolu»*** «Qismət» nəşriyyatı, 2001. Redaktoru: Hidayət, tərtibçi redaktoru: T.Məmmədov).

Heydər Əliyev şəxsiyyətinin miqyası əsasən Azərbaycanın və Azərbaycan xalqının tarixi inkişafı, ictimai-siyasi mərhələlərdəki tərəqqisi, habelə iqtisadi inkişafın geniş üfüqləri ilə nəhayətsizləşmişdir.

Lakin bütün bunlar haqqında elə bil hamı çoz az şey bilirdi, bu yüksəlişlərin bir qismi sovet dövrünə təsadüf etdiyi üçün, adi iş-güc vəzifə borcu kimi qələmə verilirdi.

1990-cı illərdə bu Böyük şəxsiyyətin ictimai-siyasi və dövlətçilik başqa yeni (əslində yeni deyildi, sadəcə kommunist rejimi onları görməyə imkan vermirdi), böyük çalarları artıq özünü biruzə verirdi.

Bütün hədələrə təzyiqlərə baxmayaraq, Heydər Əliyev Vətənin ağır günlərində xalqı ilə birlikdə olmaq, onun dərdi-sərinə şərik olmaq üçün Azərbaycana can atırdı:

«Mən Moskvada yaşayada bilmədim və buraya gəldim ki, öz xalqımın, millətimin içəində olum və onunla bir yerdə olum. Belə hallarda bəziləri öz Vətənini tərk edir ki, gedib rahat yaşasın. O vaxt Moskvada mənim yaşamağım üçün çətinliklər də var idi. Ancaq hər halda mən Vətəndən uzaqda idim, ola bilərdi, Vətənin problemləri də mənim qəlbimdə olaydı, amma mən ona cavadeh deyildim. Lakin mən gəldim. Kimsə bunun qarşısını almaq istədi, kimsə buna mane oldu və s.» («Müstəqilliyimiz əbədidir», «Azərnəşr» 1997, 12 cild, səh. 37. Buraxılışa məsul: Fəlsəfə elmləri doktoru Ramiz Mehdiyev).

Naxçıvan Muxtar Respublikası da 1990-cı illərdə ağır günlərini yaşayırdı. Heydər Əliyev orada bacısının evində yaşayır, xalqla daim təmasda olurdu, hər gün mətbuat nümayəndələrini qəbul edirdi.

Naxçıvanı Ermənistan tərəfdən olan sərhədləri aramsız atəşə tutulur, İliç rayonunun Künlük kəndinə ermənilər tərəfindən tez-tez silahlı basqınlar edilirdi. Belə günlərdə 1990-cı il avqustun 8-də «Kommunist» qəzetində belə bir xəbər dərc olunmuşdu: ***«Ordubad rayonundakı Əylis kəndinin seçiciləri öz yığıncağında ittifaq əhəmiyyətli fərdi pensiyaçı Heydər Əlirza oğlu Əliyevi 349 nömrəli Vənənd kənd seçki da irəsindən Azərbaycan SSR xalq deputatlığına namizəd göstərmişlər».***

Böyük siyasətçi Heydər Əliyev təzədən böyük siyasətə qayıdırdı, xalqın seçimi ilə, xalqın xahişi ilə…

1990-cı il iyulun 25-də keçmiş SSRİ-nin ən birinci qəzetlərdən sayılan «İzvestiya» bir xəbər dərc etmişdi:

«İyulun 22-də axşam Naxçıvanda Lenin meydanında Heydər Əliyevin əhali ilə görüşü olmuşdur». Görüşdə 30 minədək adam iştirak etmişdir. Təfsilat hələlik məlum deyldir» («İzvestiya» 25 iyul 1990-cı il, səh.4). Moskva qəzetləri isə Heydər Əliyevə olan qərəzli mövqeyindən hələ əl çəkmirdi. İkibaşlı xəbərlər çap edirdi: «Təfsilat hələlik məlum deyil».

Təfsilat isə artıq çoxdan məlum idi. O, xalqımızı ayıq-sayıq olmağa, yəni ittifaq müqaviləsinə girməməyə, dağılmaqda olan sovet rejiminə «əlvida» deməyə, Qorbaçovun dağıdıcı «perestroyka»sına uymamağa çağırırdı:

«İndi zaman dəyişib. Respublikamızın vəziyyəti tamam dəyişib. Respublikada indi siyasi və iqtisadi böhran dövrü keçirir. İndi ortaya yeni məsələlər gəlib çıxıb. Bu problemlər mən fəaliyyət göstərdiyim dövrdə yox idi. Ona görə bunların düzgün həll olunması, Azərbaycan xalqının rifah halının yaxşılaşdırılması, Azərbaycanda siyasi psixoloji, mənəvi mühitin düzəlməsi və ən

əsası Azərbaycan xalqının ərazi bütövlüyünün təmin olunması, suverenliyinin, müstəqilliyinin təmin olunması həm siyasi, həm iqtisadi müstəqilliyin təmin olunması məsələləri indi meydana çıxıb. Mən də çox arzu edirəm ki, bu məsələlər həll edilsin və bu işdə mən öz imkanlarımı, mümkünatlarımı əsirgəməyəcəyəm» («Respublika» qəzeti, 25 avqust 1990-cı il).

Azərbaycan Respublikasının ***ərazi bütövlüyü, suverenliyinin, müstəqilliyi*** – bu əsas üçlüyün uğrunda mübarizəyə başlayan, məhz buna görə də bütün xalqımızı bu məqsəd uğrunda birləşməyə çağıran Heydər Əliyev vədinə bir damla da xilaf çıxmayaraq bu yolda addım-addım gələrək yeni, müstəqil Azərbaycanın banisi və qurucusu olmaq kimi çox şərəfli və tarixi missiyanı başlayırdı.

Lakin hələ Azərbaycan öz müstəqilliyinə qovuşmamışdı, Naxçıvan ağır blokada şəraitində yaşayırdı. «1990-cı il sentyabrın 30-da Azərbaycan SSR Xalq deputatların və yerli xalq deputatları sovetləri deputatlarının seçkiləri keçirilmişdir. Azərbaycan SSR Ali Sovetinin qərarına əsasən Şuşa şəhəri və Şuşa rayonu istisna olmaqla DQMV-də seçkilər keçirilməmişdir. Azərbaycan SSR xalq deputatları seçkiləri üzrə xeyli seçki dairəsində seçkilər baş tutmamış, təkrar seçkilər keçirilməsi qərara alınmışdır.

«Seçkilərin ***birinci turunda*** isə fərdi pensiyaçı Heydər Əlirza oğlu Əliyev Babək rayonundakı 340 nömrəli Nehrəm seçki dairəsindən Azərbaycan SSR-in Xalq deputatı və Naxçıvan MSSR xalq deputatı seçilmişdir» («Səhər» qəzeti 1 oktyabr 1990-cı il).

Azərbaycan bütün çətinliklərə baxmayaraq addım-addım öz müstəqilliyinə yaxınlaşdı. «1990-cı ilin noyabr ayının 29-da Azərbaycan SSR prezidenti Azərbaycan SSR-in adını dəyişdirib Azərbaycan Respublikası adlandırılmasını və üçrəngli aypara-səkkizguşəli ulduz təsviri olan bayrağını Azərbaycanın dövlət bayrağı elan edilməsi barədə fərman verilmişdir. Ali Sovetə tövsiyyə olunmuşdur ki, respublikanın adının və bayrağının dəyişdirilməsi haqda Konstitusiyada müvafiq dəyişikliklər etsin. Həmin gün prezidentin fərmanı ilə Azərbaycan Milli İstiqlal günü – 28 May günü istirahət gün elan edilmişdir» («Kommunist» qəzeti, 30 noyabr 1990).

Azərbaycan Respublikası Ali Sovetinin birinci sesiyasında Azərbaycan Respublikasının xalq deputatı Heydər Əlirza oğlu Əliyev 1991-ci il fevralın 5-də tam səlahiyyətli deputat kimi iştirak etmişdir.

Respublikada bir canlanma var idi. Yüz minlərlə insanlar Heydər Əliyevin sesiyanın işindəki iştirakını və çıxışını gözləyirdilər.

Nəhayət, ikinci mikrafonda Heydər Əliyevin doğma, qətiyyətli səsi eşidildi:

Çıxışın mətni 1991-ci il fevların 9-unda «Həyat», sonra isə tam şəkildə «Aydınlıq» (1991-ci il 15-21 fevral), «Vətən səsi» qəzetinin, (27 fevral 1991-ci il) tarixli nömrələrində dərc edildi:

- ***«Mənim Azərbaycana qayıtmağım, xalq deputatı seçilməyim barədə cürbəcür şayiələr yayılıb. Bunlara cavab olaraq bəyan edirəm ki, doğma Vətən torpağına heç də yenidən hakimiyyətə qalxmaq, kimdənsə qisas olmaq üçün yox,***

ancaq və ancaq respublikanın bu ağır və çətin dövründə xalqın dərdinə şərik olmağa, vətəndaşlıq borcunu yerinə yetirməyə, azadlıq uğrunda mübarizəyə qoşulmağa gəlmişəm.

Ölkə, Sovet cəmiyyəti, dövlət üsul idarəsi artıq bir neçə ildir ki, siyasi və iqtisadi böhran içindədir. Millətlərarası münasibətlər gərginləşib. Sovet İttifaqı dağılmaqdalır!»

Bu cəsarətli və proqram xarakterli çıxış həm də bir xəbərdarlıq idi! Gərək elə o andan Azərbaycan Respublikası Ali Sovetinin bütün deputatları əl-ələ verib, birləşib Heydər Əliyevin ətrafına yığılaraq ölkənin xilas yolunu düşünəydi, əməli işə keçəydilər. Əfsus ki, belə olmadı. Onların əksəriyyəti Qorbaçov və Mütəllibov yolunu tutaraq çürüməkdə olan mərkəzin xəttini Azərbaycanda kor-koranə tətbiq edir, onların bütün göstərişlərini həyata keçirməyə cəhd edirdilər.

Artıq üç il idi ki, Azərbaycan daim Ermənistan tərəfindən təcavüzə məruz qalır, respublikamızın ərazi bütövlüyü pozulurdu. Hətta Naxçıvandakı Kərki kəndi tamami ilə işğal olunmuşdu!

Xalq deputatı Heydər Əliyev həmin çıxışında daha sonra dedi:

«Biz 1922-ci ildən SSRİ-nin təkribindəyik. SSRİ tərkibində olan heç bir müttəfiq respublikanın başına belə bəla gəlməyib. Bu xırda məsələ deyil, bunu geniş müzakirə etmək lazımdır, dil tapmaq lazımdır, yol tapmaq lazımdır. Dağlıq Qarabağda vəziyyətin normallaşdırılması – məsələsinin dar çərçivədə qoyulması deməkdir. Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması – məsələ belə qoyulmalıdır»

Hər mətləb, hər məqsəd, hər təklif aydın deyildimi?! Həyəcan təbili çalmağın vaxtı idi. Ayağa qalxmaq, Vətəni qorumaq lazım idi. Hələ nə Dağlıq Qarabağ, nə də onun ətrafında olan rayonların heç biri işğal olunmamışdı, hələ gec deyildi, amma… yenə canlarında sovet ideologiyasının qorxusu yaşayan «quzu» deputatlar hərəkətə gəlmədi, əksinə Heydər Əliyevə hücum etməkdən belə çəkmədilər. O vaxtı Ali Sovetin oraqnı olan «Həyat» qəzetinin fevralın 9,12 və 13-də (1991-ci il) yığcam stenoqrafik hesabatı göstərirdi ki, əslində DQMV-də vəziyyət bir kənarda qalmış, natiqlərin böyük əksəriyyəti respublikanın keçmiş rəhbəri, indi isə xalq deputatı olan Heydər Əliyevlə «haqq-hesab çəkməklə» məşğul olmuşlar.

«Həyat» qəzetinin (1991-ci il, 14-15 fevral) saylarında Heydər Əliyevə qarşı təşkil olunmuş «parlament mühakməsi» isə davam edirdi.

Bir gün sonra xalq deputatı, şair B.Vahabzadənin çıxışı isə ümumi kontekstlə kəskin ziddiyyət təşkil etmişdir: ***«Biz son 70 illik tariximizdə həmişə vəzifə alanın yaltağı, vəzifədən gedənin isə qənimi olmuşuq. Əliyev yoldaşın dünənki çıxışına televizorda mən diqqətlə qulaq asdım. O, bizi Qarabağ məsələsinin dərin həllinə çağırdı. Bu mühüm məsələni kənara qoyub, ondan keçmiş hayıfımızı almağa çalışırıq. Biz vaxtilə kiçiklik etdiyimz adama indi böyüklük eləmək istəyirik. Bəs hanı ağsaqqala hörmət ənənəsi?!»*** («Həyat» qəzeti, 12 fevral 1991-ci il, səh.5).

Heydər Əliyevə olan xalq məhəbbəti bütün qadağalara baxmayaraq, o vaxtı bəzi mətbuat səhifələrində də üzə çıxırdı. Xalq bu haqsızlığa dözmürdü, bir çox ziyalılar yığıncaqlar keçirir, öz sözlərini deyirdilər. Amma həmin parlamentdə susan deputatlar isə daha ağır, çətin vəziyyətə düşmüş sayılırdılar. Aristoteldən soruşurlar: İnsan üçün hər şeydən çətin nədir? O, cavab verib: «Susmaq!»

Görünür belə «çətinliyə» düşən xalq deputatlarının əksəriyyəti ən yüksək tribunadan Azərbaycan xalqının taleyüklü ən böyük probleminin həllinə – Dağlıq Qarabağ məsələsində Heydər Əliyevin dərin məzmunlu və vətəndaşlıq qeyrəti ilə dolu bir çıxışına səs vermədilər. Etiraz edən, yaxud liberalcasına susan deputatların əksəriyyəti sonra görəsən anladılar ki, Vətən və xalq qarşısında günahkar olmuşlar?!

1991-ci il martın 7-də isə sesiyada, martın 17-də ittifaq referendumunda respublikanın iştirakı məsələsi müzakirə olunmuşdur. Həmin məsələ üzrə qərar layihəsinə səsvermədə 303 deputat iştirak etmişdir. 254 nəfər leyhinə, 43 nəfər əleyhinə səs vermiş, 6 nəfər isə bitərəf qalmışdır. Deputat Heydər Əlizra oğlu Əliyev də idtifaq referendumunda respublikamızın iştirakının əleyhinə çıxmışdır («Həyat» qəzeti, 8 mart 1991-ci il).

Deputat H.Ə.Əliyevin Azərbaycan Respublikası Ali Sovetinin sesiyasında çıxışı böyük bir tarixi hadisəyə uzaqgörən və mühüm ictimai-siyasi əhəmiyyət kəsb edən bir sərrast münasibət olmuşdur. Həmin çıxış bütünlüklə ilk dəfə «Səs» qəzetində dərc olunmuşdur:

«Mən yeni ittifaqa daxil olmağın və bunun üçün referendum keçirilməsinin heç bir şərt qoyulmadan əleyhinəyəm. Bu, bütün seçicilərimin, deputatı olduğum Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatlarının yekdil fikridir. Azərbaycanın tam istiqlaliyyət, azadlıq, iqtisadi və siyasi müstəqillik yolu ilə getməsinin tərəfdarıyam. Azərbaycan artıq bu yola çıxmışdır» («Səs» qəzeti, 15 mart 1991-ci il, səh.2).

Məlumdur ki, 1991-ci il referendumu Azərbaycan Respublikasının və Azərbaycan millətinin qarşısında ən məsul bir dövr idi. Burada azadlıq, müstəqillik, yaxud imperiya içində boğulmaq məsələsi həll olunurdu. O vaxtı Azərbaycan hakimiyyəti başda A.Mütəllibov olmaqla çox ciddi-cəhd çalışırdılar ki, Azərbaycan süni və saxta yolla da olsa referendum adı altında SSRİ ittifaqında qalsın.

Heydər Əliyev isə hələ 1988, 1989-cu illərdə «Sovet Gürcüstanı», «Ana torpaq» qəzetlərində bu naməlum ittifaqı rədd etməyi tövsiyyə etmişdi.

Nəhayət, marın 26-da SSRİ referendumun Mərkəzi Komissiyasının rəsmi yekunları elan edildi: Məlum oldu ki, Gürcüstan SSR-də Litva SSR-də, Maldova SSR-də, Latviya SSR-də, Ermənistan SSR-də, Estoniya SSR-də və Acarıstan MSSR-də referendum keçirilməmişdir.

Türkmənstan SSR-də 97,7 faizi, Özbəkstan SSR-də 95,4 faizi, Tacikstan SSR-də 94,4 faizi, Qazaxstan SSR-də 88,2 faizi, Ukrayna SSR-də 83,5 faizi, Belarusiya SSR-də 83,3 faizi, RSFSR-də 75,4 faizi, Azərbaycan

Respublikasında 75,1 faizi, Naxçıvan Muxtar Respublikasında isə 20,6 faizi səsvermədə iştirak etmişdir («Kommunist» qəzeti, 27 mart 1981-ci li).

Bütün SSRİ üzrə ən az faizlə Naxçıvan Muxtar Respublikası bu yararsız ittifaqda qalmağa səs vermişdir: 20,6 faiz! Sonra da o məlum olmuşdu ki, bu rəqəm də şişirdilmişdir. Azərbaycan SSR referendum komissiyası Moskvaya bu məlumatı verərkən saxtalaşdırma yolunu tutmuşlar.

Rəsmi dövlət orqanı olan «Həyat» qəzeti isə yazırdı:

«Çoxluq referenduma tərəfdardır». Deputat Heydər Əliyevin ətrafına yığışanlar çox idi, onun bu günkü çıxışı da səs-küyə səbəb oldu. Hətta az qalmışdı ki, müzakirə olunan məsələ yenə yaddan çıxsın. Söhbətimizə də elə bu sualdan başladıq:

Müxbir: - Siz bilən çıxışlarınız niyə belə qarşılar\nır?

Heydər Əliyev - ***Mənə elə gəlir ki, çıxışımdan sonra söz alan deputatlar ya mənim müddəalarımı, irəli sürdüyüm təklifləri başa düşmürlər, ya da başa düşmək istəmirlər. Ona görə də qərəzli mövqe tutulur. Hər çıxışımdan sonra mənimlə bağlı komissiya yaratmaq istəyirlər»*** («Həyat» qəzeti, 13 mart 1991-ci li).

Bütün etika və əxlaq normalarına xor baxan o vaxtı deputatların əksəriyyəti necə olursa olsun, haqlı-haqsız Heydər Əliyevə hücum etmək istəyir, kimlərəsə yarınırdılar. Siyasi cəhətdən kormalmış, uzağı, gələcəyi görə bilməyən, həqiqət üzünə dik baxmağa cürəti çatmayan millətini öz evinin içindəkiləri, Vətənini təkcə öz evi bilən cəmiyyətin ağrı-ajıları, sevinci və fərəhi ilə nəfəs almayanlar hər yerdə Heydər Əliyevə kəc baxırdılar.

Siyasi əxlaq sözü burada yerinə düşər. Necə Jan Jak Russo bir vaxt bu barədə yazırdı:

«Yaxşısı budur ki, ayıq və həqiqətpərəst olsan. Təkcə özün üçün yox, həm də cəmiyyət üçün. Çünki hər nə ki, əxlaqi cəhətdən pisdir, siyasi cəhətdən də pisdir» (J.J.Russo «Qəribə adamın müdrikliyi» Azərnəşr, 1965-ci li, səh.181)**.**

Düşmən isə öz işində idi. martın 31-də erməni yaraqlıları iki dəfə Qazax rayonunun Xeyrimli kəndinə silahlı basqın etmişdilər.

Aprelin 7-də saat 20:30-da Naxçıvan-Bakı istiqamətində hərəkət edən 2801 nəmrəli yük qatarı Azərbaycan dəmir yolunun Meğri rayonu erməni quldurları tərəfindən avtomat silahlardan şiddətli atəşə tutulmuşdu. Aprelin 7-də Qubadlı rayonunun sərhəddində erməni yaraqlıları SSRİ DİN qoşunlarının bölməsinə basqın etmişlər. Komandatlığın Siyasi İşlər üzər müavini, leytenant Oleq Babak, yerli sakinlərdən biri öldürülmüş, 4 nəfər yaralanmış, bir nəfər azərbaycanlı isə girov götürülmüşdür («Həyat» qəzeti, 8 aprel 1991-ci li).

Kədərli, qara günlər isə hələ qabaqda idi.

Таир МАМЕДОВ

ДЕЯТЕЛЬНОСТЬ ГЕЙДАРА АЛИЕВА В УСТАНОВЛЕНИИ ГОСУДАРСТВЕННОСТИ И РАЗВИТИИ ПОЛИТИЧЕСКОЙ ПЕЧАТИ В АЗЕРБАЙДЖАНЕ

Резюме

В статье, являющейся составной частью труда автора «Роль Гейдара Алиева в формировании и развитии политической печати в Азербайджане» дано собственное видение им исторических событий 90-х – 91-х годов.

Автор стремится дать объективную оценку при рассмотрении происходяших событий как упомянутого периода, так и нынешнего времени.

Tahir MAMEDOV

THE ACTIVITIES OF HEIDAR ALIYEV IN FORMATION OF THE STATEHOOD AND DEVELOPMENT OF THE POLITICAL PRESS IN AZERBAIJAN

Summary

In the article presenting the integrient part of the author's work the role of Heidar Aliyev in formation and development of the political press in Azerbaijan, his vision of the historical events of the 90-es and 91, is offered.

The author makes an altempt to gıve an objectıve estımatıon of the events occurred ın the perıod stated and those observed at present.

Zülfiyyə BABAYEVA
AMEA Fəlsəfə və Siyasi-Hüquqi
Tədqiqatlar İnstitutunun dissertantı

SİYASİ SABİTLİK AZƏRBAYCAN RESPUBLİKASININ DAXİLİ TƏHLÜKƏSİZLİYİNİN TƏMİN EDİLMƏSİNDƏ ÜSUL KİMİ

Azərbaycan ölkəsi və onun xalqı inkişaf dövrünün çətin mərhələsini yaşayır. Bu da bir həqiqətdir ki, respublikamızın istiqlal yolu mürəkkəb olmuşdur. Lakin buna baxmayaraq ölkə inkişafın dəyərləri istiqaməti nöqtəyi-nəzərindən öz strateji seçimini edib: vətəndaşlıq cəmiyyəti, hüquqi dövlət və bazar iqtisadiyyatı. Azərbaycanın müasir inkişaf paradiqması açıq cəmiyyətin prinsipləri və yaranmış sosial problemlərə münasibət ətrafında cəmləşir.

Daxili təhlükələrin artması ilə əlaqədar olaraq, son vaxtlar Azərbaycanın milli təhlükəsizliyinin təmin edilməsi problemlərinə daha çox diqqət yetirilir. Belə olan halda, bu problemə sabit cəmiyyətin təmin edilməsi problemi kimi baxılır. Belə bir yanaşmada cəmiyyətin və ölkənin təhlükəsizlik anlayışı daxili siyasi sabitlik anlayışına yaxınlaşır. Daxili siyasi sabitlik anlayışı altında qarşılıqlı təsir edən tərəflərin funksiyasını təmin edən ölkə və cəmiyyət arasında bütöv sistemin əlaqəsi düşünülür. Hazırki vəziyyətdə sabitliyə statistik hal kimi deyil, ölkədə və cəmiyyətdə daimi dəyişikliyi nəzərdə tutan dinamik hal kimi baxılır. (3, s. 369-370)

Sabitliyin və cəmiyyətin təhlükəsizliyini təminetmə sferası bizim ölkədə ən az işlənilmiş elmi təhlilin obyektlərindən biridir və bu da tədqiqin metodologiyasının düzgün seçilməsinə xüsusi diqqət yetirilməsini tələb edir.

Vəziyyətin dərin və dəqiq təhlilinin, cəmiyyətin sabit və davamlı inkişaf prinsiplərinin və əsaslı strategiyanın prioritetlərinin müəyyən edilməsinin vaxtı gəlib çatıb. Belə bir strategiyanın olmaması, atılmış addımların idarə tədbirləri və proqram məcmusu kimi qalmasına şərait yaradır. Həmçinin müasir şəraitdə Azərbaycan dövlətinin sabitliyini təmin edən konseptual əsasların tərtibində ölkədə siyasi, sosial-iqtisadi və mədəni vəziyyəti xarakterizə edən faktor və parametrlərin ayrılması vacibdir. (2, s. 27-29)

Siyasi sabitlik: metodoloji yanaşmalar və qiymətləndirmə.

Siyasi sabitliyin təmin edilmə problemləri S.Hantinqtonun, E.Simmermanın, F.Billinin, F.Makkamantın, E.Daftın, S.Sokolskinin, A.Makarıçevin və s. tədqiqatçıların işlərində öz əksini tapmışdır.

«Sabitlik» şüarı son illərin siyasi lüğətində aktual olaraq qalmaqdadır. Lakin müasir siyasi proseslərin elmi təhlilində «sabitlik» anlayışının səmərəli istifadəsi həmin terminin Qərb politiologiyasında traktovkası ilə ilkin tanışlıq olmadan təsəvvür etmək mümkün deyil.

Qərb politologiyasında «sabitlik» anlayışına aşağıdakı yanaşmalar aiddir:

a) Birinci növbədə sabitlik cəmiyyətdə qeyri-legitim gücün olmaması və ya ölkənin böhran vəziyyətindən çıxması üçün müəyyən imkanların mövcudluğu kimi anlaşılır;

b) Sabitlik bir hakimiyyətin uzun müddət fəaliyyət göstərməsi, onun dəyişən vəziyyətlərə uğurla uyğunlaşma qabiliyyəti kimi şərh edilir;

c) Sabitliyin şərtləndirici faktorlarından biri də konstitusion qaydanın mövcudluğudur;

ç) Sabitlik qanuni hakimiyyətin mövcudluğu kimi;

d) Sabitlik siyasi sistemdə struktur dəyişikliklərin yoxluğu və ya onları idarəetmə qabiliyyətinin mövcudluğu kimi;

e) Nəhayət, sabitlik həmçinin davranış modeli və ictimai atribut kimi şərh edilir. (5, s. 152-153).

Həmin anlayışın təhlil və rəylərinin belə hərtərəfli yanaşmaları onu göstərir ki, o, siyasi sistemin saxlanılmasına və ya dağılmasına yönəlmiş hakimiyyət sferasında müxtəlif siyasi subyektlərin fəaliyyətini əks edir.

Sabitlik cəmiyyətin vəziyyəti kimi.

Hər hansı bir ölkədə qeyri-sabit vəziyyətin mənbəyi əsasən daxili səbəblər olur. Hakimiyyət strukturları və əhali arasında mübahisə münaqişə zəminində yaranır, bu da cəmiyyətin sosial-iqtisadi vəziyyəti, xalqın maddi rifah halı, hakimiyyət növü və s. xasiyyətlərlə müəyyən edilir. Sosial antoqonizmi azaldaraq, liberal demokratiyanın yeganə mümkün strukturu kimi təsəvvür edilən iqtisadi inkişaf mübahisəli cəmiyyətdən konsensus cəmiyyətinə dəyişilir və nəticədə ölkənin daxili təhlükəsizliyini təmin edən əsas səbəblərdən biridir. (7, s. 40)

Məlumdur ki, milli təhlükəsizlik geniş mənada millətin həyat fəaliyyətini yüksək səviyyədə təmin etmək qabiliyyəti və onun davamlı inkişafının etibarlı mövcudluğu məqsədilə xarici aləmdə qarşılıqlı əlaqələrin konkret imkanları deməkdir. Əslində təhlükəsizlik həmçinin cəmiyyətin mütərəqqi inkişafını təmin etmək qabiliyyətindən və istəyindən ibarətdir. Bu anlayışa əsasən «ölkənin sabitliyi» mövcud və dəyişən konstitusiya norması və hakimiyyət strukturları çərçivəsində müasir cəmiyyətin sabitliyi kimi başa düşülür.

Bundan başqa, o sistem siyasi sabit sayılır ki, orada müxtəlif cür dəyişikliklər sürətlə hərəkət etmə qabiliyyəti və həssaslığı ilə xarakterizə edilir. Daha böyük həyat qabiliyyətinə və potensial resurslara avtonom sistem malikdir, beləliklə o, ictimai-siyasi proseslərə təsir edən ölkənin və cəmiyyətin həm xarici, həm də daxili təkanlarına təsir etmə qabiliyyətinə malikdir. Politologiya daxili siyasi, regional və xarici siyasi anlayışlara ayırılar. Siyasi sabitlik həmçinin siyasi sistemin xassələri, keyfiyyət xüsusiyyətlərinin bütövlüyünün saxlanılması və effektiv fəaliyyəti deməkdir.

Amerikan politoloqları E.Daff və D.Makkamantın fikirlərinə görə, siyasi sabitliyin əsas kriteriyaları aşağıdakılardır:

- sosial köməyin sosial səfərbərliyi üstələməsi;
- gəlirlərin düzgün bölgüsü həmçinin hakimiyyətin vergiləri yığmaq qabiliyyəti ilə şərtlənir;

- siyasi imkanların ehtiyatlarının mövcudluğu;
- vətəndaşları siyasi həyata cəlb etməyi təmin edən institutlaşmış siyasi partiyaların artması.

Siyasi sistemlərin tipologiyasına görə sabitliyin kriteriyalarını həmçinin aşağıdakı qruplara bölmək olar:

- **iqtisadi:** iqtisadi artımın tempi, inflyasiya «artımı», məşğulluqun səviyyəsi, işsizlərin sayı və s.;
- **sosial:** sosial şərtlənmiş xəstəliklərin artımı, sosial deviasiya, kriminogen vəziyyətin, sosial-siyasi fəallıq dərəcəsinin və s. yayılması;
- **siyasi:** seçki sisteminin növü, siyasi elitanın və idarəetmə orqanlarının yeniləşmə dərəcəsi, hakimiyyət qollarının qarşılıqlı təsiri, hökümət dəyişməsinin tezliyi və s.;
- **mənəvi:** konfessionalığın səviyyəsi, üstünlük təşkil edən dinin növü və s. (3, s.379)

Tarixən ölkənin sabitliyinin və təhlükəsizliyinin təmin edilməsində 3 əsas yanaşma məlumdur:

Birinci yanaşma sosial eqoizmə və onun həyata keçirilməsində hər cür özbaşınalıq imkanlarının yaradılmasından ibarətdir. ***İkinci*** yanaşma da həmçinin gücə, potensial aqressora effektiv zərbə vurmaq qabiliyyətinə əsaslanır. ***Üçüncü*** yanaşma təhlükəsizliyin əldə edilməsi üçün gücdən tamamilə imtina etmə cəhdindən ibarətdir. (4, s.36)

Azərbaycanın təhlükəsizlik problemlərini həll edərək birinci növbədə ölkə və cəmiyyətin ümumi sabitlik anlayışına əsaslanmaq lazımdır. Bu anlayış altında sistemin öz bazasının və keyfiyyət xüsusiyyətlərinin saxlanılması kimi başa düşülür.

Başqa tərəfdən hər sosial sistem özündən aşağı səviyyədə çoxlu, hərəsinin öz marağı olan sistem altılarından ibarətdir. Ona görə daxili sabitliyin aşağıdakı anlayışı təqdim olunur: Sabitlik – inkişafın evolyusyon və proqnozlaşmış prosesində cəmiyyətin müxtəlif institutlarının çoxvektorlu maraqları arasında balansın saxlanılmasıdır. (5, s.169)

Sosial sistemin təhlükəsizliyi və sabitliyi daxili və xarici aləmin dəyişən şərtlərinə uyğunlaşma imkanları ilə möhkəm bağlıdır.

Sosial komponenti nəzərə alaraq sabitliyin üç dərəcəsindən danışmaq olar:

- birinci, maddi komponentlərin qanunauyğunluğuna və tendesiyalarına əsaslanır;
- ikinci, fəaliyyət göstərən subyektin hadisələr haqqında zəruri, kifayət qədər və müasir məlumatın mövcudluğundan yaranır;
- üçüncü, subyektin həmin prosesə aid gözləmələrindən yaranır. (6, s.365)

Başqa sözlə, sabitlik ümumiyyətlə:

- bütün həyati proseslərin daimi dinamik inkişafı deməkdir;
- daxili və xarici həyat şəraitinin ekstremal təzahürünün təhrif edilməmiş dinamikasıdır;

- sistemin daha vacib, sistemyaradıcı parametrlərinin, onun evolyusiya və inkişafının istiqamət və tedensiyalarının qabaqcadan xəbərvermə mümükünlüyü;

- əsasən arzu edilmədən dəyişikliklərə rasional, təcrübi və effektiv təsir etmə ehtimalı. (2, s.35)

Bununla yanaşı məhz son kateqoriya daha çox əhəmiyyət kəsb edir, çünki təhdid qorxunu o vaxt itirir ki, əgər ümimiyyətlə onu gözləyilər və onunla necə mübarizə aparmağı bilirlər. Obyektiv vəziyyət və hər hansı məlumatın subyektiv dərketməsi kimi sabitlik kateqoriyası təhlükəsizlik anlayışı və təzahürü ilə bilavasitə toqquşur.

Beləliklə, sistemin sabitliyinin pozulması (qeyri-sabitlik) aşağıdakılardır:

- obyektiv olaraq – sistemin sabitliyinə və təhlükəsizliyinə qarşı hər hansı təhlükənin (fərqi yoxdur hardan başlandı və necə pisləşdi) başlaması və təzahürü;

- subyektiv olaraq – hadisələrin belə adi axının pozulması subyektin vəziyyətin istənilən istiqamətdə düzəlmək üçün imkanlarının məhdudlaşdırılması. (2, s 36)

Cəmiyyətin təhlükəsizliyinin strateji məqsədi eyni zamanda kompleks şəklində bütün təhlükələrin nəzərə alınmasını tələb edir.

Azərbaycanın təhlükəsizlik siyasətinin əsas məqsədini ölkənin evolyusyon inkişafına müvafiq daxili və xarici şəraitə uyğunlaşmasına nail olmaq üçün dinamik sabitliyin saxlanılması kimi müəyyən etmək olar.

Dinamik sabitlik sistemə ona görə lazımdır ki, onların mühiti dəyişir. Sabitliyin xarici aspekti mühitin amilləri ilə möhkəm bağlıdır, başqa sözlə, funksiyasının elə olmalıdır ki, sosial sistemin daxili strukturu və xarici şərait dəyişəndə onun bütövlüyü saxlanılsın.

Siyasi sabitliyi üç təbəqəyə ayırmaq olar:

- hökümətin sabitliyi (onun varlılığının nisbətən davamlılığı, tərkibinin əsasən dəyişməzliyi);

- siyasi rejimin sabitliyi (siyasi və sosial sistemin saxlanılması, siyasi dəyişikliklərin evolyusyon xasiyyəti, siyasi zorakılığın olmaması);

- cəmiyyətin, xalqın sabitliyi (ölkənin ərazi bütövlülüyünün qorunması, şəxsi təhlükəsizliliyin və vətəndaşların rifahının təmin edilməsi, ətraf mühitün yaxşılaşdırılması və demoqrafik balansın saxlanılması və s.) (6, s.366)

Şəxsiyyətin, cəmiyyətin və ölkənin müasir tələbatlarını nəzərə alaraq Azərbaycanın təhlükəsizliyi və sabit inkişafına aşağıdakı şərtlərə riayət olunduqdan sonra nail olmaq olar:

- optimal konstitusyon – hüquqi sistemin müntəzəmliyinin formalaşması;

- effektiv hakimiyyət strukturlarının yaranması;

- ölkənin erməni silahlı qüvvələrindən müdafiəsi, Dağlıq Qarabağ münaqişəsinin həlli, qaçqınların və məcburi köçkünlərin öz yurd-yuvalarına qaytarılması;

- ekoloji böhrandan tez və optimal çıxış yolu, həmçinin Xəzər dənizinin çirklənilməsinin qarşısının alınması üçün tədbir görülməsi, Azərbaycanın

keyfiyyətli içməli su ilə təmin edilməsi, Azərbaycanın milli landşaftının qorunması, torpağın deqradasiyasının qarşısının alınması, Qəbələ radiolakasiya stansiyasının işinin dayandırılması;

- ekoloji təhlükəsizliyin tam təmin edilməsində əhalinin rifahının yaxşılaşdırılması üçün istiqamətlənmiş iqtisaddiyatın intensivləşmə yolu ilə inkişafı;

- MDB ölkələri ilə iqtisadi əlaqələrin möhkəmləndirilməsi, dünyanın başqa ölkələri ilə qarşılıqlı iqtisadi əlaqələrin inkişafı. (4, s.57-58)

- Nəticə kimi, cəmiyyətin sabitliyini təyin edən altı bir-birindən fərqlənən vəziyyət ayırmaq olar:

1. **Əlverişli.** İdeal – bu kifayət qədər ərzaq məhsulları, tez həll edilən sosial məsələlər, insanların sabaha inamı, dövlət və ictimai strukturların sabit fəaliyyət göstərilməsidir.

2. **Kafi.** O, ictimai həyatın bu və ya digər sahələrində vəziyyətin kəskin pisləşməsi ilə bağlı qısamüddətli təsadüf edilən hallarla xarakterizə edilir.

3. **Gərgin.** Hazırki vəziyyətdə əhalinin əksəriyyəti onların əsas tələbətlarının, maraqlarının və hüquqlarının təhlükə altında olduğunu anlayır. Ölkəyə inam, təhılükəsizlik hissi itir, pessimistik əhval-ruhiyyə, müxtəlif şayiələr artır, emosional gərginlik və narahatçılıq mühiti yaranır.

4. **Böhran.** Söhbət idarəçiliyin ayrı-ayrı səviyyə və hissəsindən gedir. Gərginlik cəmiyyətin nəinki əhval-ruhiyyəsində, həmçinin kütləvi işlərdə görünür: «hər halda» ajiotaj tələbat, ərzaq məhsullarının və sənaye mallarının alınması, kütləvi məcburi və könüllü miqrasiya, müxtəlif ictimai-siyasi hərəkatların fəaliyyətinin mitinq və nümayişlərlə fəallaşması.

5. **Cox çətin və böhranlı.** Belə vəziyyət sosial-siyasi sistemin böhranını xarakterizə edir.

6. **Fəlakətli.** Hakimiyyət strukturunun tamamilə dağılması, siyasi quruluşun silahlı üsyan yolu ilə devrilməsi, anarxiya və hüquqi iğtişaş. (5, s.175)

Azərbaycanın daxili və xarici siyasi vəziyyətinin sabitliyi yeni yaranmış MDB ölkələrində şərait sabitləşməyincə mümkün deyil. Bu nəinki geostrateji məsələlərin həyata keçirilməsi, həmçinin yaranmış iqtisadi, mədəni və mənəvi postsovet elementlərinin bir-birindən asılılığı və birliyi, cinayətkarlıq, terrorizm, ekoloji fəlakətlərin qarşısını almaq üçün mübarizədə səylərin birləşməsində tələbatın, Azərbaycandan kənarda yaşayan milyonlarla azərbaycanlıların mövcudluğu ilə bağlıdır.

Tədqiqatlar göstərir ki, ancaq keçmiş Sovet İttifaqı ərazisində iki yüzə qədər potensial münaqişə ocağı var. Belə perspektiv ictimai əlaqələrin «köhnə» sisteminin böhranı ilə uyğunlaşaraq münaqişələrin inkişafının silahlı səviyyəyə çıxaraq Tacikistanda, Gürcüstanda (Abxaziya və Cənubi Osetiya), Moldovada (Pridnestrovye) və Rusiyada (Şimali Osetiya və İnquşetiya, Çeçenistan) artıq həyata keçirilib.

Son illərin təcrübəsi göstərir ki, postsovet münaqişələrin əksəriyyəti milli-etnik xarakterinə görə qapalı mühitdə inkişaf edir – əvvəlcə tərəflərin silahlı

fəaliyyətinin dayandırılmasına, münaqişəni müvəqqəti «dondurmağa», nail olunur, bu isə münaqişənin həllinə nail olmadan yenidən «mübahisə», təhlükə və ya «müharibə» mərhələsinə gətirib çıxarır.

Bəzi daxili münaqişələrin xarakterik cəhətləri hər hansı etnik, yaxın xarici dövlətin münaqişə edən tərəfin (Pridnestrovyedə Rumıniya, Dağlıq Qarabağda Ermənistan, Tacikistanda Əfqanistan) yaxud MDB ərazisində münaqişə proseslərinin beynəlmiləlliləşdirilməsinə gətirən yaxın konfessional icmaların cəlb edilməsidir (rus hərbçilərinin Dağlıq Qarabağda, Pridnestrovye və Cənubi Osetiyada iştirakı).

Vəziyyətin qeyri-sabitləşməsi həm hərbi faktorlarla (Azərbaycanın sərhədlərində münaqişə ocaqlarının yaranması, onun nəticəsi kimi, Azərbaycanın ərazisində təxribatçılıq fəaliyyətinin və terrorizmin həyata keçirilməsi təhlükəsi), həm də sosial faktorla mümkündür (qaçqınların qeyri-mütəşəkkil miqrasiya axını, münaqişə zonasına yaxın olan ərazilərdə vəziyyətin kriminallaşması, silah alverinin fəallaşması və narkotikin yayılması).

Azərbaycanın daxili sabitliyinin xarici təhlükələri hal-hazırda Ermənistan, Rusiya və İrandan gəlir. Bu təhlükələr Azərbaycanın ərazi bütövlüyünə potensial təhlükə yaradır.

Qeyd etmək lazımdır ki, Azərbaycan dövlətinin gələcəyi ilə bağlı onun müəyyən etdiyi inkişaf strategiyası ardıcıl olaraq həyata keçir. Bu strategiyanın məqsədi respublikamızın müstəqilliyini, ölkəmizdə sülhü, əmin-amanlığı, tərəqqini və sabitliyi təmin etməkdir.

Azərbaycanın inkişaf strategiyası barədə əldə olunmuş konsensusun nəticələri daha geniş miqyaslı xarakter alır, ölkənin iqtisadi qüdrəti möhkəmlənir, keyfiyyətli iqtisadi inkişaf yolunda yeni uğurlar əldə etmək imkanları genişlənir. Kifayət qədər maliyyə resursları, valyuta ehtiyatlarına malik olan və yüksələn xətlə inkişaf edən respublikamız sosial məsələləri də sistemli şəkildə həll edir. Bütün bunlar deməyə əsas verir ki, Azərbaycan Respublikasının müstəqilliyinin 15-ci ili sosial sahədə göstəricilərin daha da yaxşılaşması ilə müşayiət olunur. (1, s.110)

Bununla bağlı qeyd etmək istəyirəm ki, bu gün respublika ümumi inkişaf sürətinə görə dünyada irəlidə gedən ölkələr sırasındadır. Bu meylin saxlanılması, heç şübhəsiz ki, bizim üçün çox vacibdir və biz çalışmalıyıq ki, ölkə iqtisadiyyatında dinamizm, səmərəlilik, onun keyfiyyət göstəricilərinin yaxşılaşması tarazlı, rəqabətə davamlı inkişafla müşayiət olunsun. Məhz buna görə də sosial-iqtisadi inkişafa, problemlərin həllinə sistemli yanaşmaya, reallığın obyektiv qiymətləndirilməsinə, Azərbaycan iqtisadiyyatının keyfiyyətcə yeni mərhələyə çıxmasına, islahatların sosial nəticələrinin daha da yüksəldilməsinə, milli maraqların daha artıq dərəcədə qorunmasına xüsusi diqqət yetirmək lazımdır.

Etiraf etmək lazımdır ki, Azərbaycanda daxili siyasi sabitliyin təmin edilməsi ancaq məsuliyyətli və ölçülmüş dövlət, milli və regional siyəsətin həyata keçirilməsindən sonra mümkündür. Bu məsələlərin həllinə kompleks

yanaşma Azərbaycan Respukblikasının demokratik ölkə kimi inkişafını təmin edən dövlət siyasətinin əsasını təşkil etməlidir.

Ümumiyyətlə, Azərbaycanın təhlükəsizliynin və sabit inkişafının problemlərinə nəzər yetirdikdə qeyd etmək lazımdır ki, bunun üçün Azərbaycanın və onun regionlarının bütöv inkişafı haqqında möhkəm bilik lazımdır. Belə bir sistemin yaradılması üçün nəinki yüksək səviyyədə komyüter texnikası və metodologiyası, həmçinin xüsusi intellektual potensialın səfərbərliyi, alim və mütəxəssislərin birliyi tələb olunur. Məhz bu biliklərin birliyi nəticəsində Azərbaycanın siyasi sabitliyinin qorunub-saxlanılması üçün Məsləhətləşmə modelinin yaradılması vacibdir.

İstifadə olunmuş ədəbiyyat

1. Səmədzadə V. Sabit və dinamik inkişaf meyyləri daha da güclənir// Dirçəliş - XXI əsr, 2004, № 80/81, s.96-112.

2. Ахметжанова Г.К. Идентификация как фактор политической стабильности// Саясат. 1998, № 2, с.27-37, 1, 2 п.п.

3. Дзлиев М., Яновский Р., Ващекин А. Стабильность как системная основа внутренней безопасности России// Безопасность Евразии – 2001, № 4, с.365-402.

В соответствии с Указом Президента Азербайджанской Республики от 22 мая 1998 года «О почетных званиях», к ним относятся, в частности, Народный писатель, Народный артист, Заслуженный деятель науки, Заслуженный Работник культуры, Заслуженный юрист и другие (3. Ст.268).

Необходимо подчеркнуть, что нормы уголовного законодательства предусматривают случаи лишения осужденных только тех почетных званий, которые были присвоены Президентом Азербайджанской Республики. В связи с этим положения статьи 48 УК не распространяются на те случаи, когда осужденный имеет почетное звание, присвоенное ему иными органами. Например, почетные звания Заслуженный мастер спорта или Заслуженный тренер присваиваются Министерством молодежи и спорта Кабинета Министров Азербайджанской Республики. Ряд почетных званий присваиваются соответствующими министерствами и ведомствами, например, звание профессора, академика, научные степени доктора или кандидата наук.

Воинские звания представляют собой специальные наименования, персонально присваиваемые каждому военнослужащему и военнообязанному Армии и Военно-морского Флота Азербайджанской Республики, а также сотрудникам Министерства Национальной безопасности. Воинские звания присваиваются с учетом служебного положения, военной или специальной подготовки данного лица, принадлежности к роду войск или к виду службы, а также в соответствии с заслугами.

В ряде министерств и ведомств установлены специальные звания. Как и воинские, они присваиваются персонально, учитывая служебное положение

лица, его специальную подготовку и заслуги. Общей характерной особенностью воинских и специальных званий является то, что они определяют старшинство во взаимоотношениях между служащими. Специальные звания присваиваются сотрудникам органов внутренних дел, министерства транспорта, министерства юстиции, прокуратуры и других органов.

Между тем в судебной практике встречаются случаи неправильного применения норм уголовного законодательства при решении вопросов лишения осужденных соответствующих званий. Так, иногда суды к почетным званиям относят ученые степени и звания профессора, доцента, старшего научного сотрудника. В таких случаях применение норм уголовного законодательства о лишении наград и званий нельзя признать обоснованным. Поэтому судам надлежит информировать соответствующие органы и организации (например, ВАК Азербайджана) о факте совершения данным лицом преступления и его осуждения для принятия решения о лишении имеющегося у него звания или ученой степени в соответствии с установленным порядком.

Согласно статье 48 УК суд вправе своим приговором в порядке применения дополнительного наказания лишать осужденных любых почетных, воинских и специальных званий, кроме тех, которые были присвоены высшими органами власти или управления Азербайджанской Республики. К таким исключениям относятся звания высшего офицерского, начальствующего и руководящего состава. В соответствии с установленным порядком эти звания присваиваются Президентом Азербайджанской Республики.

В отношении лиц, имеющих высшие воинские или специальные звания, а равно в отношении лиц, награжденных орденом, медалью или имеющих почетное звание, суд при вынесении приговора обязан решить вопрос о целесообразности внесения в орган, который наградил осужденного орденом, медалью или присвоил ему звание, представления о лишении осужденного ордена, медали, почетного звания, воинского или другого специального звания.

Как показывает практика, правильное и обоснованное применение норм уголовного законодательства о лишении наград и званий во многом зависит от качества проверки и полноты собранных по делу доказательств, и прежде всего тех, которые характеризуют личность виновного. Вот почему уже на стадии предварительного следствия у подозреваемого (обвиняемого) надлежит в обязательном порядке выяснять, имеются ли у него государственные награды и соответствующие звания. При этом сведения о наградах и званиях лица, привлеченного к уголовной ответственности, должны отражаться в протоколах допросов, а впоследствии – в резолютивной части обвинительного заключения по уголовному делу.

Все имеющиеся у лица, подозреваемого (обвиняемого) в совершении тяжкого или особо тяжкого преступления, ордена, медали и документы к ним, нагрудные знаки и документы о присвоении почетного звания должны

изыматься следственными органами и передаваться на хранение в установленном порядке. При изъятии наград и документов к ним в протоколах (например, обыска, выемки) должны указываться их точное и полное наименование, а также регистрационные номера. При изъятии наград без документов к ним или, наоборот, документов о награждении без самих наград в протоколе должны отражаться причины, по которым соответствующая награда или документ не были изъяты.

Изъятые по делам о тяжких или особо тяжких преступлениях награды и наградные документы должны быть в течение 24 часов с момента изъятия переданы на хранение в финансовый аппарат того органа, который проводит следствие (дознание). Квитанция о приеме на хранение наград и документов к ним приобщается к материалам уголовного дела. Кроме того, необходимые сведения об изъятии у обвиняемого наград и документов к ним, а также о месте их хранения должны найти отражение в справке к обвинительному заключению.

Необходимо отметить, что на практике требования, предъявляемые к порядку изъятия и хранения наград, выполняются не всегда. В отдельных случаях по делам о тяжких и особо тяжких преступлениях имеющиеся у подозреваемых (обвиняемых) ордена, медали и другие награды и документы о награждении своевременно не изымаются.

В следственной и судебной практике возможны и такие ситуации, когда заявления подследственных (подсудимых) об имеющихся у них наградах, воинских или специальных званиях не подтверждаются ввиду отсутствия самих наград или соответствующих документов к ним. В таких случаях, а также при сомнениях в подлинности документов либо в достоверности сведений о награждении или о присвоении соответствующего звания должны приниматься своевременные меры по розыску наград и проверке имеющихся сведений.

Так, при необходимости проверить сведения о присвоении званий Заслуженного деятеля науки или Заслуженного работника культуры либо о награждении орденами и медалями «За отвагу», «За военные заслуги», а также о присвоении почетных званий соответствующие запросы необходимо направлять в Отдел по работе с правоохранительными органами Администрации Президента Азербайджанской Республики, а в отношении военнослужащих – в Главное управление кадров Министерства обороны.

Необходимо отметить, что выяснение сведений о наличии у обвиняемого наград и соответствующих званий имеет большое значение не только ввиду возможного применения положений статьи 48 УК. Эти данные должны учитываться судом и при решении вопроса о назначении виновному основного наказания.

В соответствии со статьей 353.4.9. УПК Азербайджанской Республики решение суда о лишении специального, воинского или почетного звания или

государственных наград должно быть изложено в резолютивной части обвинительного приговора (4.С.371). Там же должно быть изложено решение о внесении представления о лишении наград и званий в соответствующие органы. Причем вопрос о лишении воинского звания следует обсуждать в отношении лиц, состоящих не только на действительной службе, но и находящихся в запасе или в отставке.

Порядок и условия исполнения назначенного судом наказания в виде лишения воинского или специального звания, а также порядок и сроки внесения представления суда о лишении осужденных наград, высших воинских и других званий определены нормами действующего уголовно-исполнительного законодательства. Так, в соответствии со статьей 159 Кодекса по исполнению наказаний Азербайджанской Республики, после вступления в законную силу приговора о лишении осужденного специального, воинского или почетного звания и государственных наград, его копия и соответствующее представление направляются судом органу, присвоившему осужденному специальное, воинское или почетное звание и наградившему его государственной наградой (5.С.210). Копии приговоров в отношении лиц, состоящих в запасе или находящихся в отставке, направляются в соответствующие военные комиссариаты, где состоят на учете эти лица.

Получив копию приговора, орган, присвоивший звание, обязан внести в соответствующие документы запись о лишении осужденного специального, воинского или почетного звания и государственных наград, а также принимает меры по лишению его прав и льгот, предусмотренных для лиц, имеющих соответствующие звания и награды.

При этом суд, постановивший приговор, по вступлении его в законную силу истребует из финансового аппарата органа, производившего следствие по делу, находящиеся там на хранении награды и документы к ним. Такой запрос должен быть исполнен финансовым аппаратом в суточный срок.

О принятом по представлению суда решении орган, к компетенции которого отнесено решение вопросов о лишении наград и званий, обязан уведомить суд, постановивший приговор. В тех случаях, когда в порядке надзора приговор, которым было постановлено внести представление о лишении осужденного наград или званий, был отменен с прекращением дела производством, суд, постановивший приговор, обязан направить в орган, решавший вопрос о лишении осужденного звания или наград, копию соответствующего определения (постановления).

Список использованной литературы

1. Конституция Азербайджанской Республики. Баку. Издательство «Ганун». 1997.

2. Сборник Законов Азербайджанской Республики. 2005. № 4.

3. Сборник Законов Азербайджанской Республики. 2005. № 4. Ст.268.
4. Уголовно-процессуальный кодекс Азербайджанской Республики. Баку. Издательство «Юридическая литература». 2001.
5. Кодекс по исполнению наказаний Азербайджанской Республики. Баку. Издательство «Юридическая литература».2001.
6. Уголовный кодекс Азербайджанской Республики. Баку. Издательство «Юридическая литература».2005.

Romella GÜLƏLİYEVA

XÜSUSİ VƏ YA HƏRBİ RÜTBƏDƏN, FƏXRİ ADDAN VƏ DÖVLƏT TƏLTİFLƏRİNDƏN MƏHRUMETMƏ HAQQINDA

Xülasə

Bu cəza növü rütbədən, fəxri adlardan və dövlət təltiflətindən məhrum etməklə məhkumun sosial və iqtisadi xarakterli dəyərləri, imtiyazları itirməsinə səbəb olur, ona psixoloji təsir göstərir.

Cinayət törədən şəxsin rütbəsi, orden və ya medalları, fəxri adları vardırsa-məhkəmə məhkumu bunların hamısından, yaxud da bir hissəsindən məhrum edə bilər.

Müvafiq orqan müəyyən edilmiş qaydada məhkumun xüsusi və ya hərbi rütbədən, fəxri addan və dövlət təltifindən məhrum edilməsi haqqında müvafiq sənədlərə yazılı qeyd edir, habelə şəxsin xüsusi və ya hərbi rütbə, fəxri addan və dövlət təltifi ilə əlaqədar hüquq və güzəştlərdən məhrum edilməsinə dair tədbirlər görür. (Cəzaların İcrası Məcəlləsinin 159-cu maddəsi).

Romella GULALIYEVA

DEPRIVATION OF CONVICTS OF THEIR AWARDS AND TITLES

Summary

Criminal law provides deprivation of convicts of their rewards, also military, honorary and several other ranks, for ensuring the persons individual responsibility, committed a crime.

According to Article 48 of AR Criminal Code, the person who committed a grave, or specially grave crime and who possesses a special, military, or honorary rank, or state award can be deprived of one, or the other, in conformity with court's decree, if the court consider that, this decision would be the most efficient for this case.

Miraferim SEYİDOV
Azərbaycan MEA Fəlsəfə və
Siyasi-Hüquqi Tədqiqatlar İnstitutunun
"Dövlət və hüquq nəzəriyyəsi Konstitusiya hüququ"
şöbəsinin böyük elmi işçisi, h.e.n.

HÜQUQİ DÖVLƏTİ XARAKTERİZƏ EDƏN ƏSAS ƏLAMƏTLƏR

Hüquqi dövlət hüquqa və qanunlara əsaslanaraq fəaliyyət göstərən dövlət kimi xarakterizə edilir. Dövlət hüquqa, qanunlara tabe olan insanların məcmusu hesab edilmişdir. Dövlət öz qanunvericilik və qanun tətbiq etmə fəaliyyətində insan hüquqları ilə hesablaşmalıdır. Bu müddəa hüquqi dövlət ideyasının əsasında dayanır.

Hüquq ədəbiyyatında hüquqi dövlət ideyası həm hüquqi, həm də fəlsəfi cəhətdən təhlil olunmuşdur. Aristotel iki növ idarəetməni fərqləndirir. Bunlardan biri hakimiyyətin, digəri isə cəmiyyətin mənafeyini güdür. Aydındır ki, hakim dairələri yalnız öz mənfəətini güdən cəmiyyətlərdə hüquqdan daha çox qadağan-məcburiyyət aləti kimi istifadə edilirdi. Belə dövlət öz xarakterinə görə qeyri-demokratikdir.

Demokratik cəmiyyətin yaranması insan və dövlət arasında münasibətlərə olan yanaşmanı dəyişmişdir. Burada şəxsiyyət ön yerdə dayanır. Məhdudiyyətlərin hökm sürdüyü hüquqi rejim isə daha çox dövlət üçün yaradılır. Buradan da hüquqi dövlətin iki əsas prnisipini, mahiyyətinin iki tərəfini formalaşdırmaq olar:

1. Vətəndaş və insanın hüquq və azadlıqlarının daha tam təmin edilməsi, şəxsiyyət üçün hüquqi stimul rejiminin yaradılması. Bu sosial tərəf adlanır.

2. Hüquq vasitəsilə dövlət hakimiyyətinin "əl-qolunun" daha ardıcıl bağlanması, dövlət strukturları üçün hüquqi məhdudiyyətlər rejiminin formalaşdırılması. Bu formal hüquqi tərəf adlanır.

Hüquqi dövlət ideyası mahiyyəti etibarilə siyasi hakimiyyətdən sui-istifadə, özbaşınalıq, despotizm və tiraniyaya qarşı yaranmışdır. Dövlət müxtəlif siyasi qruplar, partiya, sinif, eyni zamanda bütün cəmiyyətin maraqlarına xidmət edə bilər. Yəni dövlət cəmiyyətin həyatına həm müsbət, həm də mənfi keyfiyyətlər gətirə bilər. Dövlətin cəmiyyətin "xidmətçisi" rolundan onun "sahibi" roluna keçməsinin qarşısının alınması qədim dövrlərdən mütəfəkkir və alimləri düşündürmüşdür. Onlar başa düşürdülər ki, ictimai maraqları məhz hüquq vasitəsilə müdafiə etmək olar. Belə ki, hüquq başqa sosial normalardan fərqli olaraq formal-müəyyənlik, kodifikasiya xarakterli olmaqla yanaşı, bir tərəfdən dövlət orqanları və onların qulluqçularının səlahiyyətlərini, digər tərəfdən isə vətəndaşların hüquq və vəzifələrini tənzimləyə bilir.

Hüquqi dövlətin mahiyyəti dövlətin səlahiyyətlərinin hüquq vasitəsilə məhdudlaşdırılmasındadır. Hakimiyyətin hüquq, qanunla məhdudlaşdırılması ideyası çox qədimdir. Hələ Platon yazırdı ki, "Mən qanun qüvvəsi olmayan və kimin isə hakimiyyəti altında olan dövlətin yaxın zamanda məhv olacağını görürəm. Qanunun hakim dairələr üzərində şah, onların isə qanunun kölələri olduğu dövlətin xilasını və allahların bu dövlətə verəcəyi nemətləri görürəm".(1) Analoji fikri Aristotel də söyləmişdir: "Qanun hakim olmadığı yerdə hər hansı bir quruculuq ola bilməz. Qanun hamı üzərində hakim olmalıdır". (2, s.165) Bu ideyalar sonralar burjua siyasi-hüquqi fikrinin nümayəndələri C.Lokk, Ş.Monteskyö, C.C.Russo tərəfindən inkişaf etdirildi. Hüquqi dövlət ideyasının fəlsəfi əsası İ.Kant tərəfindən yaradılmışdır. O, dövləti "hüquqi qanunlara tabe olan insan birliyi" kimi nəzərdən keçirirdi.

Hüquq vasitəsilə dövlətin daha ardıcıl məhdudlaşdırılması prinsipi aşağıdakı üsul və vasitələrin köməyi ilə həyata keçirilə bilər:

1. Dövlət hakimiyyəti insan və vətəndaş hüquq və azadlıqları ilə məhdudlaşdırır. Fərdi hüquqların hamısının ümumi bir cəhəti onların dövlət hüququnu məhdudlaşdırmasıdır. Dövlət hakimiyyətini yalnız başqa bir hakimiyyət, hər şeydən əvvəl cəmiyyətin iradəsi, insan və vətəndaş hüquqları vasitəsilə məhdudlaşdırıla bilər.

2. Hüquq vasitəsilə məhdudlaşdırılan tədbirlər içərisində hakimiyyətlərin bölünməsi problemi xüsusi yer tutur. Onun əsas tələbi ondan ibarətdir ki, Siyasi azadlığın təsbit olunması, qanunçuluğun təmin edilməsi üçün dövlət hakimiyyətini qanunverici, icraedici və məhkəmə hakimiyyətinə bölmək lazımdır.

Konstitusiya və qanunlarda təsbit edilən «çəkindirmə və tarazlıq» sistemi konkret dövlət həkimiyyətinə münasibətdə hüquqi məhdudiyyətlərin məcmusunu təşkil edir. Məsələn, qanunverici hakimiyyətə münasibətdə kifayət qədər sərt qanunvericilik prosesi olan hüquq prosedurasından istifadə edilir. Buraya qanunvericilik təşəbbüsü, qanun layihələrinin müzakirəsi, qəbul və dərc edilməsi aiddir. Bu sistemdə veto hüququndan istifadə edən prezident mühüm rol oynayır.

Hüquqi dövlət ideyasının əsas müddəaları aşağıdakılardır:

1) İnsan hüquq və azadlıqlarının qanunvericilikdə tanınması və real təmin edilməsi;

2) Hüquqi qanunun aliliyi;

3) Hakimiyyətlərin bölünməsi prinsipinin həyata keçirilməsi.

Hüquqi dövlətdə insan hüquqları cəmiyyətdə insanın hüquqi vəziyyəti ilə səciyyələnir. Qeyd etmək lazımdır ki, insan hüquqlarını dövlətdən kənarda təsəvvür etmək qeyri-mümkündür. Bütün dövlətlər öz vətəndaşlarına qanunlarla təsbit olunmuş hüquq və azadlıqlar verir. Belə hüquq və azadlıqların həcmi və xarakteri hər bir dövlətin iqtisadi, sosial, milli və dini xüsusiyyətlərindən, təminatı isə cəmiyyətin inkişaf səviyyəsindən asılıdır. Onu da qeyd etmək lazımdır ki, insan dövlətin deyil, dövlət insanın əməyinin

bəhrəsi olduğu üçün mövcud ictimai-siyasi quruluşundan asılı olmayaraq, insan hüquq və azadlıqları təmin olunmalıdır. Azərbaycan Respublikası Konstitusiyasının 24-cü maddəsində deyilir: "Hər kəsin doğulduğu andan toxunulmaz, pozulmaz və ayrılmaz hüquqları və azadlıqları vardır" (3, s.17)

Hüquqi dövlətin səciyyəvi əlamətlərini xarakterizə edən insan hüquq və azadlıqlarının qorunması problemi tarixən qanunvericiliklərdə təsbit olunaraq müəyyən bir inkişaf mərhələsi keçmişdir. Bu qəbildən 1215-ci ildə Böyük Britaniyada qəbul edilmiş "Böyük azadlıqlar xartiyası", 1628-ci ildə qəbul olunmuş "Hüquq haqqında Petisiya", 1689-cu ildə qəbul olmuş "Hüquqlar haqqında" Bill, 1931-ci lidə qəbul olunmuş "Vestminster statutu", 1848-ci ildə qəbul olnumuş "Xalq nümayəndəliyi haqqında Akt", 1776-cı il iyulun 4-də Filadelfiyada ABŞ konqresi tərəfindən qəbul olnumuş "İstiqlaliyyət bəyannaməsi", 1789-cu ildə Fransa burjua inqilabı dövründə qəbul olunmuş "İnsan və vətndaşların hüquq və azadalıqları haqqında" bəyannamə, 1948-ci il dekabrın 10-da BMT-nin Baş Məclisinin 3-cü sessiyasında qəbul olunmuş "İnsan hüquqları üzrə ümumi bəyannamə" ni göstərmək olar.

Hüquqi dövlətdə qanunun aliliyi təmin olunur. Belə ki, qanunverici hakimiyyət orqanı tərəfindən qəbul edilmiş qanun icra hakimiyyətinin aktları ilə ləğv edilə, dəyişdirilə bilməz. Qanunla icra orqanlarının aktları arasında ziddiyyət yarandıqda qanuna prioritet verilir. Qanunun aliliyi prinsipinin hüquqi dövlətin ən vacib əlamətlərindən biri olduğunu nəzərə almaqla, elmi ədəbiyyatda dövlətlə hüquq, hüquqla qanun arasında münasibətə dair müxtəlif baxışlar mövcuddur. (4, s.12) Bu baxışlar və ideyalar qədim zamanlardan müasir dövrədək böyük inkişaf yolu keçmişdir. Hüquqi dövlətin formalaşması üçün dövlətin fəaliyyət mexanizmi qanunlar vasitəsilə elə müəyyən edilməlidir ki, qanunu poza bilməsin və onun təsiri altında olsun.

Qanunların aliliyini təmin edən vacib amillərdən biri də onun hansı siyasi rejimdə fəaliyyət göstərməsidir. Yalnız demokratik rejimdə real işləyən qanunlar mövcud ola bilər. Qeyri-demokratik cəmiyyətlərdə qanunlar hakimiyyət orqanları tərəfindən öz məqsədlərinə uyğun dəyişdirilir, pozulur və s. Bu səbəbdən normativ-hüquqi aktların fəaliyyətinin təmin edilməsi dövlətin ən mühüm vəzifələrindən biridir. (5, s.19) Adi qanunların aliliyinin təmin edilməsində Konstitusiyanın böyük əhəmiyyəti vardır. Çünki, Konstitusiya dövlətin əsas qanunu olmaqla ictimai və dövlət həyatının hüquqi prinsiplərini özündə əks etdirir. Əsas qanunda digər qanunların ona uyğunluğu ilə bərabər onların aliliyini təmin edən şərtlər verilməlidir. (6, s.12)

Elmi ədəbiyyatda qanunla hüquq arasında münasibətə dair iki müxtəlif fikirlər mövcuddur. (4, s.9) Bu problemin həlli dövlətin mahiyyətinin başa düşülməsinə bilavasitə təsir göstərir. Qanunun hüquqla eyni olduğunu qəbul etmək dövlətin bütün aktlarını hüquqi akt kimi qəbul etmək deməkdir. Bu

isə həqiqətə uyğun deyildir. Y.A.Tixomirova görə, qanun öz anlayışına görə normativ-hüquqi aktın ali qanunverici orqan ilə bağlılığını göstərir. (7, s.26)

Hüquqilik keyfiyyəti ictimai münasibətlərə xas olan xüsusiyyətdir. Hüquqi qanunlar cəmiyyətdə mövcud olan hüquqi xarakterli münasibətləri formalaşdırmaq, yəni qanunvericilik fəaliyyətinin təsirindən keçirmək vasitəsi ilə yaranır. Qanun qeyri-hüquqi xarakter daşıya bilər. Bu halda o, ictimai münasibətlər sistemində normativ-hüquqi xarakter daşımayan münasibətləri tənzimləyir və ədalətlilik prinsipini pozmuş olur. Hüquqi dövlətdə yalnız hüquqi qanunlar fəaliyyət göstərir. Həmin qanunun hüquqiliyi onların aliliyini təmin edən amillərlə, əhalinin hüquq mədəniyyəti ilə, hüquqi tərbiyə və qanunların keyfiyyəti ilə bağlıdır.

Qanunun keyfiyyətliliyi anlayışı elmi ədəbiyyatda özünəməxsus yer tutduğunundan son zamanlar daha tez-tez alimlərin diqqət mərkəzində durur. (8, s.15) Keyfiyyətli qanun cəmiyyətdə mövcud olan obyektiv tələbata cavab verən, ictimai şüur səviyyəsinə uyğun olan qanundur. Belə qanun ictimai münasibətlərin real tənzimləyicisinə çevrilir. Keyfiyyətsiz qanunlar isə dövlət rejiminin pozulmasına gətirib çıxarır ki, bu da sosial böhranın göstəricisidir. (9, s. 21)

Hüquqi dövlətdə qanunun aliliyi ictimai həyatın bütün sahələrində təmin olunmalıdır. Qanunlar ictimai həyatın ən mühüm sahələrini nizama saldığına görə ali hüquqi qüvvəyə malikdir. Bütün digər hüquqi aktlar qanuna uyğun olmalıdır.

Şəxsiyyət və dövlətin qarşılıqlı məsuliyyəti siyasi hakimiyyətin məhdudlaşdırılması üsullarından biridir. Cəmiyyət və şəxsiyyətin azadlığını qanunla müəyyən edən dövlət öz qərarlarında və hərəkətlərində heç də qeyri-məhdud deyil. Dövlət öz rəsmi nümayəndələrinin dövlətin və dövlət orqanlarının adından etdikləri hərəkətlərə görə məsuliyyətin hüquqi ölçülərini müəyyən edir. Hüquqi dövlət öz fəaliyyətinin hüquqi məhdudiyyətlər sistemini hazırlamaqdan əlavə, həm də xalq qarşısında öz üzərinə götürdüyü vəzifələrin yerinə yetirilməsinə görə siyasi, hüquqi və mənəvi məsuliyyət daşımalıdır. Şəxsiyyətin dövlət qarşısında məsuliyyəti bundan heç də az əhəmiyyətli deyil. Hüquqi dövlət ideyasına görə dövlət və vətəndaş cəmiyyəti qarşılıqlı surətdə bir-birini idarə edirlər.

Hüquq vasitəsilə dövlət hakimiyyətinin məhdudlaşdırılması insan və vətəndaşların hüquq və azadlıqlarının tam təmin edilməsi kontekstində nəzərdən keçirilməlidir. Çünki onların hər ikisi hüquqi dövlətin mahiyyətini, iki tərəfini ifadə edirlər. Əgər sosial tərəfi formal hüquqi tərəfsiz təhlil etsək görərik ki, insan və vətəndaş hüquq və azadlıqları tam təmin edilmədən şəxsiyyət üçün hüquqi stimul rejiminin yaradılması mümkün deyildir.

Hüquqi dövləti xarakterizə edən digər mühüm cəhət hakimiyyətlərin bölünməsi prinsipinin həyata keçirilməsidir. Hakimiyyətlərin bölünməsi nəzəriyyəsi konstitusionalizmin aparıcı siyasi doktrinalarından və prinsiplərindən biridir. Onun mənşəyi XVII əsrdə İngiltərədə burjua siyasi-hüquqi nəzəriyyələrin yaradılması ilə, hər şeydən əvvəl Con Lokkun adı ilə

bağlıdır. Hakimiyyətlərin bölünməsi klassik formulasını Monteskyönin əsərlərində tapmışdır.

Hüquqi dövlət şəraitində hakimiyyətlərin bölgüsünün həyata keçirilməsinin məqsədi siyasi azadlığı təmin etməkdən, vətəndaşları hakimiyyətin özbaşınalığından və sui-istifadələrindən qorumaqdan ibarətdir. Hüquqi dövlətdə müsbət qanunlar ədalətli hüquqi münasibətləri əks etdirir. Bu baxımdan hakimiyyətlərin bölünməsi şəraitində qanun və hüquq arasında daxili qarşılıqlı əlaqə mövcuddur. Monteskyö «Qanunların ruhu haqqında» əsərində göstərmişdir ki, hüquq qanundan əvvəl gəlir, onu müəyyən edir və ədalətliliyin ifadəsidir. (10, s.79) Hobbs hesab etmişdir ki, ədalətlilik mütləq deyildir, insan ağlından, saziş, müqavilə və razılıqdan asılıdır.

Hakimiyyətlərin bölünməsi şəraitində də ədalətlilik prinsipinin tələbləri rəhbər tutulur. Hakimiyyətlərin bölünməsi nəzəri konsepsiya kimi yaransa da daimi olaraq siyasi, bəzi ölkələr də isə konstitusion prinsipə çevrilmişdir. Hakimiyyətlərin bölünməsi konstitusionalizmin və müasir idarəçilik sisteminin inkişafında başlıca rol oynayaraq hakimiyyət, onun təbiəti, təşkili və həyata keçirilməsi ilə bağlı məsələlərin hüquqi dövlət quruculuğu şəraitində həll edilməsində xüsusi əhəmiyyət kəsb etsə də, effektiv və sabit siyasi sistemin yaradılması üçün əsas ola bilməz. Buna görə də hakimiyyətlərin bölünməsi qarışıq idarəetmə nəzəriyyəsi, «hakimiyyətlərin tarazlığı» ideyası, «əksdurma və çəkindirmə» konsepsiyası ilə qarşılıqlı əlaqədədir.

Dövlət hakimiyyəti orqanları arasında qarşılıqlı münasibətlərin konstitusion forması, onların formalaşdırılması şərtləri və fəaliyyəti qaydası tarixi xüsusiyyətlərlə, milli ənənələrlə, iqtisadi, siyasi və sosial dövlət quruluşları ilə sıx əlaqədardır. Hüquqi dövlətin əsas elementi kimi hakimiyyətlər aşağıdakı əsas müddəaları özündə birləşdirir:

1. Dövlət hakimiyyəti qanunverici, icaredici və məhkəmə hakimiyyətlərinə ayrılır;
2. Hakimiyyətlərin bir-biri üzərində nəzarəti mövcud olar;
3. Hakimiyyətlər nisbi müstəqillidirlər;
4. Hakimiyyətlər bir-birinin işlərinə qarışmırlar, öz fəaliyyətlərini yalnız qanunla dəqiq müəyyən olunmuş səlahiyyət çərçivəsində həyata keçirirlər.

Qanunvericilik hakimiyyəti parlament tərəfindən həyata keçirilir. Parlament özünü nümayəndəli dövlət hakimiyyəti orqanı kimi təqdim edir. Qanunvericilik hakimiyyəti suverenliklə sıx bağlıdır və bütün suveren xalqın iradəsi olduğundan hamıya aid olan ümumi xarakterli məsələləri nizama salmalıdır. İcra hakimiyyəti suveren xalqın qərarı ilə siyasi orqanizm kimi müəyyən olunur. Xalq bu hakimiyyətin həyata keçirilməsini konkret səlahiyyətli şəxslərə tapşırır. Onların fəaliyyəti isə qanunvericilik hakimiyyətinin ciddi nəzarəti altındadır. Müasir hüquqi dövlətdə icra hakimiyyətinə baş nazir və ya prezident rəhbərlik edirlər ki, onlar da seçkilər yolu ilə xalq və ya parlament tərəfindən seçilirlər. Hüquq məhdudlaşdırıcı imkanlara malik olan məhkəmə hakimiyyəti də dövlət hakimiyyətinin bir qolu qismində

çıxış edir. Xalq suveren dövlət hakimiyyətinin vahid və bölünməz mənbəyi olduğundan hüquqi dövlətdə hakimiyyətin ayrı-ayrı qollarının formalaşmasında mühüm rol oynayır.

İstifadə olunmuş ədəbiyyat

1. Платон. Сочинения. Т. 3, М., 1972.
2. Аристотель. Политика. М., 1971.
3. Azərbaycan Respublikası Konstitusiyası. B., 1997.
4. Ливщиц Р.З. Государство и право в современном обществе: необходимость новых подходов. М., 1990.
5. Р.О.Халфина. Необходимые условия действенности права. М., 1990.
6. М.Беглец. Правовое государство от идей к практике. М., 1983.
7. Ю.А.Тихомиров. Теория закона. М., 1982.
8. Б.В.Дрейшев. Проблемы обеспечения качества закона. Л., 1988.
9. Н.В.Сильченко. Количественные соотношения между видами актов и проблемы теории закона. М., 1988.
10. А.М.Барнашов. Теория разделения властей: становление, развитие, применение. Томск, 1988.

Мираферим СЕИДОВ

ОСНОВНЫЕ ПРИЗНАКИ ПРАВОВОГО ГОСУДАРСТВА

Резюме

Правовое государство как особое звено политической системы общества располагает специальным аппаратом управления и принуждения. Правовое государство в отличие от других негосударственных организаций – составных частей политической системы общества располагает разветвленной системой юридических средств. Обладая государственно-властными полномочиями, различные государственные органы не только создают в рамках своих компетенций соответствующие нормативно-правовые акты, но и обеспечивают их реализацию путем применения мер воспитания, поощрения или убеждения. Государственные органы осуществляют постоянный контроль за их точным соблюдением, применяют в необходимых случаях меры государственного принуждения.

Правовое государство обладает суверенитетом. Суверенность государственной власти правового государства заключается в верховенстве по отношению ко всем гражданам и образуемым ими негосударственным организациям внутри страны и независимости государства вовне, в проведении внешней политики и в построении отношений с другими государствами.

Следует выделить, прежде всего, такую особенность правового государства, как верховенство закона. В соответствии с данным принципом

ни один государственный орган, должностное лицо, коллектив, государственные или общественные организации, ни один человек не освобождается от обязанностей подчиняться закону.

Среди других особенностей правового государства следует указать на такие, как полная гарантированность и незыблемость в нем прав и свобод граждан, а также установление и поддержание принципа взаимной ответственности гражданина и государства.

В числе важнейших принципов правового государства выступает создание и поддержание в обществе режима демократии, законности и конституционности, предотвращение попыток узурпации власти, сосредоточения ее в одних или нескольких руках.

Среди существующих условий и предпосылок для формирования и функционирования правового государства следует называть наличие в стране гражданского общества.

Важной особенностью правового государства является реализация принципа разделения власти. Это законодательная, исполнительная и судебная власти. Законодательная власть должна принадлежать парламенту, исполнительная – правительству, а судебная – суду.

Miraferim SEYIDOV

MAIN ATTRIBUTES OF CONSTITUTIONAL STATE

Summary

The constitutional state as an important link of the political system of society has a special machinery of control and enforcement. In contrast to other non-government organizations and components of political system of society the constitutional state has branched system of legal instruments.

The different state structures having state authoritative power not only issue corresponding statutory-legal acts within the limits of their authorities, but also ensure the realization of those acts by applying measures of training, encouragement and belief. State structures carry out continuous control over correct observance of laws and apply coercive measures in necessary cases.

The constitutional state has sovereignty like other states. Sovereignty of state power of the constitutional state lies in supremacy of law against all citizens and non-government organizations established by them in the country, as well as independence of the state outwards, in carrying out foreign policy and in building relations with other states. The supremacy of law should be marked out first of all as a characteristic of the constitutional state.

In accordance with given principle neither state structure nor public officer, team, state or social organizations and none person can escape from responsibility to obey the law.

Full guarantee and firmness of rights and liberties of citizens, as well as establishment and maintenance of the principle of mutual responsibility of the citizen and the state should be pointed out between other particularities of the constitutional state.

Establishment and maintenance of democratic regime, course of law, constitutionality in society, and prevention of accroachment and concentration of power in one or several hands are important principles of the constitutional state.

Presence of civil society in the country should be pointed out as an important part of existing preconditions for formation and operation of the constitutional state.

The realization of the principle of separation of powers is important characteristic of the constitutional state. These are legislative, executive and judicial authorities. The legislative authority must belong to the parliament, executive authority to the government and judicial authority to the court.

Xanlar VƏLİYEV
FSHTİ-nun doktorantı

APELLYASİYA İNSTANSİYASI MƏHKƏMƏSİNDƏ İCRAAT ZAMANI İTTİHAM TƏRƏFİNƏ İMTİYAZLI STATUS MÜƏYYƏN EDİLMƏMƏLİDİR

Azərbaycan Respublikasının yeni Cinayət-Prosesual Məcəlləsinin qüvvəyə minməsi ilə əlaqədar olaraq, cinayət-mühakimə icraatı prosedurunun və məhkəmənin prosessual vəziyyətinin köklü sürətdə dəyişməsi, habelə cinayət prosesində şəxsiyyətin hüquqlarının təminatının gücləndirilməsi cinayət-prosessual fəaliyyətin əsas iştirakçılarının qarşılıqlı münasibətlərinə əhəmiyyətli dərəcədə təsir etmişdir.

Nəzərdən keçirilən qarşılıqlı əlaqələrin mühüm komponentlərindən biri də, effektiv nəticələri şərtləndirən qarşılıqlı fəaliyyətə nail olmaqdan ötrü cinayət prosesi iştirakçılarının səlahiyyətlərinin düzgün müəyyənləşdirilməsi vasitəsilə, cinayət prosesində ədalət mühakiməsinin səmərəliliyinin təmin olunmasından ibarətdir.

Məlum olduğu kimi, istənilən qarşılıqlı əlaqənin başlıca şərti qarşılıqlı fəaliyyətdə olan subyektlərin funksiyalarını dəqiq və dürüst bölməkdə, onların müəyyən nəticəyə gəlməkdə müstəqilliyində digər subyektin səlahiyyətlərinə müdaxiləyə imkan verilməməsində ifadə olunur. (1, s.52)

Yeni qəbul olunmuş CPM üzrə cinayət-mühakimə icraatı iştirakçılarının, o cümlədən məhkəmə və prokurorun qarşılıqlı əlaqələrinin həllini və bu konteksdə onların səlahiyyətlərinin həddini müəyyən etməyi tələb edən məsələlərdən biri də apellyasiya instansiyasında Azərbaycan Respublikası Baş prokurorunun apellyasiya protestinə əsasən keçirilən icraatla bağlıdır.

Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına əlavələr və dəyişikliklər edilməsi haqqında 2 iyul 2001-ci il tarixli Azərbaycan Respublikasının Qanununa əsasən Azərbaycan Respublikası CPM-nin 391.8.11-ci maddəsinə əlavə olunmaqla, Apellyasiya Məhkəməsində ilkin baxılması mərhələsində Azərbaycan Respublikası baş prokurorunun apellyasiya protestinə baxılmasına xitam verilməsi və cinayət işinin, məhkəməyədək sadələşdirilmiş icraat materiallarının birinci instansiya məhkəməsinə qaytarılması haqda prosedur qayda müəyyən olunmuşdur.

Orada deyilir:

«391.8 Bu Məcəllənin müddəalarının aşağıdakı kobud pozuntularına yol verildiyi hallarda apellyasiya instansiyası məhkəməsi apellyasiya şikayətinə və apellyasiya protestinə baxılmasının xitam verilməsi və cinayət işinin, məhkəməyədək sadələşdirilmiş icraat materiallarının və ya xüsusi ittiham qaydasında şikayət üzrə materialların birinci instansiya məhkəməsinə qaytarılması haqqında qərar çıxarır…

391.8.11.. Azərbaycan Respublikasının baş prokuroru birinci instansiya məhkəməsində dövlət ittihamçısı tərəfindən müdafiə edilmiş ittihamla

müqayisədə daha ağır cinayət üzrə ittihamın irəli sürülməsinə tərəfdar çıxdıqda».

Göstərilən əlavəyə, qanun yaradıcılığı metodologiyası və texnologiyası baxımından yanaşdıqda, bəzi anlaşılmaz məqamlarla rastlaşmalı oluruq.

Ümumiyyətlə, hər hansı hüquq sisteminə mövcud təcrübənin ümumiləşdirilməsi və təhlili əsasında elmi cəhətdən işlənib hazırlanmamış, əvvəlcədən «ölçülüb-biçilməmiş», digər normalara uyğun olmayan hüquqi tənzimetmə qaydalarının müdaxilə etməsi hüququn nüfuzuna və həyatiliyinə olan inamın itirilməsini şərtləndirən amillərdir.

Nəzərə almaq lazımdır ki, belə yanaşma tərzi ictimai münasibətlərin cinayət prosesi kimi əhəmiyyətli sahəsində hüquqi tənzimetmənin keyfiyyət göstəricilərində özünü daha bariz təzahür etdirir.

Həm də, yuxarıda qeyd olunduğu kimi, qanunvericiliyə edilən hər hansı əlavə və ya dəyişiklik qanun yaradıcılığı texnologiyası nöqteyi-nəzərindən düzgün formulə edilməli, istər mətninə daxil edildiyi normaya uyğunluğu baxımından, istərsə də özünün məzmununun tamlığı və anlaşıqlılığı nöqteyi-nəzərindən irəli sürülən tələblərə cavab verilməlidir.

Bu baxımdan CPM-nin 391.8.11-ci maddəsinə olunmuş göstərilən əlavəni heç də əsaslı və uğurlu hesab etmək mümkün deyildir.

Əvvəla, həmin əlavə qanunvericilik texnologiyası nöqteyi-nəzərindən istənilən halda göstərilən maddədə verilməli deyildi.

Belə ki, CPM-nin 391.8-ci maddəsində göstərilir ki, birinci instansiya məhkəməsində məhkəmə baxışı: həmin Məcəllənin 303.3-cü maddəsinin tələbləri pozulmaqla keçirildikdə, 391.6-cı maddədə göstərilən pozuntulardan hər hansı birini aradan qaldırmadıqda, məhkəmə aidiyyətinin qaydaları pozulmaqla, özünə etiraz etmiş və ya etiraz edilmiş hakimin qanunsuz iştirakı ilə, hakimlərin tərkibinin dəyişməzliyi barədə tələblər pozulmaqla, təqsirləndirilən şəxsin müdafiə hüquqlarının və ya onun sərbəst bildiyi dildən və tərcüməçinin köməyindən istifadə etmək hüququnun pozulması ilə, dövlət ittihamçısının, təqsirləndirilən şəxsin və ya onun müdaifəçisinin iştirakına dair tələblərin pozulması ilə, təqsirləndirilən şəxsə və zərər çəkmiş şəxsə, dövlət ittihamçısına məhkəmə çıxışları, təqsirləndirilən şəxsə isə, həmçinin son sözlə çıxış etmək imkanının yaradılması və ittihamın hüdudları barədə tələblərin pozulması ilə keçirildikdə, birinci instansiya məhkəməsinin hökm və ya qərarı hakimlər tərəfindən bu Məcəllənin 352.5 və 352.6-cı maddələrinin tələblərinə müvafiq surətdə imzalanmadıqda, apellyasiya instansiya məhkəməsi apellyasiya şikayətinə və apellyasiya protestinə baxılmasının xitam verilməsi və cinayət işinin, məhkəməyədək sadələşdirilmiş icraat materialların birinci instansiya məhkəməsinə qaytarılması haqda qərar çıxarır.

Maddənin özündə də qeyd olunduğu kimi, həmin norma birinci instansiya məhkəməsində məhkəmə baxışı zamanı prosessual qanunun kobud pozuntuları hallarında tətbiq olunur.

Başqa sözlə, bunlar birinci instansiya məhkəmə baxışında prosessual qanunvericiliyin elə əhəmiyyətli şəkildə pozulmasıdır ki, həmin pozuntuların

mövcudluğu birinci instansiya məhəkəməsinin iş üzrə çıxardığı yekun qərarın (hökmünün) şərtsiz ləğvinə əsas verməklə, apellyasiya məhkəməsinin işə mahiyyət üzrə baxmasını istisna edir.

Azərbaycan Respublikası Baş prokurorunun birinci instansiya məhkəməsinə dövlət ittihamçısı tərəfindən müdafiə edilmiş ittihamla müqayisədə daha ağır cinayət üzrə ittihamın irəli sürülməsinə tərəfdar çıxması isə, ümumiyyətlə, cinayət-prosessual qanunun müddəalarının hər hansı şəkildə pozulması hesab oluna bilməz.

Odur ki, hətta həmin məsələylə bağlı qanunvericiliyə əlavə edilməsi zəruri olsaydı belə, göstərilən əlavə, CPM-nin 391.8-ci maddəsinin mətninə daxil olunmamalıydı.

İkincisi, CPM-nin 391.8.11-ci maddəsinə əlavə olunmuş mətnin özü natamamdır. Belə ki, istənilən halda burada söhbət ibtidai araşdırmaların nəticəsində irəli sürülmüş ittiham həddindən artıq olmayan ittihamın irəli sürülməsindən gedə bilər. Odur ki, əgər qanuna olunmuş həmin əlavə zərurətdən yaranmış olsaydı belə, aşağıdakı məzmunda formulə edilə bilərdi:

«Azərbaycan Respublikasının baş prokuroru birinci instansiya məhkəməsində dövlət ittihamçısı tərəfindən müdafiə edilmiş ittihamla müqayisədə daha ağır cinayət üzrə ittihamın (həmin iş üzrə ibtidai araşdırmalar nəticəsində verilmiş ittihamın həddi daxilində) irəli sürülməsinə tərəfdar çıxdıqda».

Nəhayət, əgər həmin norma cinayət-prosessual qanunvericiliyinə əlavə edilərkən, məhkəmədə dövlət mənafeyini təmsil edən prokurorluğun aşağıdan-yuxarıya Azərbaycan Respublikası Baş Prokuroruna tabeçiliyini nəzərdə tutan vahid mərkəziyyət prinsipi əsasında fəaliyyət göstərməsi əsas götürülmüşdüsə, onda problemin həlli üçün məntiqi və praktik nöqteyi-nəzərdən elə əsaslı və səmərəli variant seçilməli idi ki, CPM-nin 25-ci maddəsi ilə müəyyən olunmuş məhkəmənin müstəqilliyi prinsipi pozulmasın.

Vaxtilə Rusiya Federasiyasının CPM-nin layihə üzrə oxşar problemin həlli məqsədilə verilmiş təklifdə qeyd olunurdu ki, prokurorun ittihamdan imtina etməsiylə əlaqədar olaraq, məhkəmənin yekun qərarında protest verilməsinə qadağa qoyulduğuna görə, dövlət ittihamçısının birinci instansiya məhkəməsinə ittihamdan imtina etməsi haqda mövqeyinin əvvəlcədən yuxarı prokurorla razılaşdırılması barədə qanunda müvafiq norma müəyyən olunsun. (2, s.6)

Güman edirik ki, birinci instansiya məhkəməsində dövlət ittihamını müdafiə edən prokurorun ittihamdan imtina etmək və ya ibtidai araşdırmalar nəticəsində təqsirləndirilən şəxsə qarşı irəli sürülmüş ittihamdan daha yüngül ittiham irəli sürmək haqda mövqeyinin əvvəlcədən yuxarı prokurorla (Azərbaycan Respublikasının Baş Prokuroru və ya onun müavini ilə) razılaşdırmalı olması barədə qanunvericiliyə müvafiq norma daxil edildiyi təqdirdə, şərh olunan əsasa görə, birinci instansiya məhkəməsinin yekun qərarından apellyasiya protesti verilməsinə lüzum olmazdı.

Göstərilən irad xarakterli mülahizələr CPM-nin 391.8.11-ci maddəsinə olunmuş əlavəyə aid olsa da, əsas məqsədimiz bundan ibarət olmayıb,

ümumiyyətlə, qeyd olunan əlavənin qüvvədə olan cinayət-prosessual qanunun ümumi müddəalar müəyyən edən normalarına zidd olduğu barədəki mülahizələri şərh etməkdən ibarətdir.

Zənnimcə, aşağıdakı səbəblərə görə, həmin əlavə cinayət prosesində çəkişmə prinsipinə əsaslanan funksiyaların prosesdaxili bölgüsünə, habelə cinayət prosesinin bir sıra subyektlərinin müstəqillyinə və tərəflərə bərabər hüquq və imkanlar müəyyən edən müddəalara zidd olduğundan qanunvericilikdən çıxarılmalıdır.

Birinci, funksiyaların prosesdaxili bölgüsü doktrinasına uyğun olaraq, cinayət mühakimə icraatı gedişində (istər birinci instansiya məhkəməsində, istərsə də apellyasiya instansiyası məhkəməsində) cinayət işi və məhkəməyədək sadələşdirilmiş icraat materialları üzrə toplanmış sübutların mənsubiyyəti, mümkünlüyü və mötəbərliyinə son qiyməti məhkəmə verməklə, işi mahiyyəti üzrə həll edərək, yekun qərar qəbul edir (CPM-nin 25;32;33 və b.maddələri). Həm də, məhkəmə cinayət işinə və məhkəməyədək sadələşdirilmiş icraatın materiallarına yalnız təqsirləndirilən şəxsə qarşı irəli sürülmüş ittiham daxilində baxa bilər (CPM-nin 318.1-ci maddəsi).

Digər tərəfdən, cinayət təqibini (ittihamı) həyata keçirən prokuror (konkret halda dövlət ittihamçısı) cinayət işinin bütün hallarının tədqiqi nəticəsinə, o cümlədən birinci instansiya mərhələsində məhkəmə baxışı zamanı məhkəmə istintaqında tədqiq edilmiş sübutlara əsaslanaraq, yalnız qanunun tələblərini və daxili inamını rəhbər tutur (CPM-nin 84.1, 314.2-ci maddələri).

Bu isə, o deməkdir ki, məhkəmə istintaqında iş üzrə məhkəməyədək icraat gedişində ittiham tərəfinin görmədiyi və ya güman etmədiyi elə hallar müəyyən oluna bilər ki, onlar dövlət ittihamçısını təqsirləndirilən şəxsə qarşı ibtidai araşdırmaların nəticəsində irəli sürülmüş ittihamı yüngülləşdirməyə vadar edə bilər.

Həm də, qanunvericilik ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun yuxarı prokurorun göstərişlərini yerinə yetirməsi haqda norma müəyyən etdiyi halda (CPM-nin 84.8-ci maddəsi), dövlət ittihamçısı üçün belə norma müəyyən etməmişdir ki, bunu da qanunun tələbləri və özünün daxili inamı çərçivəsində dövlət ittihamçısının müstəqilliyinin təminatı qismində qəbul etmək olar.

Belə olan vəziyyətdə, birinci instansiya məhkəməsinin işin həlli üzrə məhkəmə baxışının son nəticəsi kimi qəbul etdiyi yekun qərarından (konkret halda birinci instansiya məhkəməsinin hökmündən) ittihamın yüngllüyünə görə Azərbaycan Respublikası Baş Prokurorunun verdiyi apellyasiya protestinə Apellyasiya məhkəməsində ilkin baxılmaqla, yəni apellyasiya protestini apellyasiya instansiya məhkəməsinin baxışına təyin etmədən həll olunması göstərilən prosedur qaydalarla tam ziddiyyət təşkil edir və faktiki olaraq apellyasiya instansiya məhkəməsi işin həlli funksiyasını deyil, ittiham tərəfinin sifarişinin icraçısı fəaliyyətini yerinə yetirməklə, Azərbaycan Respublikası Baş prokurorunun iradəsini əks etdirən apellyasiya protesti adlı prosessual sənədi məhkəmənin qərarı adı altında qəbul edir. Halbuki, apellyasiya məhkəməsi bir

məhkəmə olaraq, apellyasiya protestinə məhkəmə baxışı gedişində cinayət prosesinin digər iştirakçılarının iştirakıyla, CPM-nin 394-cü maddəsinə uyğun surətdə mahiyyət üzrə baxmalıdır. Əks təqdirdə, hansı əsasla məhkəmənin müstəqil olmasını və işi həll etmək funksiyasını yerinə yetirdiyini iddia etmək olar?

Bundan əlavə, cinayət mühakimə icraatında ittihama əks olan müdafiə tərəfi də iştirak edir. Təqsirləndirilən şəxsin hansı həddə və həcmdə cinayət məsuliyyəti daşıması məsələsini prokurorun səlahiyyət dairəsinə daxil etmək ədalət mühakiməsinin mahiyyətinə ziddir. Halbuki, prosessual hüquq lazım olan hər bir şəraiti yaratmalıdır ki, cinayət prosesinin subyekti əks tərəfin hüquqi statusu və spesefik keyfiyyətlərindən asılı olmayaraq, özünün hüquq və qanuni mənafeyini uğurla müdafiə etmək imkanlarına malik olsun. (3, s.61)

Bunu hər bir tərəfin məhkəmədə öz mövqeyini müdafiə etmək üçün bərabər hüquqlara və imkanlara malik olduğunu normalaşdıran CPM-nin 32.2.2-ci maddəsi də tələb edir. Lakin, CPM-nin 391.8.11-ci maddəsinə olunmuş əlavə göstərilən vəziyyətdə müdafiə tərəfini, o cümlədən təqsirləndirilən şəxsi həmin hüquqlar və imkanlardan məhrum etmişdir.

Halbuki, CPM-nin istər həmin norması, istərsə də yuxarıda sadaladığımız digər normaları ümumi başlanğıclar müəyyən edən prosedur qaydalar olmaqla, qeyd-şərtsiz cinayət-mühakimə icraatının bütün mərhələlərinə, o cümlədən apellyasiya instansiyası məhkəmə icraatına da aiddir.

Problemin diqqəti özünə cəlb edən daha bir məqamı da vardır. Belə ki, CPM-nin 391.10-cu maddəsinə görə, həmin Məcəllənin 391.8-ci maddəsində nəzərdə tutulmuş hallarda apellyasiya instansiyası məhkəməsi göstərilən qanunun yol verilmiş kobud pozuntularına dair xüsusi qərar çıxara bilər və həmin qərarı müvafiq şəxslərə göndərilməlidir.

Nəzərdən keçirdiyimiz halda belə qərar birinci instansiya məhkəməsində dövlət ittihamını müdafiə etmiş prokuror haqqında çıxarılmaqla, Azərbaycan Respublikasının Baş Prokuroruna göndərilməlidir.

Lakin, yuxarıda da şərh olunduğu kimi, dövlət ittihamçısının birinci instansiya məhkəməsində ittihamla bağlı mövqeyini (hətta bu mövqe yanlış olsa da) CPM-nin kobud şəkildə pozulması kimi qiymətləndirmək mümkün deyildir.

Deməli, CPM-nin 391.8.11-ci maddəsinə yuxarıda göstərilən məzmunda edilmiş əlavə həm də, birinci instansiya məhkəməsində ittihamı müdafiə etmiş dövlət ittihamçısının əsassız olaraq intizam qaydasında tənbeh olunması üçün şərait yaradır.

Odur ki, yuxarıda göstərilən mülahizələrə əsaslanaraq, hesab edirik ki, CPM-nin 391.8.11-ci maddəsinə olunmuş əlavənin qanunvericilikdən çıxarılması düzgün olardı.

Beləliklə, deyilənlərə yekun vuraraq, göstərmək lazımdır ki, yeni cinayət-prosessual qanunvericilik bütövlükdə cinayət-mühakimə icraatının demokratikləşdirilməsi prosesində irəliyə doğru atılmış böyük addım olsa da, bir sıra məsələlər üzrə onun müvafiq normalarının təkmilləşdirilməsi zəruridir.

İstifadə olunmuş ədəbiyyat

1. Кобзарев Ф. Взаимодействие основных участников уголовного судопроизводства: новые процессуальные условия и организационные потребности; Российская юстиция, 2003, № 12.

2. Ананьин А. Проект УПК требует серьёзной доработки. От версии Вячеслава Киселёва к варианту Елены Мизулиной. Российская юстиция, 2000, № 10.

3. Топорнин Б.Н. Развитие судебной власти в России: общие подходы. В сб.: Судебная реформа: проблемы и перспективы. М., 2001, В сб.: Судебная реформа: проблемы и перспективы. М., 2001.

Ханлар ВЕЛИЕВ
К.ю.н.

В СУДЕ АПЕЛЛЯЦИОННОЙ ИНСТАНЦИИ ВО ВРЕМЯ СУДПРОИЗВОДСТВА НЕ ДОЛЖНЫ ОПРЕДЯЛЯТЬ ЛЬГОТНОЕ ПОЛОЖЕНИЕ СТОРОНЕ ОБВИНЕНИЯ

Резюме

В статье было обосновано предложение о снятии статьи 391.8.11 введенной в УПК Азербайджанской Республики 02.07.2001 г., которая гласит «или Генеральный Прокурор Азербайджанской Республики выходит с предложением о предъявлении более тяжкого обвинения в сравнении с тем, который был поддержан государственным обвинителем в суде первой инстанции».

Khanlar VELIYEV

AT THE COURT OF APPEAL THEY COULD NOT DETERMİNE THE PREFRENTİAL STATUS ON SİDE OF PROSECUTİON

Summary

İn the article there is grounded a with drawal of the expression «and or when General Procurator of Azerbaijan Republic becomes supporter of more severe prosecution in somparison with the prosecution defended by the state prosecutor at the court of first instance» introduced into the article 391.81.11 of Criminal Code by the law of Azerbaijan Republic dated 02.07.2001.

Şəlalə HƏSƏNOVA
AMEA-nın Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutunun "Cinayət Hüququ və cinayət prosesi" şöbəsinin elmi işçisi h.e.n.

DƏLƏDUZLUQ CINAYƏTLƏRININ BƏZI MƏSƏLƏLƏRI

Azərbaycan Respublikası Konstitusiyasının 13-cü maddəsinin 2-ci hissəsinə əsasən, dövlət, bələdiyyə və xüsusi mülkiyyət formaları eyni surətdə tanınır və müdafiə edilirlər. Maddə ilə təmin edilən mülkiyyət formalarının hüquqi bərabərliyi, onların bərabər şəkildə tanınması qanunla qadağan edilməmiş bütün təsərrüfat formalarının və qanunla tanınan mülkiyyət hüquqlarının bərabər şəkildə tanınması və icazə verilən bütün üsul və vasitələrlə bərabər müdafiə olunmaları, habelə sosialist, xüsusən də dövlət mülkiyyətinin müdafiəsində əvvəllər mövcud olan imtiyazlardan fərqli olaraq, müəyyən təsərrüfat formaları və ya subyektləri üçün qanunvericiliklə hər hansı bir imtiyaz və ya məhdudiyyət qoyulmasının mümkünsüzlüyü deməkdir. (1, s.64)

Hüquq və azadlıqlar sadəcə bəyan edilmir, onlar cəmiyyətin və dövlətin əlində olan bütün vasitələrlə təmin edilir və mühafizə olunurlar. Mülkiyyət hüququnun təminatı (vətəndaşların digər hüquq və azadlıqları kimi) öz xarakterlərinə görə müxtəlifdirlər: onlar iqtisadi, siyasi, təşkilati və hüquqi ola bilərlər. Mülkiyyətin hüquqi təminatına xüsusi diqqət verilməlidir. Mülkiyyət hüququnun müdafiəsi hüququn müxtəlif sahələri əsasında həyata keçirilir. Onların sırasında cinayət hüququnun normaları böyük rol oynayır. (2, s.151)

Hazırkı dövrdə bu müddəa qanunvericilik təcrübəsində, yəni Azərbaycan Respublikası Cinayət Məcəlləsinin qüvvəyə minməsi ilə öz birbaşa təsdiqini tapmışdır. Azərbaycan Respublikası CM-nin 2-ci maddəsi vəzifələr sırasında dəyərlər iyerarxiyasında vətəndaş hüquq və azadlıqlarından sonra ikinci yerdə duran mülkiyyətin mühafizəsini göstərir. İqtisadiyyat sahəsindəki cinayətlərə həsr edilmiş Azərbaycan Respublikası CM-nin VIII fəsli (bundan sonra CM) Azərbaycan qanunvericiliyi üçün ənənəvi olan «mülkiyyət əleyhinə cinayətlər» fəslini ehtiva edir.

Dələduzluq bütün dünyada keçmişdən hamıya məlum olan cinayətdir. Bir çox müasir dövlətlərin cinayət qanunvericiliyi öz normalarında dələduzluğu mülkiyyət əleyhinə yönəlmiş cinayətlərdən biri kimi nəzərdə tutmuşdur. Dələduzluğun xarici dövlətlərin cinayət qanunlarında verilən anlayışları əsasən eynidirlər. Lakin eyni zamanda konkret dövlətin sosial, iqtisadi, hüquqi və digər xüsusiyyətlərinə müvafiq olan müəyyən fərqli cəhətlərə malikdirlər. Məsələn, Fransanın cinayət qanunvericiliyi dələduzluq törədən şəxsin hərəkətini belə təqdim edir (CM-nin 405-ci maddəsi): «yalan ad və rütbədən istifadə etməklə, yaxud yalançı vasitələrə əl atmaqla yalançı müəssisələrin, yalançı hakimiyyətin və ya kreditin olmasına inandırmaq məqsədilə, və yaxud hər

hansı bir nailiyyət, hadisə və ya digər yalançı hadisə haqqında ümid və ya qorxu yaratmaq məqsədilə pulların, daşınan əmlakın və ya istiqrazların, sərəncamların, veksellərin və s. verilməsi və ya ötürülməsinə məcbur etmə… və bu üsulla digər şəxsin mülkiyyətinin tam və ya bir hissəsini ələ keçirmə». Fransız qanunvericiliyi dələduzluqla etibardan sui-istifadəni bir birindən fərqləndirir və sonuncunu ayrı maddədə nəzərdə tutur. (3, s.112)

Almaniya Federativ Respublikasının CM-də dələduzluğun əsas tərkibi kimi «özü və ya üçüncü şəxs üçün qanunsuz maddi mənfəət əldə etmək məqsədilə yalan faktları həqiqət kimi təqdim etməklə, və yaxud həqiqi faktları təhrif etməklə və ya gizlətməklə özgəni aldatmaq və ya onu aldadılmış vəziyyətdə saxlamaq yolu ilə həmin şəxsin əmlakına ziyan vurmaq» hərəkətini nəzərdə tutur. (4, s.263)

Amerika ştatlarının məcəllələri dələduzluğu oğurluq və mənimsəmə ilə yanaşı daha geniş mövhum olan talamanın forması kimi nəzərdə tuturlar. Lakin dələduzluq hərəkətlərinin bir neçə növü bu məcəllələrlə müstəqil cinayətlərə ayrılırlar (məsələn, kreditorların aldadılması). (5, s.300)

Rusiya Federasiyasının cinayət qanunvericiliyində dələduzluq «aldatma və ya etibardan sui-istifadə yolu ilə özgə əmlakını talama» kimi müəyyən edilib (RF CM-nin 159-cu maddəsi).

Dələduzluq mülkiyyət əleyhinə cinayət kimi 1927-ci il Azərbaycan SSR CM-də təsbit edilmişdir. Dövlətdə mülkiyyətin fərqləndirilməsinə müvafiq olaraq, dələduzluğa görə də məsuliyyət fərqləndirilirdi: CM-nin 213-cü maddəsinin I hissəsi vətəndaşların fərdi mülkiyyəti əleyhinə dələduzluğu, 213-cü maddənin II hissəsi isə dövlət və ya ictimai idarəyə ziyan vuran dələduzluğu nəzərdə tuturdu. (6, s.200)

04 iyun 1947-ci ildə SSRİ Ali Sovetinin Rəyasət Heyətinin «Dövlət və ictimai mülkiyyətin talanmasına görə cinayət məsuliyyəti haqqında» Fərmanı qəbul edilmişdir. Bu talamaya görə məsuliyyət nəzərdə tutan yeganə akt oldu (1926-cı il CM-nin müvafiq maddələri tətbiq edilmirdilər). Fərman talama formalarını müfəssəl olaraq sadalamırdı. Lakin təcrübədə formaların ayrılması (o cümlədən dələduzluğun da) CM-nin maddələrinə müvafiq olaraq həyata keçirilirdi (tövsif zamanı onlara istinad etməməklərinə baxmayaraq). Onun qüvvəsi 1958-ci ildə 25 dekabr tarixli «SSR İttifaqının və ittifaq respublikaların cinayət qanunvericiliyinin Əsasları»nın və 01 mart 1961-ci ildə qüvvəyə minmiş 08 dekabr 1960-cı il tarixli Azərbaycan SSR Cinayət Məcəlləsinin qəbul edilməsilə başa çatmışdır. (7, s.224)

Azərbaycanın ictimai həyatının siyasi, iqtisadi və sosial sahələrində baş verən dəyişikliklərlə əlaqədar dövlətin qanunvericilik bazası dəyişdirilmiş, obyektiv gerçəkliyin tələblərinə uyğunlaşdırılmışdır. Cinayət qanunvericiliyində bu konkret olaraq 30 dekabr 1999 ildə yeni Cinayət Məcəlləsinin (01 sentyabr 2000-ci ildə qüvvəyə minmişdir) qəbul edilməsilə öz təzahürünü tapmışdır. Bu məcəllə Azərbaycan Respublikasının Konstitusiyasına və bura-

da təsbit edilmiş və demokratik hüquqi dövlətlərdə mövcud olan sosial dəyərlərə əsaslanır. Burada onu köhnə Cinayət Məcəlləsindən fərqləndirən bir sıra prinsipial müddəalar vardır. Yeni məcəllə, birinci növbədə, şəxsiyyətin, daha sonra isə cəmiyyət və dövlətin müdafiəsinə yönəlmişdir. Ümumilikdə, Məcəllə Azərbaycanda təşəkkül tapmış kriminal şəraitə uyğundur, onun quruluşuna hüquq mühafizə orqanlarının cinayətkarlığın yeni formaları və növləri ilə (məsələn mütəşəkkil cinayətkarlıq, iqtisadiyyat sahəsi və sair) mübarizə işini təmin etmək məqsədini daşıyan yeni fəsillər, maddələr daxil edilmişdir.

Cinayət Məcəlləsinin IX «İqtisadi sahədə cinayətlər» bölməsini 23-cü «Mülkiyyət əleyhinə cinayətlər» fəsli açır. Burada dələduzluğun anlayışı və ona görə məsuliyyət müəyyən edən 178-ci maddə nəzərdə tutulmuşdur.

Bu cinayət-hüquqi normanın dispozisiyası üç hissədən ibarətdir: 1-ci hissədə əsas tərkib, 2-ci hissədə tövsifedici tərkib, 3-cü hissədə isə xüsusilə tövsifedici tərkib nəzərdə tutulmuşdur.

İqtisadiyyatın bazar inkişafı yoluna keçdiyi mərhələdə dələduzluq mülkiyyət əleyhinə cinayətlərin ən geniş yayılmış növünə çevrilir. Dələduzluq hər hansı bir maddi obyektin (əşya, pul, qiymətli kağızlar) özgə sahibliyindən təqsirkar tərəfindən mülkiyyətçinin və ya digər şəxslərin xeyrinə ələ keçirilməyərək özgə əmlakına dair hüququn əldə edilməsi ilə bağlı ola bilər.

Dələduzluq yolu ilə özgə əmlakına tələb etmə hüququnu (bank əmanətinə, nağdsız pullara, girov qoyulmuş əmlaka və s.) əldə etmək olar.

Aldatma yolu ilə xidmət və işlərin əldə edilməsi, maddi xarakterli öhdəliklərin icra edilməsindən, verilməli olan əşyanın verilməsindən imtina etmə dələduzluq deyil. Belə ki, bunlar özgə əmlakının talanması və ya özgə əmlakına dair hüquqların əldə edilməsi ilə bağlı deyil. Belə hallarda bu növ hərəkətlər CM-nin 184-cü maddəsilə, yəni aldatma və ya etibardan sui-istifadə etmə yolu ilə özgə əmlakına ziyan vurma kimi tövsif edilməlidir. Dələduzluq digər talama tərkiblərindən spesifik törədilmə üsulları ilə fərqlənir – aldatma və etibardan sui-istifadə etmə. Müvafiq hallarda bu növ hərəkətlər CM-nin 184-cü maddəsilə, yəni aldatma və ya etibardan sui-istifadə etmə yolu ilə özgə əmlakına ziyan vurma kimi tövsif edilməlidirlər.

Aldatma nəticəsində və ya onun etibarından sui-istifadə edilməsi nəticəsində mülkiyyətçi və ya sahibkar özü «könüllü» olaraq əmlakı öz sahibliyindən çıxarıb onu təqsirkarın mülkiyyətinə və sahibliyinə verir, və yaxud həmin əmlaka dair hüququ verir.

Mülkiyyətçinin və ya sahibkarın (əmlakın idarə edilməsi, daşınması, mühafizə edilməsi və s. etibar edilmiş şəxsin) aldadılması təqsirkarın tərəfindən zərərçəkmiş şəxsin ondan asılı olmayan səbəblərdən aldadıldığından şüurlu şəkildə istifadə edilərək həqiqətin şüurlu şəkildə təhrif edilməsi və ya həqiqətin gizlədilməsindən ibarət ola bilər.

Dələduzluq yolu ilə aldadılma öz təzahürlərinin məzmununa görə müxtəlifdir. O, müxtəlif əqdlərin bağlanılması zamanı əşyaların xüsusiyyətləri ilə

(onların dəyəri, miqdarı və keyfiyyəti, onların mövcudluğu faktı və sair), əmlakın verilməsi əsaslarının güya mövcudluğu barədə aldadılması, həmin əmlakı qəbul edən şəxsin şəxsiyyəti, müxtəlif hadisə və hərəkətlərlə əlaqədar ola bilər. Hazırkı dövrdə dələduzluq yolu ilə niyyətdə aldadılma geniş yayılmışdır. Bu zaman təqsirkar zərərçəkmiş şəxsi niyyət baxımından aldadır. Məsələn, təqsirkar müəyyən xidmət göstərilməsini, işin görülməsini vəd edərək zərərçəkmiş şəxsdən pul alır, əmlakını qaytarmağı vəd edərək onu icarəyə götürür, pulu qaytarmağı vəd edərək kredit alır və sair, lakin bu zaman təqsirkar şəxsdə heç bir işin və ya xidmətin görülməsi, icarəyə götürülmüş əşyanın qaytarılması, borcun qaytarılması niyyəti faktiki olaraq yoxdur.

Niyyətdə aldatma hadisəsinin bir növü kimi «yalançı vasitəçilik» çıxış edir. Bu zaman subyekt rüşvətin vəzifəli və ya kommersiya və digər təşkilatda idarəçilik vəzifələrini həyata keçirən şəxsə verilməsində vasitəçilik etməyə söz verir, lakin faktiki olaraq bunu etməyi planlaşdırmır və özgə əmlakını ələ keçirir. Mövcud olan təcrübəyə əsasən, bu «vasitəçi» dələduzluğa görə məsuliyyət daşıyır, lakin əgər rüşvət verən şəxsi o, özü bu cinayətə sövq edibsə, bu zaman həmin şəxs həm də qeyd olunan cinayətə təhrik edilməsinə görə məsuliyyət daşıyır.

Qeyd etmək laxımdır ki, RF CM-nin 204-cü maddəsi kommersiya rüşvəti anlayışını nəzərdə tutur. Təhlil edilən maddə Azərbaycan Respublikası CM-nin 311 (rüşvət alma) və 312-ci (rüşvət vermə) maddələrinin «analoqudur».

Lakin cəmiyyətdə baş verən iqtisadi dəyişikliklər, istifadə və sərəncam vermə qaydalarına görə dövlət müəssisə və təşkilatlarından fərqlənən şəxsi mülkiyyətdə olan müəssisələrin və digər təşkilatların yaradılması hazırkı normanın Azərbaycan Respublikası CM-nə daxil edilməsinə zərurət yaratmışdır.

Beləliklə, bizim fikrimizcə, kommersiya rüşvəti halında həm CM-nin 178-ci (dələduzluq) maddəsi, həm də kommersiya rüşvətinə görə də cinayət məsuliyyəti yaranır.

Etibardan sui-istifadə etmə yolu ilə dələduzluq o zaman yaranır ki, təqsirkar şəxs əmlakı talayarkən və ya ona dair hüquqlar əldə edərkən mülkiyyətçinin və ya onun digər sahibinin etibarından istifadə edir. Bu cür etibar qohumluq və ya dostluq münasibətləri, uzun sürən tanışlıq və əməkdaşlıq, tövsiyə və ya müsbət xasiyyətnamə, təqsirkar şəxsin vəzifə mövqeyi və s. əsnasında yarana bilər. Vacib olan odur ki, təqsirkar şəxsə qarşı olan etibar nəticəsində əmlakın artıq alınması zamanı şəxsdə etibardan istifadə etməklə əmlakı talama niyyəti olsun. Bu halda dələduzluqla müqavilə münasibətləri, xüsusi tapşırıq və tutduğu vəzifə əsasında təqsirkar şəxsə etibar edilmiş özgə əmlakının mənimsənilməsi və ya israf edilməsinin fərqləndirilməsində çətinliklər yarana bilər. Mənimsəmə və israf etməsi zamanı talama niyyəti şəxsdə artıq müəyyən maddi nemətlərin ona etibar edildiyi və onun həmin nemətlərə qanuni əsaslarla müəyyən müddətə sahiblik etdiyi vaxtdan yaranır.

Etibardan sui-istifadə etmə, dələduzluğun üsulu kimi, adətən təqsirkar tərəfindən əmlakın ələ keçirilməsi üçün xüsusi səlahiyyətlərdən istifadə edilməsi və ya əmlakı idarə edən və ya mühafizə edən şəxslə olan etibarlı şəxsi münasibətlərdən istifadə etməkdə müşahidə olunur. (8, s.64)

Təcrübədə dələduzluğun konkret müxtəlif üsullarına rast gəlinir. (9, s.124) Dövlət mülkiyyətinin talanması zamanı dələduz aldatmaq məqsədilə saxta sənədlərdən (etibarnamələr, qaimələr, müştərinin bankdakı hesabına daxil olmalar haqqında qəbzlər, kassa çekləri və sair) istifadə edir. Burada saxta sənədlərdən istifadə talamanın üsulu kimi çıxış edir və bu səbəbdən bütün əməl dələduzluğun tərkibi ilə ehtiva edilir. Bu zaman şəxsə bu məqsədlə bilə-bilə saxta sənədlər vermiş vəzifəli şəxsin hərəkətləri talamada vasitəçilik və vəzifə saxtakarlığı kimi tövsif edilməlidir.

Son illər dələduzluq yolu ilə aldatmaların yeni növləri xüsusi olaraq yayılmışlar: kredit kartları ilə yalançı əməliyyatların aparılması, kompüterlərdən istifadə etmək, malın təqdim edilməsi bəhanəsi ilə avansın (behin) alınması yolu ilə özgə əmlakını və ya ona dair hüquqları ələ keçirmə və sair.

Elə hallar olur ki, cinayətkarlar cinayətin törədilməsinə hazırlanarkən xüsusən də maddi dəyərlərin alınması üçün pasportun təqdim edilməsi məcburi olan anbarlarda cinayətin izlərini gizlətmək məqsədilə vətəndaşların pasportlarını talayır və ya onları antisosial həyat tərzi keçirən şəxslərdən pula alırlar. (10, s.124)

Cinayətin törədilməsindən əvvəl cinayət əməlinin yönəldiyi obyekt diqqətlə seçilir. Bu zaman daxili strukturu, şöbələr arasında əlaqələndirmə sonadək formalaşmayan, ciddi nəzarət olmayan müəssisə, səhmdar cəmiyyət, MMC-lərə üstünlük verilir. Bir çox hallarda vasitəçi firmalarının yoxlanılması telefonla və ya kiçik dəyərdə olan malın saxta sənədlərlə alınmasının mümkünlüyünün yoxlanılması ilə həyata keçirilir.

Müştərilərin, onların ödəmə qabiliyyətli olmalarının təminatının, rekvizitlərinin və ödəmə tapşırıqlarının dəqiq yoxlanılması sistemi olmayan müəssisə və vətəndaşlar daha çox dələduzluqdan zərər çəkirlər. 2-3 saat ərzində hər hansı bir ştamp və möhür hazırlamağa qadir ola bilən firmaların yayılması, hər hansı bir yolla pul qazanmaq niyyəti ilə bağlı işgüzar şərəfsizlik cinayətkarlara hüquqi şəxsin bütün zəruri əlamətlərinə malik olmaq imkanı yaradır.

Fəaliyyətini ləğv etmiş, iflasa uğramış və ya məcburi surətdə fəaliyyəti ləğv edilmiş firmaların rekvizitlərindən dələduzlar tərəfindən istifadə olunması hallarına da tez-tez təsadüf olunur. (11, s.102)

İstifadə olunmuş ədəbiyyat

1. Борзенков Г.Н. Личная собственность под охраной закона. М.: Знание, 1985.
2. Уголовное право Российской Федерации. Особенная часть /Под ред. Б.В.Здравомыслова. М., 1999.
3. Уголовное право зарубежных стран. М., 1999.
4. Уголовное право зарубежных стран. М., 1999.
5. Уголовное право зарубежных стран. М., 1999.
6. Владимиров В.А., Ляпунов Ю.И. Социалистическая собственность под охраной закона. М., //Юридическая литература, 1979.
7. Владимиров В.А., Ляпунов Ю.И. Ответственность за корыстные посягательства на социалистическую собственность. М., //Юридическая литература, 1986.
8. Бозенков Г.Н. Личная собственность под охраной закона. М.: Знание, 1985.
9. Якишенко С.А. О способах совершения мошенничества //Актуальные проблемы правоведения. Кемерово, 1995.
10. Yenə orada.
11. Гаухман Л.Д., Максимов С.В. Уголовная ответственность за преступления в сфере экономики. М., 1996.

Шалаля ГАСАНОВА

НЕКОТОРЫЕ ВОПРОСЫ ПРЕСТУПНОГО МОШЕННИЧЕСТВА

Резюме

В современный период осуществления активных экономических и политических преобразований преступные проявления мошенничества проявляют тенденцию к модернизации, начали совершаться в сферах деятельности, в которых прежде не встречались: в налоговой, страховой, коммерческой и других. Мошенничество является одним из наиболее распространённых и опасных преступлений против собственности, составляющей экономическую основу общества. В УК всех государств содержатся нормы об ответственности за мошенничество и его различные проявления. Автор обосновывает необходимость внесения отдельных изменений в действующее уголовное законодательство в целях повышения эффективности его применения.

Shalalya QASANOVA

SOME ISSUES OF CRIMINAL FRAUD

Summary

In the contemporary period of carrying out the active economic and political reforms the criminal actions of fraud displaying the tendency towards modernization have become apparent in the spheres of the activities in which they have not been observed before: in taxation, insurance, commercial and other ones. The fraud is one of mostly spreaded and dangerous crimes against property constituting the economic foundation of a society. The Criminal Code of all the states contains the norms of responsibility for a fraud and its varieos manifestations.

The author grounds the necessity of intiroducing some changes into the criminal legislation for purpose of increasing efficiency of its application.

Səidə HƏSƏNZADƏ
AMEA Fəlsəfə və Siyasi-Hüquqi
Tədqiqatlar İnstitutunun dissertantı

ƏLİLLƏRƏ SOSİAL XİDMƏTİN HÜQUQİ TƏNZİMİ

Sosial xidmət dövlət sosial təminat sisteminin tamamilə müstəqil bir elementini təşkil edir. Ümumiyyətlə sosial xidmət özlüyündə ahıllara, əlillərə, əmək qabiliyyətsizlərə və s. təqdim olunan müxtəlif xidmət və ödəmələri özündə əks etdirir. Göstərilən şəxslərin sosial xidmət sahəsində olan münasibətlərinin hüquqi tənzimi «Ahıllara sosial xidmət» və «Əlilliyin qarşısının alınması, əlillərin reabilitasiyası və sosial müdafiəsi haqqında» qanunlarla tənzimlənir. Lakin təəssüflər olsun ki, Azərbaycan Respublikasında əlillərin sosial xidmət sahəsində münasibətlərini tənzimləyən ayrıca qanunvericilik aktı mövcud deyildir. Sosial xidmət yaşlı və əmək qabiliyyətsiz vətəndaşlara pul formasında həyata keçirilən maddi təminatın ümumi sistemi ilə bağlıdır. Ona görə də sosial xidmətə sosial təminat sisteminin pul ödəmələrinə əlavə və köməkçi hissə kimi baxılır. Sosial xidmət sahəsindəki hüquq normaları sosial xidmətə sosial təminat hüququnun xüsusi hissəsi kimi baxmağa imkan verir.

Əhalinin böyük hissəsinin aşağı həyat səviyyəsi ona gətirib çıxarır ki, bundan daha çox cəmiyyətin zəif təbəqələri – yaşlılar, əmək qabiliyyətsizlər, əlillər, uşaqlı ailələr, aşağı əmək haqqı alan şəxslər və s. əziyyət çəkirlər. Onların pensiya, müavinət, əmək haqqı formasında aldıqları pul ödəmələri zəruri həyat ehtiyaclarının ödənilməsində kifayət etmir. Ona görə də sosial xidmət pul formasında təqdim olunan sosial təminatı tamamlayır.(3, s.341) Bundan başqa ahılların, qocaların, əlillərin xüsusi tələbatları var ki, bunları bazarda adi xidmətlər hesabına onların yoxluğu və ya bahalığına görə almaq olmur. «Ahıllara sosial xidmət haqqında» qanunda ahıllara sosial xidmət sahəsində bilavasitə aid olan əsas anlayışlar ifadə olunur. Lakin bu qanunda sosial xidmətin anlayışı dar şəkildə müəyyən olunmuşdur. Məntiqi olaraq ilk əvvəl gərək ölkənin bütün əhalisinə ünvanlanan qanun qəbul olunsun, sonra isə sosial xidmətə aid xüsusi tələbatları olan kateqoriyalara aid – məsələn, uşaqlara, əlillərə, ahıllara münasibətdə qanunlar qəbul olunsun.

Sosial xidmət sosial müdafiə üzrə çətin, ağır vəziyyətdə olanlara sosial-məişət, sosial-tibbi, psixo-pedoqoji, sosial-hüquqi xidmət və maddi yardım, vətəndaşların sosial adaptasiyası və reabilitasiyası üzrə göstərilən fəaliyyətdir. Sosial xidmət hüququna bu həyat şəraitində olan vətəndaşlar malikdirlər. «Çətin, ağır vəziyyət» dedikdə, vətəndaşın özünün müstəqil olaraq aradan qaldıra bilmədiyi həyat fəaliyyətinin obyektiv olaraq pozulması başa düşülür. (əlillik, yaşla əlaqədar olaraq özünə xidmət edə bilməməsi, xəstəlik, işsizlik və s.) (1, s.111).

Yuxarıda qeyd olunanlara əsasən məntiqi olaraq belə bir sual yaranır. Sosial xidmət bütün vətəndaşlara məsələn – maddi vəziyyətindən asılı olmayaraq məxsusdur? Çünki ağır, çətin vəziyyətə düşən imkanlı və varlı şəxslər özləri bütün

mümkün məsələn, sosial-məişət, sosial tibbi, psixo-pedoqoji və ya sosial-hüquqi xarakterli haqqını ödəyə bilərlər.

Sosial xidmət əlil uşaqlar da daxil olmaqla müvəqqəti və ya daimi qulluğa ehtiyac duyan və ya imkanlarının bir hissəsinin itirilməsi ilə əlaqədar özünün əsas tələbatlarını ödəyə bilməyən əlillərə təqdim olunur. Sosial xidmət əlillərə evdə və ya mülkiyyət formasından asılı olmayaraq sosial xidmət müəssisələrində təqdim olunan sosial xidmətlərdən (qulluq, qidanın təşkili, tibbi, hüquqi, sosial-psixoloji və natural yardım növlərini almaqda kömək və s.) ibarətdir.(3, s.341)

Sosial xidmət pulsuz və ya pulla həyata keçirilə bilər. Sosial xidmət qismində o xidmət qəbul olunur ki, o pulsuz və ya natamam bazar qiyməti həddində həyata keçirilir, daha doğrusu tam və ya qismən cəmiyyətin vəsaiti hesabına həyata keçirilir.(3, s.342) Buna görə də o sosial xidmət adlanır. Burada biz əvvəl yaranmış sualımıza cavab tapırıq. Heç də bütün xidmət hətta əgər ondan çətin həyat vəziyyətində olan vətəndaş istifadə edirsə də sosial xidmət deyil. Beləliklə, əlilin aldığı avtomobilin pulsuz təmiri sosial xidmətdir. Lakin bu avtomobilin pulla təmiri sosial xidmət deyil. Buna görə də belə xidmətləri almaq imkanına malik olan imkanlı və varlı vətəndaşlara bizim fikirimizcə pulsuz və ya qismən ödənişli sosial xidmətə ehtiyacı olan şəxslər kimi baxılmamalıdır. Beləliklə, sosial xidmət anlayışının ümumi müəyyənliyi aşağıdakı nəticələrə gəlmyə imkan verir.

Birincisi, sosial xidmət göstərən xidmət xüsusi təşkilatların təsiri altına düşən şəxslər sırasına əlillər (həmçinin əlil uşaqlar), yaşlı vətəndaşlar həmçinin çətin həyat şəraitinə malik olan və bu şəraitdən sərbəst surətdə çıxa bilməyən digər şəxslər aiddir.

İkincisi, göstərilən şəxslər sosial xidməti pulsuz və ya qismən ödənişli şərtlərlə əldə edirlər.

Üçüncüsü, sosial xidmət sistemində hüquqi şəxs olmayan fərdi müəssisələrdən başqa bütün təşkilati hüquqi və mülkiyyət formalı təşkilatlar göstərilən şəxslərə sosial xidmət təqdim edə və həyata keçirə bilərlər. Belə hüquq onlara müvafiq sənədlərin mövcudluğu – lisenziya əsasında verilir.

Sosial xidmət aşağıdakı prinsiplər əsasında həyata keçirilir. Onlara aiddir:

Ünvanlılıq – yəni sosial xidmət yalnız çətin həyat şəraitində olan və müəyyən olunmuş sosial xidmətləri almağa ehtiyacı olan şəxslərə təqdim olunur. Yəni konkret şəxsə fərdiləşdirilmiş yardım edilməsi.

Mümkünlük – yəni sosial xidmətə eyhtiyacı olan şəxslərin sosial xidmətdən istifadə etmək imkanın real olması. Dövlət tərəfindən təminat verilən pulsuz və ya qismən pullu sosial xidmətlərin almağın mümkünlüyü təmin olunur. Onların keyfiyyəti, həcmi, verilmə qaydası və həcmi dövlət standartlarına uyğun gəlməlidir.

Könüllülük – yəni sosial xidmət yalnız vətəndaşların razılığı əsasında təqdim olunur. Sosial xidmət vətəndaşın, onun qəyyumunun, himayəçisinin, digər qanuni nümayəndəsinin, dövlət və ya yerli orqanların, ictimai təşkilatların könüllü müraciəti əsasında həyata keçirilir. Vətəndaş istədiyi vaxt sosial xidmətdən imtina edə bilər.

Humanizm - sosial xidmət ehtiyacı olan vətəndaşa sosial xidmət müəssisələrinin işçiləri tərəfindən hörmətlə yanaşılmanın zəruriliyini ifadə edir. Stasionar müssisələrdə yaşayan vətəndaşları cəzələndırmaq və ya həyat üçün rahatlıq yaratmaq məqsədilə müvafiq dərman vasitələrindən, o cümlədən izolyasiyadan istifadə olunmasına yol verilmir.(1, s.112) Bu cür pozuntulara yol verən şəxslər intizam, inzibatı və ya cinayət məsuliyyəti daşıyırlar.

Üstünlük – yəni sosial xidmətin ilk növbədə ona xüsusi ehtiyacı olan məsələn, hər şeydən əvvəl yetkinlik yaşına çatmayanlara, çətin həyat şəraitində olanlara təqdim olunur.

Konfidensiallıq - sosial xidmət göstərərkən sosial xidmət müəssisəsinin işçilərinə məlum olan şəxsi xarakterli məlumatlar peşə sirri hesab olunur. Onun yayılmasında təqsiri olan işçilər qanunla nəzərdə tutulan məsuliyyətə cəlb olunurlar. Bu prinsipə xüsusilə diqqət yetirmək lazımdır. Belə ki, onlar sosial xidmət sahəsində şəxsiyyətin hüquqi statusunun əsasını təşkil edirlər.

Sosial xidmət bu məqsədlər üçün xüsusi olaraq yaradılmış müəssisələrdə həyata keçirilir. Mülkiyyət formasından asılı olmayaraq sosial xidmət müxtəlif təşkilatlarda həyata keçirilir.

Sosial xidmətin aşağıdakı formaları var.

1) Stasionar sosial xidmət.
2) Yarımstasionar sosial xidmət.
3) Evdə sosial xidmət.
4) Sosial-məsləhət yardımı.
5) Fərdi qaydada peşəkar sosial xidmət.

Stasionar sosial xidmət əhalinin sosial müdafiə müəssisələrində təqdim olunur. Burada yaşlı vətəndaşlar, tam və ya qismən əmək qabiliyyətsiz, sağlamlıq vəziyyətindən asılı olaraq daimi və ya müvəqqəti olaraq özünə xidmət imkanlarını itirmiş və daimi qulluğa və baxıma ehtiyacı olan əlillərə xidmət göstərirlər.(3, s.345)

Xüsusi internat evlərində azadlıqdan məhrumetmə yerlərindən azad olmuş tam və ya qismən özünəxidmət imkanlarını itirmiş, daimi olaraq qulluğa ehtiyac duyan təhlükəli residiv şəxslərə sosial xidmət göstərilir. Bu evlərə həmçinin müvafiq qanunvericiliyə uyğun olaraq üzərində inzibati nəzarət müəyyən olunmuş şəxslər, əvvəllər məhkum olunmuş və ya dəfələrlə ictimai qaydanı pozmağa görə inzibati məsuliyyətə cəlb olunan, daxili işlər orqanı tərəfindən göndərilən dilənçilik və avaraçılıqla məşğul olan əlillər qəbul olunur. Bu müəssisələrə ümumi rəhbərlik Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən həyata keçirilir.

Stasionar sosial xidmət üzrə müəssisələrdə yerləşən vətəndaşlar bütün vətəndaşlara məxsus olan hüquqlardan istifadə edirlər. Beləliklə, onlar əgər sağlamlıq vəziyyətləri buna imkan verirsə istənilən vaxt stasionar müəssisəni tərk edə və onun xidmətində imtina edə bilərlər, öz əmlakına sərəncam verə bilərlər, müqavilələr bağlaya bilərlər və s. Hüquqlarla yanaşı onlar vəzifələr də daşıyırlar. Məsələn, müəssisədə yaşayış qaydalarına əməl etmək. Bu qaydaları pozanlar

müəssisənin rəhbərliyi tərəfindən təqdim olunmaları əsasında məhkəmə qaydasında xüsusi növ stasionar sosial xidmət müəssisəsinə keçirilə bilərlər.

Bir qayda olaraq stasionar müəssisəyə yerləşdirilmək və orada qalmaq könüllüdür. Bu hallarda qohumları tərəfindən qulluq göstərilməyən və müdafiə olunmayan öz həyat tələbatlarını sərbəst ödəyə bilməyən əlillər stasionar müəssisələrə onların razılığı olmadan yerləşdirilirlər. Stasionar müəssisələrdə sosial xidmətə ehtiyacı olan şəxslərə kompleks sosial xidmət göstərilir. Çətin həyat şəraitində olan vətəndaşlara təqdim olunan sosial xidmətlərin olduqca geniş siyahısı mövcuddur. Xidmətlərin konkret növü onu təqdim edən müəssisənin növündən asılıdır. Yaxşı olardı ki, Azərbaycan Respublikasında da sosial xidmətin siyahısını özündə əks etdirən qərar qəbul olunsun. Stasionar sosial xidmət müəssisələrində qalan əlillərə zərurət olduqda müxtəlif növ xidmətlər təqdim olunur. Maddi-məişət xidməti özündə reabilitasiya tədbirlərinin təşkili, müalicə əmək fəaliyyəti, stasionar sosial xidmət müəssisələrində maddi-məişət xidməti üçün yerin, yaşayış sahəsinin verilməsi, istifadə üçün mebel təqdim olunması, təhsil almaq üçün gediş-gəliş, müalicə, məsləhət xərclərinin kompensasiyasını və s. birləşdirir.(4, s.347) Stasionar müəssisədə qaldığı müddət ərzində şəxslərə həmçinin hüquqi xidmət göstərilir.Buraya aiddir: Sənədlərin tərtibində köməklik, pensiya təminatı və digər sosial ödəmələrin təqdim olunması ilə bağlı məsələlərdə köməklik, güzəştlərin alınmasına yardım etmək, məsləhət almaqda kömək, qanunla müəyyən olunmuş qaydada pulsuz vəkil xidmətindən istifadə etməkdə kömək və s. Bu xidmətlərlə yanaşı göstərilən müəssisələrdə əlillərin fiziki imkanları və əqli qabiliyyətləri nəzərə alınaraq onların təhsil almalarının təşkili həyata keçirilir. Bundan başqa sosial əmək reabilitasiyası xidmətləri və mərasimlərinin təşkil olunmasında yardım xidmətləri həyata keçirilir. Oxşar xidmətlər evdə və yarımstasionar sosial xidmət şəraitində həyata keçirilir. Yarımstasionr sosial xidmət özünəxidmət qabiliyyətini və aktiv hərəkətini saxlamış əlillərə göstərilir. Bu xitdmət bir qayda olaraq əhalinin sosial müdafiəsinin təşkil olunduğu siasionr müəssisələri tərəfindən həyata keçirilir.

Yarımstasionr sosial xidmət qaydasında təqdim olunan sosial xidmətlərə aiddir: qidanın, məişət və asudə vaxtın təşkili üzrə xidmətlər, sosial-tibbi xidmət, təhsil almaqda yardım, hüquqi xidmətlər və s.

Evdə sosial xidmət həyat fəaliyyətinin məhdudlaşması nəticəsində sərbəst surətdə özünün əsas həyat tələbatlarını ödəyə bilməyən, daimi və ya müvəqqəti olaraq başqalarının köməyinə ehtiyac duyan əlillərə göstərilir.(4, s.348) Bu xidmət ağır xəstəlikləri olan, psixi pozğunluqları olan və evdə sosial xidmətə ehtiyacı olan şəxslərə münasibətdə həyata keçirilir. Evdə sosial-tibbi xidmət uyğun tibb sahəsinin işçiləri tərəfindən sosial xidmətin ixtisaslaşmış bölmələri tərəfindən həyata keçirilir.

Rayon (şəhər) əhalisinin sosial müdafiə mərkəzinin sosial-məişət xidməti şöbəsi tərəfindən evlərdə tək yaşayan və həmin şəhərdə və rayonda qanunla onları saxlamağa borclu olan övladları və ya valideyinləri olmayan birinci qrup əlillər sosial-məişət xidmətinə götürülürlər. Başqasının köməyinə ehtiyacı olan

ikinci qrup əlillər isə göstərilən şərtlərlə səhiyyə orqanlarının rəyinə əsasən xidmətə götürülürlər.

Sosial xidmət işçisi xidmətə götürülmüş vətəndaşın evində həftədə azı iki dəfə (vətəndaşın sağlamlıq vəziyyətindən asılı olaraq lazım gələrsə, müxtəlif sosial məişət xidmətlərini göstərmək məqsədilə daha çox) olmalıdır.(1, s.147) Xidmətdə olan vətəndaşa ona göstərilən sosial məişət xidmətinin qeydiyyatı aparılan gündəlik açılmalıdır. Gündəlikdə həmin vətəndaşın və sosial xidmət işçisinin hər xidmət günü üçün imzaları olmalıdır.

Aşağıdakı hallarda vətəndaşlar sosial məişət xidmətindən çıxarılırlar: vəfat etdikdə; əlillər üçün internat evlərinə və pansionata göndərildikdə; başqa yerə köçdükdə, övladı və ya başqası evinə qeydiyyata alındıqda; ona qəyyum təyin edildikdə və qanunla nəzərdə tutulan sair hallarda. Sosial xidmət müəssisələrinin hər növü üçün vətəndaşlara müvafiq sosial xidmətlərin göstərilməsində məxsusi qayda və şərtlər müəyyən edilmişdir. Vətəndaşlar və müvafiq sosial xidmət müəssisələri arasında yaranan münasibətlərin xarakterik xüsusiyyəti oqların yazılı müqaviləsi şəklində rəsmiləşdirilməlidir. Müqavilədə göstərilən xidmətin növü və müddəti, pulun məbləği və ödəməsi qaydası, tərəflərin hüquqları və öhdəlikləri öz əksini tapır.

Sosial xidmət sahəsində vətəndaşların hüquqlarına aşağıdakılar daxildir.

1) Sosial xidmət müəssisəsinin işçiləri tərəfindən hörmətə və humanist münasibət göstərilməsinə hüquq;

2) Sosial xidmətin formasını və müəssisəni seçməyə olan hüquq;

3) Öz hüquqları və göstərilən xidmətin şərtləri haqqında informasiya almaq hüququ.

4) Sosial xidmətin göstərilməsinə razılıq vermək hüququ;

5) Sosial xidmətdən imtina etmək hüququ;

6) Sosial xidmətlərin göstərilməsi ilə əlaqədar sosial xidmət müəssisəsinin işçilərinə bəlli olan şəxsi xarakterli məlumatların konfidensiallığına hüquq;

7) Öz hüquq və qanuni maraqlarının eyni zamanda məhkəmədə müdafiəsi hüququ.

Sosial xidmət sahəsində informasiya hüququ sosial xidmət müəssislərinin işçiləri tərəfindən əlillərə və onların nümayəndələrinə sosial xidmətə aid bütün məlumatları, sosial xidmətlərin forması və növü, ödənişin şərtləri, həmçinin stasionr müəssisədə yerdəyişmə və qalmaya dair informasiyanı verməyi ifadə edir.(5, s.126) Sosial xidmətə razılıq və ya imtina etmək hüququ onu ifadə edir ki, sosial xidmətin göstərilməsi ümumi qaydaya görə əlilin və ya onun qanuni nümayəndəsinin könüllü razılığı əsasında mümkündür. Stasionr sosial xidmət müəssisəsinə yerləşdirmək üçün əlilin və ya onun qanuni nümayəndələrinin yazılı ərizəsi tələb olunur. İmtina yazılı formada rəsmiləşdirilir. Şəxsin və ya onun qanuni nümayəndəsinin razılığı olmadan stasionr sosial xidmət müəssisəsinə yerləşdirmə msələsi əhalinin sosial müdafiə orqanlarının təqdimatı əsasında məhkəmə qaydasında həll edilir.

Təcili sosial xidmət – sosial müdafiəyə təcili ehtiyacı olan əlillərə müxtəlif xarakterli təxirəsalınmaz köməyin həyata keçirilməsini ifadə edir.

Sosial xidmətin müstəqil forması qismində əlillərin sosial reabilitasiyası çıxış edir.

Reabilitasiyaya aid ilk qanunvericilik akt 1919-cu ildə ABŞ-da qəbul edilmişdir. Bu aktda reabilitasiya mərkəzlərinin dövlət tərəfindən təminatı və nizamlanması müəyyən olunmuşdur.(5, s.148) XX əsrin 60-80-cı illərində bəzi beynəlxalq təşkilatlar əlillərin reabilitasiyasının prinsip və normalarını müəyyən etdilər. Azərbaycan Respublikasında əlillərin reabilitasiyası məsələsi ilk dəfə 1992-ci ildə «Əlilliyin qarşısının alınması, əlillərin reabilitasiyası və sosial müdafiəsi haqqında» Azərbaycan Respublikasının Qanununda öz əksini tapmışdır. Bu qanunda reabilitasiyanın anlayışı verilmişdir. Qanunun ikinci maddəsinə əsasən əlillərin reabilitasiyası dedikdə, orqanizmin funksiyasının davamlı pozulması nəticəsində baş verən həyat fəaliyyətinin məhdudlaşmasının aradan qaldırılmasına, yaxud kompensasiyasına yönəldilmiş tibbi, psixoloji, pedoqoji, idman, sosial iqtisadi və digər tədbirlər başa düşülür.

Beynəlxalq qanunvericilik reabilitasiyaya proses kimi baxır. «Əlilliyi olan insanlara bərabər imkanların yaradılması üzrə standart qaydalar»ın 23-cü bəndinə əsasən «reabilitasiya» termini əlilliyi olan insanların optimal fiziki, intellektual, psixi və (və ya) sosial fəaliyyət səviyyəsinə nail olması və onun saxlanılması məqsədini güdən, bununla da onlara öz həyatını daha geniş müstəqillik istiqamətində dəyişdirməyə yardım edən prosesi ifadə edir. Reabilitasiya funksiyaların itirilməsi və ya yoxluğunun və ya funksional məhdudiyyətin kompensasiyasını özünə daxil edə bilər. Reabilitasiya prosesi yalnız tibbi yardımın göstərilməsini nəzərdə tutmur. O, ilkin və daha ümumi reabilitasiyadan peşə əmək qabiliyyətinin bərpası kimi məqsədli fəaliyyət növlərinə qədər geniş tədbir və fəaliyyət növlərini əhatə edir.(2, s.17) Əlbəttə ki, reabilitasiyaya ancaq bir sistem kimi baxmaq olmaz. Sistem hər heydən əvvəl hər hansı bir hadisənin hissələrinin müəyyənləşmiş bir nizamı, bir-birilə bağlılıq, onun təşkilinin formasıdır. Reabilitasiya həmçinin əlilin vəziyyətinin yaxşılığa doğru dəyişməsinə yönəlmiş bir prosesdir. Bununla əlaqədar olaraq məntiqi olaraq müəyyən etmək olur ki, reabilitasiya bir proses olaraq funksiyaların və sağlamlığın pozulması nəticəsində baş verən həyat fəliyyətinin məhdudlaşmasının aradan qaldırılmasına və ya mümkün olduqca daha çox kompensasiya edilməsinə yönəlmiş müxtəlif xarakterli tədbirlər sistemidir.

Onu da qeyd etmək lazımıdır ki, «Əlilliyin qarşısının alınması, əlillərin reabilitasiyası və sosial müdafiəsi haqqında» Qanunda tibbi reabilitasiya ilə adi müalicə arasındakı sərhədi müəyyən edir. Qanuna əsasən dövlət əlilliyin qarşısını alınması məqsədilə cəmiyyətin əsas nəaliyyəti kimi sağlam həyat tərzinin təbliğini təmin edir. «Əlilliyin qarşısının alınması, əlillərin reabilitasiyası və sosial müdafiə haqqında» Qanunda əlilliyin qarşısının alınmasına – əlilliyin baş verməsinə, ağırlaşma hallarına qarşı yönəldilmiş tibbi, ekoloji, gigeyenik, texniki təhlükəsizlik, idman və digər tədbirlər sistemi kimi anlayış verilmişdir. «Əlilliyi olan insanlara bərabər imkanların yaradılması üzrə standart qaydalar»da isə əlilliyin qarşısının alınmasına aşağıdakı kimi anlayış verilmişdir.

«Əlilliyin qarşısının alınması» termini fiziki, əqli, psixi və hissiyat üzvlərinin qüsurlarının qarşısının alınmasına (birinci dərəcəli profilaktika) və ya qüsurun daimi funksional mədudiyyət və ya əlilliyə keçməsinin qarşısının alınmasına (ikinci dərəcəli profilaktika) yönəldilmiş tədbirlər kompleksinin yerinə yetirilməsini nəzərdə tutur. Əlilliyin qarşısının alınması ilkin tibbi sanitar köməyin göstərilməsi, doğumdan qabaq və sonrakı xidmət, dietoterapiya sahəsində təhsil, infeksion xəstəliklərə qarşı profilaktik vaksinasiya, endemik xəstəliklərlə mübarizə tədbirləri, əməyin müdafiəsi, peşə xəstəliklərinin və əlilliyin qarşısının alınması üçün iş yerlərinin uyğunlaşdırılması daxil olmaqla müxtəlif mühitlərdə bədbəxt hadisələrin qarşısının alınması proqramları ətraf mühitin çirklənməsi və ya silahlı münaqişələrin nəticəsində yaranan əlilliyin qarşısının alınması alınması kimi müxtəlif xarakterli tədbirlərin həyata keçirilməsini nəzərdə tuta bilər.[1]

25 avqust 1992-ci il tarixli qanuna əsasən reabilitasiya tədbirləri əlillərin fərdi reabilitasiya proqramına və reabilitasiya tədbirləri üzrə dövlət proqramına uyğun olaraq reabilitasiya müəssisələri tərəfindən həyata keçirilir. Bu müəssisələrin yönümü reabilitasiyanın əsas istiqamətinə uyğun olaraq müəyyənləşdirilir. Dövlət reabilitasiya müəssisələri ilə yanaşı qeyri-dövlət reabilitasiya müəssisələri də yaradıla bilər. Sağlamlıq imkanları məhdud (mürəkkəb və ağır çatışmazlıqları olan) şəxslərin təlimi və (və ya) tərbiyəsi ilə əlaqədar müxtəlif profilli reabilitasiya mərkəzləri yaradılır. Reabilitasiya mərkəzlərinin əsas vəzifəsi həmin şəxslərdə ünsiyyət, özünəxidmət və sadə əmək vərdişlərini formalaşdırmaq, çatışmazlıqların korreksiyasını və fərdi proqramları üzrə məşğələləri təşkil etməkdir.

Hal-hazırdı qanunvericilik apparatın zəruri anlayışını özündə əks etdirmir. Mövcud qanunvericiliyin unifikasiyası məqsədilə təklif olunur reabilitasiyanın texniki vasitələri anlayışı mətndə müəyyən olunsun. Reabilitasiyanın texniki vasitələri – əlilin həyat fəaliyyətinin məhdudlaşmasının aradan qaldırılması və ya kompensasiyası üçün əlil tərəfindən xüsusi olaraq istifadə edilən həyat fəaliyyətinin məhdudlaşmasının aradan qaldırılmasının texniki həllidir.(5, s.151) Həyat fəaliyyətinin məhdudlaşmasından asılı olaraq reabilitasiyanın texniki vasitələrini aşağıdakı kimi təsnifləşdirmək olar.

1) Nəqliyyat vasitələri istisna olmaqla hərəkət vasitələri.
2) Özünəxidmət və qulluq üçün xüsusi vasitələr.
3) Səmtlənmə, ünsiyyət və informasiya mübadiləsi üçün xüsusi vasitələr.
4) Təhsil almaq və əmək fəaliyyəti ilə məşğul olmaq üçün vasitələr.
5) Protez – ortopedik məmulatlar.
6) Xüsusi geyim və ortopedik ayaqqabı.
7) Əlillər üçün xüsusi təlim və idman təchizatı.

Yuxarıda qeyd olunduğu kimi qanunvericilik əlillərin reabilitasiyasına üç hissənin birliyi kimi baxır: tibbi, peşə və sosial reabilitasiya.

Tibbi reabilitasiya dedikdə, bərpaedici terapiya, yenidən bərpa edən cərrahiyyə, protezləmə nəzərdə tutulur. Tibbi reabilitasiya haqqında əldə olunan bu məlumatlar əsasında bədbəxt hadisə nəticəsində və ya xəstəliklə bağlı insan

həyat və sağlamlığı üçün yaranmış təhlükənin qarşısını almaq məqsədi daşıyan müalicə ilə tibbi reabilitasiya arasında fərqi müəyyən etmək lazımdır. Reabilitasiya bərpaedici xarakter daşıyaraq müalicədən sonrakı pilləni təşkil edir. Reabilitasiyaya zərurət müalicə nəticəsində sağlamlığın pozğunluqlarını aradan qaldırmaq mümkün olmadıqda yaranır.(5, s.151)

Peşə reabilitasiyası özündə peşə təhsili, peşə və istesalata uyğunlaşmanı, işədüzəlməni birləşdirir.

«Əlilliyin qarşısının alınması, əlillərin reabilitasiyası və sosial müdafiəsi haqqında» Qanununun dördüncü maddəsinə əsasən əlilin zəruri sosial müdafiəsinin növləri və həcmləri tibbi, sosial-əmək reabilitasiyasına və uyğunlaşmasına dair fərdi proqramı şəklində təqdim olunur.

Fərdi reabilitasiya proqramı reabilitasiya tədbirlərinin siyahısı kimi xarakterizə olunur. Bu reabilitasiya proqramı əlilin qabiliyyətinin bərpa edilməsinə yönəlir. Ümumiyyətlə fərdi reabilitasiya proqramına əlilin fərdi xüsusiyyətlərindən irəli gələrək işlənib hazırlanan və orqanizmin funksiyalarının pozulması nəticəsində sağlamlığın pozulmasının səbəb olduğu həyat fəaliyyətinin məhdudlaşdırılmasının aradan qaldırılmasına və ya mümkün olduqca daha çox kompensasiya edilməsinə yönəlmiş reabilitasiya tədbirlərinin kompleksidir.

Fərdi reabilitasiya proqramı konkret reabilitasiya tədbirlərini icra edən bütün təşkilatlar üçün məcburidir. Onun tərkibinin müəyyənləşdirilməsi və realizəsində əlilin razılığı tələb olunur. Beynəlxalq hüquqi aktlar bütün əlillərin reabilitasiya keçmək hüququnu təsbit edən bütün qrup əlillər üçün milli reabilitasiya proqramlarının işlənib hazırlanmasını tövsiyə edirlər.

«Əlilliyi olan insanlara bərabər imkanların yaradılması üzrə standart qaydalar»da aşağıdakılar qeyd olunur.

Dövlətlərə tövsiyyə olunur ki, əlilliyi olan insanların optimal müstəqillik və həyat fəaliyyəti səviyyəsinə çatmaları və saxlamaları məqsədilə onlara reabilitasiya xidmətinin göstərilməsini təmin etsinlər. Əlilliyi olan insanların bütün qrupları üçün milli reabilitasiya proqramları işləyib hazırlasınlar. Bu cür proqramlar əlilliyi olan insanların həqiqi fərdi ehtiyaclarına, tam iştirak və bərabərlik prinsiplərinə əsaslanmalıdır.

İstifadə olunmuş ədəbiyyat

1. Əliyev M.N. Sosial təminat hüququ. Tədris-metodiki vəsait. Bakı., 2002. s.111.

2. Əlilliyi olan insanlara bərabər imkanların yaradılması üzrə standart qaydalar. BMT, 1994, s.17.

3. Галаганов В.П. Право социального обеспечения в России. Учебник. М., 2001, с.341.

4. Галаганов Б.П. Социальное обеспечения в России. Учебник. М., 2001,. с.348.

5. Антипьева Н.В. Социальная защита инвалидов в Российской Федерации. Учебное пособие. М., 2002, с.148.

Саида ГАСАНЗАДЕ

ПРАВОВАЯ РЕГУЛЯЦИЯ СОЦИАЛЬНЫХ УСЛУГ ОКАЗЫВАЕМЫХ ИНВАЛИДАМ

Резюме

Оказание социальных услуг инвалидам в наличной группе населения имеет исключительное значение. В период, когда переход к рыночной экономике в транзитных странах порождает трудности в материальном обеспечении населения, надежная защита прав инвалидов приобретает чрезвычайную важность. В статье, посвященной предотвращению в стране в последние годы инвалидности, реабилитации и правовой регуляции социальной защиты инвалидов, во все эти вопросы вносится предельная ясность.

Saida HASANZADE

LEGAL REGULATION OF SOCIAL SEVICES FOR THE DISABLED MEN

Summary

Rendering the social services for the disabled men in the existing group of the population is of exceptional importance. In the countries of transitional period when transition to the market economics creates the difficulties for social security, the trustworthy social protection of the disabled men acquires the absolute significance.

In the present article devoted to the prevention of the disability, reabilitation and legal regulation of social protection of the disabled men in our country in recent years, all these problems are brought to light.

Şəfaət İMRANOV
AMEA Fəlsəfə və Siyasi-Hüquqi
Tədqiqatlar İnstitutunun dissertantı

CİNAYƏT TƏQİBİ ÜZRƏ İCRAATIN APARILMASI ZAMANI CİNAYƏT-PROSESSUAL QANUNVERİCİLİYİN TƏLƏBLƏRİNƏ ƏMƏL OLUNMASININ XÜSUSİYYƏTLƏRİ

Məlumdur ki, qanunçuluq prinsipi cinayət mühakimə icraatının ən mühüm və həmişə öndə olan prinsiplərindən biridir. Təsadüfi deyil ki, qüvvədə olan cinayət-prosessual qanunvericilik cinayət mühakimə icraatının prinsiplərini təsbit edərkən qanunçuluq prinsipini birinci yerə qoymuşdur.

Cinayət mühakimə icraatının özəyini təşkil edən cinayət təqibi də qanunçuluq prinsipinə tam riayət edilməklə həyata keçirilir. Lakin cinayət təqibi üzrə icraatla əlaqədar qanunvericiliyin tələblərinə riayət edilməsi bir sıra mühüm özəlliklərə malikdir. Bu isə cinayət təqibinin həyata keçirilməsi üzrə fəaliyyətin xarakteri, cinayət təqibinin mahiyyəti, onun cinayət prosesindəki yeri və başqa bu kimi amillərlə şərtlənmişdir.

Cinayət təqibi üzrə icraat gedişində qanunvericiliyin tələblərinə riayət edilməsinin özünəməxsusluqlarını nəzərdən keçirməmişdən əvvəl bir mühüm məsələyə toxunmaq vacibdir. Belə ki, sözün geniş mənasında götürüldükdə, qanunçuluq cəmiyyətdə hüquq normalarına hamı tərəfindən ciddi riayət edilməsini nəzərdə tutan xüsusi bir rejimdir. (1, s. 344) Əgər nəzərə alsaq ki, qanunçuluq rejiminin ən kobud pozuntuları cinayət əməllərində ifadə olunmuşdur, onda aydın olur ki, cinayət təqibi ümumi götürüldükdə qanunçuluğun təmin edilməsi vasitələrindən biridir. Çünki cinayət təqibinin əsas məqsədi törədilmiş cinayət hadisəsi üzrə obyektiv həqiqəti müəyyən edərək təqsirli şəxsləri cəzalandırmaq, pozulmuş ədaləti bərpa etmək, cinayətin cəzalandırılan əməl olduğunu bütün cəmiyyətə göstərməkdir.

Digər tərəfdən yanaşdıqda isə qanunçuluq dövlət fəaliyyətinin istənilən sahəsində olduğu kimi cinayət təqibinin də həyata keçirilməsinin əsaslarını, qaydasını, məqsəd və vəzifələrini özündə əks etdirən normalara tam və mübahisəsiz riayət edilməsini tələb edən prinsipdir. Həmin prinsipdən kənara çıxılması bir fəaliyyət olaraq cinayət təqibinin nəticələrinin etibarsızlığına səbəb ola bilər.

Qanunçuluğun kobud pozulmasına yol verildiyi – cinayət əməli törədildiyi halda cinayət təqibinin başlanması müvafiq hakimiyyət orqanlarının vəzifəsidir. Deməli, belə halda cinayət təqibinin başlanmaması, təqsirkar şəxsin aşkar edilərək cəzalandırılması istiqamətində heç bir işin görülməməsi də özlüyündə qanunçuluq prinsipinin pozulması olacaqdır.

Göründüyü kimi, qanunçuluq prinsipi ilə cinayət təqibinin xeyli dərəcədə özünəməxsus bağlılığı vardır. Lakin aparılan tədqiqatın mövzusu ilə əlaqədar bizi cinayət təqibinin qanunçuluq rejiminin təmin olunmasındakı rolu yox, cinayət prosesinin mərkəzi hissəsi olan cinayət təqibinin həyata keçirilməsi üzrə fəaliyyətdə qanunçuluğa riayət edilməsinin xüsusiyyətləri maraqlandırır.

Qanunçuluq prinsipi cinayət təqibinin bütün gedişi boyu əsas rəhbər başlanğıc kimi çıxış edir. Cinayət prosesinin ayrı-ayrı mərhələlərində isə qanunçuluğa riayət edilməsinin özünəməxsusluğu birbaşa olaraq həmin mərhələdə həyata keçirilən prosessual fəaliyyətin mahiyyəti ilə bağlıdır.

Cinayət təqibinin həyata keçirilməsi zamanı qanunçuluq prinsipi hər şeydən əvvəl cinayət təqibi başlamanın qanuniliyində təzahür edir. Bu zaman qanunvericiliyin tələbinə əsasən, cinayət təqibinin başlanması üçün kifayət qədər hüquqi və faktiki əsaslar olduğu hər bir halda cinayət təqibi mütləq başlanmalıdır. Başqa sözlə, cinayət təqibi yalnız qanunvericilikdə nəzərdə tutulmuş əsaslar və səbəblər olduqda başlaya bilər və belə səbəb və əsasların mövcudluğu cinayət təqibini başlamanı məcburi edir.

Lakin əvvəlki fəsillərdə də qeyd edildiyi kimi, qanunvericilikdə bəzi nöqsanların olması cinayət təqibinin başlanması məsələsində də müəyyən nəzəri və təcrübi problemlər yaradır. Belə ki, CPM-in 7.0.3-cü maddəsində cinayət prosesinə, 7.0.4-cü maddəsində isə cinayət təqibinə verilmiş anlayışların qeyri-dəqiqliyi cinayət təqibi başlama ilə cinayət mühakimə icraatını başlamanı fərqləndirməkdə çətinlik yaradır. Bu isə qanunvericiliyin tətbiqində və deməli, qanunçuluğa riayət olunmasında anlaşılmazlıqlara yol açır.

Məlumdur ki, cinayət təqibinin başlanma anı cinayət işinin başlanma anı ilə heç də həmişə üst-üstə düşmür. Cinayət təqibini başlamaq üçün törədilmiş cinayət əməli üzrə ittihamı konkret şəxsə qarşı yönəltmək üçün kifayət qədər əsaslar olmalıdır. Belə əsaslar isə bəzi hallarda cinayət işi üzrə icraatın başlanmasından xeyli müddət keçdikdən sonra əldə olunur. Deməli, cinayət işi başlama ilə cinayət təqibi başlama anlayışlarını bir-birindən ciddi surətdə fərqləndirmək lazımdır.

Cinayət-prosessual qanunvericiliyin mahiyyətinə əsasən, cinayət işi başlama dedikdə, cinayət qanununun qadağan etdiyi hər-hansı əməlin törədiməsi ilə bağlı cinayət mühakimə icraatını, yəni cinayət prosessual fəaliyyəti başlama başa düşülür. Cinayət işi başlamaqla konkret cinayət faktının olması ilə bağlı cinayət-prosessual fəaliyyətə start verilmiş olur və səlahiyyətli subyektlər (təhqiqatçı, müstəntiq, prokuror) iş üzrə əhəmiyyət kəsb edən sübut və dəlilləri qanunvericiliyin müəyyən etdiyi formada toplamağa başlayır.

Cinayət təqibini başlama isə törədilmiş və ya törədilməsi ehtimal edilən cinayət əməli üzrə konkret şəxsin və yaxud şəxslərin ifşa edilməsinə yönəlmiş prosessual fəaliyyətin başlanması kimi başa düşülməlidir. Bu isə heç də həmişə cinayət işi başlama ilə eyni vaxtda olmur. Belə ki, məsələn, üzərində zorakılıq əlamətləri olan insan meyitinin aşkar edilməsi CPM-in 209-cu maddəsinə əsasən dərhal cinayət işi başlamaya əsasdır və bu, həmin fakt üzrə cinayət-prosessual fəaliyyətə başlamağa səbəb olur. Lakin cinayət işinin başlandığı ilk anlar törədilmiş əməlin təfərrüatları məlum olmadığından heç kimə qarşı cinayət təqibi mövcud olmayacaqdır. Yalnız öldürülmüş şəxsin şəxsiyyəti müəyyənləşdirildikdən, onun fəaliyyəti, əlaqələri aydınlaşdırıldıqdan və konkret şəxsin bu əmələ aidiyyəti üzrə ciddi faktlar əldə edildikdən sonra həmin şəxsə qarşı cinayət təqibi başlanır. Belə ciddi faktlar isə bəzən cinayət işi başladıqdan xeyli müddət sonra aşkar edilir. Göründüyü kimi, cinayət işi başlama ilə cinayət

təqibi başlamanı bir-birindən əsaslı surətdə fərqləndirmək lazımdır. Onlar arasındakı fərq təkcə cinayət işi başlamanın və cinayət təqibi başlamanın məqamı ilə bağlı deyildir.

Cinayət işi başlama və cinayət təqibi başlama anlayışlarını bir-birindən fərqləndirən xüsusiyyətlərdən biri də bu fəaliyyətlərin başlanma səbəb və əsasları ilə bağlıdır.

Qeyd edək ki, cinayət-prosessual qanunvericilikdə cinayət işi başlamanın səbəb və əsasları, habelə cinayət işi başlamanın qaydası kifayət qədər təfsilatı ilə tənzimlənmişdir. Lakin burada da bir sıra terminoloji xarakterli qüsurlar vardır. Belə ki, CPM-in 7.0.6-cı maddəsində cinayət işinə aşağıdakı kimi anlayış verilmişdir: cinayət işi törədilən və ya törədilməsi ehtimal edilən cinayətlə əlaqədar cinayət təqibinin həyata keçirilməsi zamanı toplanmış materialların məcmusudur. Bu anlayışdan çıxış edərək qanunvericilikdə, təcrübədə və cinayət-prosessual hüquq elmində çoxdan möhkəmlənmiş «cinayət işi başlama» anlayışının hansı mənanı verməsini anlamağa çalışsaq, onda sözün hərfi mənasında bu ifadənin «...toplanmış materialların məcmusunu başlama» anlamına gəldiyini görəcəyik ki, bu da xeyli dərəcədə mücərrəd görünür. Təbii ki, belə vəziyyətin yaranması ayrı-ayrı terminlərə verilmiş normativ anlayışların qeyri-dəqiqliyi və cinayət-prosessual qanunvericilikdə bəzi ifadələrin düzgün işlədilməməsidir.

CPM-in 7.0.6-cı maddəsində cinayət işinə verilmiş anlayışın özü kifayət qədər qüsurludur. Belə ki, həmin anlayışda törədilən və ya törədilməsi ehtimal edilən cinayətlə əlaqədar cinayət təqibinin həyata keçirilməsi zamanı toplanmış materiallardan bəhs edilir. Lakin biz fikrimizi əsaslandıraraq qeyd etdik ki, cinayət təqibi heç də həmişə cinayət mühakimə icraatı ilə eyni vaxtda başlanmır və istintaq təcrübəsində çoxlu sayda «açılmamış cinayətlər», yəni cinayətin törədilməsində təqsirləndirilməli olan şəxs məlum olmayan cinayət işləri mövcuddur. Açılmamış cinayətlər üzrə də üzərinə «cinayət işi» yazılmış qovluq və orada toplanmış kifayət qədər materiallar olur, lakin həmin işlər üzrə təqsirləndirilən şəxs müəyyən edilmədiyindən belə kateqlriyalı cinayət işləri üzrə icraatda cinayət təqibindən danışmaq yersizdir.

Digər tərəfdən, CPM-in 7.0.6-cı maddəsinin məzmununa əsasən, cinayət işi bütün kateqoriyalardan olan cinayət faktları üzrə icraat zamanı toplanmış materialların məcmusudur. Bu isə ən azı CPM-in cinayət təqibi ilə bağlı digər materialların anlayışını təsbit edən 7.0.7-ci maddəsi ilə toqquşur, çünki həmin maddədə deyilir: cinayət təqibi ilə bağlı digər materiallar məhkəməyədək sadələş-dirilmiş icraat və ya xüsusi ittiham qaydasında şikayət və ya xüsusi icraat üzrə cinayət təqibinin həyata keçirilməsi ilə əlaqədar toplanmış materiallardır.

Göründüyü kimi, cinayət-prosessual qanunvericilik yalnız ibtidai istintaqı məcburi olan cinayətlər üzrə toplanan cinayət mühakimə icraatı materiallarını cinayət işi adlandırır. Fikrimizcə, belə yanaşma düzgün deyildir. İstər ibtidai istintaqı məcburi olan işlər üzrə, istər məhkəməyədək sadələşdirilmiş icraat zamanı, istərsə də xüsusi ittiham qaydasında şikayətə baxılarkən törədilmiş və ya törədilməsi güman edilən cinayət faktı araşdırılır. Ona görə də bütün bu

kateqoriyalardan olan cinayətlərin araşdırılması üzrə icraat zamanı toplanmış materialları cinayət işi adlandırmaq lazımdır. Sadəcə olaraq nəzərə almaq lazımdır ki, həyata keçirilən cinayət mühakimə icraatının xüsusiyyətinə görə cinayət işinin üç növü fərqləndirilir: ibtidai istintaqı məcburi olan cinayət işi, məhkəməyədək sadələşdirilmiş icraat üzrə cinayət işi və xüsusi ittiham qaydasında şikayət üzrə cinayət işi. Fikrimizcə, belə bir təklifin həyata keçirilməsi cinayət işlərini məhkəmənin baxdığı digər işlərdən – mülki işlərdən və inzibati işlərdən daha yaxşı fərqləndirməyə imkan verəcəkdir.

Eyni zamanda cinayət işinə CPM-in 7.0.6-cı maddəsində verilmiş anlayışdan, habelə CPM-in 7.0.7-ci maddəsindən cinayət təqibi ilə bağlı ifadəni çıxarmaq lazımdır, çünki cinayət işi üzrə icraatın ilkin mərhələsində cinayət təqibi olmaya da bilər.

Yuxarıda qeyd edilənlərə əsasən, CPM-in 7.0.6-cı və 7.0.7-ci maddələrinin aşağıdakı redaksiyada verilməsini təklif edirik.

7.0.6. cinayət işi törədilən və ya törədilməsi ehtimal edilən cinayətlə əlaqədar cinayət mühakimə icraatı üzrə toplanmış materialların məcmusudur;

7.0.7. cinayət mühakimə icraatı ilə bağlı digər materiallar cinayət prosesində xüsusi icraatların həyata keçirilməsi ilə əlaqədar toplanmış materiallardır».

Cinayət işinə qeyd olunduğu kimi geniş anlayışın verilməsi bir sıra digər anlayış və ifadələrin də düzgün başa düşülməsinə kömək etmiş olardı. Belə ki, müxtəlif kateqoriyalı işlər üzrə cinayət mühakimə icraatının başlanması cinayət-prosessual qanunvericilikdə müxtəlif cür ifadə olunmuşdur: ibtidai istintaqı məcburi olan işlər üzrə – cinayət işi başlama; məhkəməyədək sadələşdirilmiş icraat qaydasında araşdırılan işlər üzrə – məhkəməyədək sadələşdirilmiş icraat açmaq; xüsusi ittiham qaydasında şikayət üzrə icraat zamanı – xüsusi ittiham qaydasında şikayətin icraata qəbul edilməsi. Belə müxtəliflik barəsində icraat aparılan işlərin xüsusiyyətləri ilə bağlı olsa da, müəyyən anlaşılmazlıqlara da səbəb ola bilər. Fikrimizcə, belə anlaşılmazlıqların olmaması üçün cinayət işi başlama ifadəsi hər üç kateqoriyadan olan işlərə şamil edilməli və sadəcə olaraq cinayət işlərinin sonuncu iki kateqoriyası barədə «məhkəməyədək sadələşdirilmiş icraat qaydasında cinayət işi başlama» və «xüsusi ittiham qaydasında şikayət üzrə cinayət işi başlama» ifadələri işlədilməlidir.

Yuxarıda qeyd olunan təklif həyata keçirilərsə, «cinayət işi başlama» ifadəsinin birmənalı başa düşülməsi xeyli asanlaşmış olan və bu ifadənin yuxarıda göstərildiyi kimi hərfi mənada mücərrəd anlama gətirilməsi aradan qalxar. Beləliklə, cinayət işi başlama dedikdə, ictimai, ictimai-xüsusi və xüsusi ittiham qaydasında araşdırılan cinayət işləri üzrə cinayət mühakimə icraatının başlanması başa düşülməlidir.

Bizi maraqlandıran əsas məsələyə – cinayət işi başlama ilə cinayət təqibi başlamanın fərqinin müəyyən edilməsinə yuxarıda verilmiş anlayış xeyli dərəcə aydınlıq gətirmiş olur.

Cinayət işi başlama və cinayət təqibi başlama anlayışlarının düzgün olmayaraq eyniləşdirilməsinn və ya ən azı düzgün fərqləndirilə bilməməsinin

əlamətlərini CPM-in 46-cı maddəsində daha aydın görmək mümkündür. Belə ki, «Cinayət işinin başlanması ilə bağlı cinayət təqibi üzrə icraatın açılmasının xüsusiyyətləri» adlanan bu maddənin məzmunundan görünür ki, orada söhbət ibtidai istintaqı məcburi olan işlər üzrə cinayət işi başlamanın özünəməxsusluqlarından gedir. Adı çəkilən maddənin birinci çatışmazlığı ondan ibarətdir ki, bu maddə CPM-in Ümumi hissəsində yerləşsə də yalnız ibtidai istintaqı məcburi olan işlər üzrə cinayət işi başlamanın xüsusiyyətlərindən danışılır. Fikrimizcə, bu maddədə həm də məhkəməyədək sadələşdirilmiş icraat üzrə və xüsusi ittiham qaydasında şikayət üzrə cinayət işi başlamanın ümumi xüsusiyyətləri təsbit olunmalı idi. Çünki CPM-in 46.1-ci maddəsində təsbit olunmuş norma – cinayət işinin başlanması üçün müvafiq səbəb və əsasların olması məhkəməyədək sadələşdirilmiş icraat zamanı və xüsusi ittiham qaydasında şikayət üzrə cinayət işi başlamaya da aiddir.

CPM-in 46-cı maddəsində daha bir anlaşılmazlıq onun adı ilə bağlıdır. Bu maddənin adı ilk baxışdan onu deyir ki, burada söhbət cinayət təqibi üzrə icraatın açılması xüsusiyyətlərindən gedəcəkdir. Lakin maddənin məzmunundan görünür ki, burada söhbət ictimai və ictimai-xüsusi ittiham qaydasında araşdırılan işlər üzrə cinayət işi başlamanın xüsusiyyətlərindən gedir. Deməli, bu maddənin adı ilə onun məzmununu uyğunlaşdırmaq zərurəti vardır.

CPM-in 46.4-cü maddəsinin də mahiyyətini anlamaq xeyli çətindir. Belə ki, bu normada söhbət ədalət mühakiməsi əleyhinə cinayət törədildiyi halda dərhal cinayət işi başlamadan gedir. Normanın məzmununa əsasən, bu qaydada cinayət işini məhkəmə baxışında ittiham tərəfini təmsil edən prokuror - dövlət ittihamçısı başlamalıdır. Lakin bu normanı aşağıdakı səbəblərdən qüsurlu hesab etmək olar:

1) CPM-in 46.4-cü maddəsində söhbət məhkəmə baxışı zamanı aşkar edilmiş ədalət mühakiməsi əleyhinə istənilən cinayətin, yəni CM-in 32-ci fəslində nəzərdə tutulmuş cinayətlərdən hər hansı birinin əlamətləri olduqda cinayət işinin başlanmalı olduğundan gedir. Bu cinayətin nə vaxt – məhkəmə baxışı gedişində və ya bundan əvvəl törədilmiş olmasının, habelə kimin tərəfindən törədilmiş olmasının heç bir əhəmiyyəti yoxdur. Eyni zamanda normanın mahiyyətinə görə cinayəti törətməsi ehtimal edilən şəxsin məlum olub-olmaması da əhəmiyyətli deyildir. Başqa sözlə, burada söhbət cinayət işini fakt üzrə dərhal başlamadan da gedir. Fikrimizcə, ədalət mühakiməsi əleyhinə cinayətin törədildiyi hallarda dərhal cinayət işini yalnız o zaman başlamağa ehtiyac var ki, həmin cinayət məhkəmə baxışı gedişində, özü də proses iştirakçılarının gözü qarşısında törədilsin. Başqa hallarda törədilmiş cianyətin təfərrüatları həmin məhkəmə baxışının predmeti olmadığından cinayət işi başlamaq üçün kifayət qədər əsas olmaya da bilər;

2) CPM-in 46.4-cü maddəsində cinayət işi başlamaq vəzifəsi dövlət ittihamçısı qismində çıxış edən prokurora həvalə edilmişdir. Lakin bu, cinayət-prosessual qanunvericiliyin mühüm bir şərtini – məhkəmə baxışı zamanı dövlət ittihamını həyata keçirmək vəzifəsinin ibtidai araşdırma aparmaq və ya ona rəhbərlik etmək vəzifəsindən ayrılması şərtini pozur. Çünki cinayət işi başlama ibtidai araşdırma mərhələsinə aid prosessual hərəkətdir.

Yuxarıda sadalananları ümumiləşdirərək təklif edirik ki, CPM-in 46-cı maddəsi «Cinayət işi başlanmasının xüsusiyyətləri» adlandırılsın, CPM-in 46.4-cü maddəsi çıxarılsın, 46.1-ci maddəsi isə aşağıdakı redaksiyada verilsin:

«46.1. İctimai, ictimai-xüsusi və xüsusi ittiham qaydasında cinayət təqibi üzrə cinayət işinin başlanması üçün müvafiq səbəb və əsaslar olmalıdır».

CPM-in 46.1-ci maddəsinə əsasən, cinayət işi başlamaq üçün lazımi səbəb və əsaslar olmalıdır. Cinayət işi başlamaq üçün səbəb dedikdə, törədilmiş və ya hazırlanan cinayət haqqında fiziki şəxs tərəfindən verilən ərizə, hüquqi şəxsin (vəzifəli şəxsin) və ya kütləvi informasiya vasitəsinin məlumatları, yaxud bu məlumatların təhqiqatçı, müstəntiq və ya prokuror tərəfindən bilavasitə aşkar edilməsi nəzərdə tutulur (CPM-in 46.2-ci maddəsi). Cinayət işi başlanmasının əsası isə cinayətin əlamətlərinə işarə edən kifayət qədər dəlillərin olmasıdır (CPM-in 46.3-cü maddəsi).

Cinayət işi başlama o halda qanuni olacaqdır ki, onun üçün səbəb və əsas cinayət-prosessual qanunvericilikdə müəyyən edildiyi kimi olsun.

Artıq qeyd etdik ki, cinayət işi başlama və cinayət təqibi başlama bir-birindən fərqlidir. Deməli, cinayət təqibi başlamanın da öz səbəb və əsası olmalıdır. Bu zaman nəzərə almaq lazımdır ki, cinayət işi başlamanın səbəb və əsaslarından fərqli olaraq cinayət təqibi başlamanın səbəb və əsasları cinayət-prosessual qanunvericilikdə birbaşa təsbit edilməmişdir. Lakin CPM-in ayrı-ayrı normalarının təhlili əsasında həmin səbəb və əsasları müəyyən etmək mümkündür.

Cinayət təqibi başlamanın səbəbi də cinayət təqibini həyata keçirmək səlahiyyəti olan orqana hazırlanan və ya törədilmiş, yaxud törədildiyi ehtimal edilən cinayət barədə məlumatın çatdırılma mənbəyidir. CPM-in 46.2-ci maddəsi belə mənbələr qismində fiziki şəxs tərəfindən verilən ərizəni, hüquqi şəxsin (vəzifəli şəxsin) məlumatlarını, kütləvi informasiya vasitələrinin məlumatlarını, habelə bu məlumatların tədqiqatçı, müstəntiq və ya prokruor tərəfindən bilavasitə aşkar edilməsini göstərmişdir. Həmin mənbələr cinayət işi başlama üçün əsas olduğu kimi, həm də cinayət təqibi başlamağa əsasdır.

Lakin cinayət təqibi başlamanın əsasları ilə cinayət işi başlamanın əsasları xeyli dərəcədə fərqlidir. Məlumdur ki, cinayət təqibi konkret şəxsin törədilmiş cinayətdə təqsirli olduğunu təsdiq etməyə, onu ifşa etməyə yönəlmiş fəaliyyətdir. Deməli, bu fəaliyyətə yalnız o halda başlanıla bilər ki, konkret şəxsin araşdırılan cinayətin törədiməsinə aidiyyəti olmasını güman etməyə ciddi əsaslar olsun. Başqa sözlə, cinayət təqibi başlanmasının əsası konkret şəxsin törədilmiş ictiami təhlükəli əmələ aidiyyətinin olmasına işarə edən kifayət qədər dəlillərin olmasıdır. Buradan isə cinayət işi başlamanın əsasları ilə cinayət təqibi başlamanın əsasları arasındakı fərq aydın görünür.

Cinayət işi başlamanın əsasları qismində daha çox cinayət tərkibinin obyektiv cəhətinin əlamətlərinə işarə edən faktiki dəlillər çıxır edir. (2, s.360) Lakin cinayət təqibi başlamanın əsası qismində cinayət tərkibinin subyektinə aid əlamətləri əks etdirən faktiki dəlillər çıxır edir. Belə dəlillər araşdırılan cinayət əməlinin konkret şəxs tərəfindən törədildiyini ehtimal etməyə əsas verir və yalnız

bundan sonra həmin şəxsin ifşa edilməsi istiqamətində fəaliyyətə başlamaq mümkündür.

Beləliklə, cinayət təqibini başlamaq üçün lazımi səbəb və əsas olmalıdır. Lakin həmin səbəb və əsasın formal olaraq mövcud olması avtomatik olaraq cinayət təqibi başlamaya səbəb olmur. Bunun üçün müəyyən hüquqi şərtlər də tələb olunur.

Cinayət təqibi başlamanın hüquqi şərtləri qismində aşağıdakıları göstərə bilərik: 1) şəxsin təqsirli olduğu güman edilən əməldə cinayət qanunu ilə nəzərdə tutulmuş cinayət tərkibinin olması; 2) cinayət təqibini istisna edən, habelə cinayət təqibinin keçirilməməsinə imkan verən halların olmaması. Cinayət təqibi başlama üçün zəruri olan birinci hüquqi şərt o deməkdir ki, şəxs barəsində onu ifşa etməyə yönəlmiş cinayət-prosessual fəaliyyətə başlamaq üçün təkcə həmin şəxsin təqsirliliyinə işarə edən faktiki dəlillər kifayət deyildir. Bunun üçün həmin şəxs tərəfindən törədildiyi ehtimal edilən əməldə cinayət tərkibinin bütün elementlərinin məcmusu olmalıdır. İkinci şərt isə təqsirli olduğu güman edilən şəxs və onun törətdiyi ehtimal edilən əməl barəsində CPM-in 39-cu və 40-cı maddələrində nəzərdə tutulmuş halların olmamasını tələb edir.

Yuxarıda qeyd edilən səbəblərdən biri, əsas və hüquqi şərtlər mövcud olduqda cinayət təqibi başlama tam qanuni olacaqdır. Eyni zamanda həmin səbəb, əsas və hüquqi şərtlərin olması cinayət təqibini həyata keçirən orqanlar üçün xüsusi vəzifə – cinayət təqibi başlamaq vəzifəsi yaradır.

Məlumdur ki, cinayət işi rəsmi prosessual sənədin tərtib edilərək qəbul edilməsi ilə başlayır. Bundan fərqli olaraq cinayət təqibi başlama barədə xüsusi prosessual akt qəbul edilmir. Bununla əlaqədar cinayət təqibinin hansı vaxtdan başlanması və bunun hansı qaydada rəsmiləşdirilməsi xüsusi əhəmiyyət daşıyır.

Artıq qeyd etmişdik ki, cinayət işi başlama ilə cinayət təqibi başlama anı üst-üstə düşməyə bilər. Bunun səbəbi cinayət işi başlama və cinayət təqibi başlamanın əsaslarının fərqli olmasıdır. Müəyyən hallarda cinayət işi başlama üçün əsaslar olduğuna görə cinayət işi başlanır, lakin konkret şəxsə qarşı ittiham fəaliyyətini yönəltmək üçün zəruri faktiki dəlillər olmadığından, cinayət təqibi müəyyən müddət sonra – belə dəlillərin əldə edilməsi ilə başlayır. Eyni zamanda cinayət təqibi cinayət işi başlamadan əvvəl də başlaya bilər. Bu o halda mümkündür ki, cinayət əməlini törətmiş şəxsi ifşa etməyə yönəlmiş prosessual fəaliyyət cinayət işi başlamayadək həyata keçirilir. Belə ki, məsələn, şəxs CPM-in 148-ci maddəsində nəzərdə tutulmuş qaydada tutulduqda onun barəsində cinayət təqibi başlanmış hesab edilməlidir, çünki prosessual məcburiyyət tədbiri olan tutma cinayət təqibinin həyata keçirilməsi üzrə fəaliyyətin tərkib hissələrindən biridir. (3, s.81) Lakin bu halda cinayət təqibinin başlanmış olmasına baxmayaraq cinayət işi hələ başlanmamışdır. Deməli, cinayət təqibi cinayət işi başlamadan əvvəl də başlaya bilər.

Cinayət təqibi başlamanın rəsmiləşdirilməsi də maraqlı məsələlərdən biridir. Məlumdur ki, cinayət-prosessual qanunvericilikdə cinayət təqibi barədə kifayət qədər geniş danışılsa da, cinayət təqibi başlamanın hansı aktla rəsmiləşdirilməsinə aydınlıq gətirilmir. Belə bir yanaşma xeyli dərəcədə cinayət

təqibi üzrə prosessual fəaliyyətin öz mahiyyəti ilə bağlıdır. Belə ki, törədilmiş əməl üzrə ittiham funksiyasını konkret şəxsə yönəltmək üçün kifayət qədər faktiki dəlillərin əldə edildiyi andan həmin şəxsin bu əmələ aidiyyətinin müəyyən edilməsi istiqamətində prosessual hərəkətlərə başlanılır. Belə ilkin dəlillər isə müxtəlif prosessual hərəkətlərin (hadisə yerinə baxış, şahidlərin və zərərçəkmişlərin dindirilməsi və s.) gedişində əldə edilə bilər. Bu hərəkətlərdən bəziləri (məsələn, hadisə yerinə baxış) cinayət işi başlamadan əvvəl də icra oluna bilər və şəxs onun barəsində cinayət təqibi başlamasına əsas verə biləcək dəlillərin toplandığından xəbərsiz də ola bilər.

Beləliklə, cinayət təqibi cinayət prosessual fəaliyyətin tərkib hissəsi olan müxtəlif hərəkətlər nəticəsində toplanmış dəlillər əsasında başlanır və xüsusi prosessual aktla rəsmiləşdirilmir. Məhz bu səbəbdəndir ki, cinayət-prosessual qanunvericilik cinayət təqibi başlama haqqında hər hansı akt barədə danışmır.

Lakin cinayət təqibi konkret şəxs barəsində həyata keçirilən prosessual fəaliyyət olduğundan bu fəaliyyətin həmin şəxsə qarşı yönəlmiş olduğu müəyyən aktla rəsmiləşdirilməlidir. Məlumdur ki, cinayət təqibi şübhəli şəxs və təqsirləndirilən şəxs barəsində həyata keçirilir. Şübhəli şəxsin prosessual statusu aşağıda göstərilən formalarda rəsmiləşdirilə bilər:

1) tutma protokolu ilə (cinayət törətməkdə şübhələnildiyinə görə CPM-in 148-ci maddəsində göstərilmiş qaydada tutulmuş şəxs);

2) tutulma haqqında qərarla (CPM-in 150-ci maddəsinə müvafiq olaraq barəsində ittiham elan olunmaq üçün tutulma haqqında qərar çıxarılmış şəxs);

3) məhkəməyədək sadələşdirilmiş icraatın açılması barədə dərkənar qoyulmuş yazılı şikayət və ya şifahi şikayətin qəbul edilməsi barədə protokol (barəsində CPM-in 294-cü maddəsinə müvafiq olaraq məhkəməyədək sadələşdirilmiş icraat başlanılmış şəxs);

4) yalnız konkret şəxs tərəfindən törədilə bilən cinayət faktı üzrə cinayət işi başlama haqqında qərar (belə cinayəti törətməsi güman edilən, lakin hələ ittiham elan edilməmiş şəxs). (4, s.263-264)

Göstərilən prosessual sənədlər cinayət təqibinin konkret olaraq kimə qarşı yönəlmiş olduğunu əks etdirir, lakin həmin sənədləri cinayət təqibinin başlanma anı hesab etmək olmaz, çünki onlardan bəziləri (məsələn, tutulma haqqında qərar) çıxarılmamışdan əvvəl cinayəti törətməsi güman edilən şəxsin ifşası istiqamətində müəyyən hərəkətlər edilmiş olur.

Təqsirləndirilən şəxsin prosessual statusu isə təqsirləndirilən şəxs qismində cəlb etmə haqqında qərarla rəsmiləşdirilir. Bu prosessual akt da cinayət təqibinin başlanğıcını rəsmiləşdirən sənəd hesab edilə bilməz, çünki həmin qərarın çıxarılmasınadək şəxsə ittiham irəli sürmək üçün zəruri olan dəlillərin toplanması istiqamətində müəyyən prosessual fəaliyyət həyata keçirilmiş olur ki, bu da mahiyyət etibarilə şəxsi ifşa etməyə yönəlmiş cinayət təqibidir.

Yuxarıda göstərilən prosessual aktlar cinayət təqibinin başlanma anını əks etdirməsə də, cinayət təqibinin həyata keçirilməsində mühüm rol oynayır. Məhz bu sənədlər cinayət təqibi üzrə fəaliyyətə tam aydınlıq gətirərək onun istiqamətini dəqiq müəyyənləşdirmiş olur. Həmin aktların qanuni və əsaslı olması cinayət

təqibi üzrə fəaliyyətin sonrakı gedişində qanunçuluğun təmin olunmasını, səmərəli prosessual fəaliyyətin həyata keçirilməsini şərtləndirir.

Cinayət təqibinin müxtəlif növlərinin başlanması da fərqlidir. Məsələ burasındadır ki, cinayət təqibinin üç müxtəlif növü – ictimai, ictimai-xüsusi və xüsusi ittiham qaydasında cinayət təqibi həm də başlanma xüsusiyyətlərinə görə bir-birindən fərqlidir. İctimai ittihamlı işlərdə cinayət təqibinin həyata keçirilməsi cinayət təqibini həyata keçirən orqan və vəzifəli şəxslərin borcudur və onlar zəruri səbəb, əsas və hüquqi şərtlər olduqda cinayət təqibini mütləq həyata keçirməlidirlər.

İctimai-xüsusi ittihamlı işlərdə prokurorun müdaxiləsinin zəruri olduğu CPM-in 37.5-ci maddəsində sadalanmış hallarda da cinayət təqibini həyata keçirmək təhqiqatçının, müstəntiqin və ya prokurorun vəzifəsidir. Lakin prokurorun müdaxiləsi nəzərdə tutulmadığı ictimai-xüsusi ittihamlı işlərdə, habelə xüsusi ittihamlı işlərdə cinayət təqibi başlamaq və onu həyata keçirmək xüsusi ittihamçının hüqugudur, müstəsna olaraq onun (qanuni nümayəndəsinin və ya nümayəndəsinin) iradəsindən asılıdır.

Cinayət təqibinin qanuniliyinin daha bir şərti cinayət təqibinin qanunla müəyyən olunmuş qaydada və üsullarla həyata keçirilməsidir. Bu şərtin mahiyyəti ondan ibarətdir ki, şübhəli və ya təqsirləndirilən şəxsi ifşa edən hər bir dəlil yalnız qanunun yol verdiyi sübutlar vasitəsilə müəyyən edilməlidir. Belə sübutlar cinayət-prosessual qanunvericiliyin bütün tələblərinə ciddi riayət edilməklə icra edilmiş prosessual hərəkətlər nəticəsində əldə edilməli və lazımi qaydada rəsmiləşdirilmiş olmalıdır. Cinayət təqibinin qanuniliyinin mühüm tərkib hissələrindən biri şübhəli və ya təqsirləndirilən şəxs barəsində tətbiq edilən prosessual məcburiyyət tədbirlərinin qanuniliyidir. Belə tədbirlər həmin şəxslərin azadlığını məhdudlaşdırdığından və deməli, onların müdafiə imkanlarına ciddi təsir edə bildiyindən onların tətbiqi zamanı cinayət-prosessual qanunvericiliyin tələblərinə daha həssas yanaşılmalıdır.

Cinayət təqibi cinayət prosesinin müxtəlif mərhələlərində həyata keçirilir. Bu zaman həyata keçirilən prosessual fəaliyyət xeyli dərəcədə hər bir mərhələnin mahiyyəti ilə bağlı olsa da, qanunvericiliyin tələblərinə ciddi riayət edilməsi bütün mərhələlərə xas olan əsas ümumi şərtdir.

Cinayət təqibinin qanuniliyinin əsas şərtlərindən biri də bu prosessual fəaliyyətin yol verilən həddə qədər həyata keçirilməsidir. Bu o deməkdir ki: 1) cinayət təqibini istisna edən və ya onun həyata keçirilməməsinə imkan verən hallar aşkar edildikdə cinayət təqibinə xitam verilməlidir; 2) belə hallar mövcud deyildirsə, cinayət təqibi qanunla müəyyən edilmiş qaydada davam etdirilməlidir. Bu variantlardan hər ikisi cinayət təqibini həyata keçirən orqanların vəzifəsidir. Başqa sözlə, bunun üçün əsaslar olduqda cinayət təqibinə xitam verilməsi, belə əsaslar olmadıqda isə cinayət təqibinin davam etdirilməsi cinayət təqibini həyata keçirən orqan və vəzifəli şəxslərin borcudur.

Məlumdur ki, qanunçuluq prinsipi universal prinsipdir. Ona görə də cinayət-prosessual fəaliyyət bütövlükdə bu prinsipə ciddi riayət edilməklə həyata keçirilir. Lakin cinayət təqibinin həyata keçirilməsi zamanı ayrı-ayrı özünəməxsus

normalara xüsusi diqqət yetirilməsi, cinayət təqibi üzrə fəaliyyətin qanunvericiliyə tam riayət edilməklə həyata keçirilməsi cinayət mühakimə icraatının uğurla başa çatdırılmasının başlıca amillərindən biridir.

İstifadə olunmuş ədəbiyyat

1. Хропанюк В.Н. Теория государства и права. М., 1999.
2. Комментарий к УПКРФ /Под ред. А.П.Рыжакова. М., 2002.
3. Уголовный процесс. Учебник /Под ред. В.И.Радченко. М., 2003.
4. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin kommentariyası. I cild. B., 2003.

Шяфаят ИМРАНОВ

ОСОБЕННОСТИ СОБЛЮДЕНИЯ ТРЕБОВАНИЙ УГОЛОВНО-ПРОЦЕССУАЛЬНОГО ЗАКОНОДАТЕЛЬСТВА ПРИ ПРИВЕДЕНИИ В ИСПОЛНЕНИЕ УГОЛОВНОГО ПРЕСЛЕДОВАНИЯ

Резюме

Обеспечение соблюдения всех требований существующего процесс-суального законодательства, прав и свобод человека при приведении в исполнение уголовного преследования расценивается как одна важных задач правоохранительных органов на этапе строительства правового государства. В статье с точки зрения требований нового уголовно-процессуального законодательства рассматриваются особенности равного и точного соблюдения процессуального законодательства и других нормативно-правовых актов, обосновывается важность и необходимость соблюдения этих положений при приведении в исполнение уголовного преследования.

Shafaat IMRANOV

THE PECULARITIES OF CONFORMING TO THE REQUIREMENTS OF CRIMINAL PROCEDURE LEGISLATION IN THE PERIOD OF CARRYING OUT THE CRIMINAL PROSECUTION

Summary

On the stage of building a legal state conforming to the requirements of the existing criminal procedure legislation in the period of carrying out criminal prosecution and providing maintenance of the rights and freedoms of a man are one of the most important responsibilities of the legislative defence bodies.

In the article the pecularities of the adequate and accurate conforming to the criminal procedure legislation and other normative legal asts are commented, the necessity and importance of maintenance of there rules are substantiated.

Rəsul ƏLİYEV
AMEA Fəlsəfə və Siyasi-Hüquqi
Tədqiqatlar İnstitutunun dissertantı

YOL NƏQLİYYAT HADİSƏSİ YERİNDƏN QAÇMA CİNAYƏTLƏRİNİN SUBYEKTİV ƏLAMƏTLƏRİ

CM-nin 264-cü maddəsində nəzərdə tutulmuş cinayətin subyektiv cəhəti haqqında məsələ üzrə cinayət hüquqi doktrinasında müxtəlif nöqteyi-nəzərlər mövcuddur. Bəzi müəlliflər belə hesab edirlər ki, yol nəqliyyat hadisəsi yerindən qaçma təqsiri qəsd, özü də düzünə qəsd formasında törədilən cinayətdir. (1, s.315-316) Digər müəlliflərin fikrincə, nəzərdən keçirilən əməl meydana çıxmış nəticələrə münasibətdə təqsirin ehtiyatsızlıq formasında törədilir. (2, s.522)

Nəhayət, üçüncü qisim tədqiqatçıların mövqeyinə görə, yol nəqliyyat hadisəsi yerindən qaçan şəxs faktiki olaraq göstərilən nəticələrin meydana çıxmasını arzu edir və onların meydana çıxmasına yol verir. Belə halda qəsd mövcud olur. Lakin belə qəsd yol nəqliyyat hadisəsi yerindən qaçma yolu ilə törədilir və o, ehtiyatsızlıqda da ifadə oluna bilər. (3, s.341)

Fikrimizcə, birinci nöqteyi-nəzər daha əsaslandırıcıdır. Təhlil edilən cinayət təqsirin qəsd formasında törədilir. Təqsirkar baş verməsində təqsirli olduğu və məsuliyyət daşıdığı yol nəqliyyat hadisəsi yerini qoyub qaçdığını şüurlu surətdə dərk edir və məhz belə hərəkət etməyi, məsuliyyətdən yaxa qurtarmağı arzu edir. Digər tərəfdən şəxs yol hərəkəti qaydalarını pozduğunu da şüurlu surətdə dərk edir.

Məsələyə bir qədər aydınlıq gətirmək üçün cinayət hüquqi doktrinasında, ümumiyyətlə, cinayətin subyektiv cəhətinə aid ümumi müddəaları qısa şəkildə də olsa, nəzərdən keçirməyi məqsədəuyğun hesab edirik.

Cinayət qanunu birmənalı şəkildə müəyyən edir ki, yalnız qanunla nəzərdə tutulmuş tərkibin bütün əlamətlərinin mövcud olduğu əməlin (hərəkət və ya hərəkətsizliyin) törədilməsi cinayət məsuliyyəti yaradır (CM-nin 3-cü maddəsi). Əməli (hərəkət və ya hərəkətsizliyi) yalnız qəsdən və ya ehtiyatsızlıqdan törətmiş şəxs cinayət törətməkdə təqsirli sayılır (CM-nin 24.1 maddəsi).

Cinayət qanunvericiliyi belə hesab edir ki, qəsd və ya ehtiyatsızlıq şəxsin törətdiyi cinayətə psixoloji münasibətin müəyyən formalarından ibarətdir. Bu zaman cinayətin tövsif edilməsi üçün ancaq təqsirkara cinayətin törədilməsinədək və ya onun törədilməsi anında olan psixi münasibət hüquqi əhəmiyyət kəsb edir.

Cinayətin törədilməsindən sonra təqsirkarın psixi vəziyyəti törədilmiş cinayətin tövsifinə təsir göstərmir, lakin şəxs üçün konkret cəza tədbirinin müəyyən edilməsi baxımından mühüm əhəmiyyətə malikdir. Bu, eyni zamanda məsuliyyətin növünün müəyyən edilməsində müəyyən rol oynayır. Təqsirkarın psixi vəziyyəti onun cinayət, inzibati məsuliyyətə, yaxud intizam məsuliyyətinə cəlb edilməsinə təsir göstərən amillərdən biridir.

İnsanın törətdiyi ictimai təhlükəli əmələ subyektiv münasibəti son dərəcə müxtəlif xarakterə malik ola və özündə rəngarəng xassələri ehtiva edə bilər. (4, s.18) Cinayət qanunu hər bir cinayətin subyektiv cəhətinə cavab verə bilən yalnız minimum tələbləri müəyyən edir. Bu məcburi tələblərin hüdudlarından kənarda şəxsin törətdiyi cinayətə psixi münasibətinin bir çox xüsusiyyətləri qalır.

Şəxs cinayət məsuliyyətinə cəlb edilərkən onun törətdiyi əmələ ümumi psixi münasibəti deyil, ciddi müəyyən edilmiş növə psixi münasibətinin müəyyən edilməsi zəruridir. Qanun belə hesab edir ki, yalnız qəsd və ya ehtiyatsızlıq formasında ifadə edilmiş psixi münasibət cinayət-hüquqi cəhətdən əhəmiyyətə malikdir. (5, s.34)

Keçmiş sovet hüquqi nəzəriyyəsində təqsirkarın qəsd və ehtiyatsızlıq formasında deyil, hansısa digər bir formada psixi münasibətini müəyyən etməyə cəhdlər göstərilmişdir. Məsələn, M.A. Çeltsov yanakı qəsdi və cinayətkarcasına özünə güvənməni müstəqil təqsir formasında – təqsirin bilə-bilə formasında birləşdirilməsini təklif edirdi. Düzünə və yanakı qəsdin vahid anlayış altında birləşdirilməsini V.Y.Livşis də irəli sürürdü. (6, s.35)

Qeyd etmək lazımdır ki, keçmiş sovet cinayət hüquq elmində müdafiə edilməmişdir. Həmin dövrdə İ.S.Somaşenko düzgün olaraq yazırdı: «Qəsd və ehtiyatsızlıq ona görə hüquqi təqsir hesab olunurlar ki, onlar şəxsin öz hüquqazidd davranışına və ictimai zərərli nəticələrə psixi münasibətinin yeganə mümkün formalarıdır ki, onlar da cəmiyyət və dövlət tərəfindən mühakimə edilə bilər». (7, s.138)

Qəsd və ehtiyatsızlıq – bunlar cinayətin subyektiv cəhətinə daxil olan anlayışlardır. Ona görə də yenə həmin dövrdə Sergeyeva haqlı olaraq qeyd edirdi ki, «həm qəsd, həm də ehtiyatsızlıq – bunlar cinayət hüquqi anlayışlardır. İnsanın hər cür fəaliyyəti, psixi reaksiyası cinayət hüquqi baxımdan «qəsd», yaxud «ehtiyatsızlıq» kimi qiymətləndirilə bilməz». (8, s.107)

Keçmiş sovet cinayət hüququnun göstərilən müəddəaları cinayət tərkibi haqqında təlimdə öz əksini tapdı. Cinayət tərkibi anlayışı özündə cinayətkar əmənin həm obyektiv cəhətini, həm də subyektiv cəhətini xarakterizə edən elementləri ehtiva edir.

Cinayət tərkibinin elementləri, o cümlədən də cinayətin obeyktiv cəhətini və subyektiv cəhətini xarakterizə edən elementlər hər biri cinayətin ən mühüm, əhəmiyyətli və tipik əlamətlərini əks etdirirlər. Cinayət tərkibinin elementləri törədilmiş hər bir cinayətin bütün konkret xüsusiyyətlərini əhatə etmirlər və edə də bilməzlər. Bu da aydındır ki, çünki cinayət tərkibi – bu, elmi, hüquqi abstraksiyadır. Hər cür ümumi yalnız təqribi olaraq bütün ayrıca predmetləri əhatə edir.

Cinayətin subyektiv cəhətini xarakterizə edən tərkib əlamətlərinin müəyyən edilməsi əmənin cinayət qanununun müvafiq maddəsi ilə tövsif edilməsi üçün digər elementlərin və ya tərkib əlamətlərinin mövcudluğu zamanı kifayət edir. Cəza tədbirinin təyin edilməsi haqqında məsələnin düzgün həll edilməsi üçün bir çox hallarda təqsirkarın davranışında subyektiv anların aydınlaşdırılması son dərəcə mühüm əhəmiyyət kəsd edir.

Cinayətin subyektiv cəhətini xarakterizə edən cinayət tərkibinin əlamətləri cinayət tərkibinin bütün digər elementləri ilə sıx surətdə bağlıdır. Cinayətin subyektiv cəhətinin, o cümlədən qəsdin məzmununun təhlili cinayətin obyektini düzgün müəyyən etməyə imkan verir.

Cinayətin subyektiv cəhətinin düzgün müəyyən edilməsi eyni zamanda da cinayətin obyektiv cəhətini düzgün müəyyənləşdirməkdə mühüm əhəmiyyətə malikdir. Bu ilk növbədə onunla şərtləşir ki, məhz şəxsin iradəsinin və şüurunun nəzarəti altında olan davranış aktı cinayətkar hərəkət və ya hərəkətsizlik hesab olunur. Cinayətin obyektiv cəhətinə ancaq o zərərli nəticələr daxil edilir ki, təqsirkar həmin nəticələri qabaqcadan görmüş və ayrı–ayrı hallarda görə bilməli və görməli idi. Başqa sözlə, həmin nəticələr təqsirkarın qəsdi və ya ehtiyatsızlığı ilə əhatə olunan zərərli nəticələrdir.

V.N.Kudryavtsev haqlı olaraq qeyd edir ki, cinayətin gələcək obyektiv cəhəti ideal formada şəxsin şüurunda təşəkəkül tapır və sonradan bu və ya digər dərəcədə gerçəklikdə həyata keçirilir. (9, s.14)

Cinayətin subyektiv cəhətinin təhlil edilməsi zamanı nəzərə almaq zəruridir ki, cinayət qanunvericiliyində ancaq qəsdən törədilən cinayət tərkibləri (terrorçuluq, qəsdən adamöldürmə, təxribat, quldurluq, soyğunçuluq və s.) mövcudur.

Digər hallarda ictimai təhlükəli əməl zəruri əlamət olduqda ya qəsdən və ya da ehtiyatsızlıqdan törədilən cinayət hesab olunur. Belə cinayətlər, o cümlədən adamöldürmə, bədənə xəsarət yetirmə, əmlakı məhv etmə və ya zədələmə və s.

Cinayət qanunu təqsirkarın törətdiyi ictimai təhlükəli hərəkətə (hərəkətsizliyə) psixi münasibətini heç də həmişə birbaşa müəyyən etmir. Hələ keçən əsrin 50-ci illərində hüquq ədabiyyatında göstərilirdi ki, cinayət qanunvericiliyinin Xüsusi hissəsinin normalarının dispozisiyalarında ən yaxşı halda bəzi cinayətlərin qəsd və ehtiyatsızlıqla törədilməsi haqqında danışılır, bir çox hallarda isə təqsirin forması ümumiyyətlə göstərilmir. (10, s.206) Konkret cinayətlərin subyektiv məzmununun açılmasına gəldikdə isə, həmin məsələyə cinayət qanunvericiliyinin Xüsusi hissəsinin normalarında ümumiyyətlə toxunulmur.

O cümlədən Azərbaycan Respublikasının cinayət qanunvericiliyinin cinayətlərindən bəhs edən normalarında həmin cinayətlərin təqsirin hansı formasında törədilməsi barədə danışılmır. Lakin cinayət hüquq normalarının belə konstruksiyası zamanı da həmin cinayətlərin törədildiyi zaman təqsirin formasını düzgün müəyyən etmək imkanı yaranır.

Hərəkətin təhlükəsizliyi və nəqliyyat vasitələrinin istimarı qaydaları əleyhinə olan cinayətlərin nəzərdən keçirilməsi zamanı bu cinayətlərin subyektiv cəhətinin aydınlaşdırılması üçün törədilmiş əməlin hansı hallarının təqsirkarın psixi münasibətilə əlaqədar olması haqqında məsələnin həll edilməsi mühüm əhəmiyyətə malikdir. İnsanın psixi fəaliyyəti intellektual və iradəvi anların əlaqələndirilməsindən ibarətdir. Cinayətin subyektiv cəhəti haqqında danışarkən təqsirkarda olan şüur və iradənin qarşılıqlı əlaqə növləri və təqsirin müxtəlfi növləri nəzərdə tutulur. Hər bir konkret cinayətkar qəsddə subyektiv cəhətin

məzmununun son dərəcə fərdi olmasına baxmayaraq, bəzi ümumi müddəaları da müəyyən etmək olar.

Ümumi müddəaların müəyyənliyi onunla şərtləşir ki, istənilən cinayətin subyektiv cəhətinin məzmunu cinayətin subyektinə şamil olunan bütün obyektiv halları təşkil edirlər. Həmin obyektiv hallara aşağıdakılar aiddir:

a) ictimai təhlükəli hərəkət (hərəkətsizlik);

b) cinayətin törədilməsi nəticəsində meydana çıxmış zərərli nəticələr;

v) törədilmiş ictimai təhlükəli əməllə meydana çıxmış zərərli nəticələr arasında səbəbli əlaqə;

q) cinayətin törədildiyi vaxt, yer, şərait və üsul.

Təqsirkarın öz hərəkətinə (hərəkətsizliyinə) psixi münasibətin aydınlaşdırılmasının mühüm hüquqi əhəmiyyəti vardır. Təqsirkarın meydana çıxmış zərərli nəticələrə də psixi münasibəti eyni dərəcədə aydınlaşdırılmalıdır. Bu aşağıdakı amillərdən irəli gəlir.

Birincisi, bu o deməkdir ki, cinayət tərkibinə aid olan əlamətlərin müəyyən edilməsi cinayətin düzgün tövsif edilməsi üçün zərərlidir.

İkincisi, bu, cinayətləri digər oxşar əməllərdən fərqləndirməyə imkan yaradır.

Üçüncüsü, təqsirkarın və onun törətdiyi cinayətin təhlükəlilik dərəcəsini aydınlaşdırmağa kömək edir və bununla bərabər ədalətli cinayət cəzası təyin edilməsinə şərait yaradır.

Təqsirkarın cinayətin subyektiv cəhətinə daxil olan hallara psixi münasibətinin xarakterinin müəyyən edilməsi cinayətin tövsif edilməsində, yəni törədilmiş əmələ cinayət hüquq normasının düzgün tətbiq olunmasında həmişə əhəmiyyətli rol oynamışdır.

Hərəkətin təhlükəsizliyi və nəqliyyat vasitələrinin istimarı qaydaları əleyhinə olan cinayətlər, o cümlədən yol nəqliyyat hadisəsi yerindən qaçma əməlləri üçün müəyyən motivin və məqsədin olması xarakterikdir. Təhlil edilən cinayətin fakultativ əlamətləri olan motiv və məqsəd həmin əməlin tövsif edilməsinə öz təsirini göstərməsə də, onlar cəzanın fərdiləşdirilməsi zamanı mütləq nəzərə alınırlar.

Yol nəqliyyat hadisəsi yerindən qaçma cinayətinin motivini törədilmiş əmələ görə cinayət məsuliyyətindən yaxa qurtarmaq təşkil edir. Sürücü məhz cəzanın dəhşətindənmi, yaxud onun vahiməsindənmi, necə olursa-olsun cinayət məsuliyyətindən yayınmağa cəhd göstərir.

Məqsəd müvafiq icra hakimiyyəti orqanının hadisə yerinə gəlməsinədək oradan qaçıb gizlənməkdən ibarətdir.

Yol nəqliyyat hadisəsi yerindən qaçma cinayətində belə motiv və məqsədin olması təqsirkarın düzünə qəsdlə hərəkət etməsi haqqında şəhadət verir. Burada cinayətin yanakı qəsdlə törədilməsi qeyri-mümkündür. Çünki cinayətin subyekti bu zaman laqeyd ola bilməz. Daha doğrusu o, öz hərəkətlərinə laqeyd yanaşa bilməz. Bu zaman subyekt ya konkret situasiyada müəyyən tərzdə hərəkət etməyi arzu edə, ya da arzu etməyə bilər.

Belə hallarda təqsirkarın meydana çıxmış zərərli nəticələrə münasibəti təhlil edilən cinayətin subyektiv cəhətini müəyyən etmir. Çünki meydana çıxmış

zərərli nəticələr yol nəqliyyat hadisəsi yerindən qaçma ilə birbaşa səbəbli əlaqədə olmur.

Yol nəqliyyat hadisəsi zamanı sürücü ciddi bir qəzanın baş verdiyini dərk edə bilər. Lakin o, həmin qəza hadisəsinin ciddiliyini bütün tamlığı ilə dərk etməyə də bilər. Lakin hər bir halda onun CM-nin 264-cü maddəsi ilə məsuliyyəti CM-nin 263-cü maddəsində nəzərdə tutulmuş cinayət tərkibinin əlamətləri ilə müəyyən edilir. Çünki həmin cinayət tərkibinin əlamətlərindən heç olmasa birinin olmaması şəxsi CM-nin 264-cü maddəsi ilə cinayət məsuliyyətinə cəlb etməni istisna edir.

Təhlil edilən cinayətin subyekti cinayətin törədilməsinədək 16 yaşı tamam olmuş, nəqliyyat vasitəsini idarə edən və yol hərəkəti, yaxud nəqliyyat vasitələrinin istismarı qaydalarını pozan anlaqlı fiziki şəxs ola bilər.

Qanunda nəzərdə tutulan qaydaları pozmayan, lakin yol nəqliyyat hadisəsi yerindən qaçıb gedən nəqliyyat vasitəsini idarə edən şəxsin əməlinə CM-nin 264-cü maddəsinin qüvvəsi şamil olunmur. Belə olduqda, əməl CM-nin 143-cü maddəsi ilə tövsif olunmalıdır. (11, s.733)

Göründüyü kimi, təhlil edilən ictimai təhlükəli əməl xüsusi subyekt tərəfindən törədilir. O, nəqliyyat vasitəsini idarə edən və yol hərəkəti qaydalarını pozan fiziki şəxsdir. Onun məhz yol hərəkəti qaydalarını pozması yol nəqliyyat hadisəsinin baş verməsinin səbəbi qismində çıxış edir.

CM-nin 263-cü maddəsində nəzərdə tutulmuş cinayətin subyektindən fərqli olaraq, burada təqsirkar yol nəqliyyat hadisəsi yerindən qaçmaqla yol hərəkəti qaydalarını təkrarən pozur (ikinci dəfə pozur).

Deməli, yol nəqliyyat hadisəsi əməlinin iştirakçısı hər kəs deyil, yalnız yol hərəkəti və ya nəqliyyat vasitələrinin istismarı qaydalarını pozan sürücü ola bilər. Yəni təhlil edilən cinayətin subyekti qismində yol qəzasını törətmiş şəxs çıxış edə bilər.

Yol nəqliyyat hadisəsinin təqsirkarları və iştirakçıları olmayan sürücülər hadisə nətcəsində zərər çəkmiş şəxslərə (buna real imkanları olduqları halda) kömək göstərməməyə, yaxud müvafiq orqanlara məlumat verməməyə görə inzibati-hüquqi qaydada məsuliyyət daşıyırlar.

Qeyd etmək lazımdır ki, cinayət hüquqi doktrinasında belə bir təklif irəli sürülür ki, yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarını pozmuş şəxs tərəfindən yol nəqliyyat hadisəsi yerini qoyub getməsi tərkibininin bu fəslə daxil olunmasını əsaslandırılmış hesab etmək düzgün olmazdı. Çünki göstərilən əməl hərəkətin və ya nəqliyyatın istismarı üçün təhlükə yaratmasına görə deyil, təqsirkarın məsuliyyətdən qaçmasına görə cinayət cəzasına layiqdir. (12, s.533)

Belə bir cəhətə də diqqət yetirmək lazımdır ki, CM-nin 263.1 maddəsinin və 264-cü maddəsinin sanksiyaları demək olar ki, eynidir – üç ilədək müddətə azadlığın məhdudlaşdırılması. Buna görə CM-nin 66.3-cü maddəsinə uyğun olaraq cinayətlərin məcmusuna az ağır, ağır və ya xüsusilə ağır cinayətlərdən hər hansı biri aiddirsə, təyin olunmuş cəzaları tamamilə və ya qismən toplamaq yolu ilə qəti cəza təyin edilir. Bu halda azadlığı məhdudlaşdırma növündə qəti cəzanın müddəti üç ildən artıq ola bilməz.

Hüquq ədəbiyyatında göstərilir ki, hadisə yerini qoyub getmiş sürücü daha ciddi cəza almaq riskini etmir. Bununla yanaşı, bu növdən olan hərəkətin təhlükəsizliyi və nəqliyyat vasitələrinin istimarı qaydaları əleyhinə olan cinayətlərlə səmərəli mübarizənin aparılması mükafatlandırıcı normaların köməyi ilə daha yaxşı təmin edilərdi. (13, s.461)

Nəzərə almaq lazımdır ki, nəqliyyatın işinin təhlükəsizliyinə bəzi cinayətkar qəsd növlərinin cinayət cəhətdən cazalanmalı olması sferasının məhdudlaşdırılması subyektlərin törətdikləri əməllərin və onların nəticələrinin qarşısının alınması və ya aradan qaldırılması istiqamətində subyektlərin davranışının qanunvericilik qaydasında stimullaşdırılması hesabına da mümkündür. Bu məqsədlə hərəkətin təhlükəsizliyi və nəqliyyat vasitələrinin istimarı qaydaları əleyhinə olan cinayətlərə dair normalara (ayrı-ayrı normalara) bir sıra əlamətləri daxil etmək məqsədəmüvafiq olardı. Həmin əlamətlərin olması təqsirkar şəxslərin cinayət məsuliyyətindən azad olunmasına imkan yaratmış olardı. Belə əlamətlərə yol nəqliyyat hadisəsi zamanı vurulmuş maddi ziyanın ödənilməsini, törədilmiş cinayətkar qəsdin nəticələrinin aradan qaldırılmasını və s. aid etmək olar.

Bolqarıstan Respublikası Cinayət Məcəlləsinin təqsirkar tərəfindən zərər çəkmiş şəxsə köməklik göstirildiyi halda ehtiyatsızlıqla törədilmiş nəqliyyat cinayətinə görə cəzanın əhəmiyyətli dərəcədə aşağı salınmasını nəzərdə tutan 343-cü maddəsinin tətbiqi praktikası həmin normanın perspektivliyini aşkar etmişdir. (14, s.154)

Məsələn, Rusiya Federasiyası məhkəmə təcrübəsinin öyrənilməsi göstərir ki, sürücülərin xeyli hissəsi zərər çəkmiş şəxsə kömək göstərməyərək, yol nəqliyyat hadisəsi yerindən qaçaraq gizlənirlər və bununla bərabər həm də cəzasız qalırlar. Bu baxımdan B.M.Biryukovun aşağıdakı təsdiqi açıq surətdə illüziyalaşdırılmış şəkildə nəzərə çarpır. Müəllifin fikrincə, yol nəqliyyat hadisəsi yerindən qaçdıqdan 24 saat ərzində təqsirkar «təqsirini etiraf etməklə» gəlmədikdə, iş hər bir halda avtomatik olaraq məhkəməyə verilməlidir. (15, s.94)

Sərt həqiqət isə ondan ibarətdir ki, yol nəqliyyat hadisələri törədən sürücülərin az hissəsi öz cinayətkar davranışlarının zərərəli nəticələrini aradan qaldırmağa cəhd edirlər. Əgər nəqliyyat vasitəsinin sürücüsü yol hərəkəti təhlükəsizliyi qaydalarını pozub piyadanı vurursa, lakin onu tez bir zamanda xəstəxanaya çatdırırsa və bununla da baş verə biləcək ölümün qarşısını alırsa, burada tam olmasa da, ağır nəticələrin qismən qarşısının alındığı müşahidə edirik. Çünki təqsirkarın postkriminal hərəkəti onun cinayət məsuliyyətinə cəlb edilməsini istisna edə bilər. Belə halda subyektin postkriminal hərəkətinin məhsuldarlığı əməlin tövsif edilməsi üçün əhəmiyyətə malik olur. Lakin bununla bərabər onun hərəkətinin normativ təbiətini dəyişmir. Fakt (cinayətkar qəsd faktı) faktlığında qalır. Hüquq ədəbiyyatında qeyd edilir ki, məhz belə hallar sayəsində sürücülərin xeyli hissəsi elə ümid edirlər ki, onların maşınla adam vurması açılmayacaq və buna görə də zərər çəkmiş şəxsləri hadisə yerində köməksiz qoyaraq oradan qaçır və gizlənməyə üstünlük verirlər. (16, s.107-108)

Qeyd etmək maraqlı olardı ki, Almaniya Federativ Respublikasının Cinayət Məcəlləsində «yol nəqliyyat hadisəsi yerini qanunsuz qoyub getməyə» görə məsuliyyət müəyyən edən norma (Məcəllənin 142-ci paraqrafı) nəzərdə tutulmuşdur. Bu əmələ nəqliyyat cinayəti kimi baxılmadığına görə o, «İctimai cinayətkar qəsdlər» adlanan 28-ci bölməyə daxil edilməmişdir. Hərəkətin təhlükəsizliyi və nəqliyyat vasitələrinin istimarı qaydaları əleyhinə olan cinayətlər məhz 28-ci bölmədə yerləşdirilmişdir. 142-ci paraqraf isə Məcəllənin «İctimai qayda əleyhinə olan cinayətkar əməllər» 7-ci bölməsində nəzərdə tutulmuşdur. Cinayət Məcəlləsinin 142-ci paraqrafında yol nəqliyyat hadisəsinin baş veriyi yerdən qaçıb gizlənən yol nəqliyyat hadisəsi iştirakçılarının hərəkətlərinə görə cinayət məsuliyyəti nəzərdə tutulmuşdur. Paraqrafda müəyyən edilir ki, sürücü öz şəxsiyyətini, nəqliyyat vasitəsinin mənsubiyyətini və özünün yol nəqliyyat hidsəsində iştirak dərəcəsini müəyyən etməzdən əvvəl, yol nəqliyyat hadisəsi nəticəsində zərər çəkmişə şəxsi köməklik göstərməli, vaxtı və kimlərinsə hadisə yerinə gəlib çatmasını gözləməməli, mümkün olan nə varsa hamısını etməlidir.

Yuxarıda göstərilən halda hüquqla (qanunla) mühafizə olunan nemət qismində müstəsna dərəcədə yol nəqliyyat hadisəsi iştirakçılarının zərərin ödənilməsi üzrə irəli sürdükləri pritenziya ilə əlaqədar olan mülki hüquqi mənafeləri çıxış edir. Ona görə də alman hüquqşünalarının mülahizəsinə görə, bu cinayət abstrakt təhlükəliliyin əmlak deliktidir.(17, s.48).

Almaniya Federativ Respublikası Cinayət Məcəlləsinin 142-ci paraqrafında mükafatlandırıcı norma da nəzərdə tutulmuşdur. Həmin normaya uyğun olaraq yol nəqliyyat hadisəsinin iştirakçısı 24 saat ərzində könüllü olaraq hadisənin hallarının müəyyən olunmasını mümkün hesab etdiyi zaman məhkəmə Cinayət Məcəlləsinin 49-cu paraqrafının 1-ci abzasına əsasən cəzanı yüngülləşdirir və ya onun təyin olunmasından imtina edir.

Almaniya Federativ Respubikası Cinayət Məcəlləsinin 320-ci paraqrafında (müfəssəl peşimançılıq) məhkəmənin cəzanı yüngülləşdirmək və ya onun təyin olunmasından imtina etmək hüququna malikdir. Belə ki, 320-ci paraqrafa uyğun olaraq əgər ayrı-ayrı hərəkətin təhlükəsizliyi və nəqliyyat vasitələrinin istimarı qaydaları əleyhinə olan cinayətlərin törədilməsində təqsirkar olan şəxs xeyli zərərin vurulmasından əvvəl yaranmaqda olan təhlükənin qarşısını alarsa, məhkəmə onun cəzasını yüngülləşdirə və ya cəzadan azad edə bilər.

«İctimai cinayətkar əməllər» adlanan 28-ci bölmədə «müfəssəl peşimannçılıq» adlı norma ilə eyni vaxtda qanunsuz yardım haqqında norma da nəzərdə tutulmuşdur. CM-nin 323-cü maddəsində deyilir: «Köməyin zəruri olduğu halda və təhlükədə olmadan, digər mühüm vəzifələr pozulmadan bədbəxt hallarda və ya ümumi təhlükə olduqda, eləcə də fəlakət vəziyyət yarandığı zaman belə köməyi göstərməyən kəs bir ilədək müddətə azadlıqdan məhrum etmə və ya pul cəriməsi ilə cəzalandırılır».

Bir çox ölkələrdə yol nəqliyyat hadisəsi yerini qoyub getmə (məsələn, Polşa Respublikası Cinayət Məcəlləsinin 162-ci maddəsinin 1-ci paraqrafı) və ya kömək göstərməmə (məsələn, İsveçrə Cinayət Məcəlləsinin 128-ci maddəsi), yaxud həyatı üçün təhlükə olan şəxsi köməksiz vəziyyətdə qoyub getmə

(Estoniya Respublikası Cinayət Məcəlləsinin 125-ci maddəsi) və s. təhlükədə qoymağa görə cinayət məsuliyyətinə səbəb olur və həmin əməllərə ümumi qaydaya görə şəxsiyyət əleyhinə olan cinayətlər kimi baxılır.

Yol nəqliyyat hadisəsi yerindən qaçmağa görə cinayət məsuliyyətinin səmərəliliyini yüksələn yolların və vasitələrin axtarışına təhrik edən daha bir səbəb vətəndaşların konstitusiya hüquqlarının lazımi səviyyədə təmin edilməsidir. CM-nin 264-cü maddəsinin təbiətindən doğan bu amil mühüm siyasi-hüquqi əhəmiyyətə malikdir.

Məsələn, 1999-cu ildə Rusiya Federasiyasında bu ölkənin vətəndaşı Ş. yol nəqliyyat hadisəsi yerini qoyub getdiyinə görə Rusiya Federasiyası Cinayət Məcəlləsinini 264-cü maddəsinin 1-ci hissəsi və 265-ci maddəsi ilə məhkum olunmuşdur. Ş. özünün Rusiya Fedarasiyası Konstitusiya Məhkəməsinə verdiyi şikayətində Cinayət Məcəlləsinin konstitusiyalılığını irəli sürmüşdür. Onun bu arqumenti diqqəti cəlb etmişdir.

Ərizəçi təsdiq etmişdir ki, maddənin xatırladılan normasında ehtiva olunan göstəriş mahiyyəti etibarı ilə yol nəqliyyat hadisələrinin istintaqına kömək göstərməkdən imtina etməyə görə cinayət məsuliyyəti müncər edilir, bu cinayəti törətmiş sürücünün üzərinə isə saxlamaq, hüquq-mühafizə orqanlarına onun öz təqsirini təsdiq edən sübutlar təqdim etmək vəzifəsi qoyulur ki, bu da Rusiya Federasiyası Konstitusiyasının 51-ci maddəsinin 1-ci hissəsinə ziddir. Həmin maddəyə uyğun olaraq heç kəs öz-özünə qarşı şahidlik etməyə borclu deyildir. Bundan başqa, ərizəçinin fikrincə, Rusiya Federasiyası Cinayət Məcəlləsinin 264-cü maddəsində nəzərdə tutulmuş eyni hərəkətlərə və onların nəticələrinə görə cinayət məsuliyyəti müəyyən edir. Bu da eyni cinayət əməlinə görə şəxsə ikiqat cəza təyin edilməsinə gətirib çıxarır. (18, s.19)

Rusiya Federasiyasının Konstitusiya Məhkəməsi Cinayət Məcəlləsinin 265-ci maddəsinin aşağıdakı əsaslara görə Rusiya Federasiyasının Konstitusiyasına zidd olmadığını hesab etmişdir. Birincisi, yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarını pozan şəxsin Cinayət Məcəlləsinin 265-ci maddəsindən irəli gələn vəzifəsi Cinayət Məcəlləsinin 264-cü maddəsində nəzərdə tutulmuş nəticələrin meydana çıxdığı halda hadisə yerində qalmaqdan, hadisə yerinin predmetlərinə toxunmaqdan və onları qorumaqdan ibarətdir ki, bu da ona öz-özunə qarşı şahidlik etmək hüququndan istifadə etməyə mane olmur. Bu hüquq cinayət mühakimə icraatının istənilən mərhələsində təmin edilməlidir. Həmin konstitusiya hüququ belə bir halı nəzərdə tutur ki, şəxs nəinki ifadə verməkdən, təhqiqat və istintaq orqanına digər sübutları verməkdən (cinayətin törədilməsində onun təqsirliliyini) təsdiq edən sübutları imtina edə bilər.

İkincisi, mexaniki nəqliyyat vasitəsini idarə edən şəxs tərəfindən insanın sağlamlığına ehtiyatsızlıqla ağır və orta ağırlıqda zərər vurulmasına; yaxud bir və ya bir neçə zərər çəkmiş şəxsin ölümünə səbəb olan yol hərəkəti və ya nəqliyyatın istismarı qaydalarının pozulması (Cinayət Məcəlləsinin 264-cü maddəsi) Cinayət Məcəlləsinin 265-ci maddəsində nəzərdə tutulmuş halların meydana çıxdığı zaman müstəqil cinayət tərkibi yaranır və deməli, belə

əməllərdən hər birinə görə cinayət məsuliyyətinin müəyyən edilməsi Rusiya Federasiyası Konstitusiyasının hər bir kəsin eyni cinayətə görə təkrarən mühakimə olunmaması hüququna təminat verən 50-ci maddəsinin 1-ci hissəsinin pozulması demək deyildir. (19)

İstifadə olunmuş ədəbiyyat

1. Уголовное право России. Особенная часть. М., 1996.

2. Уголовное право Российской Федерации. Особенная часть. М., Оимп АСТ, 1997.

3. Уголовное право Российской Федерации. Особенная часть. М., 1999.

4. Чьецов М.А. Спорные вопросы учения о преступности. //Социалистическая законность, 1987, № 8.

5. Лившиц В.Я. К вопросу об эвантуальном умысле. //Советское государство и право, 1977, № 4.

6. Yenə orada.

7. Сомашенко И.С. Понятие право нарушения по советскому законнодательству. М., 1963.

8. Сергеева Т.Л. Вопросы виновности и вины в практике Верховного Суда ССР по уголовным делам. М.-Л., 1960.

9. Кудрявцев В.Н. Обьективная сторона преступления. М., 1960.

10. Трайнин А.Н. Общее учение о составе преступления. М., 1957.

11. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin Kommentariyası /prof. F.Y.Səməndərovun redaktəsi ilə. B., Диэеста, 2005.

12. Уголовное право. Особенная часть. М., 1997; Уголовное право. Особенная часть. М., 1998.

13. Уголовное право Российской Федерации. Особенная часть. Саратов, 1999.

14. Уголовный кодекс Республики Болгарии. Минск, 2000.

15. Бирюков Б.М. Дорожно-транспортное происшествие. //Социальные и правовые аспекты. М., 1998.

16. Звечаровский И.Э. Уголовно-правовые нормы, поощиряющие посткриминальное поведение личности. Иркутск, 1991; Алекперов Х.Д. Пресступность и компромисс. Баку, 1992.

17. Серебренникова А.В. Основные черты Уголовного кодекса ФРГ. М., 1999.

18. БВС РФ, 1999.

19. «Российская газета», 1999.

Расул АЛИЕВ

СУБЪЕКТИВНЫЕ ПРИЗНАКИ ПРЕСТУПЛЕНИЯ БЕГСТВА С МЕСТА ДОРОЖНО-ТРАНСПОРТНОГО ПРОИСШЕСТВИЯ

Резюме

Уголовно-правовой анализ широко распространенных в последние годы преступлений бегства с места дорожно-транспортного происшествия имеет большое значение для квалификации подобных деяний. В статье подробно анализируются субъективные признаки отмеченных преступных деяний и излагаются основы принятия во внимание этих признаков при квалификации.

Rasul ALIYEV

THE SUBJECTIVE SIGNS OF THE CRIMINAL OFFENCES OF ESCAPING FROM A PLACE OF THE ROAD-TRANSPORT ACCIDENT

Summary

The criminal and legal analysis of recently spreaded offences connected with escaping from a place of the road-transport accident is of great importance for characteristics of such criminal actions.

In the article the subjective signs pointed above are thoroughly analysed and taking into account these signs at characterizing such crimes is grounded.

Mürvət BABAYEV
«Azərbaycan» Universitetinin dissertantı

CİNAYƏT PROSESİNDƏ VURULMUŞ ZİYANIN REABİLİTASİYA QAYDASINDA ÖDƏNİLMƏSİ HÜQUQUNU İSTİSNA EDƏN HALLAR

Respublikamızın cinayət-prosessual qanunvericiliyində bəraət qazanma və reabilitasiya anlayışları eyniləşdirildiyinə görə reabilitasiya olunan dedikdə barəsində bəraət hökmü və ya bəraətverici əsasla cinayət işinə xitam verilmiş şəxs başa düşülür. Vurulmuş ziyanın ödənilməsi hüququ olan şəxslərə isə həm bəraət almış şəxslər, həm də cinayət törətməkdə təqsirli olsalar belə prosessual məcburiyyət tədbirlərinə qanunsuz və əsassız olaraq məruz qalmış şəxslər aid edilir.

Bu şəxslərin dairəsi Azərbaycan Respublikasının cinayət-prosessual Məcəlləsinin 56-cı maddəsilə müəyyən olunur. Həmin maddədə vurulmuş ziyanın ödənilməsi hüququ olan şəxslər nəzərdə tutulsa da, onlar reabilitasiya hüququ olan şəxslər də adlandırıla bilər. Çünki hər iki hüququn yaranması əsasları eynidir. Reabilitasiya hüququnun, o cümlədən vurulmuş ziyanın ödənilməsi hüququnun yaranması əsaslarını CPM-nin 56-cı maddəsi əsasında müəyyən etmək olar. Bu hüquq ilk növbədə bəraət hökmünün və ya bəraət-verici əsasla cinayət təqibinə xitam verilməsi haqqında qərar əsasında yaranır. Bu şəxslər təqsiri olmadan cinayət məsuliyyətinə əsassız olaraq cəlb olunmuş şəxslər hesab olunurlar. Lakin reabilitasiya hüququ olan şəxslərin dairəsi bu şəxslərlə məhdudlaşmır. CPM-nin 56-cı maddəsindən də göründüyü kimi, təqsirliliyindən asılı olmayaraq qanunsuz həbs olunmuş və ya buna əsas olmasına baxmayaraq vaxtında həbsdən azad olunmamış şəxslərin, habelə barəsində cinayət təqibinə xitam verilməli olan, lakin vaxtında xitam verilməyən şəxslərin də reabilitasiya hüququ, daha dəqiq desək vurulmuş ziyanın ödənilməsi hüququ vardır.

CPM-nin 56.0.6-cı maddəsinə əsasən, vurulmuş ziyanın ödənilməsi hüququna təkcə təqsirləndirilən və ya şübhəli şəxs deyil, prosessual məcburiyyət tədbirlərinə məruz qalmış və ya barəsində prosessual hərəkətin məcburi keçirildiyi digər şəxs (məsələn, qanunsuz tutulmaya məruz qalmış məhkum olunmuş şəxs qanunsuz axtarış aparılmış mənzilin mülkiyyətçisi və s.) də malik ola bilər.(1)

Eyni məzmunlu müddəa Rusiya Federasiyasının CPM-nin 133.3-cü maddəsində də təsbit olunmuşdur. Lakin hesab olunur ki, burada hər bir hətta cinayət təqibinə məruz qalmayan şəxslərə də vurulmuş ziyanın ödənilməsi hüququ göstərildiyinə görə belə halların reabilitasiya institutuna aidiyyəti yoxdur. Eyni zamanda bu məsələlərin daha səmərəli həlli qaydası müəyyən olunmayıb. Hesab olunur ki, bu qaydalar cavabını yalnız gələcək təcrübənin və yeni qanunvericiliyin təkmilləşdirilməsi prosesinin verməli olacağı çoxsaylı suallar doğurduğundan onların birmənalı şərhi mümkün deyil.(2)

A.A.Podopriqora da elmi ədəbiyyatlarda reabilitasiya hüququnun subyektləri tərkibinə qanunvericinin cinayət işi üzrə icraat gedişatında prosessual məcburiyyət tədbirlərinə qanunsuz məruz qalmış şəxsləri də aid etməsi barədə söylənilən fikirlərin yanlış olduğunu qeyd edir.(3)

A.A.Podopriqora nəzərə almır ki, Rusiya Federasiyasının CPM-nin «Reabilitasiya» adlanan fəslinin 133.3-cü maddəsində göstərilmiş reabilitasiya hüququnun subyektləri dairəsinə cinayət prosessual məcburiyyət tədbirlərinə qanunsuz və əsassız məruz qalmış şəxslərin də daxil edilməsi bu fikrin söylənilməsinə əsas verir.

Öz fikrini daha da konkretləşdirərək o, hesab edir ki, vurulmuş ziyanın ödənilməsi hüququna prosessual məcburiyyət tədbirlərinə qanunsuz məruz qalmış istənilən şəxs, o cümlədən təqsirsizliyi cinayət prosessual qaydada müəyyən olunmamış və tanınmamış şəxslər də malikdir.Həmin şəxslər reabilitasiya hüququnun deyil, vurulmuş ziyanın ödənilməsi hüququnun subyektləri tərkibinə daxildir.(4)

Lakin A.A.Podopriqoranın yazmış olduğu reabilitasiya institutuna həsr olunmuş dissertasiya işinin paraqraflarından biri «cinayət prosesində təhqiqat, istintaq, prokurorluq orqanlarının və məhkəmələrin qanunsuz və əsassız hərəkətləri və qərarları ilə vurulmuş ziyanın ödənilməsi hüququnun subyektləri» adlanır. Bu subyektlərin heç də hər birinin reabilitasiya hüququna aidiyyəti yoxdursa, nəyə görə müəllif reabilitasiya institutuna həsr olunmuş dissertasiya işində onlara ayrıca paraqraf həsr edir.

Mübahisə doğuran əsas məsələ reabilitasiya hüququna yalnız təqsirsiz şəxslərin malik olması və ya prosessual məcburiyyət tədbirlərinə qanunsuz və əsassız məruz qalmış şəxslərin, yaxud bütövlükdə CPM-nin 56-cı maddəsində göstərilmiş hər bir vurulmuş ziyanın ödənilməsi hüququ olan şəxslərin reabilitasiya olunan şəxs adlandırılması ilə bağlı deyil. Əsas odur ki, yaranması əsasından asılı olmayaraq vurulmuş ziyanın ödənilməsini tənzimləyən normalar eyni bir instituta daxil edilsin və bu məsələlərin daha mükəmməl və detallaşdırılmış tənzimlənməsi mexanizmi yaradılsın. Belə bir institutun reabilitasiya yoxsa başqa cür adlandırılmasının çox da ciddi fərqi yoxdur.

Hər bir halda CPM-nin 56.0.6-cı maddəsində göstərilmiş müddəa cinayət prosesini həyata keçirən orqanın səhvi və ya sui-istifadəsi nəticəsində pozulmuş hüquqların bərpası və vurulmuş ziyanın ödənilməsi ilə bağlı olduğuna görə bu birbaşa reabilitasiya institutuna aiddir. Daha dəqiq desək, bunu reabilitasiya institutunun inkişafı kimi qiymətləndirmək olar.

CPM-nin 48.4-cü maddəsinə əsasən şəxs qanunla müəyyən olunmuş müddətdən artıq həbsdə qalarsa, dəymiş mənəvi ziyana görə pul kompensasiyası almaq hüququna malikdir. Eyni zamanda həmin maddəyə əsasən kompensasiya cinayət işi üzrə çıxarılmış yekun qərardan asılı olmayaraq, mülki mühakimə icraatı qaydasında həll olunur. Bununla belə bu halda da kompensasiya almaq hüququnun yaranması əsası cinayət prosesini həyata keçirən şəxslərin səhvi və ya sui-istifadəsi ilə bağlı olduğuna görə bu məsələlərin tənzimlənməsi reabilitasiya institutuna aiddir.

Beləliklə, reabilitasiya hüququnun yaranması əsasları müxtəlif olsa da, onları ümumi şəkildə cinayət prosesini həyata keçirən orqanların səhvi və ya sui-istifadəsi nəticəsində cinayət məsuliyyətinə, o cümlədən prosessual məcburiyyət tədbirlərinə qanunsuz və əsassız məruz qalmış şəxsin hüquqlarının pozulması və ona maddi, mənəvi və ya fiziki ziyan vurulması kimi ifadə etmək olar.

Göründüyü kimi reabilitasiya hüququnun, o cümlədən vurulmuş ziyanın ödənilməsi hüququnun yaranması əsasları hər şeydən əvvəl cinayət prosesini həyata keçirən orqanın səhvi və ya sui-istifadəsi ilə bağlıdır. Bununla belə bəzən vurulmuş ziyanın ödənilməsi hüququ yaransa da qanunvericiliyə əsasən bu hüquq istisna olunur.

Məhkəmə-istintaq orqanlarının fəaliyyəti zamanı vurulmuş ziyanın ödənilməsi hüququ yalnız müvafiq hüquq yaradıcı hüquqi faktların və əsasların deyil, eyni zamanda belə bir hüququ istisna edən halların mövcudluğunu da müəyyən edir.(5)

Hüquq ədəbiyyatında bu hallar barədə müxtəlif fikirlər irəli sürülür. B.T.Bezlepkinin fikrincə, vurulmuş ziyanın ödənilməsi hüququnu istisna edən hallar dedikdə, adətən cinayət törətməkdə təqsirli olmaması sonradan məlum olan şəxsin cinayət məsuliyyətinə cəlb olunmasına, prosessual məcburiyyət tədbirlərinə məruz qalmasına, bu və ya digər məhrumiyyətlərə düçar olmasına müəyyən dərəcədə təsir göstərmiş davranışları nəzərdə tutulur.(6) Ç.Qasımov da buna yaxın bir fikir irəli sürmüşdür. Onun fikrincə, «buna mane olan hal kimi elə cinayət məsuliyyətinə qanunsuz cəlb olunmuş şəxsin davranışı, daha doğrusu, onun əsassız olaraq təqsirləndirilən şəxs və məhkum kimi tanınmasına kömək etmiş hərəkəti çıxış edə bilər».(7)

Eyni məzmunlu müddəa həmin dövrdə qüvvədə olmuş, yəni 1981-ci il tarixli «Təhqiqat ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri ilə vətəndaşlara vurulmuş ziyanın ödənilməsi qaydası haqqında» Əsasnamədə öz əksini tapmışdır. Həmin Əsasnaməyə görə, əgər vətəndaş təhqiqat, ibtidai istintaq və məhkəmə baxışı zamanı özünü təqsirləndirmə yolu ilə həqiqətin müəyyən olunmasına mane olarsa və bununla özünün qanunsuz məhkum edilməsinə, qanunsuz olaraq həbs olunmasına səbəb olarsa, vurulmuş ziyan ödənilmir. Bu Əsasnamənin tətbiqi ilə əlaqədar qəbul olunmuş Təlimatda göstərilir ki, belə bir özünü təqsirləndirmənin zor, hədə-qorxu və ya digər qanunsuz tədbirlər tətbiq olunması nəticəsində baş verməsi aşkar olunarsa, ziyanın ödənilməsindən imtina oluna bilməz.

Vurulmuş ziyanın ödənilməsi hüququnu istisna edən hallar qüvvədə olan CPM-nin 57.3-cü maddəsində də özünə yer almışdır. Həmin maddəyə görə «vurulmuş ziyanın ödənilməsi hüququ olan şəxslərin könüllü gəlməsi və ya sonradan yalan olduğu aşkar edilərək məhkəmə qarşısında özlərinin təqsirli olduqları barədə bəyanatları ilə özlərinə qarşı cinayət təqibinin başlanmasına və prosessual məcburiyyət tədbirlərinin tətbiqinə şərait yaratmaları müəyyən edildikdə ziyan ödənilmir.»

Hesab edirik ki, qeyd olunan maddənin mətnində bəzi düzəlişlərin

aparılmasına ehtiyac var. Belə ki, cümlə düzgün qurulmamışdır. Mətndəki «və ya sonradan yalan olduğu aşkar edilərək məhkəmə qarşısında özlərinin təqsirli olduqları barədə bəyanatları» ifadəsinin mənası tam anlaşılmır. Odur ki, bunun əvəzinə «və ya təqsirli olduqları barədə yalan ifadə verməklə» ifadəsi nəzərdə tutulan fikri daha düzgün ifadə edir.

Cinayət prosesini həyata keçirən orqanların səhvi və ya sui-istifadəsi nəticəsində vurulmuş ziyana görə kompensasiya almaq hüququ «İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında Konvensiyanın» 5-ci maddəsinin 5-ci maddəsində və bu Konvensiyaya dair 7 saylı Protokolun 3-cü maddəsində təsbit olunmuşdur. 7 saylı Protokolun «Məhkəmə səhvinə görə kompensasiya» adlı 3-cü maddəsində kompensasiya almaq hüququnu istisna edən hallar da göstərilir. Həmin maddəyə əsasən kompensasiya yalnız «əvvəllər məlum olmayan faktın vaxtında açılmaması onun (cəzaya məruz qalmış şəxsin) tam və ya qismən günahı üzündən baş verməyibsə» ödənilir.

Bu halda məhkəmə səhvinə yol verilməsi nəticəsində cəzaya məruz qalmış şəxsin sonradan məhkəmə hökmünün ləğv olunmasına təsir göstərən faktın vaxtında açılmamasına təsir göstərmiş istənilən «günahı» nəzərdə tutula bilər.

1981-ci il tarixli Əsasnamənin müvafiq maddəsi ilə qüvvədə olan cinayət-prosessual qanunvericiliyini müqayisə etsək görərik ki, fərq yalnız qüvvədə olan CPM-nin 57.3-cü maddəsində özünü təqsirləndirməyə qismən açıqlıq verilməsindədir. Belə ki, həmin maddəyə görə özünü təqsirləndirmə dedikdə iki hal, yəni şəxsin könüllü gəlməsi və təqsirli olması barədə yalan ifadə verməsi nəzərdə tutulur. Lakin ona görə qismən açıqlama gətirilib deyirik ki, artıq qüvvədən düşmüş Əsasnamədə göstərilmiş özünü təqsirləndirməyə haqq qazandıran hal CPM-nin 57.3-cü maddəsində öz əksini tapmamışdır. Bu qanunvericilikdə boşluq deməkdir.

Bəzi müəlliflər vurulmuş ziyanın ödənilməsi hüququnu istisna edən halları özünü təqsirləndirmə ilə məhdudlaşdırılmasının əleyhinədir. Məsələn, B.T.Bezlepkinin fikrincə vurulmuş ziyanın ödənilməsini istisna edən hal kimi qəsdən özünü təqsirləndirmə və ziyan vurulmuş şəxsin cinayət təqibinə qarşı təxribatı çıxış edir.(8)

Hesab edirik ki, təxribat kimi nəzərdə tutulan şübhəli və ya təqsirləndirilən şəxsin ifadə verməməsi, istintaq və məhkəmədən yayınması, şahidlərə və zərərçəkmiş şəxlərə təzyiq göstərməsi vurulmuş ziyanın ödənilməsini istisna edən hal kimi qəbul edilə bilməz. Hər şeydən əvvəl təqsirsizlik prezumpsiyası prinsipinə əsasən (CPM-nin 21.3 maddəsi) şəxs öz təqsirsizliyini sübuta yetirməyə borclu deyil. Belə olduğu halda şübhəli və ya təqsirləndirilən şəxsin ifadə verməməsi və ya özünü təmizə çıxarması onu cinayət prosesini həyata keçirən orqanların səhvi və ya sui-istifadəsi nəticəsində vurulmuş ziyanın ödənilməsi hüququndan məhrum edə bilməz.

Təqsirsiz şəxsin istintaq və məhkəmədən yayınmasına çox az hallarda rast gəlinə bilər. Bundan daha çox təhlükəlisi və ədalət mühakiməsi üçün ziyanlısı təqsirsiz şəxsin cinayəti törətməsini yalandan etiraf etməsidir. Ç.Qasımovun qeyd etdiyi kimi müttəhimlər kürsüsündə təsadüfən əyləşmiş

şəxsi qəsdən hüquq mühafizə orqanlarını çətinliyə salan şəxslərdən fərqləndirmək lazımdır.(9)

Özünü təqsirləndirmənin yalan olması aşkar olunarsa, həmin şəxs barəsində başlanılmış icraata ya xitam verilir, ya da məhkəmə bəraət hökmü çıxarır. Çünki belə şəxslər bilə-bilə yalan ifadə verməyə görə məsuliyyət daşımırlar. Onlar barəsində ola biləcək yeganə mənfi nəticə həbsdə qaldığı müddətdə və ya təqsirləndirilən şəxs qismində cəlb olunduğu andan vurulmuş ziyanın ödənilməsi hüququndan məhrum olunmalarıdır.

Təqsiri olmayan şəxsin könüllü şəkildə cinayət prosesini həyata keçirən orqana gəlməsi və cinayəti törətməsi barədə məlumat verməsi və ya məhkəmə qarşısında təqsirli olduğunu yalandan etiraf etməsi istintaqı çaşdırmaq, əsl təqsirkarın azadlıqda qalmasına şərait yaratmaq kimi qiymətləndirilməlidir və belə şəxslər bağışlana bilməzlər. Daha doğrusu belə şəxsləri cinayət məsuliyyətinə cəlb etmək mümkün olmasa da onlara vurulmuş ziyan ödənilməməlidir. Çünki belə şəxslərin həbs olunmasında, məhkum edilməsində və ya onların digər məhrumiyyətlərə məruz qalmalarında hüquq mühafizə orqanlarının səhvi olsa belə, buna şərait yaradan ilk növbədə onların özləridir.

Vacib bir məqam yaddan çıxmamalıdır ki, vurulmuş ziyanın ödənilməsi hüququ cinayət prosesini həyata keçirən orqanların səhvi və ya sui-istifadəsi nəticəsində yaranır. Əgər təqsirləndirilən şəxsin cinayəti törətməsi barədə yalan etirafı cinayət prosesini həyata keçirən şəxslər tərəfindən aşkar olunmazsa, bu elə onların səhvi kimi qiymətləndirilməli və əgər bunda cinayət prosesini həyata keçirən şəxslərin özləri maraqlıdırsa, bu sui-istifadə hesab olunmalıdır. Bu səbəbdən ilk növbədə özünü təqsirləndirmənin səbəbi aşkar olunmalıdır.

Şəxsin könüllü gəlməsi və təqsirini etiraf etməsi hələ onun təqsirli olması fikrinə gəlmək üçün əsas deyildir. C.Mövsümovun qeyd etdiyi kimi, belə etiraf müxtəlif səbəblərdən ola bilər. Etiraf doğru və yalan ola bilər.(10)

C.Mövsümova görə yalan etirafın səbəbləri müxtəlifdir və onları belə qruplaşdırmaq olar:

1) Əlbir olduğu şəxsləri cinayət məsuliyyətindən yayındırmaq məqsədilə.

2) İstintaq qeyri-obyektiv və qeyri-qanuni tədbirlər tətbiq etməklə aparıldıqda.

3) Marağı olan şəxslərdən mükafat almaq arzusu ilə və sair.(11)

Eyni zamanda şəxs yalan etirafa məcbur edilə bilər. Bu istintaq zorakılığı və digər maraqlı şəxslərin hədə-qorxusu yolu ilə edilə bilər. Heç şübhəsiz belə şəxsləri istintaqı qəsdən çaşdırmaq onun gedişatına mane olmaq istəyən dələduzlardan fərqləndirmək lazımdır. Burada belə bir sual yaranır. Özünü ittihamın hər bir halında vurulmuş ziyan ödənilməməlidirmi?

Ç.Qasımova görə özünü təqsirləndirmənin hər bir halında şəxsə vurulmuş ziyanın ödənilməsindən imtina olunmamalıdır. Belə ki, hüquq mühafizə orqanlarının əməkdaşları güc və hədə ilə və ya əsl cinayətkarın özü şəxsi müxtəlif yolla cinayəti törətməsini etiraf etməyə məcbur edərsə, ona vurulmuş ziyan ödənilməlidir.(12)

A.A.Podopriqora da hesab edir ki, əgər özünüittiham zor, hədəqorxu və

ya digər qanunsuz tədbirin tətbiq olunması səbəbindən baş veribsə, vurulmuş ziyanın ödənilməsini istisna etməlidir.(13)

Şəxsin özü-özünə böhtan atması bir qayda olaraq işgəncə, hədə-qorxu və zor tətbiqinin nəticəsi kimi meydana çıxır. Bunun sübuta yetirilməsi son dərəcə çətindir. Təqsiri olmayan şəxsə maddi zərərin ödənilməsinin şəxsin özü-özünə qarşı böhtan deməsindən asılı vəziyyətə salınması həmin hüququ heçə endirmək deməkdir.(14)

Təqsirləndirilən şəxsin məcbur edildiyi hallar istisna olmaqla onun yalan olduğunu bilə-bilə cinayəti törətməsini etiraf etməsi və ya digər yolla cinayət işi üzrə icraatın aparılmasına mane olması vurulmuş ziyanın ödənilməsini istisna edən hal hesab edilməlidir. Lakin nəzərə almaq lazımdır ki, təqsirləndirilən şəxsin ifadə verməməsi və ya başqa bir yolla icraatın aparılmasına kömək etməməsi bu hallara aid edilə bilməz. Əsas odur ki, təqsirləndirilən şəxs icraatın aparılmasına mane olmasın. Digər hallarda isə CPM-nin 56-cı maddəsində göstərilmiş şəxslərə vurulmuş ziyan ödənilməlidir.

Fikrimizi ümumi şəkildə Ç.Qasımovun belə bir fikri ilə tam ifadə edə bilərik: «Əgər özünü təqsirləndirmə vicdanlı yanılmanın və ya istintaq zorakılığının maraqlı şəxslərin hədə-qorxusunun, şantajın nəticəsi olarsa, dövlət vurulmuş ziyanı ödəməlidir, yaxud bunda zərərçəkmiş şəxsin günahı yoxdur».(15)

Bunları nəzərə alaraq özünü təqsirləndirmə ilə əlaqədar vurulmuş ziyanın ödənilməsini istisna edən halların əsas cəhətlərini belə xarakterizə etmək olar:

1) Hər bir özünü təqsirləndirmə vurulmuş ziyanın ödənilməsini istisna edən hal hesab oluna bilməz. İlk növbədə özünü təqsirləndirmənin səbəbi araşdırılmalıdır.

2) Yalnız heç bir məcburiyyət olmadan edilmiş yalan etiraf vurulmuş ziyanın ödənilməsini istisna edən haldır.

3) Vurulmuş ziyanın ödənilməsini istisna edən hallar CPM-nin 56-cı maddəsində göstərilmiş hər bir vurulmuş ziyanın ödənilməsi hüququ olan şəxslərə aid deyil. Burada yalnız barəsində bəraət hökmü və ya bəraətverici əsasla cinayət təqibinə xitam verilməsi haqqında qərar çıxarılmış təqsirsiz şəxsdən söhbət gedir. Bu hallar yalnız sonradan təqsirsiz olması müəyyən edilən şəxslərə aiddir. Çünki CPM-nin 56-ci maddəsində göstərilmiş digər əsasla vurulmuş ziyanın ödənilməsi hüququ olan şəxslər cinayəti törətməkdə təqsirli sayıldıqlarına görə heç bir yalan etirafdan söhbət gedə bilməz.

4) Qeyd olunan hallar reabilitasiya hüququnu tamamilə deyil, qismən istisna edir. Belə ki, bu hallarda reabilitasiya olunan şəxslərin pozulmuş hüquqları bərpa olunsa da, onlara vurulmuş ziyan ödənilmir. Eyni zamanda qeyd olunan şəxslərin təmiz adının, reputasiyasının bərpasına yönəlmiş tədbirlərin həyata keçirilməməsi də məqsədəmüvafiq olardı.

Burada əsas nəzərə alınmalı cəhət ziyan vurulmanın şəxsin davranışı ilə əlaqəli olmasıdır. Şəxs cinayət məsuliyyətinə əsassız olaraq cəlb olunmasına özü qəsdən şərait yaradır. Lakin buna məcbur edilməsi halı da istisna olunmur.

Məcburiyyət qarşısında özünü təqsirləndirmə, yəni istintaq orqanı

əməkdaşlarının zor və hədə ilə və ya digər maraqlı şəxslərin təzyiqi ilə təqsirsiz şəxsin cinayəti törətməsini etiraf etməyə məcbur edilməsini yalnız öz istəyi ilə yol verilmiş özünü təqsirləndirmədən fərqləndirmək vacibdir. Birinci halda şəxs başqalarının marağı naminə özünü təqsirləndirməyə məcbur edilir, ikinci halda isə öz arzusu ilə heç bir kənar təzyiq olmadan buna yol verir. İşgəncə verilmiş və ya ailə üzvlərinin, yaxınlarının həyatı təhlükə altına alınmış bir şəxsin cinayəti törətməsini yalandan etiraf etməsi onun düşüncəsinə görə mövcud vəziyyətdən mümkün çıxış yoludur. Əgər belə bir təzyiq hüquq mühafizə orqanları tərəfindən edilərsə, bu sui-istifadə kimi qiymətləndirilməli və cinayət Məcəlləsinin 293-cü maddəsində göstərilmiş cinayətin əlamətləri olarsa, yəni prokuror, müstəntiq və ya təhqiqatçı tərəfindən və ya onların təhriki ilə dindirmə zamanı hədələməklə, şantajla, ləyaqəti alçaltmaqla və ya sair qanunsuz hərəkətlər tətbiq etməklə şübhə edilən və təqsirləndirilən şəxs ifadə verməyə məcbur edilərsə, cinayət işi başlanılmalıdır. Belə hallarda ifadə verməyə məcbur edilmiş bir şəxsin təqsirli olduğunu məhkəmə qarşısında yalandan etiraf etməsinin vurulmuş ziyanın ödənilməsini istisna edən hal kimi qəbul edilməsi nə dərəcədə düzgündür?

Belə şəxslərin təzyiq qarşısında iradə zəifliyi göstərməsinə düzgün qiymət verilməlidir. Başqa bir halda şəxs digər maraqlı şəxslərin təzyiqi ilə cinayəti törətdiyini yalandan etiraf edərək özünə qarşı cinayət təqibinin başlanılmasına və prosessual məcburiyyət tədbirlərinə məruz qalmasına şərait yaradırsa, bu da yalnız onun iradə zəifliyi kimi qiymətləndirilə bilməz. Əslində hər bir vətəndaş hüquq mühafizə orqanlarına güvənməli və onların onun və ailəsinin təhlükəsizliyini təmin edəcəyinə inanmalıdır. Lakin əgər vətəndaşda bu inam hissi yoxdursa, yaxud hüquq mühafizə orqanları bu etibarı qazana bilməyiblərsə, həqiqəti söyləyərək yaxınlarının həyatını təhlükəyə atmamaq üçün onun düşüncəsinə görə yeganə çıxış yolu yalan etirafdır.

Sonradan belə bir özünü təqsirləndirmənin yalan olduğu aşkar edilərsə, vurulmuş ziyanın ödənilib-ödənilməməsi məsələsinin həllindən əvvəl şəxsi yalan etirafa məcbur etmiş şəxslər müəyyən edilməli və bununla bağlı bütün hallar araşdırılmalıdır.

Özü-özünə böhtan deyilməsi təhqiqat, ibtidai istintaq və prokurorluq orqanlarını şəxsin qeyri-qanuni cinayət məsuliyyətinə alınması və məhkum edilməsinə görə məsuliyyətdən azad etmir. Çünki qanun həmin orqanların üzərinə işin hallarının hərtərəfli, tam və obyektiv tədqiq edilməsi vəzifəsini qoymaqla, başqa sübutlarla təsdiq olunmayan etirafın ittihamın əsası kimi qəbul edilməsini qadağan edir.(16)

Bütün bunlar belə bir nəticəyə gəlməyə əsas verir ki, özünü təqsirləndirmə məsələsinə qanunvericilikdə daha geniş açıqlama verilməlidir. Yuxarıda qeyd olunanlardan da göründüyü kimi, könüllü gəlmə və ya təqsirli olma barədə yalan ifadə vermə hər bir halda vurulmuş ziyanın ödənilməsi hüququndan məhrum etməməlidir. Odur ki, CPM-nin 57.3-cü maddəsinin aşağıdakı mətndə verilməsi məqsədəuyğun olardı:

– barəsində bəraət hökmü və ya bəraətverici əsasla cinayət təqibinə xitam

verilməsi haqqında qərar çıxarılmış şəxslərin heç bir təzyiq olmadan könüllü gəlməklə və ya təqsirli olduqları barədə yalan ifadə verməklə özlərinə qarşı cinayət təqibinin başlanmasına və prosessual məcburiyyət tədbirlərinin tətbiqinə şərait yaratmaları müəyyən edildikdə ziyan ödənilmir.

İstifadə olunmuş ədəbiyyat

1. Azərbaycan Respublikasının cinayət-prosessual Məcəlləsinin Kommentariyası. C.Mövsümovun redaktəsi ilə. I cild, B., 2003, səh. 171.

2. Комментарий к уголовно-процессуальному кодексу РФ. Отв. Ред. И.Л.Петрухин. М., 2002, с. 202.

3. Подопригора А.А. Реабилитация в уголовном процессе России. Автореф.дис.к.ю.н.(2004) WWW.kalinovsky-k.narod.ru./b/podobri/1-1.htm/page 10 of 15

4. Yenə orada, səh 10.

5. Безлепкин Б.Т. Возмещение вреда, причиненного гражданину судебно-следственными органами. М.,1979, с. 85.

6. Yenə orada, s. 85.

7. Касумов Ч. Последствия реабилитации по советскому праву. Б.,1991, с. 109.

8. Безлепкин Б.Т. Возмещение вреда, причиненного гражданину судебно-следственными органами. с. 90-91

9. Касумов Ч. Последствия реабилитации по советскому праву. с. 120.

10. C.Mövsümov. Sovet cinayət prosesi. B., 1989, səh. 107.

11. Yenə orada. səh. 107.

12. Касумов Ч. Последствия реабилитации по советскому праву. с. 117.

13. Подопригора А.А. Реабилитация в уголовном процессе России. Автореф.дис.к.ю.н.(2004) WWW.kalinovsky-k.narod.ru./b/podobri/1-1.htm.page 11 of 15.

14. İbayev V. Azərbaycan Respublikası cinayət-prosessual Məcəlləsinin Kommentariyası. B., 2004, səh. 756.

15. Касумов Ч. Последствия рабилитации по советскому праву.с.122.

16. İbayev V. Azərbaycan Respublikası cinayət-prosessual Məcəlləsinin Kommentariyası. səh. 756.

Мурват БАБАЕВ

ОБСТОЯТЕЛЬСТВА, ИСКЛЮЧАЮЩИЕ ПРАВО НА ВОЗМЕЩЕНИЕ ВРЕДА В ПОРЯДКЕ РЕАБИЛИТАЦИИ

Резюме

В статье исследуется основания возникновения права на реабилитацию в уголовном процессе и проводится сопоставительный анализ нормативно-правовых актов в этой области. Отмечая наличие ряда противоречий, автором предлагаются конкретные пути по их устранению.

Murvat BABAYEV

EXCEPTIONAL CASES OF THE RIGHT TO PAYMENTS OF REHABILITATION FOR DAMAGE DONE

Summary

The article reaserches exceptional cases of the right to payments of rehabilitation for damage done in criminal procedure. Author gives a comparative analysis of normativ and legal acts in this field. It is mentioned that there are some contratictions and the author offers certain ways to eliminate them.

Nicat BEHBUDOV
Hüquqşunas

DÖVLƏT QULLUĞUNUN QANUNVERİCİLİK BAZASI

Azərbaycan Respublikasının Əsas Qanunu 1995-ci ilin noyabr ayının 12-də referendum yolu ilə bəzi maddələrinə dəyişikliklər edilməklə qəbul edilmişdir.. Azərbaycan Respublikası Konstitusiyasının əsas hissəsini insan və vətəndaşların əsas hüquq və azadlıqları təşkil edir. Bu Konstitusiya hər kəsin hüquq və azadlıqlarını toxunulmaz, pozulmaz və ayrılmaz hesab etməklə, hamının qanun və məhkəmə qarşısında qismən və müvəqqəti məhdudlaşdırılması hallarından başqa heç kəs məhdudlaşdıra bilməz.

Dövlət qulluqçularının məsuliyyətinin artırılmasında böyük rol oynayan insan və vətəndaşların hüquq və azadlıqlarından Əsas Qanunda geniş yer verilmişdir. Beb ki, Azərbaycan Respublikası Konstitusiyasına əsasən «Hər kəs dövlət orqanlarının, siyasi partiyaların həmkarlar ittifaqlarının və digər ictimai birliklərin, vəzifəli şəxslərin qərar və hərəkətlərindən (yaxud hərəkətsizliyindən) məhkəməyə şikayət edə bilər».(1, maddə 63)

Azərbaycan Respublikasının Konstitusiyasında təqsirsizlik prezum siyasi təsbit olunmuşdur. Ədalət mühakiməsinin şəffaf keçməsi üçün qanunu pozmaqla əldə edilmiş sübutlardan istifadə edilə bilməz. Bu, Əsas Qanunda belə təsbit olunur: «Məhkəmənin hökmü olmazsa, kimsə cinayətdə təqsirli sayıla bilməz»(1, maddə 60)

Dövlət ərazisində yaşayan şəxslərin vəziyyətinin yaxşılaşdırılması üçün hüquqi baza yaradan Azərbaycan Respublikasının Konstitusiyası fiziki və hüquqi aktların geriyə qüvvəsi olduğunu təsbit edir.

Yuxarıda qeyd olunduğu kimi, dövlət idarəetmə mexanizmini mərhələli şəkildə həyata keçirir. Parlament Konstitusiyaya uyğun qanunları qəbul edir. Prezident bu qanunların həyata keçirilməsi üçün Nazirliyə qərar və sərəncam verir və Nazirliyin icra hakimiyyəti orqanlarını yaradır.

Nazirlik Prezidentin qərar və sərəncamlarını həyata keçirmək üçün özündən aşağı şöbələrə qərar və sərəncamlar verir. Yeri gəldikdə öz qərar və sərəncamlarının Prezidentin imzasından sonra həyata keçirilməsi üçün aşağı şöbələrə göstəriş verir.

Azərbaycan Respublikası öz dövlət qulluqçularının fəaliyyətlərini hüquqi cəhətdən tənzimləmək üçün 2000-ci ildə «Dövlət qulluğu haqqında» qanun qəbul etmişdir. Bu qanun çox mühüm əhəmiyyətə malik olmaqla, dövlət qulluqçularının fəaliyyət yollarını özündə əks etdirir.

Azərbaycan Respublikasının «Dövlət qulluğu haqqında» qanunu elə bir qanundur ki, ona dövlət ilbəil dəyişikliklər etsə də dövlət onu yalnız inkişaf etdirir. Bu Qanun özunun istiqamətverici əhəmiyyətini saxlayır. Belə ki, Azərbaycan Respublikasının «Dövlət qulluğu haqqında» qanununa əsas dəyişikliklər edilməsi 2002-ci il 2 iyul tarixinə təsadüf edir. Bu dəyişikliyin əsas əhə-

miyyəti ondan ibarətdir ki, burada dövlətin real şəraiti idarəçilik sisteminin məkana uyğun qurulması əsas götürülmüşdür.

Bu sənəddə əsas dəyişikliklər qanunun 2.3. və 2.4,-cü maddələrində qanunun kimə aid edilməsi haqqında müddəalar əlavə edilmişdir. Belə ki, dövlət qulluğunma qəbulun müsabiqə əsasında həyata keçirilməsi nəzərdə tutulmuşdur.

Qanuna edilmiş əsas dəyişikliklərdən biri 10-cu maddədə öz əksini tapmışdır. Bu maddədə dövlət orqanlarının təsnifatı qəti surətdə müəyyənləşdirilmişdir. Burada dövlət qulluğu səlahiyyətlərinə görə yeddi kateqoriyaya bölünmüşdür. Səlahiyyətləri Azərbaycan Respublikası Kosntitusiyasının müəyyən maddələrinə və ya Kosntitusiya qanunlarına müvafiq müəyyənləşdirilən dövlət orqanlarının hər kateqoriya üzrə adları göstərilmişdir.

İnzibati vəzifələrin təsnifatının 14-dən 9-a endirilməsi bu qanunun 11-ci maddəsində öz əksini tapmışdır.

«Dövlət qulluğu» haqqında qanunda yardımçı vəzifələrin 6 təsnifatı müəyyən olunmuş, qanunun 12 və 13-cü maddələrində İnzibati və yardımçı vəzifələrin «Təsnifat toplusu»nun müəyyən edilməsi, hansı dövlət orqanı tərəfindən həyata keçməsi göstərilmişdir.

Azərbaycan Respublikasının «Dövlət qulluğu haqqında» qanununa növbəti dəyişikliklər nəticəsində qanunun 21.2-ci maddəsi çıxarılaraq dövlət qulluqçusu olanlara verilən imtiyazlardan sosial sığorta və məşğulluq orqanlarına ödənişlərdən azad edilməsi haqqında güzəşt aradan qaldırılmışdır.

Qanunun 22.3-cü maddəsində edilən dəyişikliklər təqaüd yaşına çatmışlara və ya əlilliyə görə könüllü işdən çıxmış və qulluq illərində minimum həddə malik olmayan dövlət qulluqçusunun qanunvericilikdə müəyyən edilməsi öz əksini tapmışdır.

Azərbaycan Respublikasının «Dövlət qulluğu haqqında» qanununun 28.1 maddəsində edilmiş dəyişikliklər isə dövlət qulluğuna vətəndaşların vasitəsilə qəbul edilməsi təsbit olunur.

Azərbaycan Respublikasının «Dövlət quluğu haqqında» qanununa edilmiş dəyişikliklərin mühüm cəhətlərindən biri də «Dövlət qulluğu» İdaretmə Şurasının səlahiyyətlərinin genişləndirilməsidir. 29.4.-cü maddənin əvvəlki formasında dövlət orqanının rəhbəri dövlət qulluğunu idarəetmə orqanının tövsiyəsi ilə razılaşmadıqda, maddənin yeni forması ilə bu səlahiyyət bilavasitə dövlət qulluğunun idarəetmə şurasına verilir. 33.3. və 33.4-cü maddələrində dövlət qulluğunu izləyən surətdə işdən çıxdıqda ona ümumi qaydada tutulmaması qaydası da göstərilmişdir. Dövlət qulluqçusu işdən çıxması haqqında ərizə verdikdən sonra dövlət orqanına rəhbərlik edən şəxsin qərarı ilə, onun üç ay müddətində dövlət qulluğunu davam etdirməsinin məcburiliyi müəyyənləşdirilir.

Dövlət qulluğu haqqında edilmiş yuxarıda göstərilən başqa dəyişikliklərin həyata keçirilməsi bu qanuna aid qəbul edilmiş digər normativ hüquqi aktlara da dəyişikliklər edilməsini zəruri etmişdir. Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 4 avqust tarixli fərmanına əsasən, bütün aktlarda «icra hakimiyyəti orqanları» sözləri «dövlət orqanları» sözləri ilə əvəz edilmişdir.

Bu fərmanın VI bölməsində «İcra hakimiyyəti orqanlarında dövlət qulluqçularına ixtisas dərəcələrinin verilməsi qaydalarının təsdiq edilməsi barədə» Prezidentin 3 sentyabr 2001-ci il tarixli fərmanı ilə təsdiq olunan qanunların 4-cü bəndində edilmiş əlavə ilə müəyyən olunur ki, dövlət qulluğunda işləyən şəxsin qulluq stajına 1991-ci il oktyabrın 18-dək dövlət, sovet və partiya orqanlarından iş müddəti də daxil edilir. Bu qaydanın 6-cı bəndinə edilmiş dəyişiklik isə qanunun 11.1-ci maddəsinə edilmiş dəyişiklikdən irəli gəlir. Burada göstərilir ki, inzibati vəzifələrdə birinci təsnifat istisna olmaqla, 2-3-cü təsnifat vəzifələrində işləyən şəxslərin müvafiq ixtisas dərəcəsi olması üçün dövlət sistemində azı 7 illik fasibsiz əmək stajı olmalıdır. 4-7-ci təsnifat vəzifələrində fasibsiz əmək stajı beş il müəyyən edilir.

Qaydaların 12-ci bəndində edilən dəyişiklikdə isə inzibati və yardımçı vəzifələrin dərəcələrinin sayı 11-dən 17-dək artır, onların müvafiq əmək haqqının məbləği şərti maliyyə vahidinin 30 mislindən başlayaraq 40 mislinədək müəyyən edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 28 yanvar tarixli fərmanı ilə təsdiq edilən «Dövlət hakimiyyəti orqanlarında dövlət qulluğunda çalışan şəxslərin vəzifə qulluq stajına görə əlavə haqqın məbləğinin müəyyənləşdirilməsi Qaydaları»nın 9-cu bəndinə edilən dəyişiklikdə qulluq stajının hesablanmasında 1991-ci ilin 18 oktyabrınadək dövlət, sovet və partiya orqanlarında iş müddətinin də daxil edilməsi öz əksini tapmışdır. Dövlət qulluqçusunun daha yüksək dərəcəli dövlət qulluğuna təyin edilərkən əvvəlki vəzifəsində qulluq stajına görə əmək haqqı verilməsini özündə təsbit edən 13-cü bənd bu qaydalardan çıxarılmışdır.

Qanunun 29.4-cü maddəsinə edilmiş dəyişikliklə əlaqədar verilən fərman, həmçinin icra hakimiyyəti orqanlarında vəzifələrin tutulması ilə bağlı, dövlət orqanının rəhbəri dövlət qulluğunu idarəetmə orqanının tövsiyyəsi ilə razılaşmada yaranmış fikir ayrılığının aradan qaldırılması qaydalarının təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının mərhum Prezidenti Heydər Əliyevin 2001-ci il 3 sentyabr tarixli fərman ilə qüvvədən düşmüş hesab edilir. Fərmanda göstərilən əsas müddəalardan biri də Azərbaycan Respublikasının Nazirlər Kabinetinə dövlət qulluqçularının aylıq əmək haqlarına müəyyən edilmiş əlavələrin 2003-cü il 1 sentyabrından tətbiq olunmasını təmin etmək barədə konkret tapşırıq verilməsidir.

«Dövlət qulluğu haqqında» Qanunda qanunla əlaqədar olan normativ hüquqi aktlara sonuncu dəyişiklik və əlavələr Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin imzaladığı 4 noyabr 2003-cü il tarixli qanunla edilmiş, Dövlət qulluğunun idarəetmə Şurası haqqında əsasnaməyə 2.1.10-cu maddə ayrılmışdır. Həmin maddədə göstərilir ki, dövlət qulluğunda vəzifə tutma ilə bağlı dövlət orqanının rəhbəri ilə dövlət qulluğunu idarəetmə orqanı qarşısında yaranmış bəzi uyğunsuzluğun aradan qaldırılması problemini də Şura müəyyən edir.

«Dövlət qulluğu haqqında» Qanunla həmçinin dövlət qulluqçularının icbari sığortası haqqında qanunda dəyişikliklər edilərkən inzibati vəzifələrin təsnifat sayı dəyişdirildiyinə görə onun 4.1.5-ci maddəsi ləğv edilmişdir.

«Dövlət qulluğu haqqında» qanun qəbul edildikdən sonra, keçən zaman ərzində yuxarıda qeyd etdiyimiz kimi, bir çox aktlar qəbul edilsə də, qahunun real surətdə işlənməsi üçün «İnzibati və yardımçı vəzifələrin təsnifat toplusu» nun təsdiq edilməsi yalnız 2003-cü ilin avqust ayında başa çatdırılmış və bu təsnifat toplusunun təsdiq edilməsi ilə dövlət qulluğunun təşkilində daha bir mərhələ başlandı. 1 sentyabr 2003-cü il tarixdən tətbiq edlən bu təsnifat toplusunun təsdiq edilməsi ilə dövlət qulluğu təşkilində daha bir mərhələbyə qədəm qoyuldu. 1 sentyabr 2003-cü il tarixdən tətbiq olunan Təsnifat toplusunun əsasən nəyə xidmət etməsi hamı üçün böyük maraq doğurduğundan onun üzərində xüsusi dayanmaq vacibdir.

Bu təsnifat toplusu 5 bölmədən ibarətdir. Bu bölmələrdə toplunun nədən ibarət olması və onun dövlət orqanlarının statistik cədvəllərinin hazırlanması və dövlət orqanlarında işləyən şəxslərin vəzifə təlimatlarının hazırlanması əsas olduğu, bu vəzifə təlimatlarının və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri tərəfindən qəbul olunduğu qanunların və məhkəmə hakimiyyəti orqanlarında Naxçıvan MR-nın müvafıq orqanlarında bu səlahiyyətlərin kimin yerinə yetirdiyi dövlət orqanlarını aparıcı və köməkçi bölmələri dedikdə nəyin, kimdə tutulduğunu özündə göstərmişdir.

Toplunun başqa bir bölməsində inzibati vəzifələrin 9 təsnifatının hər birinə respublikada mövcud olan mərkəzi və yerli icra hakimiyyəti orqanlarının dövlət qulluğu vəzifələrində çalışmaq səlahiyyətlərini əldə edən şəxslərin hansı təsnifata aid olduğu dəqiq müəyyən edilmiş, yardımçı vəzifələrin 6 təsnifatı üzrə yardımçı vəzifələrdə çalışan qulluqçuların vəzifələri konkretləşdirilmişdir.

«Təsnifat Toplusu»nun 5-ci bölməsi Keçid müddəaları adlanır. Bölmədə təsnifat Toplusu tətbiq edilənədək dövlət orqanlarında və onun bölmələrində müvafıq təsnifatlar üzrə mövcud olan baş idarə, idarə, departament və müstəqil şöbə rəislərinin - şöbə müdirinə baş mütəxəssis vəzifələrinin - baş məsləhətçi və ya böyük məsləhətçi vəzifələrinə, aparıcı mütəxssis vəziflərinin -aparıcı məsləhətçi vəzifələrinə uyğun olması zəruridir.

Azərbaycan Respublikasının «Dövlət qulluğu haqqında» Qanunu X.2 və X.3-cü maddələrində, əsasən dövlət orqanlarının bölmələri, onlara həvalə edilmiş funksiyalara görə aparıcı və köməkçi bölmələrə bölünür. Onların müvafıq kateqoriyalarını aidiyyatı qanunvericilk əsasında müəyyən olunur. X.3-cü maddəyə uyğun olaraq Azərbaycan Respublikası Prezidenti İlham Əliyev 22 oktyabr 2003-cü il tarixli fərmanı ilə İcra Hakimiyyətində, onlara həvalə edilmiş funksiyalara görə aparıcı və köməkçi bölmələrin siyahısı müəyyən edilmişdir.

Eyni zamanda burada göstərilmişdir ki, mərkəzi icra Hakimiyyəti orqanlarının mərkəzi aparatında aparıcı və köməkçi bölmələrin siyahısı Maliyyə və ya Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirlikləri ilə razılaşdırılmaqla, müvafiq mərkəzi icra hakimiyyəti orqanının rəhbəri tərəfindən təsdiq olunur.

İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusunun qüvvəyə minməsindən sonra həqiqi mənada dövlət qulluğunun təsnifləşdirilməsi və yenidən qurulması üçün respublikada səmərəli işlər görülmüşdür. Artıq mərkəzi və yerli icra hakimiyyəti orqanlarının əksəriyyətində dövlət qulluğu sistemində şəxslərin dövlət qulluğunda iş stajına görə əlavə haqqının məbləği müəyyən edilmişdir. Nazirlik və ya komitənin dövlət qulluqçularına ixtisas dərəcələri verilməsi başa çatdırılmışdır.

Bəzi mərkəzi icra orqanlarından daxil olan rəsmi müraciətlər və onların kateqoriyalaının təsnifat toplusunda daha aşağı kateqoriyaya salındığı, yaxud onların tabe təşkilatlarının bu təsnifata nə dərəcədə aid olub olmadığı, habelə 1991-ci ildən sonra ölkədə aparılmış struktur islahatları nəticəsində ləğv edilmiş və ya başqa orqanlara birbşdirilmiş idarəetmə orqanları qulluqçularının əmək stajının hansı formada nəzərə alınacağı məsələləri qaldırır (2, s.17).

Bebliklə, deyilənlərdən belə nəticəyə gəlirik ki, müstəqil Azərbaycan dövlətçiliyinin inkişafında tarixi addımlar atıldığı, hüquqi dövlət, vətəndaş cəmiyyəti yaradılması uğrunda gərgin mübarizə getdiyi hazırki dövrdə dövlət qulluğunun müasir səviyyədə təşkilinə dövlətimiz tərəfindən ciddi fikir verilir. Bu belə də olmalıdır. Çünki, müasir səviyyədə dövlət qulluğu olmasa, ölkəmizdə arzu edilən vətəndaş birliyinə, milli tərəqqiyə, doğru addımlamaq, bir sözlə, yeni Azərbaycanı yaratmaq, yaşatmaq və işıqlı gələcəyə doğru aparmaq mümkün deyildir.

İstifadə olunmuş ədəbiyyat

1. Azərbaycan Respublikasının Konstitusiyası, Qanun - 2004.
2. Süleyman İsmayılov. Azərbaycanda dövlət qulluğu və yeni əsrin tələbləri. Bakı, «Azərbaycan», 2004.
3. Əli Rzayev. Dövlət qulluğu: Nəzəriyyə və praktika. Bakı, «Elm», 2005.
4. Azərbaycan Respublikasının cinayət məcəlləsi. «Hüquq ədəbiyyatı nəşriyyatı», Bakı - 2005.

Неджад БЕХБУДОВ

ЗАКОНОДАТЕЛЬНАЯ БАЗА ГОСУДАРСТВЕННОЙ СЛУЖБЫ

Резюме

В период, когда осуществляются крупные мероприятия по строительству правового государства в независимом Азербайджане, созданию и совершенствованию гражданского общества, проводятся в жизнь продуктивные мероприятия по укреплению законодательной базы государственной службы. Проведены соответствующие изменения в Конституции страны, принят закон о «Государственной службы»,

подготовлены и приняты другие нормативно-правовые акты. Кроме того в этом направлении проведены организационные мероприятия, расширены полномочия Совета по управлению «Государственной службы».

В статье дан всесторонний анализ законодательной базы проведенных в жизнь в этой области организационно-правовых и других мероприятий.

Nijad BEHBUDOV

LEGISLATIVE BASE OF A STATE SERVICE

Summary

In the period when the great measures are undertaken on building a constitutional state in an independent Azerbaijan and perfecting civil society, the productive measures on strensthening the legislative base of state service are carried out. The corresponding changes have been made in the Constitution of the country, the law on a state service has been adopted, the other normative-juridir deeds have been adopted. In addition the organizational measures in this direction have been undertaken, the powers of the Soviet on governing of state service have been extended.

In the article the thorough analysis of legislative base of organization-legal and ather measure has been made.

ELMİ ƏSƏRLƏR

elmi-nəzəri jurnal

№ 3-4(6)

KOMPÜTER DİZAYNERİ VƏ OPERATORU:

Mehriban ƏLİYEVA

Yığılmağa verilmişdir: 10.11.2006.
Çapa imzalanmışdır: 18.12.2006.
Kağız formatı: 70x100 4/1.
Çap vərəqi: 16. Tirajı 500.

Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutunun İnformasiya və Nəşriyyat şöbəsində nəşr olunmuşdur.
Ünvan: H.Cavid pr-ti 31.
Tel.: 403-15-11, 510-28-41